**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ**
**MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ**

# *Qarabağın görkəmli ziyalıları*

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN
MATERİALLARI ƏSASINDA

**KİTAB - ALBOM**



**BAKI – 2024**

**Elmi redaktor:** **tarix elmləri doktoru Nərgiz Əliyeva**

**Tərtib edən və mətnin müəllifləri:** **Bəhman Kərimov, Elmira Əliyeva**

B.Kərimov, E.Əliyeva, **QARABAĞIN GÖRKƏMLİ ZİYALILARI** adlı kitab-albom. Bakı: Aspoliqraf, 2024, 192 s.

Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında hazırlanmış **"QARABAĞIN GÖRKƏMLİ ZİYALILARI"** adlı kitab-albomda Qarabağın görkəmli ziyalılarının muzeydə mühafizə edilən 1015 adda materialı haqqında ətraflı məlumat verilmişdir. Kitab-albom mütəxəssislər və geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

Azərbaycanın maarif və mədəniyyət beşiyi kimi tanınan Qarabağ öz ziyalıları ilə böyük şöhrət qazanmışdır. Regionun bəxş etdiyi xeyli sayda ziyalı nəsli öz ruhu, qəlbi ilə Azərbaycanın inkişafı və tanınması naminə misilsiz xidmətlər göstərmişdir.

Azərbaycan torpağı olan Qarabağ zəngin təbiəti, faydalı qazıntıları və yaşayış üçün əlverişli şəraiti ilə seçilən ən qədim insan məskənlərindən biridir. Burada yerləşən Azıx, Tağlar mağaraları və bu ərazidə formalaşan Xocalı-Gədəbəy mədəniyyətinin abidələri ən qədim insan məskənlərindən biri kimi regionun tarixini özündə yaşadır. Bu abidələrdə tapılan zəngin arxeoloji material ilkin insanın formalaşması, ibtidai icma quruluşunun inkişafı, eləcə də qədim insanların maddi və mənəvi mədəniyyətinin öyrənilməsində əsas tarixi mənbə kimi böyük əhəmiyyətə malikdir.

Ərazidə mövcud olan maddi mədəniyyət nümunələri xalqımızın böyük mədəniyyətə malik olduğunun göstəricisidir. Albaniya dövlətinin mövcud olduğu uzun bir tarixi dövr ərzində Azərbaycan xalqı zəngin dövlətçilik tarixinə əsaslanaraq öz mədəniyyətini inkişaf etdirməklə əlifbasını yaratmışdır. Daha sonra ərazidə yaranmış Sacilər, Salarilər, Səlcuqilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Azərbaycan dövlətçilik tarixində müstəsna rola malik olan Qarabağ xanlığı zamanında region daha da inkişaf edərək Cənubi Qafqazın aparıcı mərkəzlərindən birinə çevrilmişdir. Qarabağda yaşayan Cavanşir, Otuziki və Kəbirli tayfaları regionun qədim və güclü birliklərindən idi. Azərbaycan türklərinin birliyi sayəsində 1747-ci il Pənahəli xan tərəfindən Qarabağ xanlığının əsası qoyuldu.

Qısa müddət ərzində Pənahəli xanın və oğlu İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağ xanlığı regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir.

Qarabağın ədəbi-poetik mühitinin formalaşmasında misilsiz xidmətləri olan Molla Pənah Vaqifin (1717-1797) bilavasitə təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realizm formalaşıb inkişaf etmişdir.

XIX əsrin birinci yarısından başlayaraq mədəniyyətlə yanaşı, müxtəlif sahələrdə baş verən dəyişikliklər Azərbaycanda dünyəvi təhsilə marağın artmasına müsbət təsir göstərmişdir. XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər meydana çıxaraq inkişaf etməyə başladı. Və bu baxımdan Qarabağ bölgəsi təkcə Azərbaycanda deyil, Cənubi Qafqazda da ilk yerlərdən birini tutdu. Bu ənənə XIX əsrin sonlarında daha da möhkəmləndi.

Böyük bir ziyalı nəslinin yetişməsində mühüm rola malik olan Şuşada təhsilə maraq durmadan artmaqda idi. 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbi yaradılır.

Dövrünün nümunəvi təhsil ocağı sayılan Şuşa real məktəbinə maraq günü-gündən artırdı. Yeni açılan məktəblər böyük tərbiyəvi əhəmiyyət kəsb etdiyindən humanitar elmlərin tədrisinə xüsusi diqqət yetirilirdi.

Şuşa real məktəbinin müəllimi məşhur maarif xadimləri Mirzə Salah bəy Zöhrabbəyov Fransa və Rusiyada təhsil almışdır. Real məktəbinin məzunları olmuş Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdiyev, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski dövrünün ən parlaq şəxsiyyətləri kimi böyük şöhrət qazanmışlar.

Öz əzəmətini, tarixi əhəmiyyətini, qədimlik ruhunu qoruyub saxlayaraq, təhsilimizin inkişafına misilsiz töhfələr verən Şuşa real məktəbin binası təəssüf ki, 1992-ci ilə qədər öz varlığını qoruyub saxlamışdır. Həmin ilin mayında Şuşa şəhərinin işğalından sonra erməni vandalları Şuşa real məktəbini yandıraraq xarabalığa çevirmiş, həmçinin oradakı bir çox tarixi, dini abidələrimizi dağıtmışlar. Amma torpaqlar işğaldan azad olunandan sonra dövlətimizin başçısı İlham Əliyevin Şuşaya səfəri zamanı erməni vandalizminin qurbanına çevrilmiş Şuşa real məktəbinin dağılmış binası ilə tanış oldu. Və bu gün təhsilimizin müasir tarixində Şuşanın səhifəsi yenidən açılır. Qısa müddət ərzində Azərbaycan elminə və mədəniyyətinə böyük şəxsiyyətlər bəxş edən Şuşa real məktəbi təmir-bərpa işlərindən sonra fəaliyyətə başlayacaqdır.

Azərbaycan tarixini və mədəniyyətini özündə yaşadan, təbliğ və tədqiq edən Milli Azərbaycan Tarixi Muzeyi tariximizin keşməkeşli mərhələlərində yaşayıb-yaratmış Qarabağın görkəmli ziyalılarının zəngin kolleksiyasını geniş oxucu kütləsinə tam şəkildə bu kataloq vasitəsi ilə təqdim edir. Azərbaycan elminin və mədəniyyətinin inkişafında misilsiz xidmətlərə malik Qarabağın görkəmli

ziyalılarının ilkin mənbə kimi böyük əhəmiyyətə malik kolleksiyalarının toplanmasında keçən əsrin 50-cı illərindən başlayaraq muzeyin sabiq şöbə müdirləri, tarix elmləri namizədi Nərmin Tahirzadə və Zərifə Dulayevanın rəhbərlik etdiyi şöbə əməkdaşlarının xüsusi xidmətləri vardır.

Muzey kolleksiyası içərisində Azərbaycan mədəniyyətinin beşiyi adlanan Qarabağın görkəmli istedadlı ziyalıları xüsusi mövqeyə malikdir. Onların arasında musiqi nəzəriyyəçisi, rəssam, şair Mir Möhsün Nəvvab, xanəndələrdən Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, Seyid Şuşinski, Qurban Primov, Bülbül, Rəşid Behbudov, Azərbaycan xalçasını bütün dünyada məşhurlaşdıran Lətif Kərimov, dahi bəstəkar, yazıçı, Şərqdə ilk operanın banisi, böyük dramaturq, ilk liberetto müəllifi, musiqili komediya janrının yaradıcısı, qəzetçi, publisist, Azərbaycanda peşəkar musiqinin banisi, Azərbaycan himninin müəllifi Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov və b. kimi istedadlı bəstəkarlar vardır.

Azərbaycan maarifçisi və tənqidi realizmin banilərindən biri olan Qasım bəy Zakir, ədəbiyyatımızda tarixi dram janrının banisi, ilk opera rejissoru və dirijoru Ə.Haqverdiyev, ilk tarixi romanlar müəllifi, yazıçı-etnoqraf, folklorşünas, diplomat Y.V.Çəmənzəminli, yazıçı, publisist, diplomat, folklorşünas Ceyhun bəy Hacıbəyli, Azərbaycan dövlətçiliyinin ilk nəhəng ideoloqlarından biri, yazıçı-publisist alim, erməni terrorizminə qarşı döyüşən ilk Azərbaycan «Difai» təşkilatının yaradıcısı Əhməd bəy Ağayev, ilk ədəbiyyat tarixçisi, maarifçi, Qori və Qazax Müəllimlər Seminariyasının müəllimi Firudin bəy Köçərli, ilk uşaq ədəbiyyatının yaradıcılarından biri, «Laçın yuvası» dramında Azərbaycan mentalitetini bütövlüklə özündə cəmləyən ilk bəy obrazının yaradıcısı, yazıçı-pedaqoq, ilk "Qəhrəman yazıçı" adını alan ədib Süleyman Sani Axundov, görkəmli yazıçı-publisist, Şekspirin («Otello») ilk tərcüməçisi, M.F.Axundov ənənəsinin layiqli davamçısı, ədəbiyyatımızda ilk faciə janrının, milli teatrın (H.Zərdabi ilə birlikdə) banisi, ilk müəllim-aktyor Nəcəf bəy Vəzirov da Qarabağ-Şuşa ədəbi mühitində formalaşaraq milli ideyalarımızın, mədəniyyətimizin inkişafında misilsiz xidmətləri olmuşdur. Regionun tanınmış qadın maarifçilərindən Xurşidbanu Natəvan, Sürəyya və Nigar Vəlibəyova bacıları, Nüşabə Mehmandarova, Məhbubə xanım Mehmandarova-Mahmudbəyova, Mina Aslanova, Barat Şəkinskaya, Sara Vəzirova, Sürəyya Qacar və digərləri Azərbaycan maarifi və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişlər. Burada olan fotoşəkil və sənədlərdən də görünür ki, məhz bu xanımların xidmətləri sayəsində Azərbaycanın ziyalı qadın nəsli formalaşmışdır.

Təqdim olunan kataloqda əksini tapan materiallar XIX-XX əsrlərdə Azərbaycan elm və mədəniyyətində böyük xidmətləri göstərmiş görkəmli ziyalıların keşməkeşli həyat hekayələri haqqında əyani təsəvvür yaratmağa imkan verir, ölkəmizin dərin maarifçilik ənənələrinə malik olduğuna dəlalət edir və bu sahədə yeni araşdırmaların aparılmasına zəmin yaradır.

Yuxarıda verilmiş siyahını daha da uzatmaq olar. Vətən və millət qarşısında öz şərəfli missiyanı yerinə yetirən Milli Azərbaycan Tarixi Muzeyi tariximizin, mədəniyyətimizin, təhsilimizin inkişafında böyük xidmətləri olan Qarabağ ziyalılarının kolleksiyalarını elmi dövriyyəyə cəlb etməklə onları daima təbliğ edir.

Dahilər yetirən bu qədim Azərbaycan torpağı hər birimiz üçün müqəddəsdir. Bunu yüksək qiymətləndirən Heydər Əliyev demişdir: "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!". Ümummilli liderin bu vəsiyyətini Azərbaycan Respublikasının Prezidenti, Müzəffər ordumuz və onun Ali Baş Komandanı İlham Əliyev böyük qələbə ilə yerinə yetirdi, Qarabağ ərazisi erməni vandallarının işğalından azad olundu. Bu gün Azərbaycanın müqəddəs üçrəngli bayrağı Qarabağın bütün ərazisində qürurla dalğalanır.





*Dəbilqə. SBF 1457*



*Təbərzin. SBF 1453*



*Barıtqabı. XIX əsr. SBF inv. 641.*



*Dəbilqə. SBF 1457*



*Çaxmaqdaşlı tapança. XIX əsr. SBF inv. 634.*



*Çaxmaqdaşlı tapança XIX əsr. SBF inv. 636.*



Medal. Molla Pənah Vaqif – 250. KTFMF 2176.




*Şuşa şəhərinin ümumi görünüşü. XX əsrin əvvəli. SMF inv. 271/31*




*Şuşa real məktəbinin binası. SMF inv. 836*





# *Xurşidbanu Natəvan*

1832-1897

Qarabağ xanı İbrahim xanın nəvəsi Xurşidbanu Mehdiqulu qızı ilk təhsilini Şuşada evdə almışdır. Bibisi Gövhər xanım dövrünün təhsil almış qadınlardan biri olmuşdur. Onun sayəsində Xurşidbanu yazmağı, oxumağı, şəkil çəkməyi, musiqi alətlərində ifa etməyi öyrənmişdi. Ailənin yeganə övladı olduğu üçün onu sarayda "Dürrü yekta" ("Tək inci") çağırardılar. Xalq arasında isə Xan qızı adı ilə məşhur idi. 1845-ci ildə Mehdiqulu xanın vəfatından sonra onun bütün hüquqları qızı Xurşidbanuya keçmişdir.

Xan qızı Şuşada ədəbi mühiti inkişaf etdirmək məqsədilə "Məclisi-üns" ("Dostluq məclisi") yaratmış və onun bütün xərclərini öz üzərinə götürmüşdü. Onun "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batıb, cüzi hissəsi günümüzə gəlib çatıb.

Həyatdan çox gənc köçmüş 16 yaşlı oğluna həsr etdiyi qəsidələrin, həyat və əbədilik və digər mövzularda onlarla şeirin müəllifi olmuşdur.

Natəvan həm də istedadlı rəssam olmuşdur. Özündən sonra "Gül dəftəri" adlanan albomda topladığı bir sıra bədii rəsm əsərini qoruyub saxlamışdır. O, xeyriyyə işləri ilə də məşğul olmuşdur. 1873-cü ildə Şuşaya çəkdirdiyi və bu günə qədər işləyən bulaq "Xan qızı bulağı" adlanır.

Xurşidbanu Natəvan 1 oktyabr 1897-ci ildə Şuşada vəfat etmişdir.



*Xurşidbanu Natəvan övladları Mehdiqulu Xan və Xanbikə Xanımla birgə.*
*FNMF inv. 7666.*



*Quranqabı. Bafta.*
*EF inv. 3325.*



*Xurcun. Mahud. Kanva. Sətin. Bir tərəfdə miladi "1880", digər tərəfdən hicri "1303" rəqəmi var. Natəvanın əl işi.*
*EF inv. 8784.*





*Xurşidbanu Natəvanın ikinci həyat yoldaşı Seyidhüseyn Ağamir.*
*SMF inv. 3863.*



*Xurşidbanu Natəvanın nəvəsi Ağamirov Əbülfət Mircabbar oğlu.*
*SMF inv. 3864.*

1. Süzəni. Tirmə. Güləbətin. Ölçüsü: 102x163 sm. EF inv. 3324.
2. Quranqabı. Bafta. Ölçüsü: 22,5x23,5 sm. EF inv. 3325.
3. Tənbəki kisəsi. İpək. Güləbətin və ipək sapla təkəlduz tikmə. X.Natavanın əl işi. Ölçüsü: 17x19 sm. EF inv. 3327.
4. Qırxaçar cam. Mis. XVI əsr. Ölçüsü: 19 sm., EF inv. 3328.
5. Köynək. Zərxara. Bafta. Xurşidbanu Natəvanın əl işi. Ölçüsü: 35x48 sm. EF inv. 3366.
6. Başmaq. Mahud. Muncuq. Ölçüsü: 23,5 sm. EF inv. 3367.
7. Arxalıq. İpək. Ölçüsü: 49x53 sm. EF inv. 3475.
8. Tuman. Qaz-qazı. Qanovuz. X.Natavanın əl işi. Ölçüsü: 85 sm. EF inv. 3476.
9. Tuman. Qaz-qazı. Qanovuz. X.Natavanın əl işi. Ölçüsü: 85 sm. EF inv. 3477.
10. Yaxalıq. İpək. Güləbətin saplı təkəlduz tikmə. Ölçüsü: 33x44 sm. EF inv. 3478.
11. Başmaq. Dəri. Bez. Muncuq. Ölçüsü: 23,5 sm. EF inv. 3482.
12. Corab. İpək. X.Natavanın əl işi. Ölçüsü: 10x24 sm. EF inv. 3386.
13. Xurşidbanu Natəvanın ikinci həyat yoldaşı Seyidhüseyn Ağamir. Ölçü: 17,4x12,7 sm. SMF inv. 3863.
14. Xurşidbanu Natəvanın nəvəsi Ağamirov Əbülfət Mircabbar oğlu. Ölçü: 10,1x15,2 sm. SMF inv. 3864.
15. Xurşidbanu Natəvanın nəvəsi Ağamirov Əbülfət Mircabbar oğluna məxsus 326799 №-li doğum haqqında şəhadətnamə. 1900-cü il. Ölçü: 21x29,7 sm. SMF inv. 3865.
16. Heybə. Zərxara. Qanovuz. Atlas. Güləbətin və ipək sapla təkəlduz tikmə. X.Natavanın əl işi. Ölçüsü: 45x11 sm. EF inv. 6038.
17. Xurşidbanu Natəvan övladları Mehdiqulu Xan və Xanbikə Xanımla birgə. FNMF inv. 7666.
18. Xurcun. Mahud. Kanva. Sətin. Bir tərəfdə miladi "1880", digər tərəfdən hicri "1303" rəqəmi var. Natəvanın əl işi Ölçüsü: 116x53 sm. EF inv. 8784.
19. Saat qabı. Pepye-maşe. Məxmər. Ölçüsü: 10x7,5 sm. EF inv. 7315.
20. Süfrə. Mahud. Təkəlduz. Ölçüsü: 140x146 sm. EF inv. 8785.
21. Tax pərdəsi. Atlas. Pilək. X.Natavanın əl işi. Ölçüsü: 68x100 sm. EF inv. 8786.
22. Qazantutan. Kanva. Qanovuz. X.Natavanın əl işi. Ölçüsü: 17x17 sm. EF inv. 8787.
23. Nimtənə. Məxmər. Sətin. Bafta. Güləbətin. X.Natavanın əl işi. Ölçüsü: 50 sm. EF inv. 8788.
24. Kənarə hissəsi. Gülməxməri. Ərişi və arğacı: pambıq. Ölçüsü: 195x112 sm. EF inv. 9013.
25. Kənarə hissəsi. Gülməxməri. Ərişi və arğacı: pambıq. Xovu: yun. Ölçüsü: 195x112 sm. EF inv. 9014.
26. Köynək. İpək. Krujeva. Ölçüsü: 46x48x43 sm. EF inv. 9775.
27. Məfrəş. Yun. Ölçüsü: 41x52 sm. EF inv. 9778.





# *Mir Möhsüm Nəvvab*

1833-1918

XIX əsrdə yaşamış mütərəqqi ictimai xadim, tanınmış alim, şair, musiqişünas, rəssam Mir Möhsün Nəvvab Ağamirzadə ilk təhsilini ilahiyyat məktəbində almış, bir çox dilləri o cümlədən ərəb, fars, türk və rus dillərini mükəmməl şəkildə öyrənmişdir. Daha sonra Molla Abbas Sarıcalı mədrəsəsində oxumuş, riyaziyyat, astronomiya, kimya və digər elmlərə yiyələnmişdir. O, XIX əsrin 90-cı illərində çalışdığı təhsil ocağı üçün "Kəşf-ül-həqiqəti-məsnəvi", "Kifayət-ül-ətfal", "Vüzuh-ül-ərqam" və "Nəsihətnamə" adlı dörd dərsliyi nəşr etdirmişdir.

Nəvvab bütün ömrünü Şuşanın mədəni və ictimai həyatının inkişafına həsr etmişdir. Şeirlər yazmış, özünün açdığı mətbəədə kitablar nəşr etmiş, məktəblərdə dərs demiş, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş iyirmidən artıq kitab yazmış, "Məclisi-fəramuşan" adlı ədəbi, "Məclisi-xanəndə" adlı musiqi məclisləri yaratmışdır. Şairlərdən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Baqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və başqaları həmin məclislərin üzvləri idilər.

Mir Möhsünün əsərləri içərisində "Təzkireyi-Nəvvab" toplusu daha artıq maraq doğurur. Burada orta əsrlərdə Qarabağdan çıxmış 100-dən artıq şairin həyatı və yaradıcılığı haqqında məlumatlar toplanmışdır. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuşdur. O riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. O öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdir.

Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab heç şübhəsiz, öz bədii yaradıcılığı ilə vermişdi. Onun bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir neçə bina və məscidə vurduğu naxışlar da bizə yadigar qalmışdır.

Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı "Vüzuhül-ərqam" ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə olaraq burada dəstgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəstgahın adını çəkir: Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva. Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adlarını da qeyd etmişdir.

Mir Möhsüm Nəvvab 1918-ci ildə Şuşa şəhərində vəfat etmişdir.



*Dərslik. Kitabi-divani Farisi Mirmöhsün Nəvvab Qarabaği. Fars dilində şerlər məcmusu. Şuşada nəşr edilmişdir. Üzündəki litoqrafık təsvir və rəsm müəllifə aiddir. h. 1314(m. 1897) SMF inv. 518/3.*



*Mirmöhsün Nəvvab. Şəklin aşağı hissəsində farsca "Mirmöhsünün şəklinin surəti, 41 yaşında. h. 1291(m. 1874)" yazısı var. SMF inv. 518/1.*



*Dərslik. M. Nəvvab. "Kəşf-ül-həqiqəti-məsnəvi". Şuşada nəşr edilmişdir. Üzünü bəzəyən gül və quş təsvirlərini müəllif sonra litoqrafiya üsulu ilə rəngləmişdir. 60 səhifə h. 1316. (m. 1899). SMF inv. 518/2.*

1. Mirmöhsün Nəvvab. Şəklin aşağı hissəsində farsca "Mirmöhsünün şəklinin surəti, 41 yaşında. h. 1291(m. 1874)" yazısı var. SMF inv. 518/1. Ölçü: 6,5x10,5 sm. SMF inv. 518/1.
2. Dərslik. M. Nəvvab. "Kəşf-ül-həqiqəti-məsnəvi". Şuşada nəşr edilmişdir. Üzünü bəzəyən gül və quş təsvirlərini müəllif sonra litoqrafiya üsulu ilə rəngləmişdir. 60 səhifə h. 1316. (m. 1899) SMF inv. 518/2.
3. Dərslik. Kitabi-divani Farisi Mirmöhsün Nəvvab Qarabaği. Fars dilində şeirlər məcmusu. Şuşada nəşr edilmişdir. Üzündəki litoqrafik təsvir və rəsm müəllifə aiddir. 128 səhifəlik kitaba əlavə olaraq 22 səhifə qoşulmuşdur. h. 1314(m. 1897) SMF inv. 518/3.
4. Mir Möhsün Nəvvaba (1833-1918) məxsus fotoşəkil. FNMF inv. 10226
5. Zirehli geyim. XVII əsr. Dəmirdən hazırlanmış zireh köynək biçimlidir. Dirsəyə qədər qısa qollu, uzun ətəklidir. Düzbucaqlı formalı yaxalığı qalın dəri iplər keçirilmiş 9 cərgə polad halqalardan ibarətdir. Yaxalıq kəmərə qədər kəsik qarmaqlar vasitəsilə bağlanır. Yaxalığın uzunluğu 76 sm-dir. Zireh yastı halqalardan sıx toxunmuş, ucları pərçim vasitəsilə birləşdirilmişdir. Hər bir halqaya dörd ədəd halqalar keçirilib. Halqaların xarici diametri 9 mm, iç diametri 8 mm-dir. Ümumi uzunluğu 76 sm, çiyin hissədən eni 55sm-dir. Ətək eni 49 sm-dir. Qolun uzunluğu 26 sm-dir. Zireh paslıdır. Ətəyinin, qollarının və boynunun kənarlarında və çiyin hissəsində sökülmüş yerləri var. Çəkisi 5,5 kq. Uzunluğu 76 sm; eni 60sm. SBF inv. 1450.
6. Zirehli geyim. XVII əsr. Zireh uzun ətəkli köynək biçimlidir. Uzunluğu 84 sm-dir. Qısa, dirsəyə qədər qollarının uzunluğu 24 sm, eni 21 sm-dir. Dairəvi yaxalığı boyunluqsuzdur. Yaxalıq polad qarmaqla birləşdirilir. Böyük yastı halqalardan sıx toxunuşludur. Hər halqa dörd ədəd halqalara keçirilməklə toxunub, ucları pərçim vasitəsilə birləşdirilib. Halqaların xarici diametri 8,5 mm, iç diametri 7 mm-dir. Ətəyinin bir tərəfi digərinə nisbətən uzundur. Zireh paslı olub, sonradan bərpa edilib. Ətəyinin, qollarının və boynunun kənarlarında və çiyin hissəsində sökülmüş yerləri var. Bədənində sökülmə nəticəsində dəliklər yaranıb. Materialı – dəmir. Çəkisi 6,5 kq. Uzunluğu 84 sm; eni 60sm. SBF inv. 1451.
7. Zirehli geyim. XVII əsr. Poladdan hazırlanmış zireh köynək biçimlidir. Qısa qollu, dərin yaxalıqlı olub, boyunluqsuzdur. Yaxalıq polad qarmaqla birləşdirilir. Yaxalığın dərinliyi 23 sm-dir. Bədənində sökülmə nəticəsində dəliklər yaranıb. Kiçik yastı halqalardan sıx toxunuşludur. Hər halqa dörd ədəd halqalara keçirilməklə toxunub, ucları pərçim vasitəsilə birləşdirilib. Halqaların xarici diametri 8,5 mm, iç diametri 7 mm-dir. Ümumi uzunluğu 74 sm, çiyin hissədən eni 89 sm-dir. Ətək eni 49 sm-dir. Qolun uzunluğu 33sm-dir. Zireh paslıdır. Ətəyinin, qollarının və boynunun kənarlarında və çiyin hissəsində sökülmüş yerləri var. Çəkisi 6,5 kq. Hündürlüyü 74 sm; eni 89 sm. SBF inv. 1452.
8. Təbərzin. XVIII əsr. Döyüş baltası birağızlı, kiçik ölçülüdür. Balta və ağac sapdan ibarətdir. Uzunluğu 54sm olan sapı möhkəm taxtadan olub, üzəri oymalı hazırlanıb. Əl sürüşməməsi üçün kürə formalı düzəldilmiş sonluğunun diametri 3 sm-dir. Uzunsov formalı baltanın tiyə hissəsi aypara şəkillidir. Əks tərəfi çəkic şəklində, yastı quruluşludur. Üzərində döymə üsulu ilə işlənmiş nöqtəli təsvirlər var. Baltanın hər iki səthi üzərində qızılişləmə ilə nəbati ornamentlər çəkilib. Kənarları ziqzaqlardan ibarət həndəsi ornamentlər çəkilmiş ensiz haşiyə ilə əhatələnib. Baltanın ağız hissəsində dərin zərbə izləri qalıb. Uzunluğu 61 sm; eni 20sm. SBF inv. 1453.
9. Çahar-ayna lövhəsi. XVII əsr. Uzunsov dördbucaq formalı, azacıq qabarıq şəkilli lövhənin səthi qızıllama üsulu ilə mərkəzi hissəsədə islam motivli nəbati ornamentlə, kənar haşiyələri boyunca xırda gül və yarpaqlardan ibarət naxışüla bəzədilmişdir. Lövhənin bütün kənarları boru şəklində əyilmiş, mis kənarə vurulmuşdur. Yuxarı hissəsinə, sağ və solda məntəşələr pərçimlənmişdir. Məntəşələrdən birinə dəri qayış keçirilib. Lövhənin iç tərəfinə pambıqla doldurulmuş parça astar vurulmuşdur. Materialı- dəmir, mis, dəri qayış, mahud parça, pambıq, qızıllama. Hündürlüyü 26,5 sm; eni 20 sm SBF inv. 1454.
10. Çahar-ayna lövhəsi. XVII əsr. Uzunsov dördbucaq formalı, azacıq qabarıq şəkilli lövhənin səthi qızıllama üsulu ilə mərkəzi hissəsədə islimi motivli nəbati ornamentlə, kənar haşiyələri boyunca xırda gül və yarpaqlardan ibarət naxışla bəzədilmişdir. Lövhənin bütün kənarları boru şəklində əyilmiş, mis kənarə vurulmuşdur. Yuxarı hissəsinə, sağ və solda məntəşələr pərçimlənmişdir. Məntəşələrdən birinə dəri qayış keçirilib. Lövhənin iç tərəfinə pambıqla doldurulmuş parça astar vurulmuşdur. Materialı- dəmir, mis, dəri qayış, mahud parça, pambıq, qızıllama. Hündürlüyü 26,5 sm; eni 20 sm SBF inv. 1455.
11. Hər iki lövhə (SBF 1454, 1455) bir yarağın tərkib hissələridir. Lövhələrdən biri sinə-qarın, ikincisi isə belə taxılırdı.
12. Qalxan. XVII əsr. Sadə formada hazırlanan dəmir qalxan, bəzəksizdir, üzərinə sarı rəngli, qıraqları bəzəkli altı umbon bərkidilib. Kənarı halqa ilə bitir. Diametr 36 sm. SBF inv. 1456.
13. Dəbilqə. XVI-XVII əsrlər. "Külah-xud" dəbilqə növünə aid, kürə-konusvari formalıdır. Dəbilqənin kürəvari hissəsi dörd pərçimlə pərçimlənən konusvari hissəyə keçir. Onun daxilində yiv var. Şiş təpəliyi yoxdur. Konusvari hissəsinə yaxın yerdə lələk üçün dekorativ kiçik boru, önündə aşağı hissəsinə tutacaq və vida taxılıb. Dəbilqənin aşağı çevrəsi boyunca tor asılması üçün kiçik dəliklər açılıb. Dəbilqənin bütün səthi qızılı işləməli nəbati naxışlarla bəzədilib. SBF inv. 1457.
14. Dəbilqə. XVII əsr. Dəbilqə «külah-xud» növünə aiddir. Dəbilqə klassik şərq kürə-konusvari müdafiə xarakterli baş geyimi nümunəsidir, bir metal lövhədən döymə üsulu ilə düzəldilib. Dəmir yüksək keyfiyyətlidir, yüksək peşəkarlıqla düzəldilmişdir. Dəbilqənin kürəvari əsas hissəsi qalıb, lakin konusvari hissə və ucluq yoxdur (onların yalnız pərçim yerləri qalıb). Dəbilqənin qabaq hissəsinə dekorativ iki ədəd kiçik boru pərçimlənib, adətən qabaq aşağı hissəsinə vurulan tutacaq və şurup yoxdur (pərçim yerləri qalıb). Dəbilqənin alt kənarı boyunca kiçik ölçülü dəliklər qoyulub. Dəbilqənin bütün səthi qızılı nəbati ornamentlə bəzədilib. SBF inv. 1458.



# İbrahim bəy Mehmandarov

1849-1934

İbrahim bəy Sadıq bəy oğlu Mehmandarov Lənkəran şəhərində anadan olmuşdur. İlk təsilini Lənkaran ibtidai məktəbində daha sonra Bakı real məktəbində təhsil almış, 1879-cu ildə Peterburqda tibb-cərrahiyyə akademiyasını bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Bakıya köçərək Bayıl xəstəxanasının baş həkimi işləmişdir. O, daha sonra isə Bakı Sosial Sığorta Komitəsində səyyar həkim kimi çalışmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Lənkərana qayıdan İbrahim bəy Mehmandarov ömrünün sonuna qədər orada həkimlik etmişdir.  O, 1934-cü ildə Lənkəran şəhərində vəfat etmişdir.

1. Fotoşəkil. Bakı gimnaziyasının VII sinif şagirdləri. Ortada ağ çuxada İbrahim bəy Mehmandarov (1849-1934). Bakı, 1873-cü il. SMF inv 562/2.
2. Fotoşəkil. Həkim İbrahim Mehmandarov. Yanında naməlum qız uşağı oturub. Yekaterinoslav (indiki Dnepr şəhəri) şəhərində çəkilmişdir. SMF inv. 529/9.
3. Fotoşəkil. Sağda İbrahim Mehmandarov əyləşib. Yanında oturan cavan kişi qucağında uşağ, arxada yeniyetmə qız və oğlan dayanır. Bakı. SMF inv. 529/15.





***Bakı gimnaziyasının VII sinif şagirdləri. Ortada ağ çuxada İbrahim bəy Mehmandarov (1849-1934). Bakı, 1873-cü il. SMF inv 562/2.***



***Sağda İbrahim Mehmandarov əyləşib. Yanında oturan cavan kişi qucağında qız uşağı, arxada yeniyetmə qız və oğlan dayanır. Bakı. SMF inv. 529/15.***



***Həkim İbrahim Mehmandarov. Yanında naməlum qız uşağı oturub. Yekaterinoslav (indiki Dnepr) şəhərində çəkilmişdir. SMF inv. 529/9.***



# Kərim bəy Mehmandarov

1854-1929

Kərim (Əbdülkərim) bəy Mirzə Mustafa bəy oğlu Mehmandarov ilk təhsilini atası Mustafa bəydən almışdır. Sonra Şuşa qəza məktəbinin əlaçı şagirdi kimi Bakı real məktəbində təhsil almşdır. 1872-ci ildə Bakı şəhər gimnaziyasını bitirdikdən sonra Sankt-Peterburq Tibb Cərrahlıq Akademiyasına daxil olmuşdur. 1877-ci ildə akademiyanı bitirdikdən sonra Peterburq hərbi klinik xəstəxanasında həkim işləmişdir. Bu zaman Rusiya-Türkiyə müharibəsi ilə əlaqədar Dunayda döyüşən ordunun sanitariya dəstələrinin birində çalışmağa başlayır. Onun bu xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilərək 1878-ci ildə üçüncü dərəcəli "Müqəddəs Anna" ordeni və birinci dərəcəli medalla, bir qədər sonra isə III Aleksandrın xatirə gümüş medalı ilə mükafatlandırılmışdır.

K.Mehmandarov 1879-cu ildə özünün elmi-praktiki işinin təkmilləşdirilməsi üçün Baş Hərbi İdarə tərəfindən bir illiyə Peterburq klinik hospitalına göndərilir. O, 1880-ci ildə bacarıqlı bir həkim kimi, Rusiya Qırmızı Xaç Cəmiyyətinin sanitariya dəstəsinin tərkibində Poltava quberniyasına göndərilir. Burada difteriya epidemiyasına qarşı mübarizədə fəal iştirak etdiyi üçün ikinci dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülür.

1873-cü ildə Azərbaycana qayıdan K.Mehmandarov Yelizavetpol quberniyasının Cavanşir qəzasında həkim kimi çalışmağa başlayır. Daha sonra Şuşa şəhərində fəaliyyətini davam etdirir. Şəhərdə çalışarkən ictimai işlərdə də fəal iştirak etmişdir. "Difai" partiyasının üzvü olan K.Mehmandarov partiyanın Şuşadakı "Qarabağın birlik məclisi" adlanan şöbəsinin sədri olmuşdur. K.Mehmandarov Əhməd bəy Ağaoğlu ilə birlikdə Şuşada xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb, qiraətxana açır. O, həm də Şuşa Xeyriyyə Cəmiyyətinin sədri kimi bir çox xeyirxah işləri həyata keçirir. 1911-ci ildə onun təşəbbüsü ilə Şuşada qız məktəbi açılır.

K.Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti dövründə də səhiyyənin inkişafı, əhaliyə tibbi yardımın təşkili sahəsində böyük işlər görmüşdür.

Kərim bəy öncə Aleksandra Mixaylovna Dolqanova ilə ailə həyatı qurmuşdu. Bu izdivacdan Mixail adlı oğlu olmuşdu. İkinci dəfə Bəhmən Mirzə Qovanlı-Qacarın qızı Zəri xanımla evlənmişdi. İkinci nikahdan Ədil bəy, Rəşid bəy, Surxay bəy adlı oğulları, Turan xanım, Kübra xanım, Nüşabə xanım və Məhbubə xanım adlı dörd qızları olmuşdur. O, 1929-cu ildə vəfat etmişdir.





*K.Mehmandarov Peterburq tibbi-cərrahiyyə akademiyasının bir qrup tələbələri arasında (soldan ayaqüstə Mehmandarovdur). XIX əsrin 70-ci illəri. SMF inv. 1040.*



*Kərim Mehmandarov uşaqları ilə birlikdə. Şuşa. 1901-ci il. SMF inv. 271/9.*



***Şuşa şəhərinin tanınmış nəsilləri - Mehmandarovlar, Rüstəmbəyovlar, Abbasovlar, Vəlibəyovlar, Vəzirovların xanımları. Şuşa, 1925-ci il. SMF inv. 271/47.***

1. Sankt-Peterburq Tibbi Cərrahiyyə Akademiyasının tələbələri. Arasında Kərim Mehmandarov da var. SMF inv. 1039.
2. Sankt-Peterburq Tibbi Cərrahiyyə Akademiyasının tələbələri. Solda ayaqüstə Kərim Mehmandarov dayanır. SMF inv. 1040
3. Məktubdan çıxarışlar. K.Mehmandarovun oğlu Tibb Elmlər Akademiyasının həqiqi üzvü prof. M.D.Tuşinskinin bacısı M.K.Mahmudbəyovaya yazdığı məktublar. SMF inv. 1041.
4. K.Mehmandarov Şuşada öz ailəsi ilə birlikdə. Ölçü: 18x24 sm. SMF inv. 1042.
5. Şuşada dincələn bir qrup ziyalı. Ortada K.Mehmandarov oturmuşdur. 1910-cu il. Ölçü: 18x24 sm. SMF inv. 1044.
6. Mehmandarovun atasının fotoşəkli. Ölçü: 13x18 sm. SMF inv. 1045.
7. Həkim Mehmandarovun fotoşəkli. XIX əsrin sonu. Ölçü: 18x13 sm. SMF inv. 1047.
8. K.Mehmandarovun və məhkəmə müstəntiqinin şəkilləri. 1910-cu il. Ölçü: 18x13 sm. SMF inv.1049.
9. K.Mehmandarov və oğlu M.D.Tuşinskinin fotoşəkli. Ölçü: 18x13 sm. SMF inv.1048.
10. Həkim Mehmandarovun fotoşəkli. 1926-cı il. Ölçü: 18x13 sm. SMF inv.1050.





# *Nəcəf bəy Vəzirov*

## 1854-1926

Dramaturq, publisist, teatr xadimi Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov ilk təhsilini Şuşada, orta təhsilini Bakıda almışdır. 1878-ci ildə Moskvada Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir.

N.Vəzirov Azərbaycan professional teatrının yaradıcılarından biri kimi ilk dəfə 1873-cü ildə Həsən bəy Zərdabi ilə birlikdə M.F.Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarını tamaşaya qoymuşdu.

İlk dram əsərləri 1875-ci ildən "Əkinçi" qəzetində çap olunmağa başlamışdır. Dram əsərlərində yaşadığı dövrdə Azərbaycan mülkədarlarının, kəndlilərin, ziyalıların, burjuaziyanın, işbazların və fırıldaqçıların real həyatdakı iç üzünü açaraq tənqid etmişdir. "Əti sənin, sümüyü mənim", "Nə əkərsən, onu biçərsən", "Gəmi lövbərsiz olmaz", "Daldan atılan daş topuğa dəyər" kimi əsərlərində o dövrdə uşaqların ailədə tərbiyə prinsiplərini və münasibətlərini kəskin tənqid atəşinə tutmuşdur. "Yağışdan çıxdıq, yağmura düşdük" əsərində Hacı Qənbərin simasında var-dövlət ehtirası, insani münasibətlərin saxtalaşdırılması, ikiüzlülük tənqid olunur. İlk Azərbaycan faciəsi olan "Müsibəti Fəxrəddin" əsərində Avropada təhsil almış liberal bəy oğlunun buradakı feodal qaydalarla razılaşmadığını göstərmiş, onlara qarşı etiraz səsini qaldıran gəncin obrazını yaratmışdır. N.Vəzirov əsərlərində çar üsul-idarəsinin Azərbaycanda apardığı siyasətə qarşı narazılığını bildirir. Onun dram əsərləri Zaqafqaziyada, Volqaboyunda, Şimali Qafqazda, İranda, Türkiyədə böyük uğurla səhnəyə qoyulmuşdur.

Əxlaq və ailə-məişət mətləbləri, ənənəvi nadanlıq və ona qarşı mübarizə mövzusu, Şərqdə və Rusiyada milli-ictimai hərəkat, beynəlmiləlçi və xalqlar dostluğu ideyası, qadın azadlığı məsələsi Nəcəf bəy Vəzirovun yazdığı məqalələrin əsas mövzusunu təşkil edirdi.

Nəcəf bəy Vəzirov 9 iyul 1926-cı ildə vəfat etmişdir.



***Qoqolun "Meşədə yolka ağacı" əsərinin tamaşası. 30 dekabr 1913-cü il. Fotoşəklin arxasında "Qoqol adına 11 №-li məktəbin şagirdləri adından çox hörmətli Nəcəf bəy Vəzirova" sözləri yazılıb. Məktəbin rəhbəri D.Mixaylidis. 20 yanvar 1914-cü il. SMF inv. 57/6.***



***Qoqolun "Meşədə yolka ağacı" əsərinin tamaşası. 30 dekabr 1913-cü il. Fotoşəkilin arxasında "Qoqol adına 11 №-li məktəbin şagirdləri adından çox hörmətli Nəcəf bəy Vəzirova" sözləri yazılıb. Məktəbin rəhbəri D.Mixaylidis. 20 yanvar 1914-cü il. SMF inv. 57/6.***

1. Qoqolun "Meşədə yolka ağacı" əsərinin tamaşasının iştirakçıları. 30 dekabr 1913-cü il. Fotoşəklin arxasında "Qoqol adına 11 №-li məktəbin şagirdləri adından çox hörmətli Nəcəf bəy Vəzirova" sözləri yazılıb. Məktəbin rəhbəri D.Mixaylidis. 20 yanvar 1914-cü il. Ölçüsü: 25x32.4sm. SMF inv. 57/6.
2. Nəcəf bəy Vəzirov Bakı məktəbinin bir qrup müəllimləri ilə birlikdə (oturan halda 1-ci cərgədə soldan sağa 2-ci). SMF inv. 57/7.
3. Maral dərisindən metal bağlamalı pulqabı. HXƏF inv. 5255.
4. Tula zavodunda hazırlanmış dəstəyinin yanında "Имер.Т.О. "Завод" sözləri yazılmış qılınc. HXƏF inv. 5509.
5. Əsası qara rəngli dəridəndir, üzərinə sarı rəngli nəbati və zoomorf naxışlı metal lövhə (2 ədəd) bərkidilmiş qobur. Qapağın üstündəki metal lövhədə əlində qılınc tutmuş şir, günəş və nəbati naxışlar həkk olunmuşdur. Arxa hissədə belə bağlamaq üçün toqqa, qayış və ilmə var. HXƏF inv. 5510.
6. Su qaynatmaq üçün qab. Samovar tiplidir. Ağ metaldan, üzəri nikelli, silindr formalı, ağzı qapaqlı, aşağısında su tökmək üçün lüləyi var. HXƏF inv. 5511.
7. Oturacaq, odluq və dəstəkdən ibarət qəhvədan. Ağ metal üzərinə nikel çəkilib. Dəstəyi ağacdandır. HXƏF inv. 5512.
8. Dənli bitkiləri ölçmək üçün alət. Taxta qutu içərisində qapaqlı metal korpus və tərəzidən ibarətdir. Qutunun qapağında ölçü cədvəli var. HXƏF inv. 5513.
9. Avropa geyimli, əlində qılınc tutmuş, o biri əlini yuxarı qaldırmış (tələbə) kişi təsvir olunan bürüncdən tökmə üsulu ilə hazırlanmış heykəl. HXƏF inv. 5514.
10. Nəcəf bəy Vəzirova məxsus fotoşəkli. FNMF inv. 7794.





# Səfərəli bəy Vəlibəyov

1856-1902

XIX əsr Azərbaycan pedaqogika tarixinin görkəmli simalarından biri, görkəmli maarif xadimi, pedaqoq Səfərəli bəy Şıxhəsən bəy oğlu Vəlibəyov ilk təhsilini Şuşada molla yanında almışdır. O, daha sonra 1875-1879-cu illərdə Şuşa şəhər məktəbində təhsil almış, məktəbi bitirdikdən sonra elə həmin ildə Qori Müəllimlər Seminariyasının nəzdində yenicə açılmış Azərbaycan bölməsinin 2-ci sinfinə qəbul olunmuşdur.

Səfərəli bəy 1881-ci ildə Seminariyanı bitirdikdən sonra 18 il elə həmin təhsil ocağında çalışmışdır. O, 1883-cü ilin yay tətili zamanı Şuşada istirahətdə olarkən burada heç bir məvacib almadan məktəb açmışdır. Məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird təhsil almışdır.

S.Vəlibəyov 1896-cı ildə Bakıya köçmüş, burada iki il müəllimlik etmişdir. Daha sonra isə Bakı gömrükxanasında tərcüməçi vəzifəsində çalışmışdır.

Bəhram Mirzə Qacar Qovanlının qızı Xurşud xanım ilə ailə qurmuş Səfərəli bəy Nigar xanım və Sürəyya xanım adlı kimi iki qızı olmuşdur.

S.Vəlibəyov 1895-ci il yanvarın 1-də yüksək səviyyəli pedaqoji xidmətinə görə III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunmuşdur.

Zaqafqaziya Seminariyasını məzunu S.Vəlibəyov "Vətən dili" dərsliyinin birinci hissəsini ilk dəfə 1882-ci ildə , Aleksey Osipoviç Çernyayevski həmmüəllifliyi ilə ərsəyə gətirdiyi ikinci hissəsini isə 1888-ci ildə Tiflisdə nəşr etdirmişdir.

O, 1902-ci il avqustun 31-də ürək xəstəliyindən vəfat etmişdir.





***Səfərəli Vəlibəyov həyat yoldaşı Xurşid xanımla. 1898-ci il. SMF inv. 271/8.***

***Qacarlar nəslindən olan Xurşid xanım Vəlibəyova. 1898-ci il. SMF inv. 271/7.***

1. Fotoşəkil. Maarifçi və müəllim Səfərəli bəy Vəlibəyov. 1898-ci il. Ölçüsü:24x 30 sm. SMF inv. 271/6.
2. Fotoşəkil. Xurşid xanım Vəlibəyova. 1898. Ölçü: 24x30 sm, SMF inv. 271/7.
3. Fotoşəkil. Səfərəli bəy və Xurşid xanım. 1898. Ölçü: 8x11 sm, SMF inv. 271/8.
4. Səfərəli bəy Vəlibəyova məxsus qələm. Gümüşdəndir, üzərində ərəb əlifbası ilə "Səfərəli" və "1893" yazılmışdır. XF inv. 255.





# *Səməd bəy Mehmandarov*

1856-1931

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, artilleriya generalı Səməd bəy Sadıx bəy oğlu Mehmandarov ibtidai təhsilini Bakı real məktəbində almış, 1873-cü ildə Sankt-Peterburqdakı 2-ci Konstantinovski Hərbi Məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Birinci Türküstan Artilleriya Briqadasında xidmətə başlamışdır. Daha sonra 2-ci və 38-ci artilleriya briqadalarında, 1894-cü ildə Varşava Hərbi Dairəsində xidmət etmişdir. 1898-ci ildə Trans-Baykal diviziyasında xidmətə başlayan S.Mehmandarov 1900-1901-ci illərdə Çində baş vermiş qiyamın yatırılmasında iştirak etmişdir.

S.Mehmandarov 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, 7-ci Şərqi Sibir artilleriya divizionunun komandiri, eyni zamanda, Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi olmuşdur. Müharibədə göstərdiyi şücaətlərinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmiş və general-mayor rütbəsinə layiq görülmüşdür. S.Mehmandarov Birinci dünya müharibəsinin də iştirakçısı olmuş, əvvəlcə birinci piyada diviziyasına, sonra isə 2-ci Qafqaz ordusuna komandanlıq etmiş, həmin vəzifələrdə də ona tapşırılan ən məsuliyyətli tapşırıqları uğurla yerinə yetirmişdir. Hərbi akademiya təhsilinin olmamasına baxmayaraq, o, 1915-ci il martın 22-də general rütbəsinə layiq görülmüşdür. Fevral inqilabından (1917) sonra rus ordusunun bolşevikləşməsi və ordu daxilində anarxiyanın artması ilə əlaqədar Mehmandarov istefa verərək 1918-ci ilin payızında vətənə qayıtmışdır.

1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Hərbi Nazirliyi bərpa etmək haqında qərara uyğun olaraq Cümhuriyyət ordusunda xidmətə çağırılan S.Mehmandarov dekabrın 25-də hərbi nazir təyin edilmişdir. Qısa müddət ərzində S.Mehmandarov ordu quruculuğunun milli zəmin üzərində təkmilləşdirilməsinin mühüm xidmətlər göstərmişdir. Məhz onun təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə Praporşiklər məktəbi, sonra isə Hərbiyyə məktəbi açılmışdı. Eyni zamanda, İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Şuşa hərbi-feldşer məktəbi fəaliyyət göstərmişdir. 1920-ci il martın sonlarında Qarabağa erməni təcavüzünün qətiyyətlə dəf olunması və Cümhuriyyətin ərazi bütövlüyünün təmin edilməsində Mehmandarovun hərbi nazir kimi fəaliyyətinin böyük rolu olmuşdur.

Aprel işğalı (1920) ilə əlaqədar Mehmandarov vəzifəsindən istefa vermişdir. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələr onu Gəncə üsyanının təşkilində günahkar bilərək, 1920-ci il iyunun 4-də general Əlağa Şıxlinski ilə birlikdə həbs etmişlər. Nəriman Nərimanovun səyi nəticəsində S.Mehmandarov bolşevik terrorundan xilas olmuş və Ə. Şıxlinski ilə bərabər bir il Moskvada yaşamaq məcburiyyətində qalmışdır. S.Mehmandarov 1921-ci ilin yayında Bakıya qayıdaraq, Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında işə düzəlmiş, 1924-1928-ci illərdə Birləşmiş Komandirlər məktəbində müəllim işləmiş, 1929-cu ildə təqaüdə çıxmışdır.

Səməd bəy Mehmandarov 1931-ci il fevralın 12-də vəfat etmişdir.

1. Fotoşəkil. General-mayor S.Mehmandarov. 1905-ci il. Ölçü: 11,5x17,5 sm. SMF inv. 628/1.
2. Fotoşəkil. General-mayor S.Mehmandarov. 1918-ci il. Ölçü: 11,5x16 sm. SMF inv. 628/2.
3. Fotoşəkil. Səməd bəy Mehmandarov (1856-1931). FNMF inv. 9522
4. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səmədağa Mehmandarova məxsus nimçə. Çinidəndir. Yerliyi ağ olub, kənarında mavı, boz və sarı rəngli nəbati naxışlar vardır. Arxa tərəfində pozuq şəkildə Rusiya imperiyasının gerbi və "М.С.Кузнецова.ДФ107" yazısı var. HXƏF inv. 5108.



*Bəhram bəy Axundov*

1872-1932



***Lill Akademiyasını bitirmiş Bəhram Axundov məzun libasında (mantiyada). 1901-ci il. SMF inv. 125/6.***



Milli Azərbaycan Tarixi Muzeyində qorunan, 1881-ci il sentyabrın 3-də Şuşa qəzasının qazisi Mirzə Həsən Tahirov (5 sentyabr 1885-1893-cü illərdə Qafqaz Ruhani İdarəsinin IV Şeyxülislamı) tərəfindən verilmiş, 410 nömrəli "Şəhadətnamə"yə görə Bəhram bəy Mirzə Cəfər bəy oğlu Axundov 1872-ci il fevralın 6-da Mirzə Cəfər bəylə Güllü xanım Qasım bəy qızının ailəsində anadan olmuşdur (SMF, inv. 125/1).

Şuşa real məktəbin məzunu Bəhram bəy Axundova 1896-ci il 13 noyabr tarixində verilmiş şəhadətnaməyə əsasən o, 1893-cü ildə Fransanın Lill Akademiyasında fənn elmləri fakültəsinə (fizika, kimya, təbiiyyət) daxil olmuş və 1896-cı ildə ali məktəbi bitirmişdir (SMF inv. 125/3).

B.b.Axundov 1896-cı ildə ali məktəbi bitirdikdən sonra, elə həmin ildə akademiyanın tibb və farmasiya fakültəsinə daxil olmuşdur. 1901-ci il oktyabrın 2-də verilmiş 729 №-li diploma əsasən Bəhram bəy "tibb doktoru" ixtisasını almışdır (SMF inv. 125/5). Akademiyanı bitirdikdən sonra o, Lill şəhərində yerləşən Pastor İnstitutunda işə başlayır. Bəhram bəy bir il işlədikdən sonra Həkimlər və Təbiətçilər Cəmiyyətinin üzvü kimi Rusiyaya gəlir. 1902-ci ildə Təbrizə gedən Bəhman bəy vəliəhd Məhəmmədəli Mirzənin sarayında həkim kimi çalışmağa başlayır. Müzəffərəddin şah Bəhram bəyin fəaliyyətini yüksək qiymətləndirərək onu III dərəcəli "Şirü Xurşud" ordeni ilə təltif edir. Bəhram bəy, 1903-cü ilin sonunda İrandan qayıtdıqdan sonra, 1904-cü ildə diplomunun təsdiqi məqsədilə Xarkov şəhərinə gedir. Muzeydə saxlanılan 8826 nömrəli diplomuna əsasən, Bəhram bəy 1904-cü il mayın 22-də Xarkov Universitetində təşkil olunmuş tibb üzrə imtahan komissiyasında yenidən imtahan verərək Rusiya diplomu almışdır (SMF inv. 125/7).

1904-cü ilin sonlarında B.b.Axundov Fransaya gedərək, orada tanış olduğu Selestina xanımın ata-anasının xeyir-duasını alaraq onu Bakıya gətirir. Öz xoşu ilə müsəlmanlığı qəbul edən Mariya Selestina Burje "Səltənət Axundova" olaraq 1905-ci ildə Bəhram bəylə ailə qurur. Onların bu nikahdan Əli (Alber) (1906-1962) və Törə (Tamara) (1908-1941) adlı iki övladları olmuşdu. 1924-cü il aprelin 17-də notariat qaydasında təsdiqlənmiş bir sənəddə Əli bəyin 1906-cı il iyunun 19-da doğulduğu qeyd edilmişdir (SMF inv. 125/14.).

Tibb doktoru Bəhram bəy Axundov ilk əvvəl Bakıda fəaliyyət göstərən rus-türk məktəblərində həkim kimi fəaliyyətə başlayır.

XX əsrin əvvəllərində Bakının ictimai həyatında yaxından iştirak edən Bəhram bəy "Nicat", "Səfa" cəmiyyətlərinin də ən fəal üzvlərindən olmuş və "Səadət" cəmiyyətinin həkimi kimi fəaliyyət göstərmişdir. Bununla yanaşı, 1906-cı ildə Bakıda 7 sinifli "İttihad" kişi gimnaziyasında həkim kimi çalışmışdır (SMF inv. 343/3).

I Dünya müharibəsi dövründə B.Axundov Bakıda müxtəlif cəmiyyətlər tərəfindən yaradılan lazaretdə həkim kimi fəaliyyət göstərmişdir. O, yüzlərlə insanın həyatını xilas etmiş, yaralı əsgərlərin sağlamlıqlarına qovuşmasına yardım etmişdir.

1917-ci ilin əvvəllərində Bakı Müsəlman İctimai Təşkilat Komitəsinə, həmin ilin sonlarında isə Bakı Şəhər Dumasına üzv seçilmişdir. 1917-ci il sentyabrın 5-də Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə mühüm bir təşkilata çevrilmiş Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin (Müsəlman Komitəsi) iclasında seçilmiş 32 üzvdən biri də həkim Bəhram bəy Axundov olmuşdur.

Bakıda tibb müəssisələrində insanların müalicəsi ilə məşğul olan Bəhram bəy 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanının (Parlamentinin) deputatı, bitərəflər fraksiyasının üzvü olub. 1919-cu ildə Azərbaycan Hökuməti ona xaricə təhsil almağa gedən tələbələrin sağlamlığına nəzarət etməyi tapşırmışdır

Bəhram bəy Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Şurasında və Dövlət Sığorta İdarəsində həkim kimi fəaliyyət göstərmişdir (SMF inv. 125/9).

Aprel işğalından sonra B.Axundov N.Nərimanovun təklifi ilə Azərbaycan SSR Xalq Komissarları Şurasının 13 iyun 1921-ci il tarixli iclasında xaricdə təhsil alan azərbaycanlı tələbələrin işləri üzrə müvəkkil təyin edilir. Muzeyin fondunda Bəhram bəyin 1922-ci ildə İstanbulda azərbaycanlı tələbələrlə görüşünü əks etdirən fotoşəkil qorunur. (SMF inv. 125/10).

Sovet Azərbaycanında da bir çox vəzifələrdə çalışan B.Axundovun əməyi qismən də olsa dəyərləndirilmişdir. 1923-cü il mayın 16-na aid bir sənədə əsasən Azərbaycan Xalq Komisarları Şurasının nəzdində doktor vəzifəsində çalışmışdır (SMF inv. 125/11).

Digər bir sənəddə Dövlət Sığortası İdarəsinin 10 aprel 1924-cu ilin 1965 nömrəli məktubunda "təşkilatın baş idarəsi Bəhram Axundovu həyatını sığortalamaq istəyənlərin müayinəsini keçirməkdə etibarlı həkim qismində təsdiqləmiş və ona "Dövlət Sığortası Baş İdarəsinin həyatın sığortalanması üzrə etibarlı həkimlər üçün təlimatı"nı göndərmişdir (SMF inv. 125/13). Azərbaycan Dövlət Sığortası İdarəsinin bu sənədi onun həyatın fərdi sığortası üzrə etibarlı həkim olduğunu təsdiqləmişdir (SMF inv. 125/15). Ömrünün böyük hissəsini xalqının sağlamlığına həsr edən Bəhram bəy Axundov 1932-ci ildə vəfat etmişdir.



*Şuşa real məktəbinin şagirdləri. Sağdan sola Bəhram Axundov, Behbud xan Cavanşır, Surxay xan Cavanşır. 1889-cu il. SMF inv. 125/2.*



RÉPUBLIQUE FRANÇAISE

FACULTÉ DES SCIENCES DE LILLE

CERTIFICAT D'ETUDES PHYSIQUES, CHIMIQUES & NATURELLES

*Fransanın Lill Akademiyası elmlər fakültəsinin fizika, kimya və təbiyyat elmlərini öyrənən Bəhram bəy Axundova verilmiş şəhadətnamə 13 noyabr 1896. SMF inv. 125/3.*



ДИПЛОМЪ.

*Lill Akademiyasının tibb doktoru Bəhram bəy Axundovun diplomunun təsdiqi haqqında İmperator Xarkov Universiteti sınaq komissiyasının 8826 saylı diplomu. 22 may 1904. SMF inv.125/7.*



1. Şuşa qəzasının axundu Mirzə Həsən Tahirovun Bəhram bəy Mirzə Cəfər bəy oğlu Axundovun təvəllüdünə dair verdiyi 410 №-li doğum haqqında şəhadətnaməsi. Azərbaycan (ərəb qrafikası ilə) və rus dillərində. 3 sentyabr 1881. SMF, inv. 125/1.
2. Şuşa real məktəbinin şagirdləri. Sağdan sola Bəhram Axundov, Behbud xan Cavanşır, Surxay xan Cavanşır. 1889-cu il. SMF inv. 125/2.
3. Fransanın Lill Akademiyası elmlər fakültəsinin fizika, kimya və təbiyyat elmlərini öyrənən Bəhram bəy Axundova verdiyi şəhadətnamə 13 noyabr 1896. SMF inv. 125/3.
4. Lill Akademiyasının birləşmiş təbabət və əczaçılıq fakültəsini bitirən Bəhram bəy Axundova tibb elmləri doktoru dərəcəsinin verilməsi haqqında 72 saylı diplom. Arxasında fransız dilində ikisətirlik əl yazısı var. 6 avqust 1901. SMF inv. 125/5.
5. Lill Akademiyasını bitirmiş Bəhram Axundov məzun libasında (mantiyada). 1901-ci il. SMF inv. 125/6.
1. Lill Akademiyasının tibb doktoru Bəhram bəy Axundovun diplomunun təsdiqi haqqında İmperator Xarkov Universiteti sınaq komissiyasının 8826 №-li diplomu. 22 may 1904. SMF inv.125/7.
2. Fotoşəkil.Bəhram bəy Axundov Almaniyanın Baden əyalətində açıq havada oturacaqda əyləşmişdir. 15 iyul 1905. SMF inv.125/8.
3. AİŞC(Azərb. SSR) Xarici İşlər Nazirliyi həmkarlar ittifaqı komitəsinin Həkim B.Axundovdan nazirliyin Qrişina soyadlı əməkdaşını müayinə etmək xahişi ilə 533 saylı məktubu. 29 may 1921. SMF inv.125/9.
4. Fotoşəkil. Bəhram bəy Axundov və Əli bəy Hüseynzadə ilə Türkiyə və Avropada təhsil alan azərbaycanlı tələbələrlə birlikdə. Soldan sağa: Məhəmməd Ağaoğlu, Məhəmmədzəki Dursunzadə, Bəhram bəy Axundov (tələbələr üzrə hökumət müvəkkili), Məhəmməd bəy Xələfbəyov (Mahmudov), Əli bəy Hüseynzadə, Əşrəf Əliyev, Səməndər Axundzadə. İstanbul 1922-ci il. SMF inv. 125/10.
5. AİŞC XKŞ nəzdində doktor vəzifəsində çalışan Bəhram Axundzadənin aprel ayı üçün 30 manat məbləğində əmək haqqı alması haqqında 2513 №-li şəhadətnamə. 16 may 1923. SMF inv. 125/11.
6. Fotoşəkil. Bəhram Axundov iş otağında. 1923-cü il. SMF inv. 125/12.
7. Azərbaycan Dövlət Sığortası İdarəsinin Bəhram Axundovu həyatını sığortalamaq istəyənlərin müayinəsini keçirməkdə etibarlı həkim qismində təsdiqlənməsi haqqında arayış. 10 aprel 1924. SMF inv. 125/13.
8. Qanuni nikah bağlamış Bəhram bəy Axundov və Səltənət xanımın (qızlıqda Mariya Selestiya Burje) övladı olan Əli bəyin (digər adı Albert) 1906-cı il iyunun 19-da doğulduğunu təsdiq edən H.Ağazadə və H.Quliyevin şahidlik ərizəsinin surəti. 1924-cü il aprelin 17-də notariat qaydasında təsdiqlənmişdir. 1924-cü il. SMF inv. 125/14.
9. Azərbaycan Dövlət Sığortası İdarəsinin həkimi olması haqqında Bəhram Axundova verilmiş 4163 inv. nömrəli vəsiqə. 1 avqust 1925-ci il. SMF inv. 125/15.
10. Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən İranın siyasi mühacirlərinə tibbi yardım göstərmək məqsədilə Bəhram bəy Axundova verilmiş 3953 inv. nömrəli vəsiqə. 2 avqust 1925-ci il. SMF inv. 125/16.
11. Bəhram bəy Axundova Azərbaycan SSR Xalq Komissarları Sovetinin həkimi olması haqqında verilmiş şəhadətnamə. SMF inv. 125/17.
12. Fotoşəkil. Bəhram bəy Axundov Borjomidə istirahətdə olarkən. İyul-avqust 1926-cı il. Ölçü: 9x14 sm. SMF inv. 125/18.
13. Fotoşəkil.Bəhram bəy Axundov. Ölçü: 4x5,5 sm. SMF inv. 125/19.
14. Fotoşəkil.Bəhram bəy Axundov. 1930-cu il. Ölçü: 4x4,5 sm. SMF inv. 125/22.
15. Bakıda fəaliyyətə başlayan "İttihad" məktəbinin açılışında iştirak edən müəllim və şagirdlər. Mərkəzdə H.Z.Tağıyev, onun arxasında solda B.Axundov dayanmışdır. 1906-cı il. Ölçüsü: 32x42sm. SMF  inv. 343/3.



# Cabbar Qaryağdıoğlu

## 1861-1944

Xanəndə, Azərbaycanın xalq artisti Cabbar İsmayıl oğlu Qaryağdıoğlu orta musiqi təhsilini Şuşada almışdır. 1887-ci ildə Ə.Haqverdiyevin Füzulinin poeması əsasında hazırladığı "Məcnun Leylinin qəbri üstündə" səhnəsində C. Qaryağdıoğlu Məcnun rolunu ifa etmişdir. XIX əsrin 90-cı illərində Bakı, Gəncə, Ağdaş və Şamaxıda qastrollarda olmuşdur. 1905-ci ildə tarda Qurban Pirimov, kamançada S. Oqanezaşvili olmaqla üçlük yaradır. Üçlüyün repertuarına Azərbaycanın xalq mahnıları, "Kürd-Şahnaz", "Mahur", "Bayatı-Qacar", "Heyratı" və başqa musiqi və təsniflər daxil idi. Onlar Cənubi Qafqaz, Mərkəzi Asiya, İran və İraqa qastrollara gedirdilər. C.Qaryağdıoğlu təkcə Azərbaycan dilində deyil fars, özbək, türkmən, gürcü və ərəb dillərində də gözəl oxumuşdur. Üçlüyün ifaları Varşavada, Kiyevdə və Moskvada qrammofon vallarına yazılmışdır. Moskvada C. Qaryağdıoğlu ilə tanış olan F. Şalyapin və S. Yesenin onun ifa ustalığını yüksək qiymətləndirirlər. S.Yesenin C. Qaryağdıoğlunu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdı. Cabbarın geniş diapazonlu gözəl, güclü tembrli səsi var idi. Musiqi ictimaiyyəti onun səsini italyan müğənnisi Enriko Karuzo ilə müqayisə edirdi. C. Qaryağdıoğlu Azərbaycan Konservatoriyasının yaradıcılarından biri olmuşdur. O, burada klassik xalq musiqisindən dərs demişdir. Konservatoriyanın nəzdində Azərbaycan xalq musiqisini öyrənən Bülbülün rəhbərlik etdiyi elmi- tədqiqat kabinetində onun ifasında 300-ə qədər xalq mahnısı lentə alınmışdır ki, bunların da 50-ni bəstəkar S.Rüstəmov nota almışdı. C.Qaryağdıoğlu Azərbaycan Filarmoniyasının və Azərbaycan radiosunun solisti idi. Şair kimi otuzdan artıq qəzəl və dübeyti yazmışdır. "Şahsənəm" operasının yazılmasında R. Qliyerə kömək etmişdir. Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Niyazi öz musiqi əsərlərini yaradarkən C.Qaryağdıoğlu ilə məsləhətləşərdilər. C. Qaryağdıoğlunun Azərbaycan musiqisindəki yüksək xidmətləri dövlət tərəfindən dəyərləndirilmiş, bir sıra orden və medallarla təltif olunmuşdur. Cabbar Qaryağdıoğlu 1944-cü il aprelin 20-də Bakıda vəfat etmişdir.

1. Fotoşəkil. Cabbar Qaryağdıoğlu. 1915-ci il. SMF inv. 156/1
2. Portsiqar. Melxior. Üstündə fəhlə, kəndli, hərbçi və əllərində bayraq tutmuş SSRİ-nin müxtəlif xalqları nümayəndələrinin bir qrupu, arxa fonda isə buğda, dərzi və SSRİ-nin dövlət gerbi, zavodlar və yarpaqlar çələngi içərisində "СССР" yazısı vardır. Portsiqarın arxa tərəfində "Джабару Карягдиеву в ден 75-летнего юбилея от Д.Талышинская, 19,31/III 35г", ondan aşağıda isə "Февзи от Д.Карягды. 8.II.40 г" yazılmışdır. HXƏF inv. 2142.
3. Fotoşəkil. Cabbar Qaryağdıoğlu. XX əsrin əvvəli. SMF inv. 13029.





***Əbdüləli Vəlibəyov. Fotovinyetkanın bir hissəsi. 1911-ci il. SMF inv. 271/17.***

# Əbdüləli bəy Vəlibəyov

## 1862-?

Əbdüləli bəy Qasım bəy oğlu Vəlibəyov (1862-?) ilk təhsilini Şuşada mollaxanada almış, daha sonra rus-türk məktəbində oxumuşdur. O, məktəbi bitirdikdən sonra Qori müəllimlər seminariyasında təhsilini davam etdirmiş, seminariyanı bitirdikdə bir müddət Stavropol şəhər məktəbində rus dili müəllimi işləmiş, daha sonra Qarğabazar kənd məktəbində müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. Ə.Vəlibəyov 1917-ci ildə Bakıdakı 8-ci rus-türk məktəbinin müdiri, 1920-ci ildə XMK-nın yarımməktəb bölməsinin təlimatçısı, 1921-ci ildə Bakı 1-ci dərəcəli 39-cu sovet məktəbinin müdiri vəzifələrində çalışmışdır.



# Firudin bəy Köçərli

1863-1920

Maarif xadimi, publisist-yazıçı, ədəbiyyatşünas alim, tənqidçi, tərcüməçi Firudin bəy Əhməd ağa oğlu Köçərli ilk təhsilini 1870-1872-ci illərdə Şuşada mollaxanada, 1872-1875-ci illərdə Mirzə Kərim Münşizadənin məhəllə məktəbində almış, daha sonra 1876-1879-cu illərdə təhsilini 2-ci dərəcəli şəhər məktəbində davam etdirmişdir. Elə həmin ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinə daxil olmuş, 1885-ci ildə isə bitirmişdir. O, 1885- 1896-ci illərdə İrəvan gimnaziyasında, 1896-1917-ci illərdə Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsində müəllim işləmişdir. 1917-ci ilin fevral inqilabından sonra seminariya tələbələrinin tələbinə əsasən, Xüsusi Zaqafqaziya Komitəsi sədrinin həmin il 17 avqust tarixli əmri ilə Azərbaycan şöbəsinin inspektoru təyin olunmuşdur. 1918-ci ildə Cənubi Qafqazda baş verən siyasi hadisələr zamanı Köçərli, azərbaycanlıların arzusunu həyata keçirərək, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazax şəhərinə köçürmüş, onu müstəqil milli seminariyaya çevirmiş və ilk direktoru olmuşdur.

F.Köçərli 1917-ci ildə siyasi proseslərə qoşulmuş, "Müsavat" partiyasına daxil olmuşdur. O, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının Tiflisdə keçirilən iclasında Azərbaycanın dövlət müstəqilliyi haqqında İstiqlal bəyannaməsi qəbul edilərkən F.Köçərli müstəqilliyin lehinə səs verən 24 Milli Şura üzvündən biri olmuşdur. O, seminariyadakı fəaliyyətinə üstünlük verərək, parlamentdə iştirak etməmişdir.

1920-ci ilin mayında kommunistlər F.Köçərlini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə" ittiham edirlər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən həbs olunmuşdur.

F.Köçərli 1920-ci ilin mayında sovet hökumətinə qarşı Gəncədə baş verən üsyan zamanı həbs edilmişdir. Erməni Sarkis Danilyanın diktəsi ilə haqqında verilən saxta hökmə əsasən Firudin bəy Köçərli iyunun 4-də 58 yaşında Gəncədə güllələnmişdir.

1. Firidun bəy Köçərli (1863-1920). FNMF inv. 8048.





# Əhməd bəy Ağaoğlu

1869-1939

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Mirzə Həsən oğlu Ağayev (Ağaoğlu) ilk təhsilini Şuşa şəhər məktəbində və Tiflis gimnaziyasında almışdır. Məktəbi bitirdikdən sonra ilk olaraq Peterburq Mühəndis-Texniki İnstitutuna daxil olmuşdur. Lakin o, 1888-ci ildə təhsilini yarımçıq qoyaraq Parisə getmiş əvvəlcə hüquq məktəbini, daha sonra isə Sarbonna Universitetini tam kursunu bitirmişdir.

Əhməd bəy Fransada təhsilini başa vurduqdan sonra 1894-cü ildə Azərbaycana qayıdır. 1896-cı ildə doğma Şuşaya gələn Əhməd bəy real məktəbdə fransız dili müəllimi kimi fəaliyyətə başlayır. O, 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya köçərək real məktəbdə müəllim kimi fəaliyyət göstərməklə yanaşı, 1907-ci ilə qədər "Kaspi" qəzetində çalışmışdır. Əhməd bəy 1905-1909-cu illərdə Bakıda nəşr olunan "Həyat", "İrşad", "Proqress", "Tərəqqi" qəzetlərində redaktor olmuşdur.

Ə.Ağayev 1906-cı ilin əvvəlində Azərbaycan ərazisində ermənilərin dinc müsəlman əhaliyə qarşı törətdikləri qırğınlarından qorunmaq məqsədilə "Difai" təşkilatını yaradır. Təşkilatın Azərbaycanın digər şəhərlərində olduğu kimi K.Mehmandarovun rəhbərliyi ilə Şuşada bölməsi fəaliyyət göstərmişdir. Təşkilat ermənilərin Qarabağda törətdiyi qırğınların qarşısını almaq məqsədilə xüsusi xidmətlər göstərmişdir.

Rusiya imperiyasında baş verən təqiblər səbəbindən Türkiyəyə mühacirət edən Əhməd bəy burada "Gənc türklər" hərəkatına qoşularaq "İttihad və tərəqqi" partiyasına daxil olur. O, 1918-ci ildə Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri kimi Azərbaycana döndükdən sonra parlamentə üzv seçilir. Ə.Ağaoğlu Paris Sülh Konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibində 1919-cu ildə İstanbulda olarkən ingilislər tərəfindən tutulub Malta adasına sürgün olunur. 1921-ci ildə sürgündən İstanbula qayıdan Əhməd bəy Türkiyə Qurtuluş Savaşında fəal iştirak etmiş, Mustafa Kamal Atatürkün yaxın məsləhətçisi olmuşdur. O, Qars bölgəsindən iki dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmiş, Ankara Universitetinin professoru və "Hakimiyyəti-milliyə" qəzetinin redaktoru vəzifələrində çalışmışdır. Əhməd bəy Ağaoğlu 1939-cu il mayın 19-da İstanbulda vəfat etmişdir.



*Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadim arasında (ikinci sırada soldan ikinci). FNMF inv. 19906*



*Əhməd bəy Ağayev bir qrup azərbaycanlı ziyalılarla birlikdə (ikinci sıra solda 3-cü). SMF inv. 4041.*




***Kitab. Ağaoğlu Ahmet. Serbest insanlar ülkesinde. – İstanbul: Sanayii Nefise Matbası, 1930. - 128 s. MATM Kitabxanası, K-F.C. 20.***




***Kitab. Ağaoğlu Ahmet. Gönülsüz olmaz (ikinci basış). – İstanbul: Güven Basımevi, 1943. - Ağaoğlu Külliyatı: 4. - 48 s. MATM Kitabxanası, K-F.C. 19.***




***Kitab. Ağaoğlu Ahmet. Üç Medeniyet. – İstanbul: Türk Ocakları Hars Heyeti Neşriyatı. Türk Ocakları Merkez Heyeti Matbaası, 1928. - 158 s. MATM Kitabxanası, K-F.C. 129.***

1. Fotoşəkil. Bir qrup Azərbaycanlı ziyalı. İkinci sıra solda 3-cü Əhməd bəy Ağayev. SMF inv. 4041.
2. Fotoşəkil. Əhməd bəy Ağayev (Ağaoğlu) Azərbaycan və Türkiyə ictimai xadimi, siyasətçi, jurnalist, pedaqoq, yazıçı FNMF inv. 19892
3. Kitab. Ağaoğlu Ahmet. Serbest insanlar ülkesinde. – İstanbul: Sanayii Nefise Matbası, 1930. - 128 s. MATM Kitabxanası, K-F.C. 20.
4. Kitab. Ağaoğlu Ahmet. Üç Medeniyet. – İstanbul: Türk Ocakları Hars Heyeti Neşriyatı. Türk Ocakları Merkez Heyeti Matbaası, 1928. - 158 s. MATM Kitabxanası, K-F.C. 129.
5. Kitab. Ağaoğlu Ahmet. Gönülsüz olmaz (ikinci basın). – İstanbul: Güven Basımevi, 1943. - Ağaoğlu Külliyatı: 4. - 48 s. MATM Kitabxanası, K-F.C. 19.
6. Fotoşəkil. Əhməd bəy Ağayev (Ağaoğlu). FNMF inv.19576.
7. Fotoşəkil. Əhməd bəy Ağayev (Ağaoğlu). FNMF inv. 19892.
8. Fotoşəkil. Əhməd bəy Ağayev (Ağaoğlu ). FNMF inv. 19893.
9. Fotoşəkil. Fotoşəkil. Əhməd bəy Ağayev (Ağaoğlu) həyat yoldaşı Sitarə xanım ilə birlikdə. FNMF inv. 19894.
10. Fotoşəkil. III çağırış Türkiyə Böyük Millət Məclisinin deputatı Əhməd bəy Ağayevə (Ağaoğluya) verilmiş üzvlük vəsiqəsi. FNMF inv. 19895.
11. Fotoşəkil. Əhməd bəy Ağaoğlu. Malta adasında sürgündə. FNMF inv. 19896.
12. Fotoşəkil. Əhməd bəy Ağaoğlu. Malta adasında sürgündə. FNMF inv. 19897.
13. Fotoşəkil. Əhməd bəy Ağaoğlu. Malta adasında sürgündə. FNMF inv. 19898.
14. Fotoşəkil. Əhməd bəy Ağaoğlu. Malta adasında sürgündə. FNMF inv. 19899.
15. Fotoşəkil. Əhməd bəy Ağaoğlu. Malta adasında sürgündə. FNMF inv. 19900.
16. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə. FNMF inv. 19902
17. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə (ikinci sırada soldan üçüncü). FNMF inv. 19903.
18. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə (birinci sırada sağdan üçüncü). FNMF inv. 19904.
19. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə (soldan birinci). FNMF inv. 19905.
20. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadim arasında (ikinci sırada soldan ikinci). FNMF inv. 19906
21. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə. FNMF inv. 19907.
22. Fotoşəkil. Əhməd bəy Ağaoğlu bir qrup ictimai xadimlə birlikdə. FNMF inv. 19909.





# Əbdürrəhim bəy Haqverdiyev

*1870-1933*

Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan, 1927-ci ildə keçirilən 35 illik yubileyi münasibəti ilə yazılmış tərcümeyi halına əsasən məşhur türk yazıçısı, dramaturq, ədəbiyyatşünas, ictimai xadim, əməkdar incəsənət xadimi Əbdürrəhim Əsəd bəy oğlu Haqverdiyev 1870-ci ilin may ayında Şuşada doğulmuşdur. Hələ uşaq ikən atasını itirdikdən sonra, ibtidai təhsilini əvvəlcə əmisindən, sonra atalığından, daha sonra isə orta təhsilini Şuşa və Tiflis real məktəbində almışdır (1881–1891-ci illərdə). Orta təhsili bitirdikdən sonra Haqverdiyev 1891-ci ildə Peterburqa gedərək Dağ və Mədən institutuna daxil olmuş, 1899-cu ildə oranı bitirmişdir. O, tələbəlik illərində azad müdavim adı ilə Peterburq Universitetinin şərq fakültəsinin dinləyicisi olmuşdur.

Ə.Haqverdiyev 1899-cu ildə Vətənə qayıdaraq Bakıda müəllimlik etmişdir. O, 1905-ci ildə Yelizavetpol quberniyası tərəfindən I Dövlət Dumasına üzv seçilmişdir. I Dövlət Duma buraxıldıqdan sonra Ə.Haqverdiyev Bakıya qayıtmış və yazıçılıq ilə məşğul olmuşdur.

Ə. Haqverdiyev özünün ilk əsəri olan “Yeyərsən qaz ətini, görərsən ləzzətini” və birinci dramı olan “Dağılan tifaq”ı hələ 1892-ci ildə Peterburqda olduğu zaman yazmışdır. “Dağılan tifaq” əsərində o, dövrün haqsızlıqları, rəzaləti, sələmçilərin orta təbəqənin var-dövlətini ələ keçirməsi və digər problemləri əks etdirmişdir. “Bəxtsiz cavan” əsərində kəndlilərin ağır əməyi, təhsil alıb kəndə gələn bəyin öz təbəqələrini müdafiə etməsi öz əksini tapır. “Pəri cadu” əsərində əyalət həyatı bütün çılpaqlığı ilə canlanır, qadınların hüquqsuzluğu, hakim sinfinin haqsızlıqları tənqid olunur. Əsər uzun müddət səhnədən düşməmişdir. “Marallarım”, “Xortdanın cəhənnəm məktubları”, “Şeyx Şaban”, “Diş ağrısı”, “Mirzə Səfər” kimi əsərlərində avamlığı, cəhaləti, ikiüzlülüyü, yaltaqlığı kəskin satira atəşinə tutmuşdur.

Bununla yanaşı Ə.Haqverdiyev “Ağa Məhəmməd şah Qacar”, “Millət dostları”, “Mirzə Fətəli Axundov”, “Ac həriflər”, “Kimdir müqəssir” və s. xırda komediyalarını yazmışdır.

Əbdürrəhim bəy 1908-ci il yanvarın 12-də tamaşaya qoyulan “Leyli və Məcnun” operası zamanı ilk azərbaycanlı dirijor kimi tamaşanın xor və orkestrini idarə etmişdir. “Nicat” cəmiyyətində və Kür-Xəzər gəmiçiliyi idarəsində işlədiyi dövrdə Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etmiş, “Ceyranəli”, “Xortdan”, “Həkimi-nuni-səqir”, “Lağlağı”, “Mozalan”, “Süpürgəsaqqal” və digər imzalarla “Molla Nəsrəddin” jurnalında hekayə və felyetonlar çap etdirmişdir.

O, 1917-ci il fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun Mərkəzi Şurasına üzv seçilmişdir. Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur. Gürcüstan dövlət müstəqilliyini elan etdikdən sonra Borçalıdan parlamentin üzvü seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dağlı Respublikasında, daha sonra isə Ermənistanda Azərbaycan hökumətinin diplomatik nümayəndəsi olmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibəti ilə keçirilən yubileyə təşkilatçılıq etmişdir. Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində türk ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında iştirak etmişdir. Burada yerli komitənin sədri (1922), Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925) olmuşdur. Əbdürrəhim bəy Haqverdiyev 1933-cü il dekabrın 12-də Bakıda vəfat etmişdir.



*Əbdürrəhim bəy Haqverdiyev.*
*FNMF inv. 10137*



*1926-cı ildə Bakıda keçirilən türkoloji qurultayın nümayəndələri: İştirakçılar arasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri A.Şaiq, Ə.Haqverdiyev, H.Cavid, Ə.Cavad və b. var. SMF inv. 2887.*









***Azərbaycanın görkəmli yazıçı və dramaturqu Əbdürrəhim Haqverdiyevin ədəbi və ictimai fəaliyyətinin 35 illiyi münasibətilə Tbilisinin Rustaveli adına teatrında keçirilmiş yubiley tədbirləri ilə əlaqədar dərc olunan tərcümeyi-halı. Sənədin arxa hissəsində Ə.Haqverdiyevin fotoşəkili əks olunmuşdur. SMF 556/1.***

1. Azərbaycanın görkəmli yazıçı və dramaturqu Əbdürrəhim Haqverdiyevin ədəbi və ictimai fəaliyyətinin 35 illiyi münasibətilə Tbilisinin Rustaveli adına teatrında keçirilmiş yubiley tədbirləri ilə əlaqədar dərc olunan tərcümeyi-halı. Sənədin arxa tərəfində Ə.Haqverdiyevin fotoşəkili əks olunmuşdur. SMF 556/1.
2. Fotoşəkil. Əbdürrəhim bəy Haqverdiyev. FNMF inv. 10137.
3. Fotoşəkil. Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin sədri Ə.Haqverdiyev. Ölçü: 8,8x11,8 sm. SMF inv. 1421.
4. Fotoşəkil. 1926-cı ildə Bakıda keçirilən türkoloji qurultayın nümayəndələri: İştirakçılar arasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri A.Şaiq, Ə.Haqverdiyev, H.Cavid, Ə.Cavad və b. var. SMF inv. 2887.



# Rəsul bəy Tahirov

1871-?

Rəsul bəy Qəhrəman bəy oğlu Tahirov ilk təhsilini Qapanlı kənd mollaxanasında almış, daha sonra təhsilini Şuşa real məktəbində davam etdirmişdir. O, 1889-cu ildə Qori Müəllimlər seminariyasını bitirdikdən sonra Ləmbəran kəndində pedaqoji fəaliyyətə başlamışdır. Daha sonra Ləmbəran kənd məktəbinin müdiri olmuşdu. Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr elmi fond şöbəsində saxlanılan "Nicat" cəmiyyəti axşam kurslarının IX qrupunun müdavimləri və müəllimləri" fotoşəklinə əsasən Rəsul bəy bu dövrdə Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuşdur (08.XII.13-cü il. SMF inv. 439/39). O, 1919-cu il avqustun 20-də Bakı real məktəbində keçirilən Azərbaycan müəllimlərinin II qurultayında iştirak etmişdir. Azərbaycan dramaturgiyasının əsas təbliğatçılarından olan R.Tahirov həvəskar aktyor kimi, müxtəlif rollarda çıxış etmişdir. O, bununla yanaşı tərcüməçilik fəaliyyəti ilə məşğul olmuş, L.N.Tolstoyun bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

1. "Nicat" cəmiyyəti axşam kurslarının IX qrupunun müdavimləri və müəllimləri. Ortada kursun müəllimi Rəsul bəy Tahirov. 08.XII.13-cü il. SMF inv. 439/39.
2. Görkəmli maarifçi orta cərgədə yerdə oturmuş vəziyyətdə sağdan sola ikinci Rəsul bəy Tahirov, Səfərov, Sadıqov və başqaları Şuşada gəzinti zamanı. 1910-cu illər. SMF inv. inv. 535/8.
3. Təbiət qoynunda istirahət edən Şuşa ziyalıları. Soldan 1-ci müəllim Rəsul bəy Tahirov. 1910-cu il. SMF inv. 535/15.





*Təbiət qoynunda istirahət edən Şuşa ziyalıları. Soldan 1-ci müəllim Rəsul bəy Tahirov. 1910-cu il. SMF inv. 535/15.*



*Görkəmli maarifçi orta cərgədə yerdə oturmuş vəziyyətdə sağdan sola ikinci Rəsul bəy Tahirov, Səfərov, Sadıqov və başqaları Şuşada gəzinti zamanı. 1910-cu illər. SMF inv. 535/8.*



*"Nicat" cəmiyyəti axşam kurslarının IX qrupunun müdavimləri və müəllimləri. Ortada kursun müəllimi Rəsul bəy Tahirov. 08.XII.13-cü il. SMF inv. 439/39.*





# *Süleyman Sani Axundov*

*1875-1939*

Süleyman Sani Rzaqulu bəy oğlu Axundov ilk təhsilini dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində Qoridə almışdır. O, ibtidai təhsilini başa vurduqdan sonra 1885-1894-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. Seminariyanı bitirdikdən sonra Bakıda III dərəcəli rus-türk məktəbində müəllim kimi pedaqoji fəaliyyətə başlamışdır. O, öz adaşı Mirzə Fətəli Axundovla qarışmamaq üçün "Sani" (ərəbcə "ikinci") təxəllüsünü götürmüşdür.

S.S.Axundov 1906-cı ildə Bakıda çağırılmış Azərbaycan müəllimlərinin I qurultayında iştirak etmişdir. 1920–1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922–1930-cu illərdə isə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir.

O, 1899-cu ildə ilk əsəri olan "Xəsis" komediyasını yazmışdır. 1905-ci ildə "Bayram" hekayəsi ilə müəllif xalqın mənafeyinin müdafiəçisi kimi çıxış etmişdir. Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında xüsusi xidmətlərə malik olan S.S.Axundov "Qorxulu nağıllar" (1912–1914) başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız", "Əşrəf" əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatına forma, məzmun, üslub yenilikləri gətirmişdir. Bununla yanaşı o, "Bəxt çarxı" və "Şahin yuvası" pyeslərini, "Məhəbbət və qisas" dramını, "Qonaqlıq", "Kövkəbi-hürriyyət", "Yuxu" kimi hekayələrini yazmışdır.

Süleyman Sani Axundov 1939-cu il martın 29-da vəfat etmişdir.

1. Fotoşəkil. Süleyman Sani Axundov. SMF inv. 271/10.
2. Fotoşəkil. Süleyman Sani Axundov. SMF inv. 271/11.
3. Fotoşəkil. Süleyman Sani Axundov. SMF inv. 271/12.
4. Fotoşəkil. Süleyman Sani Axundov dayısıs Səfər bəyin qızları Nigar və Süreyya Vəlibəyova bacısıları ilə birlikdə. Bakı, 1905-06-cı illər. SMF inv. 271/14.
5. Fotoşəkil.S.S.Axundov. Bakı. 1920-ci illər. SMF inv. 271/46.
6. Külqabı. Balıqqulağı formasında. Yazıçı, ictimai xadim Süleyman Sani Axundova məxsusdur. HXƏF inv. 6092.





*Süleyman Sani Axundov. XX əsrin əvvəli. SMF 271/12.*

*Süleyman Sani Axundov dayısı Səfər bəyin qızları Nigar və Sürəyya Vəlibəyova bacıları ilə birlikdə. Bakı, 1905-06-cı illər. SMF inv. 271/14.*





# Cavad bəy Məlikyeqanov

## 1878 -1941

Cavad bəy Rza bəy oğlu Məlikyeqanov ilk təhsilini Mir Mehdi Xəzaninin ibtidai məktəbində almışdır. O, məktəbi bitirdikdən sonra 1903-cü ildə Bakıya gəlir. Bakıda neft sənayesi müəssisələrində müxtəlif inzibati vəzifələrdə işləyən Cavad bəy bu dövrdə şəhəri bürümüş inqilabi hərəkatda fəal iştirak edir. O, yürüş və nümayişlərin təşkilinə və keçirilməsinə köməklik edir, yerli hökumətə etiraz və petisiyaların verilməsində fəallıq göstərirdi. Bu dövrdə o, müsəlman sosial-demokrat "Hümmət" partiyasına daxil olaraq siyasi mübarizəyə başlayır. Cavad bəy bu siyasi fəaliyyətinə görə 1909-cu ildə 1 il həbs, 4 il sürgünə məhkum edildi. 1914-cü ildə yenidən Bakıya qayıdan Cavad bəy "S.M.Şibayev və $K^0$" neft-sənaye şirkətində işləməyə davam edir. O, işi ilə bərabər eyni zamanda texniki məktəbdə təhsilini də davam etdirir.

1917-ci ildə Cavad bəy Müsəlman Demokratik Müsavat Partiyasına daxil olur. Partiyanın sol fəhlə qanadının lideri olmaqla fəhlə və sahibkarlar arasında münaqişələrin həlli şöbəsində çalışır.

1918-ci ilin əvvəllərində Bakı fəhlələrinin dəstəyi ilə Cavad bəy Tiflisdə yaradılmış Zaqafqaziya Seyminə nümayəndəsi seçilmişdir. O, Milli Şurasının üzvü kimi 1918-ci il mayın 28-də "Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsi"ni imzalayanlardan biri olmuşdur. 1918-ci ilin dekabrında Müsavat partiyasından Azərbaycan parlamentinə deputat olan Cavad bəy AXC fəhlə birliyinin ilk sədri təyin edilmişdir.

Bu dövrdə AXC Parlamenti fövqəladə iclasının qərarı ilə, Lənkəran və Muğanda rus və bolşevik-erməni dəstələrinin yerli müsəlman xalqa qarşı qırğınlarının qarşısını almaq və regionda yad qüvvələrə qarşı mübarizə aparan yerli müsəlman dəstələrinin təşkilatlandırılması məqsədilə, risk və təhlükə ilə dolu bu mürəkkəb işin həllini bacaran mahir siyasətçi, istedadlı təşkilatçı, demokrat, humanist və pasifist kimi güclü reputasiyaya malik Cavad bəy Məlikyeqanov Lənkərana göndərilir.

Onun təşkilatçılığı ilə qısa müddət ərzində 1919-cu il avqustun sonunda Lənkəran və Muğan ərazisi rəsmən Azərbaycan Cümhuriyyətinin tərkibinə daxil oldu. Rusiyanın Cənub ordusunun könüllü hərbi hissələri tərksilah edildi və ləğv edildi. Cavad bəy Lənkəran qəzasının general qubernatoru kimi qəzada fəaliyyət göstərmişdir.

1920-ci il aprel çevrilişindən sonra Cavad bəy Məlikyeqanov 1930-cu ilin fevral ayına kimi 6 dəfə cinayət məsuliyyətinə cəlb olunmuşdur. Yeni hökumətin yersiz həbsləri, araşdırmaları və təqibləri bir ailəni səksəkə içində yaşamağa vadar edirdi. Muzeydə mühafizə edilən Cavad bəyin kolleksiyasından məlum olur ki, bütün bu təqiblərə baxmayaraq o, bir müddət əmək birjasında, neft təchizatı idarəsində, N.Nərimanov adına Bakı Sənaye Texnikumunda işləyir. Hansı sahədə çalışmasından asılı olmayaraq Cavad bəy özünü Vətənin layiqli övladı kimi göstərmişdir. Lakin buna baxmayaraq, 1933-cü ildə Cavad bəy Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə yenidən həbs cəzasına məhkum edilərək ömürlük olaraq Kareliyanın Komin islah cəzaçəkmə düşərgələrinə sürgünə göndərilir (MATM SMF inv. 624).

Sürgün həyatı nə qədər ağır və məşəqqətli olsa da, Cavad bəy dözür, ailəsinə yazdığı məktublarda bunu hiss etdirmirdi. Onun düşərgədən yazdığı məktublar cəsarətin, mətanətin və sonsuz xeyirxahlığın daha bir sübutudur. Bu məktublarda sədaqətli ömür yoldaşı Məryəm xanıma və üç körpə qız balasına təsəlli versə də, bilirdi ki, onları "xalq düşməni"nin ailəsi kimi çox ağır bir durum gözləyir. Məryəm xanımı böyük məhəbbətlə sevən Cavad bəy bütün məktublarını ""Canım! Nazlım" kəlmələri ilə başlayırdı. Məktublarında uşaqlardan narahat olan Məlikyeqanov yazırdı: "Nazlım, uşaqların yaxşı oxuduğu üçün çox yaxşıyam "Asiman məktəbə getdi... Burada vəziyyətim çox ağırdır.Bizi çox incidirlər. Gün ərzində 16-18 saat işləyirik. İş çoxdur. Demək olar ki bütün günü boş qalmırıq. Bir neçə gün bundan əvvəl buraya vaqonla çoxlu sayda 15-20 yaşlarında yeniyetmə və gəncləri gətirdilər. Məryəm xanım, özünə fikir ver. Sənə can sağlığı arzulayıram. Ağa, Ənvər və Təhminəyə məndən salam de". Məktubun üzərində yazılma tarixinin üstü qaraldılmışdır. Bu baxımdan oxumaq olmur. Yalnız "20.... 1936-cı il" yazısı oxunur. Ömrünün doqquz ildən çoxunu həbsxanalarda ağır şəraitdə keçirən Cavad bəy Məlikyeqanov 18 may 1942-ci il tarixində Kareliyada sürgündə vəfat etmişdir.



C.Məlikyeqanov. 1920-ci illər. SMF inv. 2484.



N. Nərimanov adına texnikumunun kollektivi. Orta cərgədə soldan sağa texnikumun direktor müavini Səməd Məmmədov, direktor Ağa Axundov, dördüncü Cavad Məlikyeqanov. Bakı 1925-ci il. SMF inv. 526/7.



C.Məlikyeqanov həyat yoldaşı Məryəm Bayraməlibəyova ilə birlikdə. 1930-cu illər. SMF inv. 2485.





C.Məlikyeqanov sürgündə olarkən. 1933-1934-cü il. SMF inv. 2493.



Karjalais-Suomalainen Sosialistinen Neuvostotasavalta
Карело-Финская Советская Социалистическая Республика

KUOLINTODISTUS
СВИДЕТЕЛЬСТВО О СМЕРТИ

ЦЮ № 103614

C.Məlikyeqanovun ölümü haqqında verilmiş 103614 №-li şəhadətnamə. 17 noyabr 1958-ci il. SMF inv. 2498.



Cavad Məlikyeqanov sürgündə olarkən. Kareliyanın Kem şəhəri. 1933-cü il SMF inv. 559/3

1. Fotoşəkil. N.Nərimanov adına texnikumunun kollektivi. Ortada cərgədə texnikumun direktor müavini Səməd Məmmədov, direktor Ağa Axundov, dördüncü Cavad Məlikyeqanov. Bakı 1925-ci il. SMF inv. 526/11.
2. Vinetka. S. M. Şibayevin firmasının Balaxanı neft mədəninin işçisi C.b.Məlik-Yeqanov iş yoldaşları ilə birlikdə. Ölçüsü: 50,1x70 sm. SMF inv. 530/4.
3. Vinetka. C. Məliikyeqanov Azərbaycan SSR Xalq Komissarları işçiləri ilə birlikdə. Bakı. SMF inv. 530/8.
4. Fotoşəkil. Cavad bəy Məlikyeqanov. Bakı, 1927-28-ci illər. SMF inv. 559/1.
5. Fotoşəkil. Cavad Məlikyeqanov sürgündə olarkən. Kareliyanın Kem şəhərində. 1933-cu il. SMF inv. 559/3.
6. Fotoşəkil. C.Məlikyeqanov. 1920-ci illər. SMF inv. 2484.
7. Fotoşəkil. C.Məlikyeqanov həyat yoldaşı Məryəm Bayraməlibəyova ilə birlikdə. 1930-cu illər. SMF inv. 2485.
8. Fotoşəkil. Fotovenetka (surət). Azərbaycan SSR Xalq Əmək Komissarlığının işçiləri. SMF inv. 2486.
9. Fotoşəkil. C.Məlikyeganov fəhlələr arasında (mərkəzdə). SMF inv. 2487.
10. Fotoşəkil. C.Məlikyeganov inşaat sahəsində. SMF inv. 2488.
11. Fotoşəkil. C.Məlikyeqanov fəhlələr arasında (mərkəzdə). SMF inv. 2489.
12. Fotoşəkil. Fotoşəkil. C.Məlikyeqanov tikinti sahəsində. Bakı. SMF inv. 2490.
13. Fotoşəkil. C.Məlikyeqanov fəhlələr arasında (aşağıdan ikinci sırada, soldan beşinci). SMF inv. 2491.
14. Fotoşəkil. C.Məlikyeqanov Bakıda nəşriyyatda. SMF inv. 2492.
15. Fotoşəkil. C.Məlikyeqanov sürgündə olarkən. 1933-1934-cü il. SMF inv. 2493.
16. C.Məlikyeqanovun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktub. 1938-ci il. Qırmızı qələmlə yazılmışdı. SMF inv. 2494.
17. C.Məlikyeqanovun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktub. 30 mart 1933-cü il. Kareliya MSSR-dən yazılmışdır. SMF inv. 2495.
18. C.Məlikyeqanovun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktub. 20.01.1935. Qara qələmlə yazılmışdı. SMF inv. 2496.
19. C.Məlikyeqanovun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktub. 1936-cı il. Kirov dəmiryolu, Kola stansiyasından yazılmışdı. Bənövşəyi qələmlə yazılmışdır. SMF inv. 2497.
20. C.Məlikyeqanova ölüm haqqında verilmiş 103614 №-li şəhadətnamə. 17 noyabr 1958-ci il. SMF inv. 2498.
21. Kareliya MSSR prokurorluğunun C.Məlikyeqanova ölümündən sonra bəraət verilməsi haqqında 11-783 №-li arayış. 17 mart 1959-cu il. SMF inv. 2499.
22. Zərf (kisə). Batisdəndir. Süfrə dəsmalları üçündür. Tikmə və naxışlarla işlənmişdir. Qıraqları boyu bəzəkli tikmələri var. HXƏF inv. 5258.
23. Metal əşya. Süfrə dəsmalları üçündür, dairəvidir. Üz tərəfində naxışları və "VÜSPS" yazısı var. HXƏF inv. 5257.
24. Üzəri nəbati, kənarları dalğavarı naxışlarla bəzədilmiş çini boşqab. Oturacaq hissəsində M.S.Kuznetsov şirkətinin möhürü var. HXƏF inv. 5256.





## *Əli bəy Əlibəyov*

*1878-1964*

Əli bəy Qulu bəy oğlu Əlibəyov ilk təhsilini Qarğabazar kənd (indiki Füzuli rayonun kəndi) məktəbində almışdır. 1896-cı ildə məktəbi bitirdikdə sonra Bakıya gələrək Musa Nağıyevin ağ neft zavodunda işləmişdir. 1897-1905-ci ildə müxtəlif ticarət kontorunda, 1905-1908-ci ildə Bakı şəhər idarəsinin dəftərxanasında çalışmışdır. Bakıda təhsilini davam etdirən Əli bəy 1905-ci ildə yenicə açılan ümumtəhsil kurslarının axşam şöbəsinə daxil olur. O, eyni zamanda 1908-1911-ci illərdə Bakı şəhəri bələdiyyə idarəsinin tibb-sanitariya bürosunda sanitariya təlimatçısı vəzifəsində işləmişdir. 1911-ci ildə Bakı I klassik gimnaziyasını bitirdikdən sonra Kiyev Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1916-cı ildə universiteti bitirdikdən sonra Qırmızı Xaç cəmiyyətinin cənub-qərb hospitalında təcrübə keçmişdir. 1918–1919-cu ildə Qırmızı Xaç cəmiyyətinin xətti ilə İnquşetiyada əhaliyə tibbi yardım göstərmişdir. 1920-1922-ci illərdə Terek Sovet Respublikası Nazran Dairə İcraiyyə Komitəsi (indiki İnquşetiyanın Nazran şəhərində) Səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1923-cü ildə Azərbaycana qayıdan Əli bəy respublikada epidemiologiya və sosial-gigiyena məsələləri üzrə tədqiqatlar aparmışdır. 1932-ci ildən ömrünün sonunadək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Sosial gigiyena kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Əli bəy Əlibəyov 1932-ci ildə dosent elmi adını almışdır. 1936-ci ildə tibb elmləri namizədi, 1949-cu ildə tibb elmləri doktoru elmi adlarını almışdır. 1949-cu ildə professor elmi adı almışdır. O, 1933-cü ildə Azərbaycanın SSR Əmək Qəhrəmanı, 1943-cü ildə Azərbaycan SSR-nin əməkdar elm xadimi adlarına layiq görülmüşdür.

Əli bəy Əlibəyov 1964-cı ildə vəfat etmişdir.



Kiyev Universitetinin tibb fakültəsinin tələbələri.
19.II. 1913-cü il. SMF inv. 430/1.



1917—1932

A. S. S. Ç. A. C. C. P.

TƏQDIR VƏRƏQƏSI
ГРАМОТА

Joldaş
Товарищу

1917-1932-ci illərdə səhiyyə mütəxəssislərinin hazırlanması sahəsində nümunəvi xidmətinə görə Azərbaycan Tibb İnstitutunun direktoru Əziz Əliyev tərəfindən Əli bəy Əlibəyova verilmiş fəxri fərman. 20 noyabr 1932-ci il.
SMF inv. 430/18.



АЗӘРБАЙЧАН ССР БАШ СОВЕТИНИН ПРЕЗИДИУМУ

Азәрбайчан ССР
әмәкдар элм хадими

Әлибәйов йолдаша

Элм саһәсиндә көркәмли фәалиййәтинизә көрә

Азәрбайчан ССР Баш Советинин Президиуму
1943 ил 3 май тарихли фәрманы илә сизә

АЗӘРБАЙЧАН ССР
ӘМӘКДАР ЭЛМ ХАДИМИ
ады вермишдир

Азәрбайчан ССР Баш
Совети Президиумунун сәдри

Азәрбайчан ССР Баш
Совети Президиумунун катиби

№ 35 9 август 1943 ил
БАКЫ шәһәри

Əli bəy Əlibəyova elm sahəsində fəaliyyətinə görə Azərbaycan SSR-nin əməkdar elm xadimi adına layiq görülməsi haqqında diplom. 9 avqust 1943-cü il. SMF inv. 430/34



ДИПЛОМ
ДОКТОРА НАУК

МДТ № 01612

Москва

Решением

гражданину

ПРИСУЖДЕНА УЧЕНАЯ СТЕПЕНЬ ДОКТОРА

Əli bəy Əlibəyova verilmiş 01612 №-li tibb elmlər doktoru diplomu. 19 may 1949-cu il. SMF inv. 430/37.



АТТЕСТАТ
ПРОФЕССОРА

МПР № 01957

Москва

Решением

гражданин

УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ
ПРОФЕССОРА
по кафедре

Əli bəy Əlibəyova professor elmi adının verilməsi haqqında 01957 №-li diplomu. 19 may 1949-cu il. SMF inv. 430/38

1. Fotoşəkil. Kiyev Universitetinin tibb fakültəsinin tələbələri. 19.II. 1913-cü il. SMF inv. 430/1.
2. Fotoşəkil. Açıq ağ köynəkdə bambuk kresloda oturan Ə.Q.Əlibəyovdur. 1920-ci illər. SMF inv. 430/2.
3. Fotoşəkil. Ə.Q.Əlibəyov. Arxa hissəsində “1918-1920-ci illərdə Çeçen-İnquş xalqının vətəndaş müharibəsində qələbəsi münasibətilə” xatirə yazısı vardır. SMF inv. 430/3.
4. Qırmızı xaç cəmiyyətinin həkimi Ə.Q.Əlibəyovun Vətəndaş müharibəsi dövründə Şimali Qafqazda fəaliyyətini əks etdirən hesabatdan çıxarış. 26.07.1920-ci il. SMF inv. 430/4.
5. Terek dairə icraiyyə komitəsi tərəfindən Ə.Q.Əlibəyova verilmiş 67 №-li mandat. Vladiqafqaz. 4.I.1921-ci il. SMF inv. 430/5.
6. Dağlı Sosialist Sovet Respublikası təsis qurultayının həqiqi üzvü A. Əlibəyova verilmiş 129 nömrəli bilet. Vladiqafqaz. 1921-ci il. SMF inv. 430/6.
7. Ə.Əlibəyovun Çeçenistan-İnquşetiyanı tərk etməsi ilə əlaqədar Çeçen-İnquş Rayon İcraiyyə Komitəsinin təqdim etdiyi müraciət. 1923-ci il. SMF inv. 430/7.
8. Dağlı respublikası xalq komissarları soveti tərəfindən Ə.Əlibəyova verilmiş 2472/sk-2 №-li bildiriş. Vladiqafqaz. 1924-ci il. SMF inv. 430/8.
9. Dağlı respublikası xalq komissarları soveti tərəfindən Ə.Q.Əlibəyova verilmiş 2474 №-li mandat. Vladiqafqaz. 1924-ci il. SMF inv. 430/9.
10. I Azərbaycan həkimləri qurultayının nümayəndəsi Ə.Əlibəyova verilmiş mandat. 1924-cü il. . SMF inv. 430/10.
11. Kiyev ali məktəblərinin tələbələri Y.Vəzirov, F.Ordubadski, Ə.Əlibəyov və b. Maqsudovların təşkil etdiyi gecədə. SMF inv. 379/11
12. Ə.Əlibəyovun Leypsiqdə elmi jurnalda nəşr olunan “Azərbaycanda malta qızdırması” adlı məqaləsi. 1924, 28 t. SMF inv. 379/12.
13. Şimali Osetiya tələbələrinin həkim Ə.Əlibəyova Vladiqafqazdakı fəaliyyətinə dair təşəkkür məktubu. 1925-ci il. SMF inv. 430/13.
14. Ə.Əlibəyovun 1927-ci ildə V Ümumazərbaycan qurultayında iştirakına dair 112 №-li buraxılış vərəqəsi. SMF inv. 430/14.
15. Ə.Əlibəyovun Sovet tibbinin 10 illiyinə həsr olunmuş tədbirdə iştirak etməsi üçün dəvətnamə. Gəncə şəhəri 1928-ci il. SMF inv. 430/15.
16. Əli bəy Əlibəyovun Qaryagin dairə icraiyyə komitəsinin sədrinə göndərdiyi məktub. 12 fevral 1936-ci il. SMF inv. 430/16.
17. 1917-1932-ci illərdə səhiyyə mütəxəssislərin hazırlanması sahəsində nümunəvi xidmətinə görə Azərbaycan Tibb İnstitutunun direktoru Əziz Əliyev tərəfindən Əli bəy Əlibəyova verilmiş fəxri fərman. 20 noyabr 1932-ci il. SMF inv. 430/18.
18. Əli bəy Əlibəyovun Azərbaycan Dövlət Tibb İnstitutunun Sosial gigiyena kafedrasının professoru adının verilməsi haqqında 12 №-li protokoldan çıxarış. 30 dekabr 1935-ci il. SMF inv. 430/23
19. Əli bəy Əlibəyova elm sahəsində fəaliyyətinə görə Azərbaycan SSR-nin əməkdar elm xadimi adına layiq görülməsi haqqında diplom. 9 avqust 1943-cü il. SMF inv. 430/34
20. Əli bəy Əlibəyova “Qafqazın müdafiəsi naminə” medalı ilə təltif edilməsi haqqında verilmiş vəsiqə. 5 noyabr 1944-cü il. SMF inv. 430/36.
21. Əli bəy Əlibəyova verilmiş tibb elmlər doktoru diplomu. 19 may 1949-cu il. SMF inv. 430/37.
22. Əli bəy Əlibəyova professor elmi adının verilməsi haqqında diplom. 19 may 1949-cu il. SMF inv. 430/38
23. Elm sahəsində fəaliyyətinə görə Əli bəy Əlibəyova verilmiş fəxri fərman. 26 noyabr 1958-ci il. SMF inv. 430/40
24. Əli bəy Əlibəyovun əmək fəaliyyətinin 60 illiyi münasibəti ilə Azərbaycan SSR Nazirlər sovetinin sədri Vəli Axundov tərəfindən göndərilmiş təbrik məktubu. 1958-ci il. SMF inv. 430/41
25. Əli bəy Əlibəyova 80 illiyi və əmək fəaliyyətinin 60 illiyi münasibəti ilə Tibb İnstitutunun kollektiv tərəfindən göndərilmiş təbrik məktubu. 29.XI. 1958-ci il. SMF inv. 430/42.
26. Fotoşəkil. Əli bəy Əlibəyov. SMF inv. 430/44.7
27. Fotoşəkil. Əli bəy Əlibəyov iş otağında. SMF inv. 430/46
28. Fotoşəkil. Əli bəy Əlibəyov qış geyimində. SMF inv. 430/47
29. Fotoşəkil. Əli bəy Əlibəyov kafedra əməkdaşları ilə birgə iş zamanı. 1957-ci il. SMF inv. 430/49.
30. Kiyev Universitetinin tibb fakültəsinin bitirməsi haqqında Əli bəy Əlibəyovun verilmiş 48562 №-li diplomun kopyası. SMF inv. 430.əlavə.
31. Əli bəy Əlibəyova aid anket vərəqi. SMF inv. 430.əlavə.01.
32. Çeçen-İnquş xalqı adından Əli bəy Əlibəyova göndərilmiş təbrik məktubu. SMF inv. 430.əlavə.2.
33. Professor Əli bəy Əlibəyovun əmək fəaliyyəti haqqında anket. SMF inv. 430.əlavə.5.
34. Əli bəy Əlibəyova tələbəlik illərində 1912-ci il oktyabrın 15-dən 1914-cü il avqustun 10-a qədər Kiyev və onun cənub-qərbində əhaliyə sanitar xidmətin göstərilməsi haqqında AKP(b) Mərkəzi Nəzarət Komissiyasının verdiyi arayış. 9.VII.1933-cü il. SMF inv. 430.əlavə.8.
35. Əməkdar Elm Xadimi, professor Əli bəy Qulu bəy oğlu Əlibəyovun elmi fəaliyyətinin biblioqrafiyası. SMF inv. 430.əlavə. 14.
36. Azərbaycan Elmi-Tədqiqat Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun Şurası tərəfindən Tibb Elmləri Akademiyasının müxbir üzvlüyünə namizəd kimi təqdim olunması haqqında Əməkdar Elm Xadimi, professor Ə.Q.Əlibəyova verilmiş rəy. SMF inv. 430.əlavə.15.
37. Əli bəy Əlibəyov haqqında yazılmış “Şərəfli həyat yolu” adlı qəzet məqaləsi. 27.XI. 1958-ci il. SMF inv. 430.əlavə.15.1.





# *Xudadat bəy Məlik-Aslanov*

*1879 - 1935*

Xudadat bəy Məlik-Aslanov 1879-cu ilin aprelində Şuşada Dizək mahalının naibi Ağa bəyin ailəsində anadan olmuşdur. O, 1898-ci il Şuşa real məktəbini bitirdikdən sonra neft sənayeçisi və xeyriyyəçi H.Z.Tağıyevin şəxsi vəsaiti hesabına Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olur. 1904-cü ildə institutu fərqlənmə diplomu ilə bitirən Xudadat bəy Sankt-Peterburqda Voloqda-Petrozavodsk dəmiryolunun çəkilişi ilə əlaqədar orada mühəndis kimi çalışır. O, 1905-ci ildə Tiflisə, Zaqafqaziya Dəmir Yolu İdarəsinə göndərilir. Suram Aşırımı yol stansiyasında yol xidməti rəisinin köməkçisi, daha sonra isə rəisi vəzifəsində işləyir. Onun rəhbərliyi ilə burada Çiatura yaxınlığında marqans mədəninə gedən ikinci relslərin, mülki tikililərin, ensiz dəmir yollarının tikintisi aparılır.

Təbiətcə yaradıcı insan olan X.Məlikaslanov elmi fəaliyyətlə də məşğul olmuşdur. Onun dörd məqaləsi Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutunun elmi jurnallarında dərc edilir.

Dəmir yolu texnologiyası sahəsində aparılan elmi-tədqiqat işləri X.Məlik-Aslanova bir alim kimi böyük şöhrət qazandırmışdı. Onun nəşr olunmuş “Yol profilinin qatarların fasiləsinə təsiri”, “Dəmir yolu relsinin yuxarı konstruksiyasının hesablanması”, “Dəmir-beton şpalların ixtirası və tətbiqi” və s. əsərləri yüksək qiymətləndirilərək ona professor elmi adı verilmişdir.

1917-ci il fevral inqilabından sonra Müvəqqəti hökumətin sərəncamı ilə Xudadat bəy Tiflisdə Zaqafqaziya nəqliyyat yollarının nümayəndəsi təyin edildi. Cəmi altı aydan sonra səriştəli, yüksək mədəniyyətə malik gənc mütəxəssis Zaqafqaziya Komissarlığının Dəmir Yolu Nəqliyyatı Nazirliyinin komissarı, 1918-ci ilin aprelində isə yeni yaradılmış - Zaqafqaziya Federativ Respublikasının dəmir yolu nəqliyyatı naziri təyin edilir.

1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Milli hökumətin ilk Dəmir yolu nəqliyyatı, mətbuat və teleqraf naziri kimi Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumətin birinci kabinetinin tərkibinə daxil olmuşdur.

Dəmir yolu nəqliyyatı naziri kimi Xudadat bəy AXC hökumətinin ikinci, üçüncü, dördüncü və beşinci kabinetlərinin tərkibində olmuşdur. O, 1919-cu il iyunun 11-də yaradılmış Dövlət Müdafiə Komitəsinin deputatı və birinci müavini seçilmişdir.

Dəmiryolçuların yetişdirilməsində də X.Məlik-Aslanovun xidmətləri böyük olmuşdur. Milli kadrlar olmadan biznes qurmağın mümkün olmadığına əmin olan X.Məlik-Aslanov onların yetişdirilməsi üçün məktəb yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Onun təşəbbüsü ilə yaranan məktəb daha sonra dəmir yolu nəqliyyatı texnikumuna çevrildi. Burada dərslər iki dildə - Azərbaycan və rus dillərində aparılırdı.

Xudadat bəy 1921-ci ildə Azərbaycan Politexnik İnstitutunun professoru vəzifəsində fəaliyyətə başlayır. O, 1930-cu ilə kimi İnstitutda inşaat fakültəsinin dekanı və nəqliyyat fakültəsinin müdiri vəzifələrində çalışır. Böyük nüfuza malik olan alimin təşəbbüsü ilə “kadr çatışmazlığı” problemini yaşayan Politexnik İnstitutuna bir çox dünya şöhrətli alimlər işə cəlb olunmuşdur.

Yerli yüksək ixtisaslı və bilikli kadrlara ehtiyacı olan Xudadat bəy Sovet hökuməti tərəfindən xalq təsərrüfatının əsas sahələrinə göndərilir. O, 1921-ci ildə Azərbaycan Dövlət Tikinti Komitəsinin sədri təyin edilir. Dövlət Tikinti Komitəsinin ləğvi ilə əlaqədar Xudadat bəy respublika Dövlət Plan Komitəsinin nəqliyyat və rabitə şöbəsinin sədri, bir ildən sonra isə respublika Ali Təsərrüfat Sovetinin Dəmir Yolu İdarəsinin rəisi təyin edilir.

1925-ci ildə X.Məlik-Aslanov Xalq Maarif Komissarlığı Dövlət Elmi Şurasının elmi-texniki bölməsinin, 1927-ci ildə isə Azərbaycan Ali İqtisad Soveti yanında Ali Arbitraj Komissiyasının üzvü seçilmişdir. O, 1928-ci ildə respublikanın Ali Texniki Komitəsinin sədr müavini təyin edilir.

Lakin Xudadat bəyin həyatının birinci yarısı nə qədər parlaq və uğurlu olsa da, taleyində sonrakı illər çox faciəli olmuşdur. X.Məlik-Aslanov da o dövrün bir çox istedadlı adamları kimi Stalin repressiyasının boğucu mühitində yaşayıb işləməli idi. Onun dövlət və xalq üçün gördüyü bu böyük işlərə baxmayaraq həmin dövrdə “Xalq düşməni” kimi həbs edilir.

1930-cu ildə həbs olunan Xudadat bəy 1933-cü ildə onun göstərişi ilə azadlığa buraxılır. Lakin 1934-cü ildə Xudadat bəy əksinqilabi təşkilatının üzvü kimi 5 il müddətinə həbs edilməsinə dair sanksiyasını əsas gətirərək yenidən azadlıqdan məhrum edildi. O, 1935-ci il iyulun 23-də Bayıl həbsxanasında vəfat etmişdir.




*X. Məlik-Aslanov dostları ilə birlikdə (soldan sağa 1-ci). XIX əsrin sonu. SMF inv. 627/2.*



***Peterburqda ali təhsil ocaqlarında təhsil alan müsəlman tələbələrin bir qrupu. Orta cərgədə sağdan solan 3-cü X. Məlik-Aslanov. SMF inv. 627/7.***



***Peterburqda ali təhsil ocaqlarında təhsil alan müsəlman tələbələrin bir qrupu. Yuxarı sırada 3-cü X. Məlik-Aslanov, 5-ci Mirzə Lətif Mirzəyev, 6-cı Maxac; 2-ci sırada 1-ci Məşədi Əzizbəyov, 5-ci Yusif Ləmbəranski, aşağı sırada 1-ci Lətif Behbudov. 1904-cü il. SMF inv. 627/6.***





***Xudadat bəy Məlik-Aslanov (birinci cərgədə soldan sağa 4-cü). SMF inv. 4034.***

1. Fotoşəkil. Xudadat bəy Məlik-Aslanov Sankt-Peterburqda yol mühəndisi geyimində. SMF inv. 559/5.
2. Fotoşəkil. X.Məlik-Aslanov Suram aşırımında işçilərinin arasında. Tiflis, 1905-ci il. SMF inv. 627/1.
3. Fotoşəkil. X. Məlik-Aslanov dostları ilə birlikdə. XIX əsrin sonu. SMF inv. 627/2.
4. Fotoşəkil. X.Məlikaslanova Xalq Komissarlığı rabitə yolları idarəsindən verilmiş 006439 inv. nömrəli bilet. 7 fevral 1923-cü il. SMF inv. 627/3.
5. X. Məlik-Aslanova Zaqafqaziya dəmir yolları idarəsi tərəfindən verilmiş vəsiqə. 31 dekabr 1923-cü il. SMF inv. 627/4.
6. X. Məlik-Aslanovun qardaşı oğlu Xosrova həbsxanadan yazdığı məktub. SMF inv. 627/5.
7. Fotoşəkil. Peterburqda ali təhsil ocaqlarında təhsil alan müsəlman tələbələrin bir qrupu. Yuxarı sırada 3-cü X. Məlik-Aslanov, 5-ci Mirzə Lətif Mirzəyev, 6-cı Maxac; 2-ci sırada 1-ci Məşədi Əzizbəyov, 5-ci Yusif Ləmbəranski, aşağı sırada 1-ci Lətif Behbudov. 1904-cü il. SMF inv. 627/6.
8. Fotoşəkil. Peterburqda ali təhsil ocaqlarında təhsil alan müsəlman tələbələrin bir qrupu. Orta cərgədə sağdan solan 3-cü X.Məlik-Aslanov. SMF inv. 627/7.
9. Fotoşəkil. Xudadat bəy Məlik-Aslanov (birinci cərgədə soldan sağa 4-cü). SMF inv. 4034.



# Qurban Pirimov

*1880-1965*

On bir yaşından özünü tarda ifaçılığa həsr edən Qurban Baxşəli oğlu Pirimov artıq 15 yaşında bütün Qarabağda məşhur olan bir tarzən idi. O, azərbaycanlı xanəndə Əkbər Xamuş oğlunu toy şənliklərində məharətlə müşayiət edirdi. 1901-ci ildə Qurban Pirimov Şuşada "Şərq konserti" ndə, 1907-ci ildə isə Bakıda eyniadlı konsertdə iştirak etmişdir.

Sadıqcanın vəfatından sonra (1902), 1903-1905-ci illərdə Pirimov azərbaycanlı xanəndə İslam Abdullayevi Qarabağ, Gəncə, Şirvan və Şəkidə keçirilən konsertlərdə müşayiət etmişdir. Onunla birlikdə Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin sözlərinə 1905-1911-ci illərdə Cənubi Azərbaycan Məşrutə inqilabının liderlərindən biri olan Səttar xana həsr olunmuş mahnı bəstələmişdir. O, 1905-ci ildə Gəncədə toy şənliklərindən birində İslam Abdullayevin vasitəsilə Cabbar Qaryağdıoğlu ilə tanış olur.

Beləliklə, 1905-ci ildən başlayaraq tarzən Qurban Pirimov Cabbar Qaryağdıoğlu və kamança ifaçısı Saşa Oqanezaşvili ilə birlikdə 20 il ərzində Zaqafqaziya, Orta Asiya və Yaxın Şərqin bir çox şəhərlərində çıxış etmişdir.

Azərbaycan opera sənətinin təşəkkül tapmasında bilavasitə iştirak etmiş Qurban Pirimov Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşasında (1908) tarda ifa etmişdir. Onun tərəfindən solo və ya ansamblda tarda ifa olunan muğamlar 1906-1916-cı illərdə Riqada (Latviya), Varşavada (Polşa), Kiyevdə (Ukrayna) "Pate", "Sport-Rekord" və "Qrammofon" firmaları tərəfindən vala yazılmışdır.

1920-ci ildən təxminən 1960-cı ilə qədər Qurban Pirimov Bakıda indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist-orkestrant kimi işləmişdir. Bu teatrın səhnəsində Pirimovun son çıxışı, onun 85 yaşı olanda, 1965-ci ildə baş tutmuşdu. 1925-ci ildə Qurban Pirimov Üzeyir Hacıbəyovun rəhbərliyi altında muğam üzrə ilk proqramın hazırlanmasında iştirak etmişdir.

Dövlət tərəfindən Qurban Pirimovun əməyi yüksək qiymətləndirilərək ona 1929-cu ildə əməkdar artist, 1931-cu ildə isə Azərbaycan SSR-nin xalq artisti adı verilmişdir. Qurban Pirimov Tiflisdəki ilk Zaqafqaziya Olimpiadasında (1934), Radio yayımı üzrə Ümumittifaq Komitənin baxışında (1937) və Moskvada xalq musiqisi alətləri ifaçılarının ilk Ümumittifaq baxışında (1939) qalib olmuşdur. O, həmçinin 1938 və 1959-cu illərdə Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatının ongünlüklərində uğurla çıxış etmişdir. "Pravda" qəzetində çap edilmiş məqalələrin birində Pirimov "Azərbaycan musiqisinin atası" adlandırılmışdır.

Azərbaycan musiqisinin inkişafındakı xidmətlərinə görə Qurban Pirimov Qırmızı Əmək Bayrağı, "Şərəf Nişanı" (1938) ordenləri və bir neçə medallarla təltif olunmuşdur.

Qurban Pirimov 1965-ci il avqustun 29-da vəfat etmişdir.






***Proqram. D. Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinə aiddir. Üz səhifəsində Q. Pirimovun fotoşəkli var. 2 və 3-cü səhifələrində yubiley komissiyasının tərkibi dərc edilmişdir. Fəxri sədrlər Azərbaycan MİK-in sədri S. Ağamalıoğlu və RSFSR Xalq Maarif Komissarı A.Lunaçarski idi. Sədrlər-AİŞC-nin Xalq Maarif Komissarı M. Quliyev, türk operasının dirijoru M.Maqomayev və Ə.Haqverdiyev. Gecədə "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının 1-ci pərdələri, habelə konsert və Qarabağ aşıqlarının çalğısı təqdim edilmişdir. SMF inv. 160/1***




***D. Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinə aid proqram. SMF inv. 160/2***


ГРАМОТА

*Azərbaycan SSR xalq artisti Qurban Pirimova Sovet ordusu üçün keçirilən hamilik konsertlərində fəal iştirakına görə, habelə anadan olmasının 75 illiyi və yaradıcılıq fəaliyyətinin 60 illiyi münasibətilə verilmiş Fərman. SMF inv. 160/14.*


FƏXRİ FƏRMAN ПОЧЕТНАЯ ГРАМОТА

*Azərbaycan İncəsənət İşçiləri İttifaqının Mərkəzi İdarəsi Qurban Pirimova Qızıl ordu və Donanma döyüşçü və komandirlərinə faydalı mədəni-bədii xidmət göstərdiyinə görə verilmiş fəxri fərman. SMF inv. 160/3*

1. D.Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinə aid proqram. Üz səhifəsində Q. Pirimovun fotoşəkili var. 2-3 səhifələrində yubiley komissiyasının tərkibi dərc edilmişdir. Fəxri sədrlər Azərbaycan MİK-in sədri S.Ağamalıoğlu və RSFSR Xalq Maarif Komissarı A. Lunaçarski idi. Sədrlər-AİŞC-nin Xalq Maarif Komissarı M.Quliyev, türk operasının dirijoru M.Maqomayev və Ə.Haqverdiyev. Gecədə "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının 1-ci pərdələri, habelə konsert və Qarabağ aşıqlarının çalğısı təqdim edilmişdir. SMF inv. 160/1.
2. D.Bünyadzadə adına Türk Akademik Teatrında tarzən Qurban Pirimovun yaradıcılıq fəaliyyətinin 25 illiyi (1904-1929) münasibətilə keçirilmiş yubiley gecəsinin proqramı. SMF inv. 160/2.
3. Azərbaycan İncəsənət İşçiləri İttifaqının Mərkəzi İdarəsi tərəfindən Qurban Pirimova Qızıl ordu və Donanma döyuşçü və komandirlərinə faydalı mədəni-bədii xidmət göstərdiyinə görə vermilmiş fəxri fərman. 1935-ci il. SMF inv. 160/3.
4. Azərbaycan İncəsənət İşçiləri İttifaqının Mərkəzi İdarəsi tərəfindən Qurban Pirimova Qızıl ordu və Donanma döyuşçülərinə, komandir və rəhbər heyətinə, habelə XDİK qoşunu hissələrinə faydalı mədəni-bədii xidmətinə görə verilmiş fəxri fərman. 1936-cı il. SMF inv. 160/4.
5. Azərbaycan İncəsənət İşçiləri İttifaqı və Respublika Hərbi Hamilik Komissiyası tərəfindən Qurban Pirimova Qızıl ordu və Hərbi Dəniz Donanmasında fəal və faydalı mədəni hamilik işi apardığına görə verilmiş fəxri fərman. 1939-cu il. SMF inv. 160/5.
6. Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Şurası tərəfindən Qurban Pirimova fəal mədəni hamilik işinə görə verilmiş fərman. SMF inv. 160/6.
7. Azərbaycan SSR Əmək Ehtiyatları İdarəsi tərəfindən Qurban Pirimova sənət və fabrik-zavod işçilərinin ümumbakı bədii özfəaliyyət baxışına hazırlanmasında yaxından iştirakına görə verilmiş fərman. 30 may 1941-ci il. SMF inv. 160/7.
8. SSRİ Xalq Komissarları Şurası nəzdində İncəsənət İşləri Komitəsi və SSRİ İncəsənət İşçiləri Həmkarlar İttifaqı tərəfindən Qurban Pirimova



Böyük Vətən müharibəsi dövründə Qırmızı Ordu, Hərbi Dəniz Donanması və XDİK qoşun hissələridə mədəni hamilik işinə görə verilmiş fəxri fərman. 2 vərəq. 2-ci vərəqdə "Fəhlə-Kəndi Qırmızı Ordusunun və Hərbi Dəniz Donanmasının XXV illiyi və İncəsənət İşçiləri Həmkarlar İttifaqının Qırmızı Ordu və Hərbi Dəniz Donanması üzərində mədəni hamiliyin XX illiyi" sözləri yazılmışdır. 1939-cu il. SMF inv. 160/8.
9. Bakı Hərbi Dairəsinin Siyasi İdarəsi tərəfindən Qurban Pirimova Böyük Vətən müharibəsi zamanı və sonrakı dövrdə apardığı fəal işinə görə və Qələbə bayramı münasibətilə verilmiş fərman. 9 may 1946-cı il. SMF inv. 160/9.
10. Azərbaycan SSR-in ərazisində hərbi hissələrin qarnizonlarında apardığı fəal mədəni hamilik işinə görə Qurban Pirimova verilmiş fəxri fərman. 1948-ci il. SMF inv. 160/10.
11. SSRİ Nazirlər Şurası nəzdində İncəsənət İşləri Komitəsi və SSRİ İncəsənət İşçiləri Həmkarlar İttifaqı tərəfindən Qurban Pirimova SSRİ Silahlı Qüvvələri üzərində mədəni hamilik sahəsində xidmətlərinə görə verilmiş fəxri fərman. Sənəddə "Sovet ordusunun XXX illiyi" və "İncəsənət İşçiləri Həmkarlar İttifaqının Sovet ordusu üzərində mədəni hamiliyin XXV illiyi" sözləri yazılmışdır. 1948-ci il. SMF inv. 160/11.
12. Azərbaycan SSR xalq artisti Qurban Pirimovun anadan olmasının 75 illiyinə və yaradıcılıq fəaliyyətinin 60 illiyinə həsr edilmiş gecənin proqramı. 30 oktyabr 1955-ci il. SMF inv.160/12.
13. M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı kollektivinin Azərbaycan xalq artisti Qurban Pirimova mənzum (bir bəndlik) təbriki. 29 oktyabr 1955-ci il. SMF inv.160/13.
14. Azərbaycan SSR xalq artisti Qurban Pirimova Sovet ordusu üçün keçirilən hamilik konsertlərində fəal iştirakına görə, habelə anadan olmasının 75 illiyi və yaradıcılıq fəaliyyətinin 60 illiyi münasibətilə verilmiş fərman. 30 oktyabr 1955-ci il. SMF inv. 160/14.
15. Bakı Sovetinin İcraiyyə Komitəsi Qurban Pirimova V çağırış SSRİ Ali Sovetinə seçkiləri zamanı Bakı zəhmətkeşlərinə mədəni xidmət işlərində fəal iştirakına görə veilrmiş fəxri fərman. 29 aprel 1958-ci il. SMF inv.160/15.
16. AHİŞ Rəyasət Heyəti M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyi münasibətilə onun solisti Qurban Pirimova verilmiş fəxri fərman. 9 iyun 1958-ci il. SMF inv. 160/16.
17. Fotoşəkil. Tarzən Qurban Pirimov. SMF inv. 2196.
18. Fotoşəkil. Q.Pirimov gənclik illərində. SMF inv. 1376.
19. Fotoşəkil. Tarzən Q.Pirimov, xanəndə Fərzəliyev və kamança ifaçısı Oqanezişvili ilə birlikdə. SMF inv. 1585.
20. Fotoşəkil. Q.Pirimov bir qrup Azərbaycan incəsənət xadimləri ilə birlikdə (S.Vurğun, C.Xəndan və başqaları). Moskvada. SMF inv. 1586.
21. Fotoşəkil. Məşhur tarzənlər - Q.Pirimov, H.Məmmədov və S.Seyranov. SMF inv. 1587.
22. Fotoşəkil. Q.Pirimov mikrafon qarşısında. SMF inv. 1588.
23. Fotoşəkil. Q.Pirimov və bəstəkar Qlier Bakıda. SMF inv. 1589.
24. Fotoşəkil. Q.Pirimov gənclik illərində. SMF inv. 1590.
25. Fotoşəkil. Q.Pirimov müharibədən sonrakı illərdə. SMF inv. 1591.
26. Fotoşəkil. Q.Pirimov və H.Hacıbababəyov. 1943-cü il. SMF inv. 1592.
27. Fotoşəkil. Q.Pirimov və xanəndə C.Qaryağdıoğlu. 1943-cü il. SMF inv. 1593.
28. Fotoşəkil. Q.Pirimov 147 yaşlı Şirəli Müslümov. SMF inv. 1594.
29. Fotoşəkil. Ə.Bədəlbəylinin Q.Pirimova həsr etdiyi kitab. SMF inv. 1595.
30. Fotoşəkil. Q.Pirimovun əmək fəaliyyətinin 25 illiyinə həsr olunmuş afişa. SMF inv. 1596.
31. Fotoşəkil. Q.Pirimovun anadan olmasının 75 illiyi və yaradıcılığının 60 illiyinə həsr olunmuş afişa. SMF inv. 1597.
32. Fotoşəkil. Q.Pirimovun fəaliyyətinin 25 illiyi həsr olunmuş afişa. SMF inv. 1598.
33. Fotoşəkil. Tarzən Qurban Pirimov həmkarı ilə. SMF inv. 1945.
34. Fotoşəkil. Azərbaycanlı musiqiçilər konsert yazılışından sonra: Cabbar Qaryağdıoğlu, Davud Səfiyarov, Məşədi Məhəmməd Fərzəliyev, Keçəçi oğlu Məhəmməd, Qurban Pirimov, Saşa Orqanezaşvili (1912, Varşava, "Спорт Рекорд" studiyası). SMF inv. 1946.
35. Fotoşəkil. Qurban Pirimov və bir qrup mədəniyyət xadimləri. SMF inv. 1947.
36. Qurban Pirimova aid şamdan. Bürüncdəndir, üzəri nikeldəndir. HXƏF inv. 5437.
37. Qurban Pirimova məxsus papaq. Ətrafı qaragül dəridən, ortası yun parçadandır. Astarı satindir. HXƏF inv. 5436.
38. Qurban Pirimova məxsus çuxa. Xına rəngli fabrik istehsalı parçadan, boyunu və qolu qaragül dərisindəndir. Astarı şal parçadandır. HXƏF inv. 5435.
39. Qurban Pirimova məxsus kəmər. Nazik dəri üzərində 11 ədəd metal dördbucaqlı lövhələr taxılıb. HXƏF inv. 5434.
40. Qurban Pirimova məxsus dabankeş. HXƏF inv. 5433.
41. Qurban Pirimova aid arxalıq. Qara rəngli atlas parçadan, qolsuz, yaxasında iki cərgə qara xırda düymə tikilmişdir. (14 ədəd) Astarı zolaqlı qəhvəyi çitdəndir. Kürək hissəsi qəhvəyi rəngli satin parçadan tikilmişdir. HXƏF inv. 5432.
42. Qurban Pirimova məxsus qəlyan. Qəhvəyi rəngdə ağacdan, müştük hissəsi plastik materialdan hazırlanmışdır. HXƏF inv. 5431.



# Ələsgər bəy Bəylərbəyov

1882-1949

Ələsgər bəy Rəhim bəy oğlu Bəylərbəyov ilk təhsilini Şuşada mollaxanada almışdır. Daha sonra Bakı real məktəbində təhsilini davam etdirmişdir. 1904-cü ildə orta məktəbi bitirdikdən sonra 1905-ci ildə Varşava Politexnik İnstitutunun mühəndis-inşaat fakültəsinə daxil olmuşdur. Burada təhsilini davam etdirə bilməyən Ələsgər bəy bəy Moskva Texniki institutuna daxil olmuş, 1912-ci ildə bu institutun tam kursunu bitirmişdir.

1912-ci ildən əmək fəaliyyətinə başlayan Ələsgər bəy Bəylərbəyov 1914-cü ilə qədər Zaqafqaziya Dəmiryolları dartma xidməti 4-cü sahəsi rəis köməkçisi və Barjomda depo rəisi vəzifəsində çalışmışdır. O, 1914-1916-cı illərdə Zaqafqaziya Dəmiryolları dartma xidməti 2-ci sahəsi rəisinin böyük köməkçisi, 1917-ci ildə Zaqafqaziya Dəmiryolları dartma xidməti 8-ci sahəsinin rəisi, 1918-ci ildə Təbriz Dəmiryolları dartma idarəsi rəisinin köməkçisi və müavini olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ə.Bəylərbəyov Azərbaycan Dəmiryolları dartma xidmətinin rəisi vəzifəsində çalışmaqla yanaşı, bu dövrdə Bakıda fəaliyyət göstərən Politexnik məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Ələsgər bəy Bəylərbəyov sovet dövründə Azərbaycan Şosse Yolları idarəsinin rəhbəri, Bakı Sovetində və Azərsutəsərrüfatında mühəndis vəzifələrində çalışmışdır. Bununla yanaşı o, Azərbaycan Sənaye İnstitutunda da dərs demişdir. Onun göstərdiyi xidmətlər tdövlət tərəfindən yüksək qiymətləndirilərək 1945-ci il iyulun 1-də Azərbaycan SSR-nin "Fəxri yol işçisi" nişanı ilə təltif edilmişdi (SMF inv. 271/55).

Ələsgər bəy Bəylərbəyov 1949-cu ildə vəfat etmişdir.





*İlk azərbaycanlı yol mühəndisi Bəylərbəyov qızı Validə ilə birlikdə. SMF inv. 271/45*



*Azqosttrans-ın bir qrup işçisi. Mərkəzdə Ə.Bəylərbəyov. 1932-ci il. SMF inv. 271/49.*



Бүтүн өлкәләрин пролетарлары бирләшин.
Пролетарии всех стран, соединяйтесь.

ВӘСИГӘ
УДОСТОВЕРЕНИЕ № 2

„1" июля 1945 ил г.
Бакы шәһәри—г. Баку

Азәрбайҹан ССР Халг Комиссарлары Советинин „16" июн 1945 ил тарихли 620 №-ли гәрарилә
Йолдаш Бәйләрбәков Әләскәр Рәһимович
„ФӘХРИ ЙОЛ ИШЧИСИ"
нишанилә тәлтиф эдилир.

Азәрб. ССР—ХКС янында
Баш Йоллар Идарәси Нәчальники

*Ələsgər Rəhim oğlu Bəylərbəyova Azərbaycan SSR-nin "Fəxri yol işçisi" nişanı ilə təltif edilməsi haqqında 2№-li vəsiqə. 1 iyul 1945-ci il. SMF inv. 271/55.*



*"Azəryolnəqliyyat" trestinin işçiləri. SMF inv. 282/21*

1. Fotoşəkil. İlk Azərbaycan yol mühəndislərindən olan Bəylərbəyov qızı Validə ilə (xidməti geyimdə). SMF inv. 271/45
2. Fotoşəkil. Azqosttrans-ın bir qrup işçisi. Mərkəzdə Ə.Bəylərbəyov. 1932-ci il. Ölçü: 7,8x11,8 sm. SMF inv. 271/49.
3. Ələsgər Bəylərbəyovun 1912-ci ildə Moskva Texniki məktəbinin mexaniki elmlər şöbəsinin tam kursunu bitirməsi haqqında verilmiş diplomun surəti. Arxiv surəti inv. 506. 8 dekabr 1939-ci il. SMF inv. 271/52.
4. Ələsgər Rəhim oğlu Bəylərbəyovun Azərbaycan SSR-nin "Fəxri yol işçisi" nişanı ilə təltif edilməsi haqqında 2 №-li vəsiqə. 1 iyul 1945-ci il. SMF inv. 271/55.
5. Fotoşəkil. Ələsgər Bəylərbəyov Moskva Texniki Məktəbin tələbəsi geyimində. SMF inv. 282/7
6. Fotoşəkil. Moskva Texniki məktəbin tələbəsi A.Bəylərbəyov dərs zamanı. SMF inv. 282/8.
7. Dəmiryol mühəndisi Ələsgər Bəylərbəyov. SMF inv. 282/20.
8. Fotoşəkil. "Azəryolnəqliyyat" trestinin işçiləri. SMF inv. 282/21.
9. Fotoşəkil. Şuşa yaxınlığında dərənin üstündən salınan körpünün gözü. SMF inv. 282/22.





# *Azad Əmirov*

*1883-1939*

Azərbaycanın ilk fizioloqlardan biri, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu Əmirov Azad bəy Abbas oğlu ilk təhsilini Şuşada almışdır. Üzeyir Hacıbəyli ilə uşaqlıq dostu olan Azad bəy onunla birlikdə Qori Seminariyasında oxumuşdur. 1904-cü ildə Qori seminariyasını bitirdikdən sonra Odessa universitetinin hüquq və tibb fakültələrində təhsilini davam etdirmişdir. Musiqi istedadına və gözəl səsə malik olan Azad bəy Əmirov 1912-ci ildə Şuşada "O olmasın, bu olsun" musiqili komediyasını tamaşaya qoymuşdur. Hacıbəyov öz xatirələrində Əmirovun Məşədi İbad rolunu mükəmməl ifa etdiyini qeyd etmişdir. Onun təşkilatçılığı ilə 1918-ci ildə "Leyli və Məcnun" operasının onuncu ildönümü münasibəti ilə yenidən tamaşaya qoyulmuşdur. Muzeyin Sənədli mənbələr fondunda saxlanılan Azad Əmirova verilmiş 1298 saylı şəhadətnaməyə əsasən o, 1925-ci il iyulun 2-də Azərbaycan Dövlət Darülfünunun tibb fakültəsinin tam kursunu bitirib həkim ixtisasını almışdır (SMF 339/8).

Əmir bəyin yüksək elmi dərəcəli pedaqoji kadrlar hazırlanmasında böyük xidmətləri olmuşdur. O, 1926-cı ildən Azərbaycan Dövlət Universitetində Kimya və biologiya fakültəsində, "İbtidai təhsil", "Məktəbəqədər təlim", "İncəsənət və Fiziki tərbiyə" fakültələrində də müəyyən fənləri, həmçinin Universitetin bütün fakültələrində Mülki müdafiə və ilkin tibbi yardım fənni də tədris olunur. 1930-1931-ci illərdə Universitetin bazası əsasında sahə İnstitutları və o cümlədən ali təhsil müəssisəsi kimi Pedoqoji İnstitut təsis olunmuşdur. Bu vaxt bioloji kafedraların bir hissəsi Tibb İnsitutunun strukturuna, bir hissəsi isə V.İ.Lenin adına Pedoqoji İnstitutun təbiətşünaslıq fakültəsinin tərkibinə daxil olur. Pedoqoji İnstitutda Fiziologiya kafedrasının ilk müdiri dosent Azad bəy Əmirov olmuşdur. A.Əmirov "Əzələ və qan arasında karbohidrat mübadiləsi " mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1936-cı ildə professor elmi adı almışdır. A.Əmirov 1939-cu ildən vəfatına qədər Fiziologiya kafedrasına başçılıq etmişdir.

1. Fotoşəkil. Azad Əmirov(sağda) dostu Zeynəlabdin Məmmədovla.1890-cı illər. SMF inv. 339/1.
2. Fotoşəkil. Qori Muəllimlər Seminariyasının müəllimləri və məzunları. Qori, 1904-cü il. SMF inv. 339/2.
3. Fotoşəkil. Odessadakı Novorossiya Universiteti hüquq faakültəsinin tələbəsi Azad Əmirov. Odessa, 1912-ci il. SMF inv. 339/3.
4. Fotoşəkil. Azad Əmirov. Odessa, 1916-cı il. SMF inv. 339/4.
5. Fotoşəkil. Azad Əmirov. Bakı, 1920-ci illər. SMF inv. 339/5.
6. Fotoşəkil. Azad Əmirov həyat yoldaşı ilə. Bakı, 21 avqust 1923-cü il. SMF inv. 339/6.
7. Fotoşəkil. Rostov-Don şəhərində keçirilmiş fizioloqlar müşavirəsinin iştirakçıları. İkinci sırada sağdan sola: 1-ci İsrafil Hacıyev, 2-ci Abdulla Qarayev, 3-cü Azad Əmirov, 5-ci professor Rojanski, 7-ci Emin Əfəndiyev. 1932-33-cü illər. SMF inv. 339/7.
8. Fotoşəkil. Azərbaycan Tibb İnstitutunda 1925-ci il iyulun 2-də sabiq Azərbaycan Dövlət Darülfünunun tibb fakültəsinin tam kursunu bitirib həkim ixtisasını alan Azad Əmirova verilmiş 1298 №-li şəhadətnamə. 2 iyul 1925-ci il. SMF inv. 339/8.
9. Fotoşəkil. Azad Əmirov. Bakı, 1935-ci illər. SMF inv. 339/9.




*Odessadakı Novorossiya Universiteti hüquq faakültəsinin tələbəsi Azad Əmirov. SMF inv. 339/3*



*Azad Əmirov həyat yoldaşı ilə. Bakı. SMF inv. 339/6.*





*Rostov-Don şəhərində keçirilmiş fizioloqlar müşavirəsinin iştirakçıları. İkinci sırada sağdan sola: 1-ci İsrafil Hacıyev, 2-ci Abdulla Qarayev, 3-cü Azad Əmirov, 5-ci professor Rojanski, 7-ci Emin Əfəndiyev. SMF inv. 339/7.*


XƏLK SIHIJJƏ KOMISSARLЬGЬ
AZƏRBAJCAN TIBB INSTYTY
ŞƏHADƏT NAMƏ

НАРКОМЗДРАВ
Азербайджанский Медицинский
ИНСТИТУТ
СВИДЕТЕЛЬСТВО

*Azərbaycan Tibb İnstitutunda 1925-ci il iyulun 2-də sabiq Azərbaycan Dövlət Darülfünunun tibb fakültəsinin tam kursunu bitirib həkim ixtisasını alan Azad Əmirova verilmiş 1298 saylı şəhadətnamə. SMF 339/8*



*Azad Əmirov. Bakı. SMF inv. 339/9.*



# Əhməd Ağdamski

1884-1954

Görkəmli opera müğənnisi (lirik tenor), teatr və kino aktyoru Əhməd bəy Bəşir bəy oğlu Bədəlbəyli (təxəllüs: Əhməd Ağdamski) kiçik yaşlarından teatr dərnəklərində və xalq tamaşalarında iştirak etmişdir.

Aktyorun səhnə fəaliyyəti 1910-cu ildə "Nicat" xeyriyyə cəmiyyətinin teatr truppasındakı çıxışları ilə başlamışdır. Əvvəlcə qadın rollarını daha sonra kişi rollarını oynamağa başlamışdır. Bundan əlavə, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Teatrda qadın rollarını oynadığı üçün daim təqiblərə məruz qalan Əhmədbəy Bədəlbəyli soyadını və yaşayış yerini dəyişdirmişdir. Bir neçə il Miri adı ilə tanınmışdır. 1920-ci illərin əvvəllərində Qarabağa qayıdan Əhmədbəy 1923-cü ildə Ağdam şəhərində teatr truppası yaradır. O, 1943-cü ildə "Azərbaycanın əməkdar artisti" adına layiq görülmüşdür.

Əhməd Ağdamski 1954-cü il aprelin 1-də vəfat etmişdir.





# Üzeyir Hacıbəyli

1885-1948

Bəstəkar, musiqişünas, SSRİ Xalq artisti, professor, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan EA-nın akademiki, Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli ilk təhsilini Şuşada almışdır. Daha sonda o, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında, 1911-1912-ci illərdə Moskva filarmoniya cəmiyyətində fərdi kurslarda və Peterburq konservatoriyasında təhsil almışdır.

1908-ci ilin yanvarında Ü. Hacıbəyli qardaşları Ceyhun və Zülfüqarla birlikdə H.Z.Tağıyevin teatrında M.Füzulinin eyniadlı poeması əsasında "Leyli və Məcnun" operasını tamaşaya qoymuşdur. Bu tamaşada Ceyhun Hacıbəyli İbn Salam rolunda çıxış emişdir. Bu əsərlə Şərqdə muğam teatrının əsası qoyulur. Əsər böyük rəğbətlə qarşılanır və bu gün də opera səhnəsindən düşmür. Bundan sonra Ü.Hacıbəyli "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", "Harun və Leyla" musiqili muğamlı operalarını yaradır.

Ü. Hacıbəyli yaradıcılığının zirvəsi "Koroğlu" operasıdır. Bu epik qəhrəmanlıq dastanı XVII-XVIII əsrlərdə kəndli üsyanlarından sonra xalq hərəkatı birliyinin klassik musiqi nümunələrilə obrazlı təzahür ifadəsidir. "Koroğlu" operasının musiqi dramaturgiyasını monumental xor səhnələri təşkil edir. Keçmiş dövrün məişəti və adət-ənənələri onun "Ər və arvad", "O olmasın, bu olsun", çox şöhrət tapmış "Arşın mal alan" musiqili komediyalarında öz əksini tapır. Bu əsərlər, xüsusilə "Arşın mal alan" dünyanın bir sıra ölkələrində dəfələrlə oynanılıb. "Arşın mal alan"ın motivləri əsasında 1917, 1945 və 1956-cı illərdə Bakıda, 1937-ci ildə isə Amerikada eyniadlı film çəkilmişdir. O, muğam operalarına və musiqili komediyasına librettoları özü yazırdı. Nizaminin "Sənsiz" və "Sevgili canan" qəzəllərinə yazdığı romanslar ölməz sənət nümunələridir.

O, Azərbaycan Xalq Cümhuriyyətinin (sözləri Əhməd Cavadındır), Azərbaycan SSR-nin Dövlət himninin (sözləri S. Vurğun və S. Rüstəmindir) müəllifidir. Ü.Hacıbəyli 1938-1948-ci illərdə Azərbaycan dövlət konservatoriyasının müəllimi və rektoru olmuşdur.

Ü.Hacıbəyli publisist (jurnalist) kimi də geniş fəaliyyət göstərmişdir. O, "İttihad", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

Üzeyir Hacıbəyli dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. O, 1948-ci il noyabrın 23-də Bakıda vəfat etmişdir.



*Üzeyir Hacıbəyli (orta sırada soldan 4-cü) Moskvada yaşayan müsəlman ziyalıları, gəncləri və ali məktəb tələbələri arasında. Moskva, 1912-ci il. SMF inv. 359/18.*





*Zaqafqaziya (Qori) müəllimlər seminariyasının məzunları. Birinci sırada soldan 1-ci Üzeyir Hacıbəyli, 2-ci Müslüm Maqomayev, 5-ci Hənəfi Terequlov. May, 1904-cü il. SMF inv. 2135.*




*Üzeyir Hacıbəyli və həyat yoldaşı Məleykə xanım. Arxasında rusca "Əziz Əli və Xadicəyə onları sevən Üzeyir və Məleykə Hacıbəyovlardan. Bakı, 1911-ci il" yazılmışdır. 1911-cü il. FNMF inv. 7515.*



*Aleksandr adına Zaqafqaziya müəllimlər seminariyasının II sinfinin tələbələri.*
*İkinci sırada soldan sağa 5-ci H.Terequlov, 7-ci Üzeyir Hacıbəyli, 8-ci M.Maqomayev.*
*14 may 1903-cü il. SMF inv. 2135.*





СВИДѢТЕЛЬСТВО. 1904

Сверхъ того обучался:

*Şəhadətnamə (surəti). Üzeyir bəy Hacıbəyovun Zaqafqaziya Qori müəllimlər seminariyasını bitirməsi barədə. 1 iyun 1904-cü il. SMF inv. 13488/6.*



Прошеніе

*Ərizə: (surəti) Üzeyir bəy Hacıbəyovun Sankt-Peterburq Konservatoriyasına qəbul olunması ilə bağlı ərizə. 25 noyabr 1913-cü il. SMF inv. 13488/2.*

1. Fotoşəkil. Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin ilk tamaşası. Nicat" Maarif Cəmiyyəti dram heyəti tərəfindən Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının librettosu əsasında H.Z.Tağıyev teatrının səhnəsində qoyulmuşdur. 12 yanvar 1908-ci il. SMF inv. 17/1.
2. Fotoşəkil. Üzeyir Hacıbəylinin eyniadlı musiqili komediyası əsasında çəkilmiş "O olmasın, bu olsun" filmindən kadr. Soldan: Xanəndə Xan Şuşinski, tarzən Bəhram Mansurov, kamançaçı Tələt Bakıxanov. 1956-cı il. SMF inv. 156/2
3. Dəvətnamə. Azərbaycan SSR XKS nəzdində İncəsənət işləri üzrə idarə 13 yanvar 1937-ci ildə Ü.Hacıbəylinin "Koroğlu" operasının musiqi materiallarını dinləməyə dəvət edir. SMF inv. 160/15
4. Fotoşəkil. SSRİ Xalq artisti Bülbül (Murtuza Rza oğlu Məmmədov) Üzeyir Hacıbəylinin "Koroğlu" operasında baş rolda. 1938-ci il. SMF inv. 334/7
5. Notlar. Üzeyir Hacıbəyli. "Qələbə bizim olacaq". Sözləri S.Rüstəmindir. Bakı, "Azdövmusnəşr", 1943. 19 səh. SMF inv. 335/30
6. Ü.Hacıbəylinin musiqi nəzəriyyəsi üzrə oxuduğu mühazirələr. 8 vərəq. 1926-cı il. SMF inv. 347/11.
7. Fotoşəkil. Üzeyir Hacıbəyli həyat yoldaşı Mələykə xanımla. Arxa tərəfində Üzeyir Hacıbəylinin avtoqrafı vardır: "Əziz Əli və Xədicəyə onları sevən Üzeyir və Mələykə Hacıbəyovlardan xoş xatirələrlə". 1913-cü il. SMF inv. 353/5.
8. Fotoşəkil. Üzeyir Hacıbəyli Moskvada yaşayan müsəlman ziyalıları, gəncləri və ali məktəblərdə təhsil alan tələbələri arasında. Moskva, 1912-ci il. SMF inv. 359/18.
9. Dəftər. İçərisində Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının ərəb əlifbası ilə yazılmış mətni vardır. 16 səhifə. 1920-ci illər. SMF inv. 386/59
10. Dəvətnamə. Tanınmış musiqi xadimi, tarzən Əhməd Bakıxanov Ü.Hacıbəylinin "Koroğlu" operasının musiqisi ilə tanış olmaq üçün dəvət olunur. 13 yanvar 1937-ci il. SMF inv. 417/3
11. Fotoşəkil. Hüseynqulu Sarabski Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun rolunda. Bakı, 6 may 1908-ci il. SMF inv. 353/4.
12. Fotoşəkil. Azərbaycan SSR Elmlər Akademiyasının ilk tərkibi. Birinci sırada soldan üçüncü Ü.Hacıbəylidir. SSRİ Elmlər Akademiyasının həqiqi üzvləri İ.Meşşaninov və O.Şmidtin Bakıya gəlməsi münasibətilə çəkilmişdir. 1945-ci il. SMF inv. 363/6
13. Fotoşəkil. Hüseynqulu Sarabski Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun rolunda. 25 may 1908-ci il. SMF inv. 378/29.
14. Fotoşəkil. Üzeyir Hacıbəyli yetirmələri arasında. Soldan sağa: Qara Qarayev, Səid Rüstəmov, Niyazi, Əşrəf Həsənov. 1945-ci il. SMF inv. 504/16.
15. Üzeyir Hacıbəyli və həyat yoldaşı Mələykə xanım Niyazini Ümumittifaq dirijorlar müsabiqəsinin ikinci turuna keçməsi münasibətilə təbrik məktubu. Leninqrad, 1946-cı il. SMF inv. 504/57.
16. Fotoşəkil. Üzeyir Hacıbəyli iş masası arxasında. 1930-cu illər. SMF inv. 540/42.
17. Kitab. Lenin ordenli M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı. Bakı, Azərnəşr, 1941-ci il. 48 səhifə. İçərisində Üzeyir Hacıbəylinin fotoşəkli və onun haqqında mətn vardır. SMF inv. 541/41
18. Üzeyir Hacıbəylinin anadan olmasının 55 illiyi münasibətilə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilən təntənəli konsertin proqramı (2 vərəq). Bakı, 18 sentyabr 1940-cı il. SMF inv. 556/23
19. Not yazısı. Ü.Hacıbəyli. "Himno" (əlyazma). Sovet Azərbaycanının 10 illiyinə həsr olunmuşdur. 6 səhifə. Karandaşla yazılmışdır. 1930-cu il. (Himn 24 noyabr 1931-ci ildə Leninqrad filarmoniyasında Azərbaycan musiqisindən ibarət konsertdə böyük müvəffəqiyyətlə ifa olunmuşdur). SMF inv. 570/2.
20. Not dəftəri. Ü.Hacıbəyli. "Kantata" (əlyazma). Xor və simfonik orkestr üçün. İran şairi Firdovsinin 1000 illik yubileyinə həsr olunmuşdur. 14 səhifə. Karandaşla yazılmışdır. 1934-cü il. SMF inv. 570/3.
21. Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" pyesi əsasında səhnələşdirilmiş həvəskar tamaşasının afişası. Rejissor: M.Qayıbov. 17 iyun 1924-cü il. SMF inv. 574/1
22. Üzeyir Hacıbəyli Ümumittifaq xalq çalğı alətləri ifaçıları baxışının münsiflər heyətinin üzvləri və iştirakçıları arasında. Moskva, 1939-cu il. SMF inv. 606/25
23. Böyük Teatrın baş rejissoru N.Mordinov tərəfindən Bakı Dövlət Opera və Balet Teatrına, Ü.Hacıbəyli və İ.Hidayətzadənin adına göndərilmişdir. Teleqramda "Koroğlu" operasının rus dilinə tərcümə edilməsinə icazə verilməsi ilə bağlı teleqram. 1939-cu il. SMF inv. 573/2
24. Mətn. "Azərbaycan Respublikasının Dövlət Himni". Musiqisi: Üzeyir Hacıbəyli, sözləri: Əhməd Cavad (1 vərəq). KMF inv. 622
25. Fotoşəkil. SSRİ xalq artisti, balerina Qəmər Almaszadə Üzeyir Hacıbəylinin "Koroğlu" operasında. 1938-ci il. SMF inv. 669/144
26. Fotoşəkil. Üzeyir Hacıbəylinin ev muzeyində. Ceyhun Hacıbəylinin nəvəsi (Timuçin Hacıbəylinin oğlu) Kleman analığı Paskalla. Bakı, 10 noyabr 2001-ci il. Ölçüsü: 10x15 sm. SMF inv. 680/8



27. Üzeyir Hacıbəylinin "Koroğlu" operasının proqramı. Müfəssəl məzmunu verilmişdir. 7 vərəq. Moskva, 1959-cu il. SMF inv. 685/46.
28. Məramnamə. Çəhrayı rəngli atlas parça üzərində. Bakıda H.Z.Tağıyevin tikdirdiyi teatr binasının 30 illik yubileyi münasibəti ilə "Nicat" cəmiyyəti tərəfindən buraxılmışdır. İçərisində Üzeyir Hacıbəylinin "Ər və arvad" tamaşası haqqında da məlumat vardır. 1913-cü il. SMF inv. 1286 .
29. Azərbaycan Dövlət Teatrının səhnəsində qoyulan Ü.Hacıbəylinin "O olmasın, bu olsun" tamaşasının proqramı. 1918-ci il (əski əlifba ilə). SMF inv. 1647.
30. Proqram. Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşları dram artistləri müdiriyyətinin 1919-cu il mayın 27-də Bakı Müsəlman ziyalılar cəmiyyətinin nəfinə Hökumət Teatrosunda səhnələşdirdiyi "Arşın mal alan" operettası. Rejissoru və Əsgər rolunun ifaçısı Hacıbaba Şərifovdur. SMF inv. 1648.
31. Azərbaycan (əski əlifba ilə) və rus dillərində. Yoldaş Dadaş Bunyadzadə adına Hökumət Türk Teatrosunda 1923-cü il aprelin 1-də Müslüm bəy Maqomayevin şərəfinə Üzeyir bəy Hacıbəylinin "Əsli və Kərəm" operasının tamaşaya qoyulması elan edilir. SMF inv. 1979
32. Afişa. Azərbaycan SSR Xalq Maarif Komissarlığı Tamaşa Müəssisələri idarəsinin M.F.Axundov adına Böyük Dövlət Teatrosu. 1929-1930-cu il mövsümü. Repertuara Ü.Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" əsərləri daxildir. SMF inv. 2014
33. Fotoşəkil. Zülfüqar, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları. 1908-ci il. SMF inv. 2017/23.
34. Proqram. M.F.Axundov adına Böyük Dövlət Opera Teatrosunda Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası. Arxasında həmin operetta haqqında qısa məlumat vardır. 1929-cu il. SMF inv. 2026
35. Afişa. Mirzə Fətəli Axundov adına Böyük Dövlət Opera Teatrosu. Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası. Quruluşçu rejissor: Əli Hüseyn Rzayev. Rollarda: Məşədi İbad – Mirzağa Əliyev, Rüstəm bəy – Məhəmməd Nuri, Gülnaz–Xurşid Qacar, Sənəm – Məryəm Babayeva, Sərvər – Xanlar Haqverdiyev və b. 1929-1930-cu illər. SMF inv. 2026/2
36. Fotoşəkil. M.F.Axundov adına Böyük Dövlət Teatrında "Leyli və Məcnun" operası. 1920-ci il. Arxa tərəfində "Leyli və Məcnun" haqqında məlumat vardır. SMF inv. 2028.
37. Fotoşəkil. M.F.Axundov adına Böyük Dövlət Opera Teatrosunda tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası. Rollarda: Məcnun – Hüseynqulu Sarabski, Hüseynağa Hacıbababəyov, Leyli – Həqiqət Rzayeva. Dirijor və bədii hissə müdiri – Əfrasiyab Bədəlbəyli. Tarzən – Qurban Pirimov. 1930-cu illər. SMF inv. 2028.
38. Proqram. M.F.Axundov adına Böyük Dövlət Opera Teatrosu. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası. Soltan bəy rolunda - aktyor Mirzağa Əliyev. Arxasında "Arşın mal alan" haqqında qısa məlumat vardır. 1929-cu il. SMF inv. 2029/1
39. Afişa. Mirzə Fətəli Axundov adına Böyük Dövlət Opera Teatrosu. Üzeyir Hacıbəylinin "Arşın mal alan" tamaşası. Quruluşçu rejissor– Abbas Mirzə Şərifzadə. Rollarda: Əsgər – Hüseynqulu Sarabski, Cahan xala– Məryəm Babayeva, Süleyman – Məmməd Tağı Bağırov, Vəli – Əhməd Anatollu, Gülçöhrə – Fatma Gəncinskaya, Soltan bəy – Mirzağa Əliyev, Asya – Xurşid Qacar, Telli – Həqiqət Rzayeva. 1930-cu il. SMF inv. 2029/2
40. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Çənlibel səhnəsi. 1938-ci il. SMF inv. 2087/12.
41. Fotoşəkil. Üzeyir Hacıbəylinin Koroğlu operasından səhnələr. 1937-ci il. SMF inv. 2087/13.
42. Fotoşəkil. Üzərində Üzeyir Hacıbəylinin Şuşadakı abidəsi. SMF inv. 2120/26.
43. Fotoşəkil. Qori müəllimlər seminariyasının məzunları. 14 may 1904-cü il. Birinci sırada soldan 1-ci Ü.Hacıbəyli, 2-ci M.Maqomayev, 5-ci H.Terequlovdur. SMF inv. 2135.
44. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından səhnə. Aktyorlar: Ələkbər Hüseynzadə, Xurşid xanım, Məhbubə Paşayeva, Həqiqət Rzayeva. 1930-cu illərin əvvəli. SMF inv. 2163
45. Fotoşəkil. Hüseynağa Hacıbababəyov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun rolunda. 1930-cu illər. SMF inv. 2164.
46. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından səhnə. Rollarda: Gülçöhrə –Xurşid Qacar, Əsgər – Hüseynağa Hacıbababəyov, Asya – Məhbubə Paşayeva, Telli – Həqiqət Rzayeva. 1930-cu illərin əvvəli. SMF inv. 2165.
47. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Artistlər Xurşid xanım, M.Paşayeva, H.Rzayeva və H.Hacıbababəyov. 1930-cu illər. SMF inv. 2165
48. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Artistlər Ə.Hüseynzadə, Xurşid xanım, M.Paşayeva, H.Rzayeva. 1930-cu illər. SMF inv. 2163
49. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Artistlər Ə.Hüseynzadə, Xurşid xanım, M.Paşayeva, H.Rzayeva. 1930-cu illər. Ölçüsü: 12x 9 sm. SMF inv. 2163/2
50. Fotoşəkil. Artist Əhməd Anatollu Ü.Hacıbəylinin "Arşın mal alan" operettasında Vəli rolunda. 1930-cu illər. SMF inv. 2173

51. Fotoşəkil. M.F.Axundov adına Böyük Dövlət Opera Teatrosu. 1934-1935-ci il mövsümünün türk operasının afişası. Repertuarda Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operaları vardır. SMF inv. 2174/8
52. Fotoşəkil. Həqiqət Rzayeva Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasında Əsli rolunda. 1920-ci il. 2 ədəd. SMF inv. 2174/8, 22.
53. Fotoşəkil. Hüseynqulu Sarabski Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasında Kərəm rolunda. 1920-ci illər. SMF inv. 2175.
54. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının xalq artisti Azər Zeynalov – Əsgər, Azərbaycan Respublikasının əməkdar artisti Natəvan Növrəsli – Gülçöhrə rollarında. 1996-cı il. SMF inv. 2177/9
55. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Əsgər rolunda H. Hacıbababəyov, Gülçöhrə rolunda Xurşid xanım. 1930-cu illər. SMF inv. 2183/1
56. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Əsgər rolunda H. Hacıbababəyov, Gülçöhrə rolunda Xurşid xanım. 1930-cu illər. SMF inv. 2183/2
57. Fotoşəkil. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnə. Əsgər rolunda H.Hacıbababəyov, Gülçöhrə rolunda Xurşid xanım. 1930-cu illər. SMF inv. 2183/3
58. Fotoşəkil. Ü.Hacıbəyli, H.Sarabski, M.Maqomayev, H.Terequlov. Bakı, 1917-ci il. SMF inv. 2186.
59. Fotoşəkil. Aktyorlar Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Əhməd Ağdamski "Leyli və Məcnun" tamaşasında. 1920-ci il. SMF inv. 2201.
60. Fotoşəkil. H.Sarabski "Arşın mal alan" tamaşasında Əsgər rolunda. 1930-cu il. SMF inv. 2206
61. Fotoşəkil. Nurməmməd Məmmədov "Arşın mal alan" tamaşasında Cahan xala rolunda. 1924-ci il. SMF inv. 2207/2
62. Fotoşəkil. Artist Ələkbər Hüseynzadə Ü.Hacıbəylinin "Arşın mal alan" operettasında Soltan bəy rolunda. 1930-cu illər. SMF inv. 2208
63. Fotoşəkil. Aktyor Ələkbər Hüseynzadə Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında Soltan bəy rolunda. 1930-cu illər. SMF inv. 2208/2
64. Fotoşəkil. Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasından səhnə. SMF inv. 2209
65. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından səhnə. 1920-ci illər. SMF inv. 2209/91.
66. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından səhnə. 1920-ci illər. SMF inv. 2209/90.
67. Fotoşəkil. Sürəyya Qacar və Hüseynağa Hacıbababəyov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında. 1930-cu illər. SMF inv. 2210.
68. Fotoşəkil. Nurməmməd Məmmədov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli rolunda. 1920-ci illər. SMF inv. 2211.
69. Fotoşəkil. Ü.Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası. Rollarda: Gülnaz – Xurşid xanım, Sərvər – H.Hacıbababəyov. 1930-cu il. SMF inv. 2225
70. Fotoşəkil. Hüseynağa Hacıbababəyov və Xurşid Qacar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasında Sərvər və Gülnaz rollarında. 1930-cu il. SMF inv. 2226.
71. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının sonuncu səhnəsi. Əsgər rolunda – Hüseynqulu Sarabski. 1930-cu il. SMF inv. 2228.
72. Fotoşəkil. Ü.Hacıbəylinin "Koroğlu" operasından bir səhnə. Moskvada Azərbaycan incəsənəti dekadası zamanı. 1938-ci il. SMF inv. 2230
73. Fotoşəkil. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından səhnə. Telli – Gülxanım Səfərli, Vəli – Cəfərov (Salyan Dövlət Teatrı). 1945-ci il. SMF inv. 2808
74. Fotoşəkil. "Arşın mal alan" musiqili komediyasından səhnə. 1945-ci il (Salyan Dövlət Teatrı). SMF inv. 2810
75. Fotoşəkil. Terequlovlar nəslinin nümayəndələri. 2-ci sırada əyləşənlər: soldan 4-cü Ü.Hacıbəylinin həyat yoldaşı Məleykə xanımdır. 1916-cı il. SMF inv. 3840.
76. Kitab (rus dilində). Üzeyir Hacıbəyli. Azərbaycan Xalq musiqisinin əsasları. Bakı, 1945. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası inv. 5115.
77. Proqram. Bunyadzadə adına Dövlət Türk Akademik Dram teatrosu. Qurban Pirimovun musiqi fəaliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarından parçalar. 29 aprel 1929-cu il. SMF inv. 5384.
78. Fotoşəkil. Üzeyir Hacıbəyli və həyat yoldaşı Məleykə xanımla birlikdə. 1913-cü il. FNMF inv. 7515.
79. Fotoşəkil. Ü.Hacıbəyli Azərbaycam Dövlət Konservatoriyasının məzunlarını təbrik edərkən. 1940-cı illər. FNMF inv. 7518
80. Fotoşəkil. Ü.Hacıbəyli tərəfindən təşkil edilmiş Azərbaycan Dövlət Xoru. Mərkəzdə kollektivin bədii rəhbəri Üzeyir Hacıbəylidir. 1938-ci il. FNMF inv. 7520.
81. Fotoşəkil. Üzeyir Hacıbəyli Moskvada Azərbaycan Mədəniyyəti günlərində.1938-ci il. FNMF inv. 7523.
82. Fotoşəkil. Üzeyir Hacıbəyli təşkil etdiyi ilk Azərbaycan musiqi məktəbinin məzunları arasında. 1938-ci il. FNMF inv. 7524



83. Fotoşəkil. M.İ.Kalinin SSRİ xalq artisti Üzeyir Hacıbəyliyə Lenin ordenini təqdim edir. Moskva, aprel, 1938-ci il. FNMF inv. 7527
84. Fotoşəkil. Üzeyir Hacıbəyli Zaqafqaziya (Qori) müəllimlər seminariyasına daxil olduğu ildə. 1899-cü il. FNMF inv. 7529.
85. Fotoşəkil. Üzeyir Hacıbəyli qırğız bəstəkarları ilə. Aprel, 1938-ci il. FNMF inv. 7531
86. Fotoşəkil. Üzeyir Hacıbəyli. 1946-cı il. FNMF inv. 7532
87. Fotoşəkil. Üzeyir Hacıbəyli sovet bəstəkarları ilə. Moskva, 1947-ci il. FNMF inv. 7533
88. Fotoşəkil. Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasının məzunları arasında. 1940-cı illər. FNMF inv. 7534
89. Üzeyir Hacıbəyli Nəşri-maarif cəmiyyətinin Bibi-Heybətdəki fəhlə gənclər məktəbinin şagirdləri arasında. 1908-ci il. FNMF inv. 7535.
90. Fotoşəkil. Üzeyir Hacıbəyli kabinetdə royal arxasında. 1946-cı il. FNMF inv. 7536
91. Fotoşəkil. Üzeyir Hacıbəyli "Koroğlu" operası üzərində işləyərkən. 1932-1936-cı illər. FNMF inv. 7537.
92. Fotoşəkil. Üzeyir Hacıbəyli hərbi hissələrin birində. 1939-cu il. FNMF inv. 7538
93. Fotoşəkil. Üzeyir Hacıbəyli hərbi hissənin yay düşərgəsində. 1939-cu il. FNMF inv. 7539.
94. Fotoşəkil. Üzeyir Hacıbəyli Moskva Akademik Bədaye Teatrının 40 illik yubileyində. 1938-ci il. FNMF inv. 7540
95. Fotoşəkil. Üzeyir Hacıbəyli Stalin mükafatı komitəsi (1940-1952) üzvləri arasında. Moskva. Ölçüsü: 9x12 sm. FNMF inv. 7541
96. Fotoşəkil. Fotoşəkil. Üzeyir Hacıbəyli öz iş otağında. Oktyabr, 1938-ci il. FNMF inv. 7542.
97. Fotoşəkil. Üzeyir Hacıbəyli və Ramazan Xəlilov (1975-1999-cu illərdə Üzeyir Hacıbəylinin xatirə ev muzeyinin direktoru). Moskva, fevral, 1940-cı il. FNMF inv. 7543.
98. Fotoşəkil. Üzeyir Hacıbəyli yazıçı M.İbrahimovla SSRİ Ali Sovetinin sessiyası zamanı. Moskva , 1939-cu il. FNMF inv. 7544.
99. Fotoşəkil. Üzeyir Hacıbəyli həyat yoldaşı Məleykə xanımla. Moskva, 1923-cü il. FNMF inv. 7545.
100. Fotoşəkil. Üzeyir Hacıbəyli M.F.Axundov adına Opera və Balet Teatrının kollektivi arasında. 1922-ci il. FNMF inv. 7546.
101. Fotoşəkil. Üzeyir Hacıbəyli SSRİ incəsənət ustaları arasında. 1945-ci il. Ölçüsü: 9x12 sm. FNMF inv. 7548.
102. Fotoşəkil. Üzeyir Hacıbəyli gənc xanımı Məleykə Terequlova və ailəsinin digər üzvləri ilə. 1916-cı il. FNMF inv. 7549.
103. Fotoşəkil. Üzeyir Hacıbəyli bəstəkar Soltan Hacıbəyova diplom təqdim edir. 1946-cı il. FNMF inv. 7550.
104. Fotoşəkil. Üzeyir Hacıbəyli. 1920-ci il. FNMF inv. 7551.
105. Fotoşəkil. Azərbaycan prospektindəki (kecmiş Hüsü Hacıyev küçəsi) 1 №-li ev. Ü.Hacıbəyli ömrünün son günlərini burada keçirmişdir. FNMF inv. 7552
106. Fotoşəkil. Üzeyir Hacıbəyli gənclik illərində. 1915-ci il. FNMF inv. 7753.
107. Fotoşəkil. Üzeyir Hacıbəyli bəstəkarlar Əşrəf Abbasov və Süleyman Ələsgərovla. 1940-cı illər. FNMF inv. 7553
108. Fotoşəkil. Üzeyir Hacıbəyli Qori müəllimlər seminariyasının müəllimləri arasında. Bəstəkarın sağında - həkim, pedaqoq, Azərbaycanın ilk fizioloqlarından biri Azad Abbas oğlu Əmirovdur. 1916-cı il. FNMF inv. 7554.
109. Fotoşəkil. Üzeyir Hacıbəylinin ev muzeyinin açılışı. Bakı, 1975-ci il. FNMF inv. 9025
110. Fotoşəkil. "Səadət" məktəbinin müəllim və şagirdləri. Mərkəzdə Ü.Hacıbəyli. Bakı, 1911-ci il. FNMF inv. 10708.
111. Fotoşəkil. Bəstəkar Üzeyir Hacıbəyli və müğənni Bülbül. 1940-cı il. FNMF inv. 13805
112. Fotoşəkil. Üzeyir Hacıbəylinin 85 illik yubileyinin qeyd olunması. Bakı, 1970-ci il. FNMF inv. 15416
113. Fotoşəkil. Üzeyir Hacıbəylinin 90 illiyinə həsr olunmuş təntənəli iclas. 1975-ci il. FNMF inv. 15113
114. Üzeyir Hacıbəylinin tərtib etdiyi "Türk-rus və Rus-Türk" lüğəti. 1907-ci il. FNMF inv. 19847.
115. Ağ büllur, kobalt və süd rəngli şüşədən. Üzərində Ü.Hacıbəylinin portreti, "Koroğlu", "Leyli və Məcnun", "Arşın mal alan" əsərlərindən səhnələr. Müəllifi: rəssam Səkinə Şahsuvarova. Ü.Hacıbəylinin anadan olmasının 70 illiyi münasibətilə hazırlanmışdır. 1955-ci il. HXƏF inv. 703.
116. Kitab. Ü.Hacıbəyli. O olmasın, bu olsun (əski əlifba ilə). 71 səhifə. 1918-cı il. HXƏF inv. 740
117. Kitab. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının librettosu (ərəb əlifbası ilə). 2-ci nəşr. 1916-cı il, 57 səhifə. Bakıda Orucov qardaşlarının mətbəəsində çap olunmuşdur. Üzərində "Müəllifin icazəsi olmadan pyesin səhnəyə qoyulması qadağandır" yazılmışdır. HXƏF inv. 741
118. Kitab. Ü.Hacıbəyli. "Koroğlu" operasının librettosu. Cildi üzərində Koroğlu at üstündə təsvir olunub. 1938-ci il Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyü münasibətilə nəşr olunmuşdur. Rus dilində, 73 səhifə. HXƏF inv. 742.
119. Kitabça. Bakı teatrları inv. 1. 6-9 noyabr 1936-cı il. M.F.Axundov adına Azərb.SSR Dövlət Opera və Balet Teatrosu. Repertuara Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası və "Leyli və Məcnun " operası daxildir. HXƏF inv. 930
120. "Leyli və Məcnun" operasının librettosu (rus dilində). Əlahəzrət İmperatorun Qafqazdakı canişininin dəftərxana mətbəəsində nəşr olunmuşdur. 1908-ci il. HXƏF inv. 930/a.

121. Proqram. Oktyabr inqilabının 28-ci ildönümünə həsr olunmuş konsert. Konsertdə Üzeyir Hacıbəylinin "Zəfər marşı" səsləndirilmişdir. 1945-ci il. HXƏF inv. inv. 953
122. Bakı teatroları inv. 12. 1-15 aprel 1937-ci il. Azərbaycan və rus dillərində. İçərisində Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının proqramı vardır. Rollarda: Leyli – Həqiqət Rzayeva, Məcnun – Respublikanın Xalq artisti Hüseynqulu Sarabski. HXƏF inv. 966.
123. Proqram. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası. Soltan bəy rolunun ifaçısı aktyor Mirzağa Əliyevin yaradıcılıq fəaliyyətinin 25 illiyinə həsr olunub. 27 aprel 1925-ci il (ərəb əlifbası ilə). HXƏF inv. 973.
124. Tunc üzərində döymə. Üzeyir Hacıbəylinin barelyefi. Medal formasında. Bir üzündə Ü.Hacıbəyli, digər üzündə Koroğlu at üstündə təsvir olunub. Rəssam Pyotr Xryunov. 1963-cü il. HXƏF inv. 1949.
125. Kitab. Üzeyir Hacıbəyli. Arşın mal alan. İlk səhifəsində Ü.Hacıbəylinin şəkli vardır. Azərbaycan SSR XKS yanında incəsənət işçiləri idarəsinin nəşriyyatı. 1938-ci il. 77 səhifə (rus dilində). HXƏF inv. 1968
126. Notlar. Ü.Hacıbəyli. Aşıqsayağı (skripka, violonçel və fortepiano üçün). İçərisində Ü.Hacıbəylinin avtoqrafı var: "Koroğlu" operasının müqtədir rejissoru və sovet səhnəsinin qəlbi yaradıcılıq atəşilə dolu olan mədəniyyət xadimi İsmayıl Hidayətzadəyə bir yadigar. Ü.Hacıbəyli. 8.12.1937-ci il". Bakı, 1937-ci il. 5 not vərəqi. HXƏF inv. 1972
127. Proqram. M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Koroğlu" operası. Quruluşçu rejissor: SSRİ Xalq artisti İ.Hidayətzadə. Dirijor: Azərbaycan SSR Əməkdar İncəsənət xadimi Niyazi. Rollarda: Rövşən (Koroğlu) —Bülbül. Nigar—Sona Mustafayeva. 1940-cı illər. HXƏF inv. 1978.
128. II Azərbaycan xalq yaradıcılığı olimpiadasının iştirakçısı Yegizarov Davuda verilmişdir. Üzərində Üzeyir Hacıbəylinin imzası vardır. 1945-ci il. HXƏF inv. 1211.
129. Proqram. Üzeyir Hacıbəylinin "Koroğlu" operası M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində. 1938-ci il. Koroğlu – SSRİ Xalq artisti Bülbül, Nigar – Səltənət Quliyeva. Quruluşçu rejissor: SSRİ Xalq artisti İsmayıl Hidayətzadə. HXƏF inv. 1413.
130. Albom. Üzeyir Hacıbəylinin "Koroğlu" operasının səhnə fotoşəkilləri. 1937-ci il. HXƏF inv. 2117.
131. Məramnamə. Moskvanın 800 illiyinə həsr olunmuş konsertdə Ü.Hacıbəylinin "Aşıq mahnısı" ifa edilmişdir. 1941-ci il. HXƏF inv. 965
132. Notlar. Üzeyir Hacıbəyli "Çağırış". Sözləri Sura Əliyevanındır. 7 səhifə. Bakı, "Azdövmusnəşr", 1941-ci il. HXƏF inv. 4515
133. Notlar. Üzeyir Hacıbəyli. "Şəfqət bacısı". Sözləri S.Vurğunundur. 4 səhifə. Bakı, "Azərnəşr", 1942-ci il. HXƏF inv. 4516
134. Not kitabı. Zəfər bizimdir. Bakı, "Azərnəşr", 1943-cü il. Üzeyir Hacıbəylinin "Yaxşı yol" mahnısı. Sözləri: Süleyman Rüstəmindir. HXƏF inv. 4517
135. Səhnə papağı. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında Vəli personajına aiddir. 1950-1960-cı illər. Aktyor Lütfəli Abdullayevə məxsusdur. HXƏF inv. 5247
136. Üzeyir Hacıbəyli adına Azərbaycan SSR Dövlət mükafatı laureatı medalı. KTFMF inv. 606
137. Üzeyir Hacıbəyli adına Azərbaycan SSR Dövlət mükafatı laureatı medalı. KTFMF inv. 652.
138. Yubiley nişanı. Üzeyir Hacıbəyli adına simfonik orkestr - 60 il. KTFMF inv. 655.
139. Üzərində Üzeyir Hacıbəylinin tuncdan barelyefi və "Üzeyir Hacıbəyov 1885-1948" yazıları vardır. Arxa tərəfində Koroğlu at üstündə təsvir olunmuşdur. KTFMF inv. 809.
140. Üzeyir Hacıbəyov 30.06.1995. Bakı Poçtamtı tərəfindən bəstəkarın 110 illiyi münasibətilə buraxılmışdır. KTFMF inv. 2295.
141. Fotoşəkil. Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppasının aktyorları. Bakı, 1918-1919-cu ilin teatr mövsümü. Orta sırada soldan 3-cüdən başlayaraq: M.Olenskaya, M.Maqomayev, Ü.Hacıbəyli, Z.Hacıbəyli, H.Sarabski. KMF inv. 87/28.
142. Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin portreti (1885-1948). KMF inv. 87/37.
143. Zaqafqaziya müəllimlər seminariyasının pedaqoji şurası tərəfindən seminariyanın yetirməsi Üzeyir Hacıbəyliyə verilmiş Şəhadətnamə. 1904-cü il. KMF inv. 562.
144. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 1916-cı il nəşrinin son vərəqi. Əlahəzrət İmperatorun Qafqazdakı canişini tərəfindən əsərin ölkə ərazisində səhnələşdirilməsinə icazə verilməsi barədədir (Tiflis, 26 oktyabr 1913-cü il). Ölçüsü:7x12 sm. KMF inv. 607/2
145. Üzeyir Hacıbəyli aktyor Hüseynqulu Sarabskiyə göndərdiyi məktub. Sankt-Peterburq, 31 iyul 1943-cü il. KMF inv. 598.
146. Afişa (fotosurət). Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası. Paris, 1925-ci il. Fransız dilində. Gülçöhrə rolunda—Thilda Passani. KMF inv. 607/4
147. Fotosurət. Üzeyir Hacıbəyli. "Arşın mal alan"dan səhnə. Rusiya, Leninqrad (Sankt-Peterburq). 1990-cı illər. Ölçüsü: 27x20 sm. KMF inv. 607/8



148. Afişa (fotosurət). Üzeyir Hacıbəyli. "Arşın mal alan". Təbriz, mart, 1945-ci il (ərəb əlifbası ilə). KMF inv. 607/19
149. Fotoşəkil. Hüseynqulu Sarabski və Mirzağa Əliyev Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında. 1920-ci illər. KMF inv. 608/3
150. Qrammafon valı. Üzeyir Hacıbəyli. "Məşədi İbad" musiqili komediyası. Riqa şəhərindəki "Qrammafon" məhdud cəmiyyətində istehsal olunmuşdur. EF inv. 5184.
151. Üzeyir bəy Hacıbəyovun şəxsi işi (surəti). Xüsusi taxta qutuya yerləşdirilib. SMF inv. 13488/1.
152. Ərizə: (surəti) Üzeyir bəy Hacıbəyovun Sankt-Peterburq Konservatoriyasına qəbul olunması ilə bağlı ərizə. 25 noyabr 1913-cü il. SMF inv. 13488/2.
153. Ərizə: (surəti) Üzeyir bəy Hacıbəyovun Sankt-Peterburq Konservatoriyasına qəbul olunması ilə bağlı ərizə. 4 yanvar 1914-cü il. SMF inv. 13488/3.
154. Üzeyir bəy Hacıbəyova məxsusdur (surəti) doğum haqqında şəhadətnamə. SMF inv. 13488/4.
155. Şəhadətnamə (surəti). Üzeyir bəy Hacıbəyovun "bəy" sinfinə mənsub olduğunu təstiqləyən sənəd. 19 avqust 1897-ci il. SMF inv. 13488/5.
156. Şəhadətnamə (surəti). Üzeyir bəy Hacıbəyovun Zaqafqaziya Qori müəllimlər seminariyasını bitirməsi barədə. 1 iyun 1904-cü il. SMF inv. 13488/6.
157. Üzeyir bəy Hacıbəyova məxsus Pasport (surəti). SMF inv. 13488/7.
QƏZETLƏR:
158. Qəzet. "İrşad" inv. 61, 5 aprel 1907-ci il. Filankəs. "Ordan-burdan". "Üçüncü dəllək". SMF inv. 489/12.
159. Qəzet. "İrşad" inv. 97, 25 may 1907-ci il. Filankəs. "Ordan-burdan". "Sədini tənqid, Hafizi tərif". SMF inv. 489/11
160. Qəzet. "İrşad" inv. 111, 14 iyun 1907-ci il. Filankəs. "Ordan-burdan". "Əşar" (tənqidi felyeton). SMF inv. 489/10
161. Qəzet (əski əlifba ilə). "Tərəqqi" inv. 5, 7 yanvar 1909-cu il. Üzeyir. "İdarəyə məktub". SMF inv. 489/1
162. Qəzet. "Kommunist", 15 may 1934-cü il. Üzeyir Hacıbəyli. "İrəliyə doğru ilk addım". R.M.Qliyerin "Şahsənəm" operasının ilk tamaşası münasibətilə yazılmışdır. SMF inv. 2083
163. Qəzet. "Kommunist" inv. 270, 24 noyabr 1935-ci il. Üzeyir Hacıbəyli. "Aprel mənə imkan və şərait yaratdı". SMF inv. 2071
164. Qəzet. "Бакинский рабочий" inv. 173, 28.VII.1938-ci il. Ü.Hacıbəyli. "Müslüm Maqomayevin xatirəsinə" . SMF inv. 2098
165. JURNALLAR:
166. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 4, 27 yanvar 1908-ci il. Ü.Hacıbəyli. "Neft mədənlərində işsiz fəhlələr" və "Üçüncü müsəlman ictimainə dair". SMF inv. 1958/4
167. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 18, 5 may 1908-ci il. Ü.Hacıbəyli. "Ordan-burdan". SMF inv. 1958/18
168. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 19, 12 may 1908-ci il. Ü.Hacıbəyli. "Məclisi məbusanımızdə nə olur?". SMF inv. 1958/19
169. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 26, 30 iyun 1908-ci il. Ü.Hacıbəyli. "İrəvanda darülfünun". SMF inv. 1958/26
170. Jurnal (ərəb əlifbası ilə). Molla Nəsrəddin inv. 30, 21 iyul 1908-ci il. Ü.Hacıbəyli. "Bir dəlinin dəftərindən" və "Yarım günlük səyahətim". SMF inv. 1958/30
171. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 34, 25 avqust 1908-ci il. Ü.Hacıbəyli. "Konsulxanada İran vəziyyəti". SMF inv. 1958/34
172. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 40, 4 oktyabr 1908-ci il. Ü.Hacıbəyli. "Biz müsəlmanların halı hamıdan yaman idi". SMF inv. 1958/40
173. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 42, 20 oktyabr 1908-ci il Ü.Hacıbəyli. "İranda inqilab".
174. SMF inv. 1958/42
175. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 45, 10 noyabr 1908-ci il Ü.Hacıbəyli "Gözəl bir təşəbbüs" və "Yığıncağın nəticəsi". SMF inv. 1958/45
176. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 46, 18 noyabr 1908-ci il. Ü.Hacıbəyli. "Xəbərdarlıq" və "Məzhəkə". SMF inv. 1958/46
177. Jurnal (əski əlifba ilə). Molla Nəsrəddin inv. 47, 24 noyabr 1908-ci il.Ü.Hacıbəyli. "Hökumət bəyannaməsi və Duma" və "Qaranlıqlaşır". SMF inv. 1958/47
178. "Nicat" cəmiyyəti məcmuəsinin bir vərəqi (inv. 14). Əski əlifba ilə Ü.Hacıbəylinin "Ər və arvad" operettasının librettosu dərc edilmişdir. 13 aprel 1912-ci il. Ölçüsü: 34x22 sm. SMF inv. 2097.
179. Bəstəkar M.Maqomayev və "Şah İsmayıl" operasının iştirakçılarından H.Hacıbababəyov, Terequlov, Q.Pirimov, Xurşid xanım Qacaq, A.M.Şərifov, H.Rzayeva. 1929-1931-ci illər. Ölçü:15x28,5 sm. SMF inv. 2161.
180. Ü.Hacıbəyovun "Arşın mal alan" operattasından səhnə. Artistlər Ə.Hüseynzadə, Xurşud xanım, M.Paşayeva, H.Rzayeva. Ölçü: 12x9 sm. SMF inv. 2163.

181. Üzeyir Hacıbabayov, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun rolunda. Ölçü: 12x9 sm. SMF inv. 2164.
182. Ü.Hacıbəyovun "Arşın mal alan" operattasından səhnə. Artistlər Xurşud xanım, M.Paşayeva, H.Rzayeva və H.Hacıbababəyov. Ölçü: 9x12 sm. SMF inv. 2165.
Üzeyir Hacıbəylinin Anası Şirin xanıma məxsus əşyalar
183. Süfrə. Tirmə. Ağ, qırmızı, sürməyi zolaqlı, üstü naxışlı. Dörd kənarında bafta və qızılı saçaq. Astarı qanovuz. Ölçüsü: 139x96 sm. EF inv. 8844.
184. Parça. Yerliyi ağ, zərli, üstü qırmızı gülməxmər. Ölçüsü: 156x48 sm. EF inv. 8845.
185. Boxça. Parçası-fay. Dalğavari nəbati naxışlı. Köbəsi-qırmızı, astarı-iri güllü çit parça. Ölçüsü: 83x90 sm. EF inv. 8846.
186. Boxça. Rusiya fabrikinin çiti. Nəbati naxışlı. Köbəsi qara, astarı qırmızı çit. Ölçüsü: 83x90 sm. EF inv. 8847.
187. Boxça. Qələmkar. Köbəsi– zolaqlı ipək, astarı-naxışlı çit. Ölçüsü: 107x87 sm. EF inv. 8848.
188. Süfrə. Tirmə. Yerliyi qırmızı, üstü buta naxışlı. İki baş tərəfində buta və nəbati naxışlı haşiyə. Ölçüsü: 572x134 sm. EF inv. 8849
189. Quranqabı. Üz səthi muncuq və gümüşü sapdan güləbətin tikmə. İçi–naxışlı qırmızı flanel, astarı– qırmızı çit. XIX əsrin II yarısı. Ölçüsü: 27x18 sm. EF inv. 8850
190. Döşəkağı. Ağ bez. H.Z.Tağıyev fabrikinin istehsalı. 1920-ci il. Ölçüsü: 220x127 sm. EF inv. 8851
191. Cecim. Keci sapı. Yer xanası. Zoğalı, mavi, qara və yaşıl zolaqlı, həndəsi naxışlı. Ölçüsü: 10 x 1 m. EF inv. 8852.
192. Köynək. Moruq rəngli qanovuzdan, qoltuğunun altında yaşıl qanovuzdan xişdək, qollarının ağzında sərmə və saçaqlı çəhrayı bafta. Ölçüsü: 51x150 sm. EF inv. 8853.
193. Köynək. Kərpic rəngli qanovuzdan, nəbati naxışlı, bilərzik ilmə düyməli, xişdəyi bənövşəyi qanovuz. Ölçüsü: 65x160 sm. EF inv. 8854.
194. Köynək. Üstü – naxışlı göy rəngli, kürəyi – üstü xırda ağ naxışlı sürməyi çitdən. Xişdəyi boz rəngli ipək. Qollarının ağzında qızılı krujeva, boynunda və yaxasında sərmə. EF inv. 8855.
195. Atmaqol (bir cüt). Üstü – buta naxışlı tirmə. Kənarında sərmə və bafta. Maşın tikişi. Astarı zər butalı yaşıl ipək və moruq rəngli nazik yun. Ölçüsü: uzunluq-77 sm. EF inv. 8856.
196. Atmaqol (bir cüt). Üstü – buta naxışlı qırmızı məxmərdən. Astarı yaşıl məxmər, köbəsi yaşıl qanovuz. Kənarında sərmə və qızılı bafta. Ölçüsü: uzunluq-72 sm. EF inv. 8857.
197. Çəpkən. Atmaqolu bənövşəyi rəngli məxmərdən. Astarı və köbəsi yaşıl məxmər və qırmızı çit. Canlığının köbəsi qırmızı qanovuz. Ölçüsü: uzunluq-71 sm. EF inv. 8858.
198. Çəpkən. Qırmızı və sarı zolaqlı, gül naxışlı tirmədən. Astarı qırmızı qanovuz, köbəsi qara məxmər. Yaxası, ətəyi və qollarının kənarında sərmə və ensiz qara bafta. Ölçüsü: uzunluq-54 sm. EF inv. 8859.
199. Çəpkən. Tirmə, qanovuz, satin, sərmə, qıvrım, metal, firuzə. Əl tikişi. Ölçüsü: uzunluq-54.5. EF inv. 8960
200. Tuman. 10 taxta açıq yaşıl zərxara parçadan, qırçınlı. Tumanbağı – keci sapından, sarı rəngdə. Ətəyində sərmə, qırçınlı haşiyədə buta naxışlı bafta. Əl işi. Ölçüsü: uzunluq-100 sm, en- 10 taxta (1 taxta 47 sm-dir). EF inv. 8860.
201. Tuman. 12 taxta qırmızı məxmərdən. Lifəsi– qırmızı qanovuz, ətəyi– qırmızı satin, üzərində sırıma və qızılı krujeva. Ölçüsü: uzunluq-92 sm, en- 12 taxta. EF inv. 8863.
202. Geyim dəsti: a) Tuman. Mavi, güllü zolaqlı atlasdan. Ətəyinə buta naxışlı çit tikilib. Əl işi. EF inv. 8861. b) Arxalıq. Mavi, güllü zolaqlı atlasdan. Yaxasında 5 ədəd basma düymə, kürək hissəsində krujeva. EF inv. 8862.
203. Köynək. Açıq yaşıl atlasdan. Kürəyi və ətəyi güllü kisəyidən. EF inv. 8864.





*Rəşid bəy Mehmandarov*

*1885-1938*

Rəşid bəy Kərim bəy oğlu Mehmandarov Şuşa real məktəbini bitirəndən sonra Tiflis Hərbi Məktəbinə daxil olmuş, daha sonra isə Kiyevdə oxumuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində zabit olan Rəşid bəy Mehmandarov Azərbaycan sovetləşəndən sonra təcrübəli mütəxəssis kimi xalq maliyyə komissarlığında, sənaye və dövlət banklarında, toxuculuq sənayesi və sair sahələrdə çalışmışdır. 1937-ci ildə Xalq Daxili İşlər Komissarlığı tərəfindən Rəşid bəy həbs olunmuş, 1938-ci il yanvarın 14-də güllələmə cəzasına məhkum edilmişdi.

1. Bakı Şurasının Mənzil şöbəsində Rəşid Mehmandarova onun beşotaqlı mənzilinin müsadirə edilməyəcəyi və oraya əlavə sakinin yerləşdirilməcəyi haqqında verilmiş 16 saylı arayış. SMF inv. 365/1.
2. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığında Rəşid Mehmandarova verilmiş 7434 saylı şəxsiyyət vəsiqəsi. 1922-ci il. SMF inv. 365/3.
3. Sovet Ticarət İşçiləri İttifaqında Rəşid Mehmandarova verilmiş üzvlük kitabçasının üz qabığı. SMF inv. 365/4.
4. Fotoşəkil. Rusiya Sənaye-Ticarət Bankı Bakı şöbəsinin işçiləri. Ortada müdiri M. Abezquz əyləşib. SMF inv. 365/5.
5. Fotoşəkil. Rusiya Sənaye-Ticarət Bankının müdiriyyəti hamilik etdiyi Stepin adına Qırmızıbayraqlı 2-ci Qafqaz atıcı diviziyasının 2-ci artilleriya divizionun təmsilçiləri ilə birlikdə. Bakı. SMF inv. 365/6.
6. Fotoşəkil. Bakıda bank işçiləri üçün inşa edilən yaşayış evinin təməlqoyma mərasiminə yığışan Rusiya Sənaye-Ticarət Bankının əməkdaşları. 1924-cü il. SMF inv. 365/7.
7. Fotoşəkil. Bakıda bank işçiləri üçün inşa edilən yaşayış evinin təməlqoyma mərasininə yığışan Rusiya Sənaye-Ticarət Bankının əməkdaşları. Bakı, 1924-cü il. SMF inv. 365/8.
8. Fotoşəkil. SSRİ Sənaye-Ticarət Bankı Azərbaycan şöbəsinin işçiləri. Bakı, 1924-25-ci illər. SMF inv. 365/9.
9. Fotoşəkil. Rusiya Sənaye-Ticarət Bankı Bakı şöbəsinin işçiləri. İkinci sırada sağdan 6-cı müdiri Baqakovdur. Bakı, 1924-cü il. SMF inv. 365/6.
10. Fotoşəkil. SSRİ Sənaye-Ticarət Bankı Azərbaycan şöbəsinin işçiləri. Bakı, 1925-ci ilə qədər. SMF inv. 365/11.
11. V. Orlovun tərtib etdiyi "1905-ci il" adlı xatirələr və məqalələr toplusu. Moskvanın "Raboçaya Qazeta"nın nəşridir. Moskva, 1925-ci il. 254 səhifə. SMF inv. 365/12.
12. Kitab. 26 Bakı komissarlarının xatirəsinə yazılmış poema və şeirlər. Məcmuda əsərləri təqdim edilən rus şairlərinin adları sadalanır. Beynəlxalq İnqilab Mübarizlərinə Yardım Cəmiyyətinin MK-sı Bakıda rusca nəşr etdirmişdir. Bakı, 1928-ci il. SMF inv. 365/14.
13. Fotoşəkil. SSRİ Dövlət Bankı Azərbaycan şöbəsinin işçiləri. Soldan sağa: bankın ilk müdiri Kaplan, Rəşid Mehmandarov, müdir müavini Rozenberq, müdiri P. Laktionov, B. Lukodyanov. Bakı, 25 yanvar 1929-cu il. SMF inv. 365/15.
14. "Ekonomiçeskiy vestnik Azerbaydjana" jurnalının 1-ci sayı. Yanvar, 1929-cu il. 111 səhifə. SMF inv. 365/16.
15. Kitab. SSRİ Dövlət Bankı İdarə Heyətinin 1929-cu il martın 23-dən 31-dək təmimnamələri. Moskvada SSRİ Dövlət Bankının nəşriyyatında buraxılmışdır. Moskva, 1929-cu il. Üzü yoxdur. 130-144 səhifə. SMF inv. 365/17.
16. Müttəfiq respublikaların Xalq Maliyyə Komissarlıqlarına təlimatı (təmimnamə). Rus dilindədir. 1930-cu il. 16 səhifə. SMF inv. 365/18.
17. S. Kitabça.Orconikidzenin Beşilliyin üçüncü ili sosialist sənayesi işçilərinin vəzifələri mövzusunda (sosialist sənayesi işçilərinin I Ümumittifaq konfransında nitqi. 31 yanvar 1931-ci il). Moskvada nəşr edilmişdir. Rus dilindədir. 38 səhifə. SMF inv. 365/19.
18. Kitab. M. Kalinin. SSRİ Ali Sovetinə seçkiləri haqqında əsasnamə və Sovetlərin vəzifələri. ÜİK(b) P MK-nın nəşriyyatı buraxmışdır. Rus dilindədir. 1937-ci il. 16 səhifə. SMF inv. 365/20.



III

20 мая

Квартира товарища Р. Мехмандарова, состоящая из пяти комнат и находящаяся по Ст. Почтовой улице № 63 ни реквизиции ни уплотнению не подлежит.

Заведывающий:-

Секретарь:- Кайзер

*Şəhadətnamə (surəti). Üzeyir bəy Hacıbəyovun Zaqafqaziya Qori müəllimlər seminariyasını bitirməsi barədə. 1 iyun 1904-cü il. SMF inv. 13488/6.*



*SSRİ Dövlət Bankı Azərbaycan şöbəsinin işçiləri. Soldan sağa: bankın ilk müdiri Kaplan, Rəşid Mehmandarov, müdir müavini Rozenberq, müdiri P. Laktionov, B. Lukodyanov. SMF inv. 365/15*



А. С. С. Р.

НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ

УДОСТОВЕРЕНИЕ ЛИЧНОСТИ

Мамандаров

Рашид.

Баку. 3-я Гостипография Азполиграфтреста

*Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığında Rəşid Mehmandarova verilmiş 7434 saylı şəxsiyyət vəsiqəsi. SMF inv. 365/3*





# *Sürəyya Vəzirova*

*1887-1961*

Sürəyya xanım Nəcəf bəy qızı Vəzirova ilk təhsilini evdə atası Nəcəf bəy Vəzirovdan və Şuşa rus-türk məktəbində almışdır. Daha sonra Teymurxanşura (indiki Buynakski) şəhər progimnaziyasının məzunu olmuşdur. Anası Xurşud xanım kimi Bakıda Xeyriyyəçi Qadınlar Cəmiyyətinin üzvü olmuşdur. O, ailəsi ilə birlikdə 1895-ci ildə Bakıya köçdükdən sonra Müqəddəs Nina qadın məktəbində təhsilini davam etdirmişdir. Sara xanım həmin məktəbin əlavə VIII sinifini bitirdikdən sonra 1907-ci ildən 1909-cu il iyunun 1-dək İmperatriça Aleksandra rus-müsəlman qız məktəbində dərs demişdir. O, 1910-cu il sentyabrın 21-dən Bakı 2-ci rus-türk qızlar məktəbinin müdiri vəzifəsində pedaqoji fəaliyyətini davam etdirmişdir.

Sürəyya xanım Vəzirova ziyalı qadın olaraq ictimai həyatda da aktiv fəaliyyət göstərmişdir. O, Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin qadın təhsili uğrunda apardığı mübarizədə yaxından iştirak etmişdir. Sürəyya xanım müdir olduğu məktəbə 100 nəfərə yaxın müsəlman qızı təhsilə cəlb edə bilmişdir. Görkəmli təhsil fədaisi 1920-ci ildən sonra da bir müddət pedaqoji fəaliyyətini davam etdirmiş, sonrakı vaxtlarda isə kitabxanaçı kimi işləmişdir.

Sürəyya xanım Vəzirova isə 1961-ci ildə vəfat etmişdir.

1. Fotoşəkil. Sürəyya Vəzirova SMF inv. 579/2.
2. Fotoşəkil. Sürəyya Vəzirova (sağda). 4.XI.1907. SMF inv. 579/3.




*Nəcəf bəy Vəzirovun qızı Sürəyya Vəzirova (sağda). 4.XI.1907. SMF inv. 579/3.*





# Cəmil Vəzirov

1888-1945

Cəmil bəy İsmayıl bəy oğlu Vəzirov ilk təhsilini Cavanşir qəzasının Zümürxan kəndində mollaxanada aldıqdan sonra, Bakı real məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Kiyev Politexnik İnstitutunda kimya üzrə mühəndis-texnoloq ixtisasına yiyələnmişdir. Cəmil bəy 1917-ci ildə Bakıya qayıtdıqdan sonra müxtəlif vəzifələrdə çalışmışdır. 1920-ci il aprelin 28-də Nəriman Nərimanov başda olmaqla Azərbaycan sovet hökumətinin ilk heyətində Cəmil bəy Xalq Poçt-Teleqraf və Rabitə Yolları komissarı vəzifəsinə təyin olunmuşdur.

1921-ci ildə Cəmil bəy vəzifəsindən azad olunmuşdur. 1922-ci ildə o, Azərbaycanın iqtisadiyyat üzrə daimi nümayəndəsi təyin edildi. Daha sonra o, 1923-cü ildə Tbilisidə Zaqafqaziya Dövlət Ticarəti idarəsində işləmiş, 1928-ci ildə Bakıya dönərək "Azərxalça" İstehsalat birliyində çalışmışdır.

Cəmil bəy 1938-ci ildə həbs edilərək Oryol şəhərinə sürgün edilir. 1945-ci ildə burada vəfat etmişdir.

1. Cəmil Vəzirov. Kiyev Politexnik İnstitutunu bitirdikdən sonra. 1914-cü il. SMF inv. 629/1.
2. Məktub (konvertdə) 1 səhifə. C.Vəzirov sürgündə olarkən qızı Aliyəyə göndərmişdir. Oryol vilayəti. 7 mart 1941-ci il. Məktub karandaşla yazılmışdır. SMF inv. 629/2.



# *Nəriman bəy Nərimanbəyov*

*1889-1937*

Nəriman bəy Haşım bəy oğlu Nərimanbəyov ilk təhsilini Şuşada, orta təhsilini İrəvan gimnaziyasında almışdır. Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində və Xarkov Universitetinin hüquq fakültəsində oxumuş, 1915-ci ildə oranı bitirmişdir. 1917-ci ilin martında Müsavat partiyasına daxil olmuşdur.

Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və AXC Parlamentinin üzvü olub. 1919-cu il fevralın 4-də parlamentin iclasında təşkil olunmuş aqrar komissiyanın üzvü seçilmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra hüquq məsləhətçisi və hüquqşünas kimi fəaliyyət göstərib. O, 1937-ci ildə repressiya olunmuşdur.

1. Xarkov Universitetində təhsil alan azərbaycanlı tələbələr. Sağdan 1-ci Cümhuriyyət dövründə parlamentin üzvü, dövlət müfəttişi Nəriman bəy Nərimanbəyovdur. 10 mart 1912-ci il. SMF inv. 559/2.
2. Nəriman Nərimanbəyov. 1920-ci il. SMF inv. 1723.
3. Nəriman Nərimanbəyov. AXC parlament üzvü, dövlət müfəttişi. 1920-ci ilin sonu. SMF inv. 1724.





***Xarkov Universitetində təhsil alan azərbaycanlı tələbələr. Sağdan 1-ci Cümhuriyyət dövründə parlamentin üzvü, dövlət müfəttişi Nəriman bəy Nərimanbəyovdur. SMF 559/2.***



# *Seyid Şuşinski*

*1889-1965*

Cabbar Qaryağdıoğlunun "Şərq musiqisinin incisi" adlandırdığı, Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi olan Seyid Şuşinski ilk təhsilini Şuşada almışdır. Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirlərinə yiyələnmək üçün ilk əvvəl iki il Nəvvabın yanında oxumuşdur. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olmuşdu. Seyid Şuşinski ifa üçün mürəkkəb muğam olan "Cahargah"ı xüsusilə böyük məharətlə oxuyardı. O, yaradıcılığında Hafiz, Füzuli, Seyid Əzim Şirvani qəzəllərilə yanaşı, Cavidin və Sabirin şeirlərinə də müraciət edirdi. Sabirin "Millət necə tarac olur-olsun, nə işim var" şeirini "Müxalif"də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur: "Ayıl ey millət", "Mən bir türkəm", "Millət istərsə" və s.

Seyid Şuşinski, Mirzə Cəlil, Əblürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq etmişdir. "Molla Nəsrəddin" jurnalının bir neçə nömrəsinin çıxmasına maddi yardım göstərmişdir. Seyid Şuşinski həm də xeyriyyəçi kimi dövrün teatr aktyorlarına köməklik etmişdir. Özü də aktyor kimi bir sıra rolları oynamışdı.

Seyid Şuşinski "Cahargah"dan başqa "Mahur", "Nəva", "Məsnəvi", "Mani", "Arazbarı", "Heyratı" kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib onları yeni variantda oxumuşdur ("Rast-Humayun", "Qatar-Bayatı", "Şur-Şahnaz"). "Rast"da və "Kürdi-Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdir.

1926-1933-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında, 1943-cü ildən isə Bakı Musiqi Məktəbində xanəndəlik üzrə dərs demişdir. O, 1956-cı ildə Azərbaycan Xalq artisti adına layiq görülmüşdür.

Seyid Şuşinski 1 noyabr 1965-ci ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn edilmişdir.

1. Seyid Şuşinski 1901-ci il. SMF inv. 1169.
2. Seyid Şuşinski (qavalda), M. Bakıxanov (tarda), V. Melkumov (kamançada). 1920-ci illər. SMF inv. 418/12.





***Seyid Şuşinski (qavalda), M. Bakıxanov (tarda), V. Melkumov (kamançada). 1920-ci illər. SMF inv. 418/12.***



*Ceyhun Hacıbəyli*

*1891-1962*

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli ilk təhsilini Haşım bəy Vəzirov tərəfindən Şuşada açılmış rus-türk, orta təhsilini Bakı real məktəbində almışdır. Orta təhsili bitirdikdən sonra o, dövri mətbuatda - "Kaspi", "İrşad" və "Tərəqqi" qəzetləri ilə əməkdaşlıq etmiş və məqalələri nəşr edilmişdir.

C.Hacıbəyli Sankt-Peterburq Universitetinin hüquq fakültəsində və Parisdə Sorbonna Universitetində təhsilini davam etdirmişdir. Parisdə yaşadığı zaman "Revyu de Monde musulman" jurnalında Azərbaycan xalqının mədəniyyəti ilə bağlı məqalələr nəşr etdirmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra C.Hacıbəyli Vətənə qayıdaraq "Azərbaycan" qəzetinin redaktoru kimi fəaliyyətə başlayır. O, 1919-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransında iştirak etmək üçün Parisə getmişdir. Parisdə "Azərbaycan ilk müsəlman Respublikası" kitabını nəşr etdirmiş, "Revyu de Monde musulman" jurnalında Andranikin başçılıq etdiyi erməni millətçi-şovinist bandasının Azərbaycanda törətdiyi soyqırımında 30 min insanın vəhşicəsinə qətlə yetirməsindən bəhs edən böyük məqalə ilə çıxış etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra C.Hacıbəyli Parisdə qalmışdır. Fransız oxucularını Azərbaycan musiqisi, incəsənəti və ədəbiyyatı ilə tanış etmiş və təbliğ etmişdir.

Ceyhun Hacıbəyli 1962-ci il oktyabrın 22-də Parisdə vəfat etmiş, Sen-Klu qəbiristanlığında dəfn olunmuşudur.





***Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransındakı nümayəndə heyətinin üzvü, publisist Ceyhun Hacıbəyli. 1919-cu il. Paris. SMF inv. 271/43.***

1. Fotoşəkil. Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransındakı nümayəndə heyətinin üzvü, publisist Ceyhun Hacıbəyli. 1919-cu il. SMF inv. 271/43.
2. Fotoşəkil. Azərbaycanlı mühacir Ceyhun bəy Hacıbəyli və Mehparə xanım Qacar ilə birlikdə. Paris. SMF inv. 2535.
3. Ceyhun Hacıbəylinin Şusa şəhərinə dair "Keçmiş günlər", "Qarabağ Xatiratı", "Məhəllələr" adlı hekayələri. SMF inv. 2536.
4. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Məzhəkəli ramadan" ("Le ramadan anecdotique") hekayəsi. 7 vərəqlik makina yazısı. Bəzi vərəqlərdə müəllifin təshih yazıları var. SMF inv. 2537.
5. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Məmməd Xoylunun səyahəti" hekayəsi. 5 vərəqlik makina yazısı. Birinci vərəqin üstündə karandaşla "Azərbaycan Mərkəzi" yazılmışdır. Məqalə "Cey. Dağıstani" təxəllüsü ilə imzalanmışdır. Bəzi vərəqlərdə müəllifin təshih yazıları var. SMF inv. 2538.
6. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Ziyarət yoxdur" hekayəsi. Müxtəsər və tam məzmunlu 6 və 11 vərəqlik makina yazılı iki nüsxə. Birinci vərəqin üstündə tam mətndə makınada, qısa variantda karandaşla "Azərbaycan Mərkəzi" yazılmış, natamam yazıda sərlövhəndən qabaq "II" rum rəqəmi qoyulmuşdur. Məqalə "Cey. Dağıstani" təxəllüsü ilə imzalanmışdır. Bəzi vərəqlərdə müəllifin təshih yazıları var. SMF inv. 2539.
7. Ceyhun Hacıbəylinin ingilis dilində qələmə aldığı "Toy şənliyi" ("The wedding feast") hekayəsinin 20 vərəqlik əl yazısı. SMF inv. 2540.
8. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Toy məclisi" hekayəsi. 15 vərəqlik makina yazısı. Bəzi vərəqlərdə müəllifin təshih yazıları var. SMF inv. 2541.
9. Ceyhun Hacıbəylinin ingilis dilində qələmə aldığı "Alış-veriş" hekayəsi. 4 vərəqlik makina yazısı. Məqalə "Cey. Dağıstani" təxəllüsü ilə imzalanmışdır. SMF inv. 2542.
10. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Hoca Nəsrəddinin türk əhvalatları" hekayəsi. Müqəddimə və 37 qısa hadisədən ibarətdir. 13 vərəqlik makina yazısı. SMF inv. 2543.
11. Ceyhun Hacıbəylinin fransız dilində qələmə aldığı "Bazar" hekayəsi. Sərlövhənin üstündə "I" rum rəqəmi qoyulmuşdur. 8 vərəqlik makina yazısı. Məqalə "Cey. Dağıstani" təxəllüsü ilə imzalanmışdır. Bəzi vərəqlərdə müəllifin təshih yazıları var. SMF inv. 2544.
12. Abbas bəy Ataməlibəyovun Ceyhun Hacıbəylini Azərbaycan Xalq Cümhuriyyətinin Parisdə fəaliyyətini davam etdirən nümayəndəliyinin təşkilati məsələlərindən agah edən məktubu. Parisin Latın Amerikası məhəlləsində yerləşən təmsilçiliyin 1 vərəqlik fransız dilli blank kağızında rusca əl yazısı. SMF inv. 2545.
13. Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh KoFNMFransında nümayəndə heyətinin üzvü Ceyhun Hacıbəylinin Azərbaycan Bankının yaradılmasına dair İsveçrənin Lozanna şəhərində qələmə aldığı düşüncələri. Sonda Azərbaycan təmsilçiliyinin Parisdəki ünvanı göstərilir. Rus dilində 4 vərəqlik makina yazısı. SMF inv. 2546.
14. Azərbaycan Respublikasının xəritəsinin surəti. Fransız coğrafiyaşünas J. Forest tərtib etmişdir. Annotasiyasında "1919-cu ildə Sülh Konfransına təqdim edilən Azərbaycan Respublikasının (mövcud və iddia edilən ərazilər göstərilməklə) xəritəsi. Canab Temurçin Hacıbəylinin kolleksiyası" yazılmışdır. SMF inv. 2547.



# Əmir bəy Aslanov

1892-1942

Əmir bəy Zəkəriyyə bəy oğlu Aslanov 1892-ci ildə Şuşada anadan olmuşdur. İlk təhsilini Bakıda rus-türk məktəbində almışdır. 1900-cü ildə məktəbi bitirdikdən sonra Bakı real məktəbinə daxil olmuşdur. 1910-cu ildə orta məktəbi bitirdikdən sonra Kiyev Müqəddəs Vladimir Universitetinin tibb fakültəsinə daxil olmuş, 1916-cı ildə dəri-zöhrəvi həkim ixtisası ilə ali təhsil müəssisəşini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə DİN Bakı şəhər idarəsinin həkimi kimi fəaliyyət göstərmişdir. Sovet dövründə bir çox mühüm vəzifələrdə, Azərbaycan SSR Səhiyyə Nazirliyi Klinik İnstitutunun direktoru (1930-1933) olmuşdur. 1938-ci ildə Azərbaycan Tibb İnstitutunda dəri-zöhrəvi xəstəliklər kafedrasında assistent kimi pedaqoji fəaliyyətə başlamışdır. Nigar xanım Vəlibəyova ilə ailə həyatı qurmuşdur. 1937-ci ildə repressiyaya məruz qalmışdır.

1. Fotoşəkil. Klinik institutun dəri-zöhrəvi dispanserinin baş həkimi Əmir Aslanov. Bakı 1922-23-cü illər. SMF inv. 312/11.
2. Fotoşəkil. Dəri-zöhrəvi institutunun tibbi personalı. Birinci sırada sağda həkim Aslanov, üçüncü professor İmamzadə, soldan birinci Eyvazov. Bakı. SMF inv. 312/12.
3. Fotoşəkil. Dəri-zöhrəvi institutunun tibbi personalı. Soldan üçüncü həkim Əmir Aslanov. Bakı. SMF inv. 312/13.





***Dəri-zöhrəvi institutunun tibbi personalı. Birinci sırada sağda həkim Əmir Aslanov, üçüncü professor İmamzadə, soldan birinci Eyvazov. SMF inv. 312/12.***



***Dəri-zöhrəvi institutunun tibbi personalı. Soldan üçüncü həkim Əmir Aslanov. Bakı.SMF inv. 312/13.***



# İsfəndiyar İbrahimbəyov

1892-?

İsfəndiyar bəy Bağır bəy oğlu İbrahimbəyov ilk təhsilini Şuşada almışdır. O, 1904-cü ildə ibtidai təhsilini bitirdikdən sonra Tiflis şəhər gimnaziyasında təhsilini davam etdirmişdir. 1912-ci ildə məktəbi bitirdikdən sonra Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsinə daxil olmuşdur. İbrahim bəy hələ tələbə ikən 1914-cü ildə universitetin zəmanəti ilə Kiyev yaxınlığındakı "Puşey Vodiça" qospitalında ordinator kimi fəaliyyətə başlamışdır. 1916-cı ildə ali məktəbdə təhsilini başa vurduqdan sonra 1918-ci ilədək həmin qospitalda ordinator, 1920-ci ilə qədər isə Cənub Dəmiryol idarəsinin 19-cu tibb sahəsinin müdiri vəzifəsində çalışmışdır. Sovet hakimiyyətinin ilk illərində İsfəndiyar bəy İbrahimbəyov Bakıya dəvət olunmuş, Mərdəkan kənd xəstəxanasına baş həkim təyin edilmişdir. İşgüzarlığı ilə seçilən İbrahim bəy qısa müddət ərzində kənddə müasir tələblərə cavab verən xəstəxana yaratmışdır. İ.İbrahimbəyov 1921-ci ildə Lenin adına Toxuculuq Fabrikinin baş həkimi, 1925-1926-ci illərdə "Azneft" birliyinin Buzovnadakı istirahət evlərinin müdiri, 1926-1931-ci illərdə Yesentuki şəhərindəki 8 nömrəli sanatoriyanın baş həkimi, müxtəlif poliklinikaların təşkilatçısı və müdiri olmuşdur. O, 1931-ci ildə Bakı şəhər səhiyyə şöbəsində məsul işdə çalışmışdır. Ağır xəstəlik səbəbindən dövlət tərəfindən göndərişlə İsfəndiyar bəy 1936-cı ildə Qara dənizin cənub sahillərində müalicə almışdır. O, müalicə müddəti dövründə əvvəlcə 220 çarpayılıq "Çelyuskinçilər" sonralar isə "Qruzinskiy çay" istirahət evlərinin baş həkimi vəzifəsində çalışmışdır. Uzunmüddətli müalicədən sorra Bakıya qayıdan İsfəndiyar bəy İbrahimbəyov indiki Xətai rayon səhiyyə şöbəsinin müdiri, 1939-cu ildən isə M.Əzizbəyov adına şəhər doğum evinin baş həkim olmuşdur.

1940-cı ildən qanköçürmə sahəsinə işə göndərilən İsfəndiyar İbrahimbəyov Azərbaycan Respublikası Qanköçürmə Stansiyasında geniş təşkilati və elmi-praktiki işlər aparmış, Qanköçürmə Stansiyasını yeni idarə kimi formalaşdırmışdır. Onun səyi nəticəsində Respublika Hematologiya və Qanköçürmə Elm-Tədqiqat İnstitutu yaradılmış və o yeni müəssisənin ilk direktoru olmuşdur.

İ.İbrahimbəyov peşəkar həkimlərin yetişməsində də xüsusi xidmətlər göstərmiş, Tibb İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Elmi fəaliyyətlə məşğul olan İ.İbrahimbəyov 1952-ci ildə tibb elmlər namizədi alimlik dərəcəsini almışdır.



***Tiflis gimnaziyasının bir qrup tələbəsi. 1911-ci ilə qədər. İkinci sırada soldan üçüncü İ.B.İbrahimbəyov. SMF inv. 534/2 (I).***



*İ.İbrahimbəyov Əli Bayramov klubunun nəzdindəki tibb bacıları kursunun tələbə və müəllimləri arasında (ikinci sırada soldan sağa 4-cü İ.İbrahimbəyov oturmuşdur). 1920-ci illər. SMF inv. 1508.*



Владѣлецъ книжки:
1. Имя, отчество, фамилія:
2. Званіе:
3. Время рожденія:
или возрастъ
4. Вѣроисповѣданіе:
5. Мѣсто постояннаго жительства:
6. Состоитъ ли или состоялъ ли въ бракѣ:

*Şuşa polis idarəsi tərəfindən İsfəndiyar bəy Mirzə Məmməd Bağır oğluna verilmiş pasport. 8 avqust 1917-ci il. SMF inv. 534/4 (I).*




*Fərqlənmə diplomu. İ.B.İbrahimbəyova 7 noyabr 1934-cü ildə verilmişdir. SMF inv. 534.11 (I).*



Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsini bitirməsi haqqında diplom. SMF ivn. 534/3 (I)



Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsini bitirməsi haqqında diplom. SMF 534/9 (I)





ДИПЛОМ
КАНДИДАТА НАУК

ММД № 5164

Москва

Решением

от

гражданину

присуждена ученая степень кандидата медицинских наук

Председатель Совета
Ученый Секретарь Совета

*İ.B.İbrahimbəyova Tibb elmlər namizədi elmi dərəcəsinin verilməsi haqqında 5164 №-li diplomu. 14 noyabr 1952-ci il. SMF inv. 534/10 (I).*

1. Fotoşəkil. Tiflis gimnaziyasının bir qrup tələbəsi. 1911-ci illər. İkinci sırada soldan üçüncü İ.B.İbrahimbəyov. SMF inv. 534/2 (I).
2. Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsinin bitirməsi haqqında diplomun surəti. SMF ivn. 534/3 (I)
3. Şuşa polis idarəsi tərəfindən İsfəndiyar bəy Mirzə Məmməd Bağır oğluna verilmiş 616№-li pasport. 8 avqust 1917-ci il. SMF inv. 534/4 (I).
4. Fotoşəkil. Kiyev Tibb Universitetinin tələbələri anatomiya kabinetində. Kiyev, 1913-cü il. SMF inv. 534/4 (IV).
5. Fotoşəkil. İ.B.İbrahimbəyov. 1917-ci i. SMF inv. 534/6 (I).
6. İ.İbrahimbəyova Xalq Daxili İşlər Komissarlığı tərəfindən 22 noyabr 1924-cü ildə verilmiş 3779 №-li şəxsiyyət vəsiqə. SMF inv. 534/7 (I).
7. İ.İbrahimbəyovun Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsini bitirməsi haqqında diplom. SMF 534/9 (I)
8. İ.B.İbrahimbəyova Tibb elmlər namizədi elmi dərəcəsinin verilməsi haqqında 5164 №-li diplom. 14 noyabr 1952-ci il. SMF inv. 534/10 (I).
9. Fotoşəkil. İ.B.İbrahimbəyov. 1941-ci il. SMF inv. 534/13 (I).
10. İ.B.İbrahimbəyova verilmiş fərqlənmə diplomu. 7 noyabr 1934-cü il. SMF inv. 534/11 (I).
11. Həkim İsfəndiyar Bağır oğlu İbrahimbəyova alman-faşizminə qarşı mübarizədə fəaliyyətinə görə verilmiş Fəxri fərman. Moskva, 1942-ci il. SMF inv. 534/12(I)
12. Fotoşəkil. İ.İbrahimbəyov Qızıl Aypara Cəmiyyətinin Bakı elektrik trest komitəsində təşkil etdiyi ilk tibbi yardım dərnəyinin əməkdaşları arasında. 1920-ci illərin əvvəli. SMF inv. 1504.
13. Fotoşəkil. İ.İbrahimbəyov Əli Bayramov klubunun nəzdindəki tibb bacıları kursunun tələbə və müəllimləri arasında (ikinci srada soldan sağa 4-cü İ.İbrahimbəyov oturmuşdur). 1920-ci illər. SMF inv. 1508.
14. Fotoşəkil. Qızıl Aypara CəmiyyətininBakı elektrik trest komitəsində təşkil etdiyi ilk tibbi yardım dərnəyi. 1920-ci illərin əvvəli. SMF inv. 1504.



# Qəmər İsgəndərova - Əmiraslanova

1893-1965

Qəmər İskəndər bəy qızı Əmiraslanova ilk təhsilini Şuşada almışdır. Muzeyin fondunda mühafizə olunan fotoşəkilə əsasən Qəmər xanın Şuşada ibtidai təhsilini bitirdikdən sonra Bakıda Müqəddəs Nina məktəbinə daxil olur. 1909-cu ilə aid fotoşəkildə o, artıq Müqəddəs Nina məktəbinin tələbəsi idi. Digər bir muzey sənədinə görə Qəmər xanım 1915-ci il iyulun 13-də Tiflisdə yazı makinası ixtisası üzrə tam kursunu bitirmişdir. 1916-cı il Moskvada stomatoloji kursun dinləyicisi kimi təhsilini davam etdirir (SMF inv.334/4). 1920-ci illərdə Qəmər İsgəndərova-Əmiraslanova M.F.Axundov adına Opera və balet teatrının aktrisası kimi fəaliyyət göstərmişdir. 1933-cü il iyun ayına aid olan bir fotoşəkildə isə Azərbaycan Tibb İnstitutunun 6-cı tədris ilinin məzunları sırasında Qəmər xanım da əks olunmuşdur (SMF inv. 334/8). 1951-ci ildə verilmiş 11 №-li Şəhadətnaməyə əsasən o, 1949-1951-ci illərdə Azərbaycan K(b)P BK nəzdində 2 illik Marksizm-Leninizm Darülfünunda təhsil almışdır (SMF inv. 334/9). Qəmər xanıma 1957-ci ildə verilmiş 326 №-li Sertifikata əsasən ona Azərbaycan Tibb İnstitutunun daxili xəstəliklər kafedrasının dosenti elmi adı verilmişdir (SMF inv. 334/10). Səhiyyədə göstərdiyi yüksək xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilərək ona 8 sentyabr 1959-cu ildə "Səhiyyə Əlaçısı" fəxri adı verilmişdir (SMF inv. 334/11).





*Qəmər xanımın qardaşı Moskva Kommersiya İnstitutunun tələbəsi Xudat İsgəndərov. 19 mart 19. SMF 334/2.*




*Q.İsgəndərova-Əmiraslanova Azərbaycan Tibb İnstitutunun III kurs tələbələri arasında. Üçüncü sırada soldan sağa 3-cü. 1933-cü il. SMF inv. 334/8.*



Q.İsgəndərova-Əmiraslanova Bakı şəhəri Terapevtik klinikasının əməkdaşları arasında (stol arxasında soldan sağa 2-ci). 1961-ci il. SMF inv. 334/12.





АЗӘРБАЈЧАН К(б)П БК
МАРКСИЗМ-ЛЕНИНИЗМ
ДАРҮЛФҮНУНУ

ШӘҺАДӘТНАМӘ №11

Азәрбајҹан К(б)П БК нәздиндә 2 иллик кечә Марксизм-Ленинизм Дарүлфүнунуну битирмишдир.

*Q.İ.Isgəndirova-Əmirslanovanın Azərbaycan K(b)P BK nəzdində 2 illik Marksizm-Leninizm Darülfünundə təhsil alması haqqında verilmiş 11 №-li şəhadətnamə 1951-ci il. SMF inv. 334/9.*

1. Fotoşəkil. Bakı Müqəddəs Nina qız məktəbinin şagirdi Qəmər İsgəndərova-Əmiraslanova. SMF inv 334/1.
2. Fotoşəkil. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin üzvləri. 1915-ci il. Ayaq üstə duranlar: sağdan sola 1-ci Qəmər Mahmudbəyova, 2-ci Xədicə Subhatulova, 4-cü Sona Səlimxanova. Əyləşənlər: sağdan sola 1-ci Sara Vəzirova, 2-ci Süreyya Axundova, 3-cü Şəfiqə Əfəndiyeva, 4-cü Rəhilə Hacıbababəyova, 5-ci Liza Muxtarova, 6-cı Məryəm Sulkeyviç, 7-ci Səidə Şeyxzadə, 8-ci Şəfiqə Qəniyeva. SMF inv 286/6.
3. Fotoşəkil. Qəmər xanımın qardaşı Moskva Kommersiya İnstitutunun tələbəsi Xudadat İsgəndərov. 19 mart 19... SMF 334/2.
4. Q.İsgəndərova-Əmiraslanovanın Tiflisdə yazı makinası ixtisası üzrə tam kursu bitirməsi haqqında 121 №-li Şəhadətnamə. 13 iyul 1915. SMF inv. 334/3.
5. Fotoşəkil. Moskva şəhər Stomatoloji kursun dinləyicisi Q.İsgəndərova-Əmiraslanova. Moskva, 1916-cı il. SMF inv. 334/4..
6. Fotoşəkil. Q.İsgəndərova-Əmiraslanova Azərbaycan Tibb İnstitutunun III kurs tələbələri arasında. Üçüncü sırada soldan sağa 3-cü. 1933-cü il. SMF inv. 334/8.
7. Q.İ.Isgəndirova-Əmirslanovanın Azərbaycan K(b)P BK nəzdində 2 illik Marksizm-Leninizm Darülfünundə təhsil alması haqqında verilmiş 11 №-li şəhadətnamə. 1951-ci il. SMF inv. 334/9.
8. Azərbaycan Tibb İnstitutunun daxili xəstəliklər kafedrasının dosenti olması haqqında Q.Əmiraslanova-İsgəndərovaya verilmiş 326 №-li vəsiqə. 1957-ci il. SMF inv. 334/10.
9. Səhiyyədə göstərdiyi yüksək xidmətlərinə görə Q.Əmiraslanova-İsgəndərovaya "SSRİ Səhiyyə Əlaçısı" fəxri adın verilməsi haqqında 86530 №-li vəsiqə. 8 sentyabr 1959-cu il. SMF inv. 334/11.
10. Fotoşəkil. Q.İsgəndərova-Əmiraslanova Bakı şəhəri Terapevtik klinikasının əməkdaşları arasında (stol arxasında soldan sağa 2-ci). 1961-ci il. SMF inv. 334/12.
11. Fotoşəkil. Q.İsgəndərova-Əmiraslanova. SMF inv. 334/13.
12. Metal diş plomblarını dağıdılması üçün Tibbi həvəngdəstə. Farfordandır,. HXƏF inv. 5968.
13. Dişin sinirini çıxartmaq üçün İynələr. HXƏF inv. 5969.
14. Bor maşının boruları. HXƏF inv. 5970.
15. Pinset. Metaldandır. HXƏF inv. 5971.
16. Taxtadan olan Civə qabı. HXƏF inv. 5972.
17.Dişlərin müalicəsi üçün lazım olan qarışıqların hazırlanması üçün istifadə olunan Lövhə. Şüşədəndir, üçkünc formadadır. HXƏF inv. 5973.
18. Sementin qarışdırılması üçün Şüşə kub. HXƏF inv. 5974.
19. Plomblarını qarışdırmaq üçün dördkünc formada şüşə lövhə. HXƏF inv. 5975.
20. Sement plomblarını qarışdırmaq üçün şpatel (poladdır). HXƏF inv. 5976.
21. İynələrin və başqa kiçik stomatoloji alətlərin saxlanılması üçün konus formada şüşə qab. HXƏF inv. 5977.



# Nüşabə Mehmandarova

*1893-1965*

Nüşabə xanım Kərim bəy qızı Mehmandarova ilk təhsilini Şuşada almışdır. Məktəbi bitirdikdən sonra 1908-ci ildə Bakıda Müqəddəs Nina məktəbinə daxil olmuş, 1912-ci ildə məktəbin tam kursunu bitirmişdir. Birinci Dünya Müharibəsi illərində, 1915-ci il aprelin 16-da ona verilmiş tibb bacısı şəhadətnaməsinə əsasən Nüşabə Mehmandarova Şuşa şəhər xəstəxanasında çalışmışdır.

Nüşabə xanımın həyat yoldaşı Şahbaz Əsəd bəy oğlu Rüstəmbəyov 1879-cu ildə Cavad qəzasının Salyan qəsəbəsində anadan olmuşdur. O, 1890-cı ildə Bakı real məktəbini bitirdikdən sonra Hacı Zeynalabdin Tağıyevin təqaüdü ilə Sankt-Peterburq Texnologiya İnstitutuna daxil olmuş, 1909-cu ildə institutu bitirmişdi. Ali təhsili başa vurduqdan sonra Bakıya qayıdan Şahbaz bəy neft sahəsində çalışmağa başlamışdır. Sovet dövründə "Azərneft" sistemində çalışmış, ali texniki məktəblərdə dərs demişdi.

Nüşabə xanım Şahbaz bəy Rüstəmbəyovla ailə qurmuşdu. Nadir adlı oğlu, Nailə və Dilarə adlı qızları olmuşdur. O, 1965-ci ildə vəfat etmişdir.




АТТЕСТАТЪ

*Bakı Müqəddəs Nina qız məktəbini bitirməsi haqqında Nüşabə xanım Mehmandarovaya verilmiş 386 №-li attestat. 5 iyun 1912 ci il. SMF inv. 529/3.*


СВИДѢТЕЛЬСТВО.

1) Въ предметахъ общеобразовательныхъ:

2) Въ специальныхъ предметахъ:

*Müqəddəs Nina Bakı qız məktəbinin əlavə VIII sinifinin riyaziyyat kursunu bitirən Nüşabə xanım Mehmandarovaya verilmiş 400 №-li şəhadətnamə. 6 iyun 1913-cü il. SMF inv. 529/4.*



*Otuz üç yaşlı Salyan sakini Şahbaz bəy Əsəd bəy Rüstəmbəyovun və iyirmi yaşlı Şuşa sakini Nüşabə Əbdülkərim qızı Mehmandarovanın Nəcəf bəy Vəzirov və İmamqulu bəy Əlibəyovun şahidliyi ilə bağlanan izdivacının kəbin kağızı. SMF inv. 529/7.*



Nüşabə Mehmandarova-Rüstəmbəyova. Kislovodsk şəhəri. SMF inv. 529/10.



Nüşabə Mehmandarova-Rüstəmbəyova. Kislovodsk şəhəri. SMF inv. 529/11.




Nüşabə xanımın həyat yoldaşı Şahbaz bəy Rüstəmbəyov. Bakı. SMF inv. 529/2.





Nüşabə Rüstəmbəyova. XX əsrin 40-50-ci illəri. SMF inv. 529/16



Adil Mehmandarov (Nüşabə Mehmandarova-Rüstəmbəyovanın qardaşı) həyat yoldaşı Zivər və körpə oğlu ilə. Bakı. SMF inv. 529/12.



Texnoloq-mühəndis Şahbaz Rüstəmbəyov. SMF inv. 529/13



*Peterburqun ali məktəblərində təhsil alan müsəlman tələbələri. Yuxarı sırada soldan sağa 2-ci Şahbaz bəy Rüstəmbəyov, Aslan Səfikürdski. Sağdan 1-ci Məşədi Əzizbəyov əyləşib. SMF inv. 529/1.*



1. Fotovenetqa. Arxasında "Hörmətli knyaz İ.İ.Dadiani və Şahbaz bəy Rüstəmbəyova Naftalan Neft Cəmiyyətinin qulluqçuları xatirə əlaməti olaraq" yazısı var. 1915-1916-cı illər. SMF inv. 447/1.
2. Fotoşəkil. Peterburqun ali məktəblərində təhsil alan müsəlman tələbələri. Yuxarı sırada soldan sağa 2-ci Şahbaz bəy Rüstəmbəyov, Aslan Səfikürdski. Sağdan 1-ci Məşədi Əzizbəyov əyləşib. SMF inv. 529/1.
3. Fotoşəkil. Nüşabə Mehmandarovanın həyat yoldaşı Şahbaz bəy Rüstəmbəyov. Bakı. SMF inv. 529/2.
4. Fotoşəkil. Bakı Müqəddəs Nina qız məktəbini bitirməsi haqqında Nüşabə xanım Mehmandarovaya verilmiş 386 №-li attestat. 5 iyun 1912 ci il. Ölçüsü 22x34,5 sm. SMF inv. 529/3.
5. Müqəddəs Nina qız məktəbinin əlavə VIII sinifinin riyaziyyat kursunu bitirən Nüşabə xanım Mehmandarovaya verilmiş 400 №-li şəhadətnamə. 6 iyun 1913-cü il. Ölçüsü 22x35 sm. SMF inv. 529/4.
6. Fotoşəkil. Kiyevdə bal gecəsində iştirak edən azərbaycanlı tələbələr. Bir çoxu səhnə paltarındadır. Soldan 4-cü Nüşabə Mehmandarova əyləşmişdir. SMF inv. 529/5.
7. Şuşa şəhər xəstəxanasında tibb elmlərinin nəzəri kursunu dinləyib xəstələrə qulluq üzrə iki aylıq təcrübə keçən Nüşabə xanım Mehmandarovaya Rusiya Qızıl Xaç Cəmiyyətinin müharibə dövrünün şəfqət bacısı adının verilməsi haqqında şəhadətnamə. SMF inv. 529/6.
8. Otuz üç yaşlı Salyan sakini Şahbaz bəy Əsəd bəy Rüstəmbəyovun və iyirmi yaşlı Şuşa sakini Nüşabə Əbdülkərim qızı Mehmandarovanın Nəcəf bəy Vəzirov və İmamqulu bəy Əlibəyovun şahidliyi ilə bağlanan izdivacının kəbin kağızı. Blank üzərində 2 vərəq, biri boşdur. Arxasına rus dilinə tərcüməsi yapışdırılmışdır. SMF inv. 529/7.
9. Fotoşəkil. Nüşabə Mehmandarova-Rüstəmbəyova. Əllərini yerə söykədiyi çətirə qoyub. Kislovodsk şəhəri. SMF inv. 529/10.
10. Fotoşəkil. Nüşabə Mehmandarova-Rüstəmbəyova. Sağ əlini stulun arxasına söykəyib. Kislovodsk şəhəri. SMF inv. 529/11.
11. Fotoşəkil. Adil Mehmandarov (Nüşabə Mehmandarova-Rüstəmbəyovanın qardaşı) həyat yoldaşı Zivər və körpə oğlu ilə. Bakı. SMF inv. 529/12.
12. Fotoşəkil. Texnoloq-mühəndis Şahbaz Rüstəmbəyov. SMF inv. 529/13.
13. Fotoşəkil. Texnoloq-mühəndis Şahbaz Rüstəmbəyov. Bakı. SMF inv. 529/14.
14. Fotoşəkil. Nüşabə Rüstəmbəyova. Sənədə yapışdırmaq üçün çəkilmişdir. XX əsrin 40-50-ci illəri. SMF inv. 529/16.
15. Fotoşəkil. Nüşabə Kərim bəy qızı Mehmandarova Müqəddəs Nina məktəbinin formasında. 1912-ci il. SMF inv. 1046.
16. Fotoşəkil. Bakı Müqəddəs Nina qız məktəbinin şagirdi Nüşabə Mehmandarova. FNMF inv. 15973.



# Bəhmən Mirzə Qacar

*1894-1927*

Qacarlar sülaləsinin bir qolunu təşkil edən Şahzadə Abbas Mirzənin oğlu Bəhmən Mirzə (1811- 1884) 1848-ci ildə Rusiya imperiyasının himayəsi altında əvvəlcə Tiflisə, sonra isə Şuşaya köçərək burada yaşayır. O, ömrünün sonuna kimi əcnəbi şahzadə ailələrinin nümayəndələrinə verilən bütün hüquq və imtiyazlardan istifadə etmişdir. Şahzadə Bəhmən Mirzənin oğullarının çoxu rus hərbi xidmətinə daxil olmuşdular. Onun oğulları və nəvələri rus çarına sədaqət andı içdikdən sonra da xarici knyazlar və hakim Qacarlar Palatasının üzvləri statusunu saxlamışdılar.

Bəhmən Mirzə Rusiyanın ən yaxşı imtiyazlı məktəblərində oğlanlarına və nəvələrinə Avropa təhsili vermişdi. I Dünya müharibəsi ərəfəsində onların arasından altı general, bir neçə müxtəlif dərəcəli yüksək çinli zabit çıxmışdır.

Məşhur babası Bəhmən Mirzənin adını daşıyan şahzadə Xanbaba xan və Nisə xanım Axundovanın kiçik oğlu 1894-cü il yanvarın 29-da anadan olub. Ailə məlumatlarına görə, o, 2-ci Tiflis Klassik Gimnaziyasını bitirib, sonra Petroqrad Texnoloji İnstitutunun mexanika fakültəsində təhsil alıb. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan sənədlərə əsasən Bəhmən Mirzə 1920-ci il mayın 24-də sovet Azərbaycanın Dövlət Bankının komissarı vəzifəsində çalışmışdır. 1920-ci ilin iyunundan Azərbaycan SSR Xalq Maliyyə Komissarlığının işçisi kimi fəaliyyətə başlayır. 1923-cü ildə Bəhmən Mirzə Qacar Azərbaycanın xarici ticarəti konsessiya komissiyasının vasitəsilə Parisə göndərilib. Şahzadə Bəhmən Mirzə Sadıx Tağıyevin qızı Zərintac Tağıyeva (1896-1970) ilə ailə həyatı qurub. Cütlük 1923-cü ildən Bəhmən Mirzənin kiçik bacısı şahzadə Tuba xanım Qacarın yaşadığı Fransaya gedir. Şahzadə Bəhmən Mirzə 1927-ci il oktyabrın 13-də 33 yaşında qan zəhərlənməsindən Marseldə vəfat edib. Onun cənazəsi Tiflisə gətirilib, burada ulu babası Mirzə Fətəli Axundovun yanında dəfn edilib. Bəhmən Mirzə Qacar və Zərintac Tağıyevanın Həbib-Adil-Mirzə Qacar adlı bir oğlu və anaları ilə Fransada qalan Leyla xanım (Lili) Qacar adlı bir qızı var idi. Həyat yoldaşının ölümündən sonra Zərintac Tağıyeva iki azyaşlı övladı ilə Nitsa şəhərinə köçərək orada yaşayır.





*Şahzadəsi Abbas Mirzənin oğlu şahzadə Bəhmən Mirzənin portretinin reproduksiyası. SMF 929.*



А.С.С.Р.
Комиссариат Финансов
Отд. Общий
Делопр. Испл.
"26" июня 1920г.
№ [illegible]

УДОСТОВЕРЕНИЕ.

Предъявитель сего Бахман Мирза КАДЖАР состоит сотрудником при Комиссариате Финансов, что подписью и приложением печати удостоверяется.

Замкомфин
Управделком
Начотдела

*Bəhmən Mirzə Qacarın 1920-ci il iyunun 26-dan Azərbaycan SSR Xalq Maliyə Komissarlığının əməkdaşı olması haqqında vəsiqə. SMF inv. 926.*



А.С.С.Р.
Комиссариат Финансов
Отд. Общий
Делопроизв. Испл.
№ 3793
"24" Мая 1920 года.

Комиссару Азербайджанского Государственнаго Банка Бахману Мирза Каджар.

Настоящим сообщаю, что с 24 сего мая Вы утверждаетесь в должности Комиссара Азербайджанского Государственного Банка.

Заместитель Комиссара Финансов
Управляющий делами Комиссариата
Начальник отдела

*Azərbaycan SSR Xalq Maliyyə Komissarlığının Bəhmən Mirzə Qacarın 1920-ci il mayın 24-dən Azərbaycan Dövlət Bankının komissarı vəzifəsində çalışması haqqında verdiyi 3793 №-li vəsiqə. SMF inv. 928.*



وثيقه

А.С.С.Р.
Комиссариат Финансов
Отд.Общий
Делопр.Инсп.
"26" июня 1920г.
№.5002

УДОСТОВЕРЕНИЕ.

Пред"явитель сего Бахман Мирза КАДЖАР состоит сотрудником при Комиссариате Финансов,что подписями и приложением печати удостоверяется.

ЗАМКОМФИН
УПРАВДЕЛКОМ
НАЧОТДЕЛА

*Bəhmən Mirzə Qacarın Azərbaycan SSR Maliyyə Komissarlığında işləməsi haqqında sənəd. SMF inv. 925*

1. Bəhmən Mirzə Qacarın Azərbaycan SSR Maliyyə Komissarlığında işləməsi haqqında sənəd. SMF inv. 925.
2. Bəhmən Mirzə Qacarın 1920-ci il iyunun 26-dan Azərbaycan SSR Xalq Maliyyə Komissarlığının əməkdaşı olması haqqında vəsiqə. SMF inv. 926.
3. Azərbaycan SSR Xalq Maliyyə Komissarlığının Bəhmən Mirzə Qacarın 1920-ci il mayın 24-dən Azərbaycan Dövlət Bankının komissarı vəzifəsinə çalışması haqqında verilmiş 3793 №-li vəsiqə. SMF inv. 928.
4. Fotoşəkil. Bəhmən Mirzə Qacarın yanğına məruz qalmış Şuşadakı mülkü. SMF inv. 282/23.





# *Bülbül*

*1897-1961*

Müğənni, musiqi folkloru tədqiqatçısı, SSRİ xalq artisti, Azərbaycan professional vokal məktəbinin banisi, professor Murtuza Məşədi Rza oğlu Məmmədov 22 iyun 1897-ci ildə Şuşada anadan olmuşdur. Bülbül hələ çox gənc ikən gözəl səsə malik olduğundan Şuşada xalq tərəfindən ona bu ad verilmişdir. 1927-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında N.İ.Speranskinin sinfini bitirmişdir. İki dəfə 1924 və 1931-ci illərdə Milanda ixtisasartırma kurslarında təhsil almışdır.

Bülbül yaradıcılığa xanəndə kimi başlamış, Azərbaycan xalq mahnılarını və muğamlarını ifa etmişdir. 1916-cı ildə ilk dəfə Gəncədə Fikrət Əmirovun atası, tanınmış musiqiçi Məşədi Cəmilin yazdığı "Sərkərdənin qılıncı" əsərində səhnəyə çıxmışdır. 1920-ci ildən Birləşmiş Azərbaycan opera teatrı truppasının (1924-cü ildən Opera və Balet Teatrı) solisti olmuşdur. Bülbülün səsi öz dinamik çalarları ilə fərqlənmişdir. İncə yaradıcılıq duyğularına malik olmaqla, milli ifaçılıq tərzi ilə italyan vokal məktəbinin ənənələrini özündə birləşdirirdi. Ü. Hacıbəyovun "Koroğlu" operasında Koroğlu, M.Maqomayevin "Nərgiz"ində Əlyar, Ə. Bədəlbəylinin "Nizami"sində Nizami, Niyazinin "Xosrov və Şirin"ində Fərhad, S.Raxmaninovun eyniadlı əsərində Aleko, Verdinin "Riqoletto"sunda Hersoq və digər partiyaların təkrarsız ifası onun yaradıcılığında xüsusi yer tutur. Bülbül tez- tez konsert proqramları ilə xarici ölkələrdə qastrollarda olurdu. "Sənsiz", "Sevgili canan", "Qara gözlər", "Ölkəm" onun daimi repertuarında olan mahnılar idi. O, 1932-1944-cü illərdə Respublika Elmi-Tədqiqat Musiqi Mərkəzinin təşkilatçısı və rəhbəri olmuşdur.

Bülbül elmi fəaliyyəti dövründə 200-dən artıq musiqi folkloru nümunəsinin ifa tərzini lentə almışdı. Bu əsərlər əsasında Azərbaycan mahnılarının üç toplusunu nəşr etdirmişdi. 1932-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir.

Bülbül dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla, habelə İtaliyanın "Harribaldi" ordeni ilə təltif olunmuşdur. O, 26 sentyabr 1961-ci ildə Bakıda vəfat etmişdir.



*Niyazi və Bülbül. 1939-cu il. SMF inv. 504/14.*



*SSRİ Xalq artisti Bülbül neftçilər arasında (Bülbüldən solda - Sosialist Əməyi Qəhrəmanı, neftçi Akif Cəfərov) SMF inv. 658/1.*



*SSSR Xalq artisti Bülbül Məmmədov Koroğlu rolunda. SMF inv. 334/7.*





*Bülbül Üzeyir Hacıbəylinin "Koroğlu" operasında. SMF inv. 334/7.*

1. Fotoşəkil. Niyazi və Bülbül. 1939-cu il. SMF inv. 504/14.
2. Fotoşəkil. SSRİ Xalq artisti Bülbül neftçilər arasında (Bülbüldən solda - Sosialist Əməyi Qəhrəmanı, neftçi Akif Cəfərov) SMF inv. 658/1.
3. Dadaş Bünyadzadə adına Hökumət Türk Teatrosunda 1923-cü il martın 27-də dirijor Müslüm Maqomayevin şərəfinə dörd bölümdən ibarət gecənin keçirilməsi haqqında Afişa. I. "Şah İsmayıl" operasının 1-ci pərdəsi: Şah İsmayıl - Bülbül, Aslan şah - Hənifə Terequlov; II. "Əsli və Kərəm" operasının 4-cü pərdəsi: Kərəm - Bülbül. Şeyx - Cəlil Bağdadbəyov; III. "Leyli və Məcnun" operasının 3-cü pərdəsi. IV. Konsert. Abbas Mirzə Şərifzadə, Xəlil Hüseynov, Əhməd Anatollu və b. iştirak edir. Burada Müslüm Maqomayevin yeni bəstələdiyi "İblis" operasından parçalar göstərilir. Yunis Nərimanovun rəhbərlik etdiyi böyük balet dəstəsi rəqsi. SMF inv. 2096
4. Afişa (Azərbaycan və rus dillərində). Azərbaycan Böyük Dövlət Akademik Opera Teatrosunda 1926-cı il dekabrın 8-də tamaşaya qoyulan bəstəkar Müslüm Maqomayevin "Şah İsmayıl" operası. Şah İsmayıl rolunda: əməkdar aktyor Hüseynqulu Sarabski, Aslan şah - Zəhmət qəhrəmanı Hənifə Terequlov, Gülzar - Qəmər xanım (Topuriya). Digər rollarda: Məhəmmədtağı Bağırov, Bülbül, Məhəmmədhəsən Ataməlibəyov və b. Dirijor: Müslüm bəy Maqomayev. Bədii tərtibat: Vyaçeslav İvanov. Baş rejissor: Abbas Mirzə Şərifzadə. SMF inv. 1996.
5. Bülbül Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında baş rolda. 1930-cu illər. SMF inv. 2215/71.
6. Afişa (rus dilində). M. F. Axundof adına Böyük Dövlət Opera Teatrosunda 1934-cü il aprelin 27-də tamaşaya qoyulmuş Reynqold Qliyerin "Şahsənəm" operası. Rollarda: Şahsənəm - Şövkət Məhəmmədova, Aşıq Qərib - Bülbül , Bəhram bəy - Vasili Nikolski, Şah Vələd - Məhəmmədtağı Bağırov. Quruluşçu rejissor: İ. Prostorov. Dirijor: R. Qliyer. Rəssam: Simon Versaladze. Baletmeyster: V. Qononoviç. SMF inv. 679/34.
7. Fotoşəkil. Niyazi və Bülbül. 1939-cu il. SMF inv. 2017/14
8. Fotoşəkil. SSRİ Xalq artisti Bülbül Üzeyir Hacıbəylinin "Koroğlu" operasında baş rolda. SMF inv. 334/7.
9. Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operasının Proqramı. Şeirləri: Məmməd Rahim. Quruluşçu rejissor: Azərbaycan SSR Xalq artisti İsmayıl Hidayətzadə. Dirijor: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Niyazi. Rəssam: Azərbaycan SSR Əməkdar incəsənət xadimi İzzət Seyidova. Rollarda: Aslan - Bülbül, Mərdan - Ağababa Bünyadzadə, Dilbər - Sona Mustafayeva. Bakı, 1944-1945-ci il mövsümü SMF inv. 574/12.
10. Proqram. Üzeyir Hacıbəylinin "Koroğlu" operası M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində. 1938-ci il. Koroğlu rolunda SSRİ Xalq artisti Bülbül, Nigar rolunda- Səltənət Quliyeva. Quruluşçu rejissor: SSRİ Xalq artisti İsmayıl Hidayətzadə. Bədii tərtibat: rəssam Rüstəm Mustafayev. Səhnə geyimləri: rəssam QəzəFNMFər Xalıqovun eskizləri əsasında. Rəqsi Qəmər Almaszadə ifa edir. HXƏF inv. 1413.
11. Üzeyir Hacıbəylinin "Koroğlu" operasının Proqramı. Şeirləri: Məmməd Səid Ordubadi. Quruluşçu rejissor: İsmayıl Hidayətzadə. Dirijor: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Niyazi. Rəssam: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Aleksandr Filippov. Rollarda: Rövşən (Koroğlu) - Bülbül, Əli; onun atası - İsmayıl Eloğlu, Nigar - Sona Mustafayeva, Səltənət Quliyeva, Həsən xan - Məmmədtağı Bağırov, Ehsan paşa - Əli Zülalov. Rəqsləri Qəmər Almaszadə və Konstantin Bataşov ifa edirlər. 1940-cı illər. HXƏF inv. 1978.
12. Qrammafon valı. Ümumittifaq "Melodiya" firması tərəfindən buraxılmışdır. Bəstəkar və dirijor Niyazinin əsərlərini L.İmanov, Ş.Ələkbərova, Bülbül- Ümumittifaq Radiosunun Böyük simfonik orkestrinin və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrinin müşayətilə ifa edirlər. Ümumittifaq qrammafon yazısı studiyası. HXƏF inv. inv. 5094.





# *Sürəyya Vəlibəyova*

*1897-1965*

Sürəyya Səfərəli bəy qızı Vəlibəyova beş yaşında, 1902-ci ildə atası Səfərəli bəy Vəlibəyov vəfat etdiyi üçün bibisi oğlu Süleyman Sani Axundovun köməyi sayəsində dövlət hesabına pansionda qalmışdır. 1913-cü ildə Bakı Müqəddəs Nina Qadın Gimnaziyasını qızıl medalla bitirən Sürəyya xanım 1910-cu ildə Bakıda açılmış üçüncü rus-tatar qızlar məktəbində müəllim kimi fəaliyyətə başlamışdır. O, 1919-cu ilə qədər bu məktəbdə dərs demişdir.

Muzeyin sənədli mənbələr fondunda saxlanılan 391 №-li şəhadətnaməyə əsasən Bakı Müqəddəs Nina Qadın Məktəbinin ümumi kursunu keçən, riyaziyyat ixtisası üzrə VIII əlavə sinfinə daxil olan Sürəyya (başqa adı Aynadır) Vəlibəyova kursu fərqlənmə ilə bitirmişdir. Müdiriyyət və Pedaqoji Şuranın üzvlərinin imzaladığı 6 iyun 1913-cü il tarixli qiymətlər siyahısı da onun sənədləri arasındadır. 2-ci vərəqin arxasına vurulan ştampdakı yazıdan N. Vəlibəyovaya 1913-ci il sentyabrın 27-də Tiflisdə ev mürəbbiyəsi şəhadətnaməsinin verildiyi məlum olur. (SMF inv. 271/35).

Sürəyya xanım 1929-cu ildən Əli Bayramov adına Qadınlar Klubunda onun üzvü kimi ictimai əsasla işləmiş, eyni zamanda stenoqrafçı kursunda oxumuşdur. O, 1931-1933-cü illərdə Bakı Kino idarəsində işlər müdiri vəzifəsində çalışmışdır. O, eyni zamanda bədii tərcümə ilə də məşğul olmuşdur. 1938-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi vəzifəsinə qəbul ediləndən sonra, taleyini tərcümə işinə bağlamışdır. Sürəyya xanım müasir Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olan bədii əsərlərin əksəriyyətinin, klassik poeziya və zəngin şifahi xalq ədəbiyyatından nümunələri yüksək səviyyədə tərcümə etmişdir. O, 1939-cu ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdir. O, 1965-ci ildə vəfat etmişdir.



АТТЕСТАТЪ



МИНИСТЕРСТВО

НАРОДНАГО ПРОСВѢЩЕНІЯ



СВИДѢТЕЛЬСТВО.

*Bakı Müqəddəs Nina qız məktəbinin VIII əlavə sinfini fərqlənmə ilə bitirən Sürəyya (Ayna) Vəlibəyovaya verilmiş 391 №-li şəhadətnamə. 6 iyun 1913 il. SMF inv. 271/35.*
*Bakı Müqəddəs Nina qız məktəbinin məzunu Sürəyya xanım Vəlibəyovaya ev şəraitində müsəlman usaqlarına riyaziyyat fənnindən dərs demək hüququ verən 22874 №-li şəhadətnamə. 23 iyun 1913. SMF inv. 271/36.*



*Sürəyyə Vəlibəyova milli geyimdə. 1910-cu illər, SMF 271/21*



СВИДѢТЕЛЬСТВО.

1) Въ предметахъ общеобязательныхъ:

2) Въ специальныхъ предметахъ:

*Bakı Müqəddəs Nina qız məktəbinin VIII əlavə sinifini fərqlənmə ilə bitirən Sürəyya (Ayna) Vəlibəyovaya verilmiş 391 inv. nömrəli şəhadətnamə. 6 iyun 1913 il. SMF inv. 271/35.*

1. Fotoşəkil. Müqəddəs Nina Bakı qız məktəbinin II sinif şagirdləri. Müəllimədən solda Süreyya Vəzirova əyləşib. 28 mart 1905-ci il. SMF inv. 57/1.
2. Fotoşəkil. Bakı Müqəddəs Nina qız məktəbinin müəllim və şagirdləri Zığda istirahət edərkən. Süreyya Vəzirova şagirdlər arasında. Bakı 1906-cı il. SMF inv. 57/2.
3. Fotoşəkil. Süreyya xanım Vəlibəyova. Bakı. 11 sentyabr 1911-ci il. SMF inv. 271/16.
4. Fotoşəkil. Bakı Müqəddəs Nina qız məktəbinin şagirdi Sürəyyə Vəlibəyova. 5 may 1912-ci il. SMF inv. 271/20.
5. Fotoşəkil. Sürəyyə Vəlibəyova Azərbaycan milli geyimində. SMF inv. 271/21.
6. Süreyya xanım Vəlibəyovaya, Bakı Müqəddəs Nina qızlar məktəbinin VII sinfini bitirməsi haqqında verilmiş 375 № -li attestat. 5 iyun 1912-ci il. SMF inv. 271/22.
7. Bakı Müqəddəs Nina qız məktəbinin VIII əlavə sinfini fərqlənmə ilə bitirən Süreyya (Ayna) Vəlibəyovaya verilmiş 391 №-li şəhadətnamə. 6 iyun 1913 il. SMF inv. 271/35.
8. Bakı Müqəddəs Nina qız məktəbinin məzunu Süreyya xanım Vəlibəyovaya ev şəraitində müsəlman usaqlarına riyaziyyat fənnindən dərs demək hüququ verən 22874 №-li şəhadətnamə. 23 iyun 1913. SMF inv. 271/36.
9. Fotoşəkil. Azərbaycanın ilk qadın müəllimlərinin bir qrupu. Birinci cərgədə soldan sağa: Mina Aslanova. Arxada: Şəfiqə Əfəndiyeva, Sara Vəzirova, Nigar Vəlibəyova, Süreyya Vəlibəyova. SMF inv. 271/40.
10. Dövlət Qırmızı bayraq teatrında Cəfər Cabbarlının "1905-ci il" əsərinin premyerası. Süreyya Bəylərbəyova-Vəlibəyovanın tərcüməsində. SMF inv. 271/51.
11. Süleyman Sani Axundovun qardaşı Rüstəm Axundov, görkəmli maarifçi Səfərəli Vəlibəyovun yoldaşı Xurşid Vəlibəyova və onun qızları Nigar və Sürəyyə. SMF inv. 282/1.
12. Bakı Müqəddəs Nina qız məktəbinin tarix müəllimi K. Qabarayev. Arxasında rusca "Əziz şagirdim Sürəyyə Vəlibəyovaya K.B.Qabarayevdən xoş xatirələrlə. 21 yanvar 1912-ci il. Bakı" sözləri yazılmışdır. SMF inv. 282/9.
13. Bakı Müqəddəs Nina qız məktəbinin müfəttişi A. Villiams. Arxasında rusca "Xanım (bu söz fransızca yazılıb) Vəlibəyovaya A. Villiamsdan xoş xatirələrlə 17 aprel 1912-ci il. Bakı" sözləri yazılmışdır. SMF inv. 282/10.
14. Bakı Müqəddəs Nina qız məktəbinin təbiətşünaslıq və riyaziyyat müəllimi V. Avalyani. Arxasında rus dilində "S. Vəlibəyovaya V. Avalyanidən xoş xatirələrlə. 4 may 1913-cü il. Bakı" sözləri yazılmışdır. SMF inv. 282/11.
15. Bakı Müqəddəs Nina qız məktəbinin şagirdi.1913-cü il 13 may. Arxasında Sürəyyə Vəlibəyovaya xatirə yazısı var. SMF inv. 282/12.
16. Müqəddəs Nina Bakı qız məktəbinin mürəbbiyəsi Y. Kimyeva-Paniyeva. Arxasında rus dilində "Əziz Sürəyya Vəlibəyovaya onu sevən, həyatında rifah və xoşbəxtliyini sidqi-ürəklə arzulayan Y. Kimyeva-Paniyevadan xoş xatirələrlə. 2 iyun 1913-cü il. Bakı" sözləri yazılmışdır. SMF inv. 282/13.
17. Bakı Müqəddəs Nina qız məktəbinin şagirdi. Arxasında Sürəyyə Vəlibəyovaya xatirə yazısı var. SMF inv. 282/15.
18. Bakı Müqəddəs Nina qız məktəbinin məzunları. Ortada təbiətşünaslıq və tarix müəllimi V. Avaliyani, solunda maarifçi Səfərəli Vəlibəyovun qızı Nigar Vəlibəyovadır. 1912-ci il. SMF inv. 312/2.





# Nigar Vəlibəyova

*1897-?*

Nigar Səfərəli qızı Vəlibəyova 1902-ci ildə Müqəddəs Nina adına Bakı qızlar məktəbinə daxil olmuş, 1911-ci ildə oranı bitirmişdir. O, elə həmin il Bakıda üçüncü rus-tatar qızlar məktəbinə müəllim təyin edilmişdir.

Nigar Səfərəli bəy qızı Vəlibəyovaya 1912-ci ilin iyul ayında verilmiş və Muzeyin Sənədli mənbələr fondunda mühafizə edilən şəhadətnamə və attestatından görünür ki, Bakı Müqəddəs Nina Qadın Gimnaziyasının 7-ci sinifini əla qiymətlərlə bitirmişdir. Ona 5 iyun 1912-ci ildə verilmiş 344 №-li şəhadətnaməyə əsasən Bakı Müqəddəs Nina Qadın Məktəbinin VIII əlavə sinfini bitirmişdir. 1912-ci il 24 iyun və 2 avqust tarixində verilmiş 15685 №-li şəhadətnaməyə əsasən Nigar xanım Vəlibəyovaya müsəlmanların evində riyaziyyatdan dərs demək hüququ verilmişdir.

1. Fotoşəkil. Bakı müsəlman qız məktəbinin müəllim və şagirdləri. Müəllimlər, sağdan sola: Nigar Vəlibəyova, Sara Vəzirova, Şəfiqə Əfəndiyeva. SMF inv. 57/5.
2. Bakı Müqəddəs Nina qız məktəbinin VII sinfinin tam kursunu bitirən Nigar Səfərəli qızı Vəlibəyova verilmiş 377 №-li attestat. 3 iyun 1911-ci il. SMF inv. 271/15
3. Bakı Müqəddəs Nina qız məktəbinin VIII əlavə sinifini bitirən Nigar Səfərəli qızı Vəlibəyovaya verilmiş 344 №-li şəhadətnamə. 5 iyun 1912-ci il. SMF inv. 271/23.
4. Bakı Müqəddəs Nina qız məktəbinin məzunu Nigar xanım Vəlibəyovaya ev şəraitində müsəlman uşaqlarına riyaziyyat fənnindən dərs demək hüququ verən 15685 №-li şəhadətnamə. 24 iyun 1912-ci il. SMF inv. 271/24.
5. Fotoşəkil. Müqəddəs Nina məktəbinin II sinfinin tələbələri. Bakı, 1905-ci il. SMF inv. 312/1.
6. Ortada təbiətşünaslıq və tarix müəllimi V.Avaliyani, solunda Nigar Vəlibəyovadır. 1912-ci il. SMF inv. 312/2.
7. Fotoşəkil. Müqəddəs Nina məktəbinin bir qrup müəllim və tələbə heyəti ekskursiyada. 1912-ci il. SMF inv. 312/3.
8. Fotoşəkil. Bir qrup müəllim dərs zamanı. Bakı, 1912-ci il. SMF inv. 312/4.


СВИДѢТЕЛЬСТВО.

Bakı Müqəddəs Nina Qadın Məktəbini bitirən islam dininə mənsub olan Rusiya İmperiyasının təbəəsi Nigar xanım Vəlibəyovaya müsəlmanların evində riyaziyyatdan dərs demək hüququ və ev mürəbbiyəsi adı verilmiş 15685 №-li şəhadətnamə. SMF inv. 271/24.


СВИДѢТЕЛЬСТВО.

№ 15685

Bakı Müqəddəs Nina qız məktəbinin məzunu Nigar xanım Vəlibəyovaya ev şəraitində müsəlman uşaqlarına riyaziyyat fənnindən dərs demək hüququ verən 15685 №-li şəhadətnamə. 24 iyun 1912 il. SMF inv. 271/24.



Bakı Müqəddəs Nina qız məktəbinin məzunları. Ortada təbiətşünaslıq və tarix müəllimi V.Avaliyani, solunda Nigar Vəlibəyovadır. 1912-ci il. SMF inv 312/2.



# *Mina Aslanova*

*1898-?)*

Mina xanım Aslanova ilk təhsilini görkəmli maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yaratdığı Bakı qadın rus-tatar məktəbində almışdır. 1912-ci ildə məktəbin tam kursunu bitirdikdən sonra Bakı şəhər Duması nəzdindəki Məktəb komissiyasının 19 dekabr 1912-ci il tarixli qərarı ilə Bakı birinci rus-türk məktəbində şəriət müəllimi kimi fəaliyyətə başlayır. Bununla yanaşı o, Bakı İmperator III Aleksandr adına Kişi gimnaziyasında Azərbaycan dili müəllimi, 3-cü rus-türk, X rus-türk və digər məktəblərdə şəriət müəllimi kimi çalışmışdır.

Həyatını müxtəlif rus-türk məktəblərində gənc nəslin təhsil alması işinə sərf edib və bu yolda fədakarcasına çalışmış Mina xanım Aslanovanın sonrakı həyat tarixi haqqında məlumat yoxdur. Güman etmək olar ki, tanınmış pedaqoq repressiyaya məruz qalmışdır. Çünki onun atası, Qori Müəllimlər Seminariyasının məzunu Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu Aslanov da 1938-ci ildə repressiyanın qurbanı olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, onun oğlu, yəni Mina xanımın qardaşı Əmir bəy digər tanınmış pedaqoq Nigar xanım Vəlibəyovanın həyat yoldaşı olub. Əmir bəy də 1938-ci ilin repressiya qurban olmuşdur[1].

1 Səfərov Rafiq. Təhsil tariximizdə izi qalmış pedaqoq - Mina xanım Aslanova. http://milliarxiv.gov.az/az/emekdaslarimizin-arxiv-arasdirmalari-mina-aslanova

1. Fotoşəkil. Qızlar üçün ikiillik Rus-türk məktəbinin müəllim və şagirdləri. Ortada məktəb direktoru Rəhilə Hacıbababəyova, sağında Tamara Əhmədbəyova-Axundova, soldan 1-ci Məryəm Terequlova-Qasımova, 2-ci Mina Aslanovadır. 1910-cü il. SMF inv. 78/1.
2. Fotoşəkil. III rus-müsəlman qız məktəbinin müəllimləri. Arxadan 1-ci cərgədə: Məryəm Terequlova, Tamara Axundova, Zəhra Ağayeva (Şaxtaxtinskaya), 2-ci cərgədə: Mina Aslanova, Rəhilə Hacıbababəyova, yerdə əyləşənlər: Sürəya Vəlibəyova (Bəylərbəyova), Əminə Ağayeva. SMF inv. inv. 271/39.
3. Fotoşəkil. III Rus-Türk qadın məktəbinin bir qrup müəllimməsi M.Aslanova, R.Hacıbababəyova, T.Əhmədbəyov. Bakı, 1914-cü il. SMF inv. 282/16.
4. Fotoşəkil. Bakı rus-türk məktəblərinin bir qrup müəllimi. Yerdə əyləşən soldan birinci Mina Aslanova. Arxada əyləşənlər soldan sağa: Şəfiqə Əfəndiyeva, Sara Vəzirova, Nigar Vəlibəyova, Sürəyya Vəlibəyova. SMF inv. 271/40.
5. Fotoşəkil. Rus-türk qız məktəbinin müəllimləri. Masa arxasında soldan sağa: Ayşə Hacıqasımova, məktəbin müdirəsi Hənifə Məlikova, Mina Aslanova. 15 dekabr 1913-cü il. SMF inv. 57/4.
6. Fotoşəkil. Rus-müsəlman qız məktəbinin müəllim və şagirdləri. Ortada məktəb direktoru Rəhilə Hacıbababəyova, sağında Tamara Əhmədbəyova-Axundova, soldan 1-ci Məryəm Terequlova-Qasımova, 2-ci Mina Aslanovadır. 1910-cu il. SMF inv. 78/1.
7. Fotoşəkil. Rus-müsəlman qız məktəbinin şagirdi Mina Aslanova. 1912-ci il. FNMF 14819.





*Qızlar üçün ikiillik Rus-türk məktəbinin müəllim və şagirdləri. Ortada məktəb direktoru Rəhilə Hacıbababəyova, sağında Tamara Əhmədbəyova-Axundova, soldan 1-ci Məryəm Terequlova-Qasımova, 2-ci Mina Aslanovadır. 1910-cü il. SMF inv. 78/1.*



*III rus-müsəlman qız məktəbinin müəllimləri. Arxadan 1-ci cərgədə: Məryəm Terequlova, Tamara Axundova, Zəhra Ağayeva (Şaxtaxtinskaya), 2-ci cərgədə: Mina Aslanova, Rəhilə Hacıbababəyova, yerdə əyləşənlər: Sürəya Vəlibəyovam (Bəylərbəyova), Əminə Ağayeva. SMF inv. inv. 271/39.*



Bakı rus-türk məktəblərinin bir qrup müəllimi. Yerdə əyləşən soldan birinci Mina Aslanova. Arxada əyləşənlər soldan sağa: Şəfiqə Əfəndiyeva, Sara Vəzirova, Nigar Vəlibəyova, Sürəyya Vəlibəyova. SMF inv. 271/40.



Rus-müsəlman qız məktəbinin şagirdi Mina Aslanova. 1912-ci il. FNMF inv. 14819.





# Teymur Aslanov

## 1899-?

Teymur Zəkəriyyə oğlu Aslanov 1899-cu ildə Şuşa şəhərində Zaqafqaziya Müəllimlər Seminariyasının məzunu Zəkəriyyə-bəy Aslanovun ailəsində anadan olmuşdur. O, 1920-ci ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Qərbi Avropaya təhsil almağa göndərilən tələbələrdən biri kimi əvvəlcə Fransada təhsil almışdır. 1924-cü ildə Almaniyaya köçən Teymur Aslanov burada Kotbusdakı Prussiya Ali Tekstil İnstitutunda təhsilini davam etdirmişdir.

1925-ci ildə Azərbaycana qayıdan T.Aslanov Gəncədə toxuculuq kombinatında fəaliyyətə başlayır. O, 1931-1932-ci illərdə Bakıda Xalq Yüngül Sənaye Komissarlığında işləmişdir. 1933-cü ildə Gəncəyə qayıdan T.Aslanov Toxuculuq Kombinatına direktor müavini, sonra isə direktor təyin edilmişdi.

Aslanov 1937-ci il oktyabrın 18-də millətçi üsyançı təşkilatda iştirakda və alman kəşfiyyatı üçün casusluqda ittiham edilərək həbs edilərək Sibirdəki sürgün düşərgəsinə göndərilir.

1. Fotoşəkil. Berlin Toxuculuq institutunun məzunu Teymur Aslanov. Visbaden, 8 avqust 1922-ci il. SMF inv. 271/44.
2. Fotoşəkil. Paris və Berlində təhsil alan tekstil mühəndisi Teymur Aslanov. 1919-cu il. SMF inv. 282/17.
3. Fotoşəkil. Kirovabad Toxuculuq kombinatının direktoru Teymur Aslanov. 1937-ci ilə qədər. SMF inv. 312/17.



Bakı rus-türk məktəblərinin bir qrup müəllimi. Yerdə əyləşən soldan birinci Mina Aslanova. Arxada əyləşənlər soldan sağa: Şəfiqə Əfəndiyeva, Sara Vəzirova, Nigar Vəlibəyova, Sürəyya Vəlibəyova. SMF inv. 271/40.



# Zülfüqar (Zülfi) Adıgözəlov

*1898-1963*

Zülfüqar (Zülfi) Səməd oğlu Adıgözəlov Şuşa qəzası Qaradolaq kəndində anadan olub. O, ifaçılıq fəaliyyətinə 1926-cı ildə başlayıb. XX əsrin 20-ci illərinin sonunda Cabbar Qaryağdıoğlu Şuşa məclislərinin birində onu dinləyir və bəyəndiyi müğənnini Bakıya dəvət edir. Zülfüqar Adıgözəlov Bakıda olarkən Filarmoniyada konsertlər verir, opera teatrının səhnəsində muğam operalarında çıxış edir. Tezliklə Zülfüqar aktyor kimi populyarlıq qazanır. İnsanlar onu mehribanlıqla "Zülfi" adlandırırdılar. 1936-cı ildən - Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur.

Mahir muğam ifaçısı Zülfüqar Adıgözəlov 1929-1932-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. O, "Rast" muğamının da məşhur ifaçısı hesab olunurdu. Zülfi öz muğamlarında Füzuli, Nəbati, Vaqif, Zakir, Natəvan, Səməd Vurğun və Azərbaycan poeziyasının digər klassiklərinin qəzəllərindən ustalıqla istifadə etmişdir.

Onun "Azərbaycanfilm" kinostudiyasının "Kəndlilər", "Səbuhi", "Bakılılar" filmlərindəki səsi qorunub saxlanılıb.

Zülfi Adıgözəlov 1963-cü ildə vəfat etmişdir.

1. Sovet Bəstəkarlar İttifaqının 7 №-li üzvlük vəsiqəsi. HXƏF inv. 673.
2. Z.Hacıbəyova SSRİ musiqi fondunun 833 №-li üzvlük bileti. HXƏF inv. 674.
3. Tar. Ağac, dəri və simlərdən ibarətdir. Sadədir, bəzəyi yoxdur. HXƏF inv. 708.
4. Not dəftəri. Zülfüqar Hacıbəyovun əlyazmasıdır. Kül rəngli cildi üzərində qara hərflərlə "Нотная тетрадъ" yazılmışdır. HXƏF inv. 1292.
5. Fotoşəkil. Z.Adıgözəlov. 1933-cü il. HXƏF inv. 3806.
6. Fotoşəkil. Zülfü Adıgözəlov kamança çalan Vaqo Melkumov, tarzən Bəhram Mənsurovla birlikdə. HXƏF inv. 3807.
7. Fotoşəkil. Xanəndə Z.Adıgözəlov. HXƏF inv. 3808.
8. Teatr incəsənəti sahəsində görkəmli fəaliyyətinə görə Zülfüqar Səməd oğlu Adıgözəlova verilmiş Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı. 17 iyun 1943-cü il. HXƏF inv. 3809.





*Z.Adıgözəlov. 1933-cü il. HXƏF inv. 3806.*



*Zülfü Adıgözəlov kamança çalan Vaqo Melkumov və tarzən Bəhram Mənsurovla birlikdə. HXƏF inv. 3807.*



С.ф. 673
Д.к. 6273

УДОСТОВЕРЕНИЕ № 7

Ф.
И.
О.
Состоит членом Союза советских композиторов

Действительно по 31 декабря 1947 г.

Председатель ССК

Продлено по 1948 г.
Предс. ССК
м. п.
Продлено по 1949 г.
Предс. ССК
м. п.
Продлено по 1950 г.
Предс. ССК
м. п.

*Sovet Bəstəkarlar İttifaqının 7 №-li üzvlük vəsiqəsi. HXƏF inv. 673.*



Rəhimov Süleyman Hüseyn oğlu 1900-cü il martın 9-da Bərgüşad rayonunun (indiki Azərbaycanın Qubadlı rayonu) Əyin dağ kəndində anadan olmuşdur. Əvvəlcə doğma kəndində mədrəsədə oxumuş, 1912-ci ildə Zəngəzurda ikiillik rus ibtidai məktəbini, 1921-ci ildə Şuşa şəhərində altı aylıq pedaqoji kursu bitirmişdir. 1921–1927-ci illərdə Zəngəzur qəzasında, Qubadlı və Laçın rayonlarında müəllim işləmişdir. 1928-1931-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsində təhsil almışdır.

1932–1938-ci illərdə S.Rəhimov Laçın, Samux, Şahbuz və Noraşen rayon partiya komitələrinin katibi vəzifələrində işləmişdir. 1939-cu ildən Bakıda müxtəlif partiya, dövlət və ictimai vəzifələrdə çalışan S.Rəhimov Bakı Şəhər Partiya Komitəsinin katibi (1940–1941), rəis müavini, sonra Azərbaycan SSR MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri və Ümumittifaq Kommunist Partiyası (b) MK Marks-Engels-Lenin İnstitutunun Azərbaycan bölməsinin direktoru (1941–1944) olmuşdur.

Süleyman Rəhimov müxtəlif illərdə (1939–1941, 1944–1945, 1954–1958) Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik etmiş, Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəniyyət və Maarif Komitəsinin sədri (1946–1952) vəzifələrində çalışmışdır. Onun fəal partiya, dövlət və ictimai fəaliyyəti dövlət tərəfindən mükafatlandırılmışdır. O, 1942-ci ildə "Şərəf nişanı" ordeni, üç dəfə (1946, 1970, 1975) Lenin ordeni, 1959-cu ildə Qırmızı Əmək Bayrağı ordeni, 1960-cı ildə isə - anadan olmasının 60 illiyi və yaradıcılığının 30 illiyi ilə əlaqədar "Azərbaycan SSR xalq yazıçısı" fəxri adına layiq görülüb. 1975-ci ildə SSRİ Ali Sovetinin fərmanı ilə o, sülh dövründə Sovet İttifaqının ən yüksək mükafatı olan qızıl ulduzla "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

Süleyman Rəhimov 1930-cu ildən başalayaraq əsərlərini nəşr etdirməyə başlamışdır. Onun "Şamo" adlı ilk romanının birinci cildi 1931-ci ildə Bakıda nəşr olunmuşdur. Görkəmli yazıçının "Saçlı" (1944), "Ata və oğul" (1949), "Mehman" (1953) və başqa əsərləri ona Azərbaycan ədəbiyyatına böyük şöhrət qazandırmışdır.

1983-cü ildə vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## *Süleyman Rəhimov*

*1900-1983*

1. Fotoşəkil. Azərbaycan SSR xalq yazıçısı Süleyman Rəhimov. FNMF inv. 11843





Xan Şuşinski - İsfəndiyar Aslan oğlu Cavanşirov 20 avqust 1901-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa məclislərinin birində onun məharətli ifası bütün qonaqları heyran etdiyindən ustadı İslam Abdullayev ona "Xan" adını vermişdir. Xan Şuşinskinin etirafına görə, onun kamil xanəndə kimi yetişməsində İslam Abdullayevdən sonra Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük rolu olmuşdur. Simfonik orkestrin müşayiəti ilə ilk dəfə simfonik muğamlarda solo hissəni Xan ifa edib. Azərbaycan musiqi tarixində ilk duet Şövkət Ələkbərova ilə Xan Şuşinskinin ifasında səslənib. Xan Şuşinski Üzeyir Hacıbəyovdan başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Deyilənə görə, Üzeyir Hacıbəyov Xan Şuşinskinin ifasında mahnılarını dinləməkdən xüsusi zövq alırmış. Onun 1926-cı ildə bəstələdiyi "Qaragöz" mahnısının da ilk ifaçısı elə Xan Şuşinski olub.

Müstəsna istedadlı, geniş diapozonlu, gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Xan Şuşinski hələ gənclik illərində şöhrət qazanmışdır. Yaradıcılığında "Mirzə Hüseyn segahı", "Şahnaz", "Qarabağ şikəstəsi", "Kürd-şahnaz", "Rast", "Bayatı-Şiraz", "Çahargah", "Mahur", "Heyratı", "Şur" və digər muğamlar əsas yer tuturdu. Xan gözəl qaval çaldığına görə ritmik muğamların da mahir ifaçısı sayılırdı. "O olmasın, bu olsun" (1956) filmində müğənni rolunda çıxış etmişdir.

Xanın özü bir sıra mahnıların müəllifi idi. Onlardan "Qəmərim", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağından", "Ölürəm a Ceyran bala" və nəhayət Şuşaya həsr etdiyi və dillər əzbəri olan "Şuşanın dağları başı dumanlı" mahnılarıdır. X. Şuşinski 1943-cü ildə Azərbaycanın Xalq artisti adına layiq görülmüşdür.

Azərbaycan musiqi tarixinin əvəzolunmaz korifeyi Xan Şuşinskinin səsinin yadigarı kimi cəmisi 240 dəqiqəlik lent yazısı qalıb. Xan Şuşinski 18 mart 1979-cu ildə Bakıda vəfat etmişdir.

## *Xan Şuşinski*

*1901-1979*



*Fotoşəkil. Xan Şuşinski (ortada), Əhməd Bakıxanov (solda). Xanəndə X. Bayramov ayaqüstədir. SMF inv. 418/13.*



*Xan Şuşinskinin qavalı. HXƏF inv. 5597.*







*"O olmasın, bu olsun" kinofilmindən bir səhnə. Solda Xanəndə Xan Şuşinski,ortada Tarzən Bəhram Mənsurov, sağda kamança çalan Tələt Bakıxanov. SMF inv. 156/2.*

1. Fotoşəkil. Xan Şuşinski (ortada), Əhməd Bakıxanov (solda). Xanəndə X. Bayramov ayaqüstədir. SMF inv. 418/13.
2. Qaval. Membran dəridəndir. Sağanağı taxtadan, ətrafına qara dəri lent çəkilib. Sədəfdən bəzəyi var. İç tərəfdən 62 düyməciyi və halqası var. Kənarındakı sədəflərin arasında yerləşən 3 ədəd rombvari bəzək düşüb. Qaval xüsusi qutuda yerləşdirilib. Qutunun üstü açıq qəhvəyi rəngli dəridən, içərisi qırmızı məxmərdəndir. Dəmirdən detalları və cəftəsi var. Üzərində arfa təsvir edilmişdir. Dərisi sürtülüb, dəmir detalı qopub, əyriliyi var. Xan Şüşinski hədiyyə edib. HXƏF inv. 5597.
3. Fotoşəkil. "O olmasın, bu olsun" kinofilmindən bir səhnə. Solda Xanəndə Xan Şuşinski, ortada Tarzən Bəhram Mənsurov, sağda kamança çalan Tələt Bakıxanov. SMF 156/2
4. Fotoşəkil. Xan Şuşinski. SMF inv. 156/3.



# *Məhbubə xanım Mehmandarova-Mahmudbəyova*

*1902-1976*

Məhbubə xanım Kərim bəy qızı Mahmudbəyova 11 iyun 1902-ci ildə Şuşa şəhərində Azərbaycanın ilk ali təhsilli həkimi Kərim bəy Mehmandarovun və Bəhmən Mirzə Qacarın qızı Zəringül (Şahbacı) xanımın ailəsində anadan olmuşdur. İbtidai təhsilini 1911-ci ildə Şuşada açılan ilk rus-türk qız məktəbində alan Məhbubə xanım 1914-cü ildən etibarən təhsilini Bakıda davam etdirmişdir.

Bakıda orta məktəbi müvəffəqiyyətlə bitirən Məhbubə xanım 1919-cu il noyabrın 1-dən Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabineti katibliyində birinci dərəcəli dəftərxana xidmətçisi vəzifəsinə qəbul edilir. Lakin bu vəzifədə cəmi bir neçə ay işləyə bilir. Həmin dövrdə respublikada yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar Şuşaya qayıdır. O, burada müəllim kadrları hazırlamaq üçün Azərbaycan dilində üç aylıq pedaqoji kursu bitirib müəllimlik hüququ qazanır. Məhbubə xanım Şuşada da fəal şəkildə qızların, qadınların arasında maarifçilik ideyalarının təbliği istiqamətində durmadan çalışır. Hətta gənc qızları başına yığıb "Maarif ocağı" adlı qadınlar klubu da yaradır.

1922-ci ildə Şamil bəy Mahmudbəyovla ailə quran Məhbubə xanım Bakıya qayıdır. O, təhsilini davam etdirərək ali pedaqoji institutun məzunu olur. Lakin onun ən böyük arzusu atası kimi həkim olmaq idi. Buna görə də Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur 1929-cu ildə həkimlik diplomu alan Məhbubə xanım Tibb İnstitutunun mamalıq-ginekologiya klinikasında ordinator saxlanılır, daha sonra kafedranın birinci assistenti vəzifəsinə keçirilir.

1935-ci ildə dissertasiya işini müdafiə edərək ilk azərbaycanlı qadın alimlərdən biri kimi tanınmağa başlayır. Həmin dövrdə Tibb İnstitutunun Mamalıq və ginekologiya kafedrasının dosenti olan Məhbubə xanım Bakının orta tibb məktəblərində dərs deyir, tələbələr qarşısında Azərbaycan və rus dillərində ginekologiyaya aid mühazirələr oxuyur.

O, 1933–70-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun mama-ginekologiya kafedrasının dosenti, sonra professoru, daha sonra isə müdiri işləmişdir. 1968–74-cü illərdə Respublikanın mama-ginekoloqları elmi cəmiyyətinin sədri olmuşdur. Tədqiqatını, əsasən, qadın, ana və uşağın sağlamlığının qorunması probleminə həsr edilmişdir. Məhbubə xanımın "Ürək-damar sistemi xəstəlikləri zamanı hamiləlik və doğuş" mövzusundakı monoqrafiyası (1973) böyük elmi-praktiki əhəmiyyətə malikdir. O, 13 yanvar 1976-cı ildə vəfat etmişdir.





*Professor M.Mahmudbəyova. Bakı, 1960-cı illər. SMF inv. 534.11 (IV).*




*Fəxri fərman. Azərbaycan SSR Həmkarlar ittifaqı tərəfindən tibb sahəsində yüksək səviyyədə fəaliyyətinə görə N.Nərimanov adına Tibb İnstitutunun dosenti, Məhbubə Kərim qızı Mahmudbəyovaya verilmişdir. 29 yanvar 1960-cı il. SMF 534/10(II)*

1. Mixail Tuşinskinin bacısı, həkim Kərim Mehmandarovun qızı Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub. 24.04.1930-cu il. SMF inv. 483/1.
2. Mixail Tuşinskinin bacısı Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub. 23.08.1930-cu il. 4 səhifə. SMF inv. 483/2.
3. Mixail Tuşinskinin Cəlil Məmmədquluzadənin həyat yoldaşı, Cavanşir nəslindən olan Həmidə xanıma yazdığı məktub. 25.08.1930-cu il. 4 səhifə. SMF inv. 483/3.
4. Mixail Tuşinskinin Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub. 14.12.1930-cu il. 2 səhifə. SMF inv. 483/4.
5. Mixail Tuşinskinin Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub. Tarix yoxdur. 4 səhifə. SMF inv. 483/5.
6. Mixail Tuşinskinin Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub.30.10.1931-ci il. 2 səhifə. SMF inv. 483/7.
7. Mixail Tuşinskinin Məhbubə xanım Mahmudbəyovaya yazdığı məktub. 18.09.1939-cu il. 4 səhifə. SMF inv. 483/14.
8. M.D.Tuşinski. oktyabr-noyabr 1933-cü il. SMF inv. 483/109.
9. Fotoşəkil. M.D.Tuşinski. SMF inv. 483/110.
10. Fotoşəkil. M.D.Tuşinski. SMF inv. 483/111.
11. Fotoşəkil. M.D.Tuşinski. SMF inv. 483/112.
12. Əlavə. Məhbubə xanım Mahmudbəyovanın qardaşı M.D.Tuşinski haqqında xatirələri. 4 səhifə. SMF inv. 483/113.
13. Fotoşəkil. Professor M.Mahmudbəyova. Bakı, 1960-cı illər. SMF inv. 534.11 (IV).
14. Fəxri fərman. Azərbaycan SSR Həmkarlar ittifaqı tərəfindən tibb sahəsində yüksək səviyyədə fəaliyyətinə görə N.Nərimanov adına Tibb İnstitutunun dosenti, Məhbubə Kərim qızı Mahmudbəyova verilmişdir. 29 yanvar 1960-cı il. SMF inv. 534/10(II)
15. Vəsiqə. Xalq Təhsil Komissarlığından M.Mehmandarova Bakıda 3 aylıq qadın pedaqoji kurslarında oxuması haqqındadır. 23 avqust 1920-ci il. SMF inv. 534/6 (IV).
16. Fotoşəkil. Mehmandarovlar, qardaşı professor Tuşinski və mühəndis F.Rüstəmbəyov. Bakı. SMF inv. 534/8 (IV).
17. Azərbaycanlı həkimlər qrupu Almaniyada elmi məzuniyyətdə. M.Mir-Qasımov, M.Hacıqasımov, M.Topçubaşov və başqaları. Münhen, 1926-cı il. SMF inv. 534/11 (V).





# *Sürəyya Ağaoğlu*

*1903-1989*

Şuşa şəhərində anadan olan Türkiyənin ilk qadın vəkili Sürəyya Ağaoğlu atası Əhməd bəy Ağaoğlu ilə birlikdə 1910-cu ildə Türkiyəyə mühacirət etmişdir. O, orta təhsilini Türkiyədə almışdır. Bütün çətinliklərə baxmayaraq o, orta məktəbi bitirdikdən sonra 1921-ci ildə İstanbul Universitetinin Hüquq fakültəsinə daxil olur. Universiteti bitirdikdən sonra Sürəyya xanım vəkil olmaqla yanaşı, qadın hüquqlarının müdafiəçisi kimi böyük şöhrət qazanır. 1948-ci ildə Berlində Beynəlxalq Hüquqşünaslar Komissiyasının üzvü olan Sürəyya xanım eyni zamanda Azad Fikirlərin Yayılması Dərnəyi, Türk-Amerika Universitetləri Dərnəyi və Uşaq Dostları Dərnəyinin qurucusu olmuşdur.

1949-cu ildə İstanbula yetim uşaqlar üçün sığınacaq yeri inşa etdirmişdir. Daha sonra onun rəhbərliyi ilə Uşaq Dostları Dərnəyi yaradılmışdır.

Sürəyya Ağaoğlunun "Londonda gördüklərim" və "Bir ömür belə keçdi" kitabları və müxtəlif hüquqi məsələlərə dair məqalələri vardır.

O, 1989-cu il dekabrın 29-da İstanbulda vəfat etmişdir.

1. Fotoşəkil. Sürəyya Ağaoğlunun evində məclis. Soldan sağa 2-ci Nigar Axundova, 3-cü Sürəyya Ağaoğlu, 4-cü Gültəkin Ağaoğlu, 5-ci Suna Giritli, 6-cı İsmət Giritli, 7-ci Əhməd bəyin nəvəsi, Tezer Taşkıranın oğlu Mete Taşkıran əyləşir, ayaqüstə 2-ci Ayşəgül Güvənc, 3-cü Tevfik Ağaoğlu, 4-cü Ayşəgül Ağaoğlu, 5-ci Gülşən Ağaoğludur. İstanbul, 1988-ci il. SMF inv. 5582.
2. Fotoşəkil. Türkiyədə ilk qadın vəkil Sürəyya Ağaoğlu. İstanbul, 1988-ci il. SMF inv. 5583.
3. Fotoşəkil. Soldan sağa: Sürəyya Ağaoğlu, Tevfik Ağaoğlu, Nigar Axundova və Əhməd Ağaoğlunun qardaşı nəvəsinin həyat yoldaşı jurnalist, professor İsmət Giritli. İstanbul, 1988-ci il. SMF inv. 5585
4. Fotoşəkil. Nigar Axundova və Sürəyya Ağaoğlu. İstanbul, 1988-ci il. SMF inv. 5588.
5. Kitab. Ağaoğlu Sürəyya. Londrada gördüklərim. – İstanbul: İsmail Akgün Matbaası, 1946. - 44 s. MATM Kitabxanası, K-F.C. 18.


LONDRADA
GÖRDÜKLERİM

YAZAN :
SÜREYYA AĞAOĞLU

İSTANBUL
1946

*Kitab. Ağaoğlu Sürəyya. Londrada gördüklerim. – İstanbul: İsmail Akgün Matbaası, 1946. - 44 s. MATM Kitabxanası, K-F.C. 18.*



*Sürəyya Ağaoğlunun evində məclis. Soldan sağa 2-ci Nigar Axundova, 3-cü Sürəyya Ağaoğlu, 4-cü Gültəkin Ağaoğlu, 5-ci Suna Giritli, 6-cı İsmət Giritli, 7-ci Əhməd bəyin nəvəsi, Tezer Taşkıranın oğlu Mete Taşkıran əyləşir, ayaqüstə 2-ci Ayşəgül Güvənc, 3-cü Tevfik Ağaoğlu, 4-cü Ayşəgül Ağaoğlu, 5-ci Gülşən Ağaoğludur. İstanbul, 1988-ci il. SMF inv. 5582.*



*Soldan sağa: Sürəyya Ağaoğlu, Tevfik Ağaoğlu, Nigar Axundova və Əhməd Ağaoğlunun qardaşı nəvəsinin həyat yoldaşı jurnalist, professor İsmət Giritli. İstanbul, 1988-ci il. SMF inv. 5585*



*Soldan Nigar Axundova və Sürəyya Ağaoğlu. İstanbul, 1988-ci il. SMF inv. 5588.*




# Əli bəy Axundov

*1906-1962*

Əli bəy Bəhram bəy oğlu Axundov Moskvada Şərqşünaslıq İnstitutunun iqtisad fakültəsini (1926-1930), Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasını (1930-1932) bitirmişdir. Azərbaycan MİK-in nəzdindəki Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun 5 iyun 1932-ci il tarixli 236 saylı şəhadətnaməsinə əsasən İqtisad şöbəsinin tam kursunun dinləyicisi Əli Axundova ali məktəblərdə dərs demək hüququ verilib (SMF inv. 125/20).

Azərbaycan Sovet Ticarəti Texnikumunun X buraxılışına (1932-1936) aid bir venetkaya əsasən (2, SMF inv. 125/21) dosent Ə.Axundov texnikumda və Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda direktor (1936-1937) vəzifələrində çalışmışdır. 1937-ci ildən isə Xalq Təsərrüfatı İnstitutunda çalışan (SMF inv. 125/23) dosent Əli bəy 1933-cü ildən Marksizm-Leninizm İnstitutunda elmi katib vəzifəsində fəaliyyət göstərmişdir. O, 1948-ci ildə Xalq Təsərrüfatı İnstitutunda "Azərbaycanda ipəkçilik və ipək sənayesi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi adı almışdır. 1951-ci ildən ömrünün sonuna kimi Azərbaycan Politexnik İnstitutunun dosenti kimi fəaliyyət göstərmişdir.

Əli bəy Axundov 1937-ci il sentyabrın 30-da həbs edilib. Məhbus anketində onun ailə üzvləri kimi 24 yaşlı yoldaşı Zeynəb (1912-1997) və 3 yaş yarımlıq qızı Sevil (1934) qeyd olunub. O, institutda "xalq düşmənləri" axtarışında iştirak etmədiyi üçün günahlandırılır. Bir il həbsdə qalsa da istintaq onun heç bir təqsirini sübuta yetirmədiyindən, 1938-ci ilin may ayında Bakı şəhərində yaşamamaq şərti ilə azadlığa buraxılır. Onun Sevil, Tamara adlı iki qızı və Ramiz adlı bir oğlu var idi.

Əli bəy Axundov 1962-ci ildə vəfat etmişdir.

1. Azərbaycan MİK-in nəzdindəki Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun İqtisad şöbəsinin tam kursunu bitirən Əli Axundova ali məktəblərdə dərs demək hüququ verən 36 №-li şəhadətnamə. 5 iyun 1932. SMF inv. 125/20.
2. Direktor Əli bəy Axundov müəllim işlədiyi Azərbaycan Sovet Ticarəti Texnikumun X buraxılışının (1932-1936) məzun vinetkasında tələbə və müəllimlər arasında (başda birinci). 1936-cı il. SMF inv. 125/21.
3. Əli Axundov Xalq Təsərrüfatı İnstitutunun bir qrup əməkdaşı arasında (sağdan sola üçüncü dosent Axundov). 20 yanvar 1937-ci il. SMF inv. 125/23.
4. Əli Axundov K.Marks adına Azərbaycan Kənd Təsərrüfatı institutunun 1948-1949-cu illər məzun vinetkasında müəllim və tələbələr arasında (sağdan sola ikinci dosent Axundov). SMF inv. 125/24.
5. Voroşilov (indiki Səbail) rayonun fəhlə-kəndli müxbirlərinin ümumi yığıncağında Azərbaycan fəhlə-kəndli müxbirlərinin IV qurultayına nümayəndə seçilməsi haqqında Əli Axundova verilmiş 32 №-li vəsiqə. SMF inv. 125/25.




AZƏRBAJÇAN
DEVLƏT ELMI TƏDQIQAT INSTITUTU

ŞAHADATNAMA

СВИДЕТЕЛЬСТВО

№ 36

*Azərbaycan MİK-in nəzdindəki Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun İqtisad şöbəsinin tam kursunu bitirən Əli Axundova ali məktəblərdə dərs demək hüququ verən 36 №-li şəhadətnamə. 5 iyun 1932. SMF inv. 125/20.*



*Əli Axundov Xalq Təsərrüfatı İnstitutunun bir qrup əməkdaşı arasında (sağdan sola üçüncü dosent Axundov). 20 yanvar 1937-ci il. SMF inv. 125/23.*




*Direktor Əli bəy Axundov müəllim işlədiyi Azərbaycan Sovet Ticarəti Texnikumun X buraxılışının (1932-1936) məzun venetkasında tələbə və müəllimlər arasında (başda birinci). 1936-cı il. SMF inv. 125/21.*




*Əli Axundov K.Marks adına Azərbaycan Kənd Təsərrüfatı institutunun 1948-1949-cu illər məzun venetkasında müəllim və tələbələr arasında (sağdan sola ikinci dosent Axundov). SMF inv. 125/24.*





# *Lətif Kərimov*

*1906-1991*

Lətif Hüseyn oğlu Kərimov 17 noyabr 1906-cı ildə Şuşada doğulmuşdur. Onun atası Məşədi Hüseyn papaqçı, anası Telli Hacı Nəsib qızı isə Qarabağın tanınmış xalçaçılarından biri olmuşdur.

1912-ci ildə Kərimovlar ailəsi İranın Məşhəd şəhərinə köçmüşdür. Burada Lətif Kərimov klassik Şərq sənəti olan kalliqrafiya üzrə təhsil almaqla yanaşı, rəssamlıq bacarığını da təkmilləşdirmişdir. 1922-ci ildə məktəbi bitirdikdən sonra Mirzə Hüseyn Ələkbərzadənin xalça emalatxanasında rəssam kimi fəaliyyət göstərərək püxtələşib və xalça sənətinə mükəmməl yiyələnib. 1929-cu ildə Azərbaycana qayıdan L.Kərimov bir müddət sonra "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyində fəaliyyətə başlayır.

L.Kərimov 1930-cu illərdə xalq ənənələrinə əsaslanaraq klassik xalça rəsmləri hazırlayıb və xalça sənətinə bir sıra yeniliklər gətirib. Onun təşəbbüsü ilə 1937-ci ildə Bakıda mərkəzi boyaqçılıq emalatxanası yaradılıb. Rəssam ilk dəfə olaraq xalça üçün rəng şkalasını yaradıb. O, 1945-ci ildən ömrünün sonlarına kimi Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunun dekorativ-tətbiqi sənət şöbəsinə (1984-cü ildən etibarən isə xalça sənəti şöbəsinə) rəhbərlik edib. L.Kərimov "Azərbaycan xalçalarında ornamentlərin mənşəyi" əsərinə görə 1950-ci ildə sənətşünaslıq namizədi alimlik dərəcəsi alıb. O, 1950-ci ildə SSRİ Dövlət mükafatına, 1955-ci ildə Əməkdar incəsənət xadimi, 1960-cı ildə isə Xalq rəssamı fəxri adına layiq görülmüşdür.

1967-ci ildə L.Kərimovun təşəbbüsü ilə Bakıda unikal muzeyin – Azərbaycan Xalça Muzeyinin əsası qoyulmuşdur. Muzey yarandığı vaxt dünyada xalçaların qorunub saxlanıldığı, öyrənildiyi, sərgiləndiyi yeganə müəssisə idi.

Lətif Kərimov çoxsaylı xalça çeşniləri, bir sıra memarlıq tikililərinin bədii tərtibatı, divar bəzəkləri, zərgərlik əsərləri, parça naxışları və digər nümunələrin müəllifidir. Onun eskizləri əsasında toxunmuş "Əfşan" (1932), "Qonaqkənd" (1939), "Ləçəkturunc" (1952), "Şuşa" (1953), "Göygöl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1966-1976), "Şəbi-hicran" (1975), "Zərxara" (1977), "Firdovsi" (1934), "Səməd Vurğun" (1956), "Vaqif" (1967), "Füzuli" (1972), "Nəsimi" (1974), "Səfiəddin Urməvi" (1975), "Əcəmi" (1976) və s. xalçalar Azərbaycan xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. Rəssam bir sıra orden və medallarla təltif olunmuşdur.

Lətif Kərimov 8 sentyabr 1991-ci ildə Bakıda vəfat etmişdir.



*Durbin. Sarı metaldan və sədəfdəndir. İki iri və iki kiçik şüşə gözü vardır. Tutacağı metaldan və sədəfdəndir. Kiçik gözlüklərin kənarında yazılmış "Chevalier Paris" sözləri silindiyindən çox çətinliklə oxunur. Gözlüyün birində çat vardır. HXƏF inv. 5296.*



*Cib saatı. Gümüşdəndir. P.Bure firmasının istehsalıdır. Sarı rəngli zənciri var. Pavel Bure ticarət evinə məxsus qutunun içərisindədir. HXƏF inv. 5543.*



*Fincan və nəlbəki. Ağ çinidəndir. Gövdə hissəsi göy rəngdədir. Üzərində qızılı bitki ornamentləri və yazı üçün ayrılmış ağ səthdə qızılı hərflərlə, silindyi üçün çox çətinliklə oxunan "В ден Ангела" sözləri vardır. Qulpu üzərinə qızılı rənglə bəzək vurulmuşdur. Nəlbəkinin yerliyi ağdır. Kənarı və mərkəzə yaxın hissəsi çəhrayıdır. Bir tərəfində sarı, narıncı, yaşıl və qızılı rənglərlə bitki ornamentləri çəkilmişdir. M.S.Kuznetsov fabrikinin istehsalıdır. Ağzının kənarında kiçik qırığı vardır. HXƏF inv. 5291.*



*Stəkanaltı.Azərbaycan xalçaçı-rəssam Lətif Kərimova məxsus. Gümüşdən, üzəri mavi, göy, qəhvəyi, ağ, yaşıl, qırmızı, qara minalarla nəbati naxışlarla bəzədilib. Uzunsov fiqurlu qulpunda minalar var. Alt hissəsində möhürü var "НП" və "84". Rusiya istehsalıdır. XIX əsrin sonu.. Gümüş, ölçüləri: uz. – 7,0 sm, qulpun uz. – 8,0 sm, d – 6,5 sm. XF inv. 552/11810.*



1. Lətif Kərimova məxsus Qəbz. "Магазин часов бриллиантовых, золотых, серебяных и оптических вещей. Б.Р.Кохмань". Bakı, 29 oktyabr 1916-cı il. Ortasında cırığı var. HXƏF inv. 5544.
2. Lətif Kərimova məxsus Cib saatı. Gümüşdəndir. HXƏF inv. 5543.
3. Lətif Kərimova məxsus Portsiqar. Ağ metaldandır. Üzərində döymə üsulu ilə fil təsviri vardır. Açılan hissəsində mərkəzdə yasəmən rəngdə qaş var. Arxa hissəsinə rus əlifbası ilə "На память другу Лятифу. 17,11,44 г." sözləri yazılmışdır. HXƏF inv. 5399.
4. Lampa. şirli və lepkalıdır. gövdəsi göy rənglidir. Fayans, bürünc və şüşəli ağ-göy rəngli plafon (şar). Avropa istehsalı "Metador". HXƏF inv. 5297.
5. Lətif Kərimova məxsus Durbin. Sarı metaldan və sədəfdəndir. İki iri və iki kiçik şüşə gözlüyü vardır. Kiçik gözlüklərin kənarında yazılmışdır: "Chevalier Paris" HXƏF inv. 5295.
6. Lətif Kərimova məxsus Durbin. Sarı metaldan və sədəfdəndir. İki iri və iki kiçik şüşə gözü vardır. Tutacağı metaldan və sədəfdəndir. Kiçik gözlüklərin kənarında yazılmış "Chevalier Paris" sözləri silindiyindən çox çətinliklə oxunur. Gözlüyün birində çat vardır. HXƏF inv. 5296.
7. Şüşə qab. Çay süfrəsi üçündür. dayazdır.Ortası qəhvəyidir. Şəffaf dalğavari kənarlarında göy, yaşıl, sarı, narıncı və qızılı rənglərlə bitki ornamentləri çəkilmiş və kiçik muncuqlar bərkidilmişdir. Muncuqların əksəriyyəti qopub düşmüş, yeri boş qalmışdır. HXƏF inv. 5294.
8. Fincan. Çinidir. Qapaqlıdır. Üzəri qırmızıdır, qızılı rəngdə muncuğa bənzər və bitki ornamentləri ilə bəzədilmişdir. Yazı üçün saxlanılan ağ səthdə zərli hərflərlə "На память" yazılmışdır. Zərli naxışı olan bəzəkli qulpu vardır. Ağız hissəsinin qırağında qopuğu var, qapağının tutacağı sınmış, yenidn yapışdırılmışdır. M.S.Kuznetsov fabrikinin istehsalıdır. HXƏF inv. 5293.
9. Fincan. Çinidəndir. Qapaqlıdır. İçərisi və alt hissəsi ağ, üzəri isə çəhrayıır. üzərinə və qulpuna bəzək vurulmuşdur. Yazı üçün ayrılmış ağ səthdə "В день Ангела" sözləri vardır. Zanbağı xatırladan açıq yaşıl rəngdə tutacağı olan qapağı sınmış və yenidən yapışdırılmışdır. M.S.Kuznetsov fabrikinin istehsalıdır. HXƏF 5292.
10. Fincan və nəlbəki. Ağ çinidəndir. Gövdə hissəsi göy rəngdədir. Üzərində qızılı bitki ornamentləri və yazı üçün ayrılmış ağ səthdə qızılı hərflərlə, silindyi üçün çox çətinliklə oxunan "В день Ангела" sözləri vardır. qulpu üzərinə qızılı rənglə bəzək vurulmuşdur. Nəlbəkinin yerliyi ağdır. Kənarı və mərkəzə yaxın hissəsi çəhrayıdır. Bir tərəfində sarı, narıncı, yaşıl və qızılı rənglərlə bitki ornamentləri çəkilmişdir. M.S.Kuznetsov fabrikinin istehsalıdır. ağzının kənarında kiçik qırığı vardır. HXƏF inv. 5291.
11. Fincan. Ağ çinidəndir. Ağzının kənarları və fincanın üzəri sarımtıl, qırmızı və qızılı rənglə bitki ornamentləri, açıq göy səth üzərində tozmuncuğuna oxşar naxışlarla bəzədilmişdir. Oturacağı dəmir həlqədəndir, bəzəkli metal qulpu vardır. HXƏF inv. 5290.
12. Qəlyan küpü. Şüşədəndir. Armudvari formadadır. Üzərini göy, ağ şirəli və qızılı rəngdə həndəsi və bitki ornamentləri bəzəyir. Oturacaq hissəsinin kənarında yumurtavari və rombaoxşar, altında isə günəş şüalarını xatırladan bəzəklər vardır. Baş hissəsi yoxdur. HXƏF inv. 5288.
13. Azərbaycan SSR xalq rəssamı, xalçaçı-rəssam Lətif Kərimov. FNMF inv. 19919.
14. Kəmər.Azərbaycan xalçaçı-rəssamı Lətif Kərimova məxsusdur. Dəri üzərində 6 (altı) ədəd mərkəzi sümük işləməli kənarları gümüş lövhələrlə bəzədilib. Gümüş lövhələrin üzəri qarasavad üsulu ilə və qızıl su ilə işlənilib. Lövhələrdən ikisi toqqadır. Gümüş, ölçüləri: uz. – 85,0 sm, eni – 3,0 sm. XF inv. 551/11810.
15. Stəkanaltı. Azərbaycan xalçaçı-rəssamı Lətif Kərimova məxsusdur. Gümüşdən, üzəri mavi, göy, qəhvəyi, ağ, yaşıl, qırmızı, qara minalarla nəbati naxışlarla bəzədilib. Uzunsov fiqurlu qulpunda minalar var. Alt hissəsində möhürü var "НП" və "84". Rusiya istehsalıdır. XIX əsrin sonu.. Gümüş, ölçüləri: uz. – 7,0 sm, qulpun uz. – 8,0 sm, d – 6,5 sm. XF inv. 552/11810.
16. Qaşıq. Azərbaycan xalçaçı-rəssama Lətif Kərimova məxsusdur. Qulpunun mərkəzi, üstü və ucu minalıdır. Mavi, yaşıl, ağ, qəhvəyi rəngli minalardan nəbati naxışları var. Qaşığın kənarı isə firuzə rəngli halqalarla bəzədilib. Qulpun üzərində möhürü var "ВЮ", "П", digər tərəfində isə "84", "ВМ". Rusiya istehsalıdır. XIX əsrin sonu. Gümüş, ölçüləri: uz. – 13 sm. XF 553/11810.



# *Əfrasiyab Bədəlbəyli*

*1907-1976*

Əfrasiyab Bədəlbəy oğlu Bədəlbəyli ilk təhsilini Bakı 6-cı rus-müsəlman və 1-ci realni məktəblərində almışdır. Orta məktəbi bitirdikdən sonra o, təhsilini Ali Pedaqoji İnstitutun nəzdindəki məktəbdə, Bakı Teatr Texnikumunda, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində, Leninqrad Konservatoriyasının nəzdindəki musiqi məktəbində davam etdirmişdir.

Mükəmməl bilik əldə etmək arzusu ilə, Ə. Bədəlbəyli 1924-cü ildə Azərbaycan Dövlət Türk (Azərbaycan) Musiqi Texnikumuna və eyni zamanda, Azərbaycan Dövlət Universiteti şərq fakültəsinin lisaniyyət (dilçilik) şöbəsinə daxil olmuşdur. 1938-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Opera və Balet Teatrında dirijor işləmişdir.

1929-cu ildə xalqımızın qədim musiqi aləti olan tarı köhnəlik əlaməti sayaraq muzeyə göndərmək, konservatoriyanın tədris proqramından çıxarmaq kimi cəfəng fikirlərə etiraz edən Ə.Bədəlbəyli "Tar üzərinə mühakimə münasibətilə" başlığı altında məqalə ilə çıxış edir. 1930-cu il may ayının 15-də Ə. Bədəlbəyli türk operalarına dirijorluq etmək üçün M. F. Axundov adına Dövlət Böyük teatrına işə qəbul olunur. Ə. Bədəlbəyli peşəkar musiqi təhsili almaq məqsədi ilə 1932-ci ildə Moskva Konservatoriyasının dirijorluq fakültəsində təhsil almışdır.

O, 1940-cı il aprelin 8-də "Qız qalası" baletini ərsəyə gətirərək Azərbaycanda ilk milli baletin əsasını qoymuşdur. Elə həmin ildə Azərbaycan incəsənəti sahəsindəki fəaliyyətinə görə Respublikanın "Əməkdar incəsənət xadimi", 1960-cı il may ayının 24-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Ə. Bədəlbəyli Azərbaycanın "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Əfrasiyab Bədəlbəyli 1976-cı il yanvarın 6-da vəfat etmişdir.

1. Bəstəkar və dirijior Ə.Bədəlbəyli uşaqlıqda. Təxminən 1902-03-cü illər. SMF inv. 271/13.
2. Foto-venetka. Bakı rus-türk məktəbinin müəllimləri B.Bədəlbəyli, M.Mahmudbəyov və M.T.Əfəndiyeva. 1911-ci il. SMF inv. 271/18.
3. Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinin ilk səhnə məşqləri. Bakı, 1940-cı il. SMF inv. 669/55.
4. Qəmər Almaszadə və Konstantin Bataşov Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində. SMF inv. 669/24.
5. Əfrasiyab Bədəlbəyli "Qız qalası" baletinin tamaşasından sonra. Baş rollarda Vladimir Pletnyov və Tamilla Şirəliyeva. 1977-ci il. SMF inv. 669/115
6. Azərbaycan SSR xalq artisti Qəmər Almaszadə M.F.Axundov adma Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında səhnələşdirilmiş Lüdviq Minkusun "Don Kixot" baletində Kitra rolunda. 1945-ci il. SMF inv. 669/127.
7. "Qız qalası" baletinin Proqramı. Musiqisi və librettosu Əfrasiyab Bədəlbəyli. Bakı, 1947-ci il. Üz səhifəsində bədii tərtibatda Qəmər Almaszadənin milli geyimdə ayaqüstə təsviri verilmişdir. SMF inv. 669/197.
8. Kitab. Əfrasiyab Bədəlbəyli. "Qurban Pirimov". Bakı, 1955. EF inv. 1595.



9. Afişa. Mirzə Fətəli Axundov adına Böyük Dövlət Teatrosunun 1930-31-ci illər mövsümünün repertuarı. Dirijor və bədii rəhbər Müslüm Maqomayev. Dirijor və ədəbi hissə müdiri: Əfrasiyab (Bədəlbəyli). Rejissor: Əmək qəhrəmanı Abbas Mirzə Şərifzadə. Baş müdir M. Valentinov, müdir Məhəmmədhəsən Atamalibəylidir. SMF inv. 1990.
10. Afişa (Azərbaycan və rus dillərində). Mirzə Fətəli Axundov adına Böyük Dövlət Teatrosunda 1930-ci il noyabrın 30-da səhnəyə qoyulmuş Müslüm Maqomayevin "Şah İsmayıl" operası. Aslan şah rolunda ilk dəfə olaraq Vasili Nikolski çıxış edir. Digər rollarda: Şah İsmayıl - Hüseynağa Hacıbababəyov, Ərəbzəngi - Həqiqət Rzayeva, Gülzar - Şövkət Məmmədova, vəzir - Məhəm- mədtağı Bağırov. Dirijor və bədii rəhbər: Müslüm Maqomayev. Dirijor və ədəbi hissə müdiri: Əfrasiyab (Bədəlbəyli). Rejissor: Əməkdar artist Abbas Mirzə Şərifzadə. Müdir: Ə. Səttarov. SMF inv. 1989.
11. Afişa (özbək və rus dillərində). Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Türk Opera Teatrosunun Özbəkistan SSR-yə səfəri zamanı 1931-ci il iyunun 23-də Sverdlov adına teatrın binasında göstərdiyi müxtəlif növ səhnə sənəti konserti. "Yevgeni Onegin" operasından duel səhnəsi (türk dilində): Lenski - H. Hacıbababəyov, Onegin - M. Bağırov. Konsert bölməsində Sürəyya Qacar, Fatma Gəncinskaya, H. Hacıbababəyov və Qurban Pirimovun çıxışı. Qəmər Bədəlbəylinin (Almaszadə) iştirakı ilə balet divertismenti. Bədii rəhbər: Əfrasiyab Bədəlbəyli. SMF inv. 1995.
12. Məramnamə (özbək və rus dillərində). Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Türk Opera Teatrosunun Özbəkistan SSR-ə səfəri zamanı Sverdlov adına teatrın binasında tamaşaya qoyulmuş Müslüm Maqomayevin "Şah İsmayıl" operası. Bədii rəhbər: Əfrasiyab Bədəlbəyli, qastrol səfərinin direktoru Ə. Səttarovdur. SMF inv. 2040.
13. Məramnamə. M. F. Axundov adına Böyük Dövlət Opera Teatrosunda tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası. Rollarda: Məcnun - Hüseynqulu Sarabski, Hüseynağa Hacıbababəyov, onun atası - Məhəmməd Nuri, Xanlar Haqverdiyev, Leyli - Həqiqət Rzayeva, Nofəl - Hənifə Terequlov və Məmmədtağı Bağırov. Dirijoru və bədii hissə müdiri Əfrasiyab Bədəlbəyli. Tarzən Qurban Pirimov. 1930-cu illər. SMF inv. 2028.
14. Proqram (Azərbaycan və rus dillərində). M. F. Axundov adına Lenin ordenli Böyük Dövlət Opera və Balet Teatrında 1940-ci il aprelin 18-də səhnəyə qoyulmuş Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinin ilk tamaşası. Quruluşçu rejissor: İsmayıl Hidayətzadə. Dirijor: Əfrasiyab Bədəlbəyli. Balet-meyster: S. Gevorkov. Rəssam: Azərbaycan SSR əməkdar incəsənət xadimi Fyodor Qusakdır. Rollarda: Gülyanaq - Azərbaycan SSR əməkdar artisti Qəmər Almaszadə, Polad - Konstantin Bataşov, Ana - Leyla Təhmasib, Vəzir - İsmayıl Eloğlu. Müfəssəl məzmunlu, illüstrasiyalı nəşr. 19 səhifə, HXƏF inv. 1980.
15. Proqram (Azərbaycan və rus dillərində). M. F. Axundov adına Lenin ordenli Böyük Dövlət Opera və Balet Teatrında 1940-41-ci illər mövsümündə tamaşaya qoyulmuş Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti. Quruluşçu rejissor: İsmayıl Hidayətzadə. Dirijor: Əfrasiyab Bədəlbəyli. Baletmeyster: S. Gevorkov. Rəssam: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Fyodor Qu- sak. Rollarda: Gülyanaq - Azərbaycan SSR Əməkdar artisti Qəmər Almaszadə, Polad - Konstantin Bataşov, Ana - Leyla Təhmasib, Vəzir - İsmayıl Eloğlu, HXƏF inv. 960.
16. M. F. Axundov adma Lenin Ordenli Azərbaycan Dövlət Opera və Balet Teatrında səhnəyə qoyulmuş "Qızıl açar" baletinin Proqramı. Əvvəlində Azərbaycan SSR Əməkdar incəsənət xadimi Boris Zeydmanın, libretto müəllifi və tamaşanın direktoru Azərbaycan SSR Əməkdar incəsənət xadimi Əfrasiyab Bədəlbəylinin, quruluşçu baletmeyster: SSRİ Xalq artisti Qəmər Almaszadənin, rəssam Ənvər Almaszadənin fotoşəkilləri verilmişdir. Rollarda: Buratino - Çimnaz Babayeva və Tamilla Şirəliyeva, Malvina - Azərbaycan SSR Əməkdar artisti Leyla Vəkilova, Rəfiqə Axundova, Pyero - Maqsud Məmmədov, Karabas - Azərbaycan SSR əməkdar artistləri Konstantin Bataşov və Anatoli Urvansev. Müfəssəl məzmunlu, illüstrasiyalıdır. 31 səhifə. 1957-ci il. SMF inv. 2070/33.
17. M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 1963-cü il fevralın 14-də tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasının Afişası. Quruluşçu rejissor: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Əfrasiyab Bədəlbəyli. Dirijor: Kazım Əliverdibəyov. Baş rəssam: Əyyub Fətəliyev. Rollarda: Əsli - Azərbaycan SSR Əməkdar artist Gülxar Həsənova, Kərəm - Bəkir Həşimov, Keşiş - Qafar Əliyev. HXƏF inv. 3452.
18. M. F. Axundov adına Lenin ordenli Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş "Qız qalası" baletinin Proqramı. Bəstəkar Əfrasiyab Bədəlbəylidir. Bakı, 1967-ci il. SMF inv. 669/195.
19. Proqram. M. F. Axundov adına Azərbaycan Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Süleyman Ələsgərovun "Bahadır və Sona" pyesi. Dirijor və libretto müəllifi Azərbaycan SSR Xalq artisti Əfrasiyab Bədəlbəyli, şeirlər: Şixəli Qurbanov. Quruluşçu rejissor: Azərbaycan SSR Xalq artisti Şəmsi Bədəlbəyli. Rəssam: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Əyyub Fətəliyev. Rollarda: Bahadır - Azərbaycan SSR Əməkdar artistləri Rauf Atakişiyev və Lütfiyar İmanov. Sona - Azərbaycan SSR Xalq artisti Firəngiz Əhmədova və Azərbaycan SSR Əməkdar artisti Firuzə Muradova. 1966-cı il. SMF inv. 2083/9.



# Aliyə Rüstəmbəyova

1907-1942

İkinci Dünya müharibəsi qəhrəmanı, partizan hərəkatı iştirakçısı və həkim Aliyə Rüstəmbəyova Fətulla qızı 1907-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarında ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Aliyə Bakıdakı 3 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb İnstitutuna daxil olur və az sonra təhsilini 1-ci Leninqrad Tibb İnstitutunda davam etdirir. İnstitutu bitirdikdən sonra üç il Özbəkistananda Çirçik tikinti idarəsinin xəstəxanasında həkim işləyən A.Rüstəmbəyova 1938-ci ildə təcrübəli həkim-terapevt kimi Moskvaya göndərilir.

1939-cu il noyabrın 30-da SSRİ-nin Finlandiyaya qarşı başladığı müharibə zamanı Aliyə də bir həkim kimi cəbhəyə yollanır. Ən şiddətli döyüşlərin getdiyi Kareliya bərzəxində öz həyatını ağır təhlükələrə atmaqdan çəkinməyərək, yaralı döyüşçüləri ölümün pəncəsindən xilas edir. Müharibə 1940-cı il martın 12-də Sovet İttifaqının qələbəsi ilə başa çatdıqdan sonra Aliyə Moskvaya qayıdıb, öz işini S.P.Botkin adına Daxili Xəstəliklər Klinikasında davam etdirir. Lakin bu da uzun çəkmir. 1941-ci il iyunun 22-də alman faşistlərinin Sovet İttifaqı üzərinə hücumu Aliyənin elmi işinə, dinc həkimlik fəaliyyətinə son qoyur.

Minlərlə moskvalı əldə silahla paytaxtı müdafiə etmək, düşməni ona yaxınlaşmağa qoymadan darmadağın etmək üçün Qırmızı Ordu sıralarına axışıb gəlirdi. Tibb işçiləri də cəbhəyə yola düşürdülər. Onların arasında elə müharibənin ikinci günü, iyunun 23-də səfərbərliyə alınmış, Vətən, azadlıq və istiqlaliyyət uğrunda vuruşan igid döyüşçülərimizə tibbi yardım etmək üçün hərbi həkim kimi müharibə meydanına atılmış Aliyə Rüstəmbəyova da vardı.

A.Rüstəmbəyova əvvəlcə Moskva ətrafında, sonra Smolensk-Bryansk meşələrində altı ay ərzində tibb sanitar batalyonunda xidmət edir.

1941-ci ilin dekabrında düşmən atəşi altında döyüşçülərə tibbi kömək göstərən Aliyə yaralı halda əsir düşür. Alman komandanlığı Aliyənin həkim olduğunu bilib, ondan istifadə etməyi qərara alır. Aliyə fürsət düşən kimi qaçıb partizanlara qoşulmaq niyyəti ilə bir müddət işləyir, 1942-ci il fevralın əvvəllərində bir qrup əsir döyüşçü ilə birlikdə "Deduşka" partizan dəstəsinin köməyi ilə əsirlikdən qaçır. A.Rüstəmbəyova partizanların həyatını xilas edərək, öz həyatını qurban verir. O, 1942-ci il iyunun axırlarında qanlı döyüşlərdən birində Vətən, onun namusu və azadlığı uğrunda qəhrəmanlıqla həlak olur.

1. Metal qələm. Dairəvi hazırlanmış, yuxarı doğru daralmışdır. Qələmin sonluğu kürə ilə bitir. Qələmin orta hissəsinə kimi qara rəngdə, oyma üsulu ilə həndəsi bitki ornamentli naxışlar vardır. HXƏF inv. 4891.
2. Mürəkkəb qabı. Düzbucaqlı formada şüşədən hazırlanmış altlığı vardır. Şüşə altlığın dörd dairəvi metal ayaqları vardır. Qara metaldan fiqurlu dayaq və dörd ləçəkli metaldan gül ilə bəzədilmiş mürəkkəb qoymaq üçün qabı vardır. Mürəkkəb qabının qapağı qopmuşdur. HXƏF inv. 4890.





***Mürəkkəb qabı. Düzbucaqlı formada şüşədən hazırlanmış altlığı vardır. Şüşə altlığın dörd dairəvi metal ayaqları vardır. Qara metaldan fiqurlu dayaq və dörd ləçəkli metaldan gül ilə bəzədilmiş mürəkkəb qoymaq üçün qabı vardır. Mürəkkəb qabının qapağı qopmuşdur. HXƏF inv. 4890.***



***Metal qələm. Dairəvi hazırlanmış, yuxarı doğru daralmışdır. Qələmin sonluğu kürə ilə bitir. Qələmin orta hissəsinə kimi qara rəngdə, oyma üsulu ilə həndəsi bitki ornamentli naxışlar vardır. HXƏF inv. 4891.***



# Süleyman Vəzirov

1910-1973

Süleyman Azad oğlu Vəzirov 1918-ci ildə Şuşa real məktəbini bitirdikdən sonra Bakı sənaye-iqtisad texnikumuna daxil olur. Texnikumu bitirdikdən sonra İliç buxtasında – mədəndə çalışmağa başlayır. O, təhsilini davam etdirmək məqsədilə 1928-ci ildə Azərbaycan Politexnik institutunun dağ-mədən fakültəsinə daxil olur. 1932-ci ildə İnstitutu bitirdikdən sonra yüksək ixtisaslı neft mühəndisi kimi Bakının müxtəlif neft-qaz yataqlarında çalışmışdır.

O, 1935–1937-ci illərdə "Molotovneft" trestində mədən müdirinin müavini, 1937–1940-cı illərdə "Kaqanoviçneft" trestinin baş mühəndisi vəzifələrində çalışmışdır. 1941-ci ildə 23,5 mln.t neft hasil edən trestinin baş mühəndisi S.A.Vəzirov Lenin ordeni ilə təltif olunmuşdur. Onun bu gərgin əməyi yüksək qiymətləndirilərək 1942-ci ildə "Azneftekombinat"a rəhbər təyin edilir. S.Vəzirovun gərgin əməyi sayəsində Azərbaycan neftçiləri 1941–1945-ci illərdə 75 mln. ton neft, 22 mln. ton benzin və digər neft məhsulları istehsal edərək, plan tapşırığını xeyli üstələmişdilər.

Çətin müharibə şəraitində neft sənayesinin inkişafı sahəsində göstərdiyi xüsusi xidmətlərinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1944 tarixli sərəncamı ilə S.A.Vəzirov Sosialist Əməyi qəhrəmanı, Lenin ordeni və Qızıl "Oraq-Çəkic" medalı ilə təltif olunmuşdu. 1946-cı ildə Süleyman Vəzirov SSRİ Nazirlər Sovetinin təsdiqi ilə "Ölkənin cənub və qərb rayonlarında neft hasilatı üzrə Baş İdarənin" rəisi vəzifəsinə təyin edilir. Bu təyinatdan sonra SSRİ-nin neft yataqlarının yarısı – Qroznı, Kuban, Ukrayna – onun fəaliyyət sferasına daxil oldu. SSRİ-nin neft sənayesinin məhz bu hissəsi müharibə zamanı tam dağıdılmışdı. S.A.Vəzirovun başçılığı və bilavasitə iştirakı ilə çox qısa müddətdə mədənlər bir-birinin ardınca bərpa edilərək yataqların işlənilməsi davam etdirilməyə başladı.

XX əsrin 40-cı illərində geoloqlar Türkmənistanda Qumdağ yatağını kəşf etmişdilər. O dövrdə neft sahəsinə nəzarət edən Nikolay Konstantinoviç Baybakov təşkilatçılıq bacarığına və neft sənayesindəki təcrübəsinə bələd olduğu Süleyman Vəzirova Qumdağ yatağının mənimsənilməsini tapşırır. 1949-cu ilin mart ayında Stalinin imzaladığı əmrə əsasən Süleyman Vəzirov "Turkmənneft" Birliyinin müdiri təyin edilir. Qumdağ yatağının kəşf edilməsinə və mənimsənilməsinə görə Süleyman Vəzirov SSRİ Dövlət mükafatına layiq görüldü. Bu dövr ərzində – onun işlədiyi dörd il yarımda "Türkmənneft" birliyinin neft hasilatı iki dəfə artdı. Respublika hökumətinin zəmanəti ilə SSRİ Nazirlər Soveti 1954-cü ildə Azərbaycan SSR Neft Sənayesi Nazirliyini yaratdı. Azərbaycan Sov.KP-nin birinci katibi İmam Daşdəmir oğlu Mustafayev onu yenidən Respublikaya dəvət etdi və 1954-cü ildə Azərbaycanın birinci neft sənayesi naziri Süleyman Vəzirov oldu.

Vətənə geri qayıdan S.Vəzirov işinə Azərbaycanda kəşfiyyat işlərinin genişləndirilməsindən başladı. O, həm quruda, həm də dənizdə kəşfiyyat işlərinin həcmini artırdı. Çox qısa bir zamanda quruda Qaradağ, Kürovdağ, Mişovdağ, Zirə, Qalmaz və dənizdə Qum adası və Palçıq pilpiləsi yataqları kəşf edildi. İş yalnız yeni yataqların açılmasında və onların abadlaşdırılmasıda deyildi, Süleyman Vəzirov neft sənayesinin inkişafı üçün prinsip etibarı ilə yeni proqram təklif etdi.

Süleyman Vəzirov 1958-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsinə irəli çəkilmiş, 1959-cu ildə isə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri təyin edilmişdir. Süleyman Vəzirov 1973-cü ildə vəfat etmişdir.





*Zəhra Kərim bəy qızı Mehmandarova. SMF inv. 5057.*



*Zəhra Mehmandarova milli geyimində. SMF inv. 5056*



Bakı Sənaye-İqtisad texnikumun tələbələrdən ibarət musiqi orkestri. 1-ci cərgədən solda 3-cü Süleyman Vəzirov. Bakı 1923-cü il. SMF inv. 579/5.



Süleyman Vəzirov Misir neft mütəxəssisləri ilə Neft daşlarında. 1960-ci illər. SMF inv. 579/23.



Süleyman Vəzirov (solda birinci) Çin səfərində. 1955-ci il. SMF inv. 579/14.



БУТУН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!
ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!

АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈӘТИ
ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

ФӘХРИ ФӘРМАН

ПОЧЕТНАЯ ГРАМОТА

АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈӘТИ

Азәрбајҹан ССР
Али Советинин Рәјасәт Һејәти

19 70 ил 17 нојабр тарихли Фәрманы илә

сизи

Азәрбајҹан ССР Али Советинин
ФӘХРИ ФӘРМАНЫ
илә тәлтиф едир

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

Президиум Верховного Совета
Азербайджанской ССР
своим Указом от 17 ноября 1970 г.
награждает

ПОЧЕТНОЙ ГРАМОТОЙ
Верховного Совета Азербайджанской ССР

№ 427

*Respublikada Xalq Təsərrüfatın inkişafına görə Süleyman Vəzirova verilmiş Fəxri fərman. 17 noyabr 1970-ci il. SMF inv. 579/41.*



1. Bakı Sənaye-İqtisad Texnikumun tələbələrdən ibarət musiqi orkestri. 1-ci cərgədən solda 3-cü Süleyman Vəzirov. Bakı 1923-cü il. SMF inv. 579/5.
2. Süleyman Vəzirov (mərkəzdə) İliç buxtasında neft buruğun üstündə. 1924-1925-ci illər. SMF inv. 579/6.
3. Süleyman Vəzirov (mərkəzdə) İliç buxtasında neft buruğunun üstündə. 1924-1925-ci illər. SMF inv. 579/7.
4. Süleyman Vəzirov. 1950-ci il. SMF inv. 579/13.
5. Süleyman Vəzirov (solda birinci) Çin səfərində. 1955-ci il. SMF inv. 579/14.
6. Süleyman Vəzirov Misir neft mütəxəssisləri ilə Neft daşlarında. 1960-ci illər. SMF inv. 579/23.
7. Süleyman Vəzirov Albaniya ilə SSRİ arasında əməkdaşlıq müqaviləsinin imzalanması zamanı. 30 may 1959-ci il. SMF inv. 579/21.
8. Süleyman Vəzirov Misirin neft mütəxəssisləri ilə. Dekabr 1968-ci il. SMF inv. 579/33.
9. Respublikada Xalq Təsərrüfatın inkişafına görə Süleyman Vəzirov verilmiş Fəxri fərman. 17 noyabr 1970-ci il. SMF inv. 579/41.
10. Süleyman Vəzirov 60 illiyi münasibəti ilə Fəxri neftçi adı verilmişdir. 28 oktyabr 1970-ci il. SMF inv. 579/42.
11. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən "Azərbaycan SSR neft ustası" adına layiq görülmüş Süleyman Vəzirova verilmiş Fəxri fərman. 29 may 1941-ci il. SMF inv. 580/8.
12. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.M.Şvernik S.Vəzirovu təltif edir. Moskva, Kreml, 5 iyul 1948-ci il. SMF inv. 580/10.
13. "Türkmənneft" birliyinin rəisi S.Vəzirov iş kabinetində. 1951-ci il. SMF 580/11.
14. S.Vəzirova verilmiş "Fəxri neftçi" diplomu. 28 oktyabr 1970-ci il. SMF inv. 580/12.
15. Məşhur neftçi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Vəzirov. SMF inv. 580/13.
16. SSRİ neftçiləri Çində. Solda - Sabit Orucov, sağda - S.Vəzirov. 1950-ci illər. SMF inv. 580/14.
17. S.Vəzirov və SSRİ EA-nın müxbir üzvü, geoloq Mixail Mirçink Çində neft ehtiyatlarının miqdarını müəyyən etdikləri zaman. 1950-ci illər. SMF inv. 580/15.
18. Neft və qaz sənayesi ETC Mərkəzi İdarə heyətinin S.Vəzirova anadan olmasının 50 illiyi münasibətilə göndərdiyi təbrik məktubu. 1960-cı il. SMF inv. 580/22.
19. Misir sənayeçilərinin nümayəndə heyəti Neft Daşlarında. Soldan üçüncü: S.Vəzirov. 1960-cı illərin əvvəli. SMF inv. 580/23.
20. Misir sənayeçilərinin nümayəndə heyəti Bakı neft emalı zavodunda. Soldan ikinci: S.Vəzirov. 1960-ci illərin əvvəli. SMF inv. 580/24.
21. Neft və Qaz Sənayesi Elmi-Texniki Cəmiyyətinin fəxri üzvü S.Vəzirovun diplomu. 15 noyabr 1963-cü il. SMF inv. 580/25.
22. S.Vəzirova Azərbaycan SSR "Əməkdar elm və texnika xadimi" fəxri adının verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı. 29 iyun 1964-cü il. SMF inv. 580/26.
23. SSRİ və Azərbaycan SSR neft sənayesinin rəhbər işçiləri "Xəzər" üzən qurğusunun yanında. Soldan sağa: Neft Daşları mədənlərinin rəisi Bəxtiyar Məmmədov, SSRİ Neft sənayesi nazirinin müavini P.Qalonski, S.Vəzirov, SSRİ Neft sənayesi naziri V.Şaşin, "Xəzərdənizneft" trestinin rəisi Nəsrulla Babayev və b. 16 avqust 1968-ci il. SMF inv. 580/29.
24. Xalq təsərrüfatının inkişafında xidmətlərinə, fəal ictimai-siyasi işinə görə və anadan olmasının 60 illiyi münasibətilə Azərbaycan SSR Ali Sovetinin tərəfindən S.Vəzirova verilmiş Fəxri fərman. 17 noyabr 1970-ci il. SMF inv. 580/41.
25. SSRİ Neft Sənayesi Nazirliyi və Neft-Kimya Sənayesi işçilərinin Həmkarlar Komitəsi MK-nın qərarı ilə neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə və anadan olmasının 60 illiyi münasibətilə "Fəxri neftçi" adına layiq görülmüş S.Vəzirova verilmiş diplom. 28 oktyabr 1970-ci il. SMF inv. 580/42.
26. Süleyman Vəzirovun anası Zəhra Kərim bəy Mehmandarova. Avropa geyimində. SMF inv. 5055.
27. Zəhra Mehmandarova Avropa geyimində. SMF inv. 5056.
28. S.Vəzirova verilmiş "Qafqazın müdafiəsinə görə" medalı. KTFMF inv. 718.
894. S.Vəzirova verilmiş "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı. KTFMF inv. 719.
29. "Fəxri neftçi" döş nişanı. S.Vəzirovun kolleksiyasından. KTFMF inv. 728.
30. S.Vəzirova verilmiş "SSRİ Neft Sənayesi Nazirliyinin sosializm yarışının qalibi" döş nişanı. Kolleksiyasından. KTFMF inv. 722.
31. S.Vəzirova verilmiş "X beşilliyin qalibi" döş nişanı. KTFMF inv. 723.
32. S.Vəzirova verilmiş Fəxri nişan. KTFMF inv. 727.
33. S.Vəzirova verilmiş Qızıl sünbüllə əhatələnmiş iki çəkic fonunda neft buruğu təsvir olan Döş nişanı. KTFMF inv. 720.
34. S.Vəzirova verilmiş "Rəşadətli əməyə görə" medalı. 1971-ci il. KTFMF inv. 729.



Sürəyya Qacar

1910-1992

Sürəyya xanım Sədrəddin Mirzə qızı Qacar 1 may 1910-cu ildə Şuşa şəhərində anadan olmuşdu. 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirmiş Sürəyya xanım 1927-1939-cu illərdə Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. Hüseynqulu Sarabskinin dəvəti ilə teatra gələn S. Qacar böyük sevinclə qarşılanmışdır. Çünki o zaman teatrda Leylini, Əslini, Gülçöhrəni oynaya biləcək aktrisalara böyük ehtiyac var idi. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Leyli və Məcnun"unda Leyli obrazı onun teatrda ilk rolu olub. Daha sonra o, "Əsli və Kərəm"də Əsli, "O olmasın, bu olsun"da Gülnaz, "Arşın mal alan"da Asya, Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında Şahsənəm partiyalarını ifa etmişdir.

1940-cı ildən Azərbaycan Dövlət Filarmoniyasında solist, 1968-ci ildən vokal üzrə məsləhətçi-müəllim işləmişdir. Onun repertuarında Azərbaycan xalq mahnıları, muğamlar, eləcə də xarici ölkə xalqlarının və bəstəkarlarının mahnıları əsas yer tuturdu. S.Qacar Azərbaycan SSR Xalq artisti fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Sürəyya Qacar 27 iyul 1992-ci ildə Bakıda vəfat etmişdir.

1. Azərbaycan teatrının 50 illiyi münasibətilə "Yeni fikir" qəzetinə əlavə 65-ci nömrəsi buraxılmışdır. 1923-cü il. Burada ilk dramaturq Mirzə Fətəli Axundovun, Türk dram cəmiyyətinin baş rejissoru Mir Seyfəddin Kirmanşahlı, məşhur dramaturqlarımızdan Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, artistlərdən - Sürəyya xanım, Tərlan xanım. Mustafa Mərdanov, İbrahim İsfahanlı, Həsən Səbri, Əhməd Salahlı, Əkbər Seyfinin şəkilləri əks olunmuşdur. SMF inv. 165(1)
2. Fotoşəkil. Sürəyya Qacar və Hüseynağa Hacıbababəyov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında. 1930-cu illər. SMF inv. 2210
3. Afişa. Azərbaycan SŞC-nin Xalq Maarif Komissarlığı Tamaşa Müəssisləri İdarəsinin M. F.Axundov adına Böyük Dövlət Teatrosunda 1929-30-cu il mövsümünün türk operası. Repertuara Ü. Hacıbəylinin "Əsli və Kərəm", "Arşın mal", "O olmasın, bu olsun", "Ər və arvad", Müslüm Maqomayevin "Şah İsmayıl" və "Xoruz bəy", Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" əsərləri daxildir. Truppanın tərkibi: Xurşid və Sürəyya Qacar, Fatma Gəncinskaya, Məhbubə Zeynallı, Həqiqət Rzayeva, Hüseynqulu Sarabski, Hənifə Terequlov, Əli və Qəmbər Zülalovlar, Məhəmmədtağı Bağırov və b. Baş müdir M. Valentinov, müdir Məhəmmədhəsən Ataməlibəyovdur. Dirijor və bədii rəhbər Müslüm Maqomayev. Rejissor: Abbas Mirzə Şərifzadə. Tarzən Qurban Pirimov. SMF inv. 2014
4. Afişa (özbək və rus dillərində). Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Türk Opera Teatrosunun Özbəkistan SSR-yə səfəri zamanı 1931-ci il iyunun 23-də Sverdlov adına teatrın binasında göstərdiyi müxtəlif növ səhnə sənəti konserti. "Yevgeni Onegin" operasından duel səhnəsi (türk dilində): Lenski - H. Hacıbababəyov, Onegin - M. Bağırov. Konsert bölməsində Sürəyya Qacar, Fatma Gəncinskaya, H. Hacıbababəyov və Qurban Pirimovun çıxışı. Qəmər Bədəlbəylinin (Almaszadə) iştirakı ilə balet divertismenti. Bədii rəhbər: Əfrasiyab Bədəlbəyli. SMF inv. 1995
5. Fotoşəkil. Hüseynqulu Sarabski və Sürəyya Qacar Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında. 1930-cu illər. Ölçüsü: 17x21.5 sm. HXƏF inv. 2190
6. Aktrisa Sürəyya Qacar səhnə geyimində. Ölçü: 12x9 sm; 14x9,5 sm. 2 ədəd. SMF inv. 2204.
7. Sürəyya Qacar və Hüseynağa Hacıbababəyov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında. 1930-cu illər. Ölçüsü: 9x 11 sm. SMF inv. 2210
8. Afişa. Dadaş Bünyadzadə adına Dövlət Türk Akademik Teatrosunda 1929- cu il aprelin 29-da keçirilmiş Qurban Pirimovun musiqi fəaliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarından parçalar göstərilir. Rollarda: Hüseynqulu Sarabski, Sona Hacıyeva, Məmmədhəsən Atamalıbəyov, Hacıağa Hacıbababəyov, Hənifə Terequlov, Sürəyya Qacar. Rejissor: Abbas Mirzə Şərifov. Dirijor: Müslüm Maqomayev. SMF inv. 5384.
9. Afişa (özbək və rus dillərində). Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Türk Opera Teatrosunun Özbəkistan SSR-yə səfəri zamanı 1931-ci il iyunun 23-də Sverdlov adına teatrın binasında göstərdiyi müxtəlif növ səhnə sənəti konserti. "Yevgeni Onegin" operasından duel səhnəsi (türk dilində): Lenski - H. Hacıbababəyov, Onegin - M. Bağırov. Konsert bölməsində Sürəyya Qacar, Fatma Gəncinskaya, H. Hacıbababəyov və Qurban Pirimovun çıxışı. Qəmər Bədəlbəylinin (Almaszadə) iştirakı ilə balet divertismenti. Bədii rəhbər: Əfrasiyab Bədəlbəyli. SMF inv. 1995




# *Niyazi Tağızadə (Hacıbəyov)*

*1912-1984*

Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov ilk musiqi təhsilini Y.A.Şefferlinq adına məktəbdə almışdır. 1932-1933-cü illərdə Dağıstan MSSR Xalq Maarif Komissarlığının elm, ədəbiyyat və incəsənət sektorunun müdiri, 1935-1937-ci illərdə "Azərbaycanfilm" kinostudiyasının musiqi hissəsinin müdiri, 1937-1938-ci illərdə bədii Azərbaycan Dövlət Səhnəsinin direktoru, 1938-1944-cü illərdə təşkilat komitəsi sədr müavini, 1956-cı ildən Azərbaycan SSR Bəstəkarlar İttifaqı idarə heyətinin üzvü olmuşdur.

1937-1948-ci illərdə dirijor, 1951-1952 və 1958-1959-cu illərdə baş dirijor, 1961-1965-ci illərdə M. F. Axundov adına Azərbaycan Opera və Balet Teatrının direktoru, bədii rəhbəri və baş dirijoru olub. Eyni zamanda, 1938-ci ildən (fasilələrlə) - Üzeyir Hacıbəyov adına Azərbaycan Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru kimi çalışmışdır. 1946-cı ildə Ümumittifaq dirijorların baxışının laureatı, 1960-1961-ci illərdə - Leninqrad Opera və Balet Teatrının baş dirijoru, 1979-cu ildən Azərbaycan Filarmoniyasının direktoru olmuşdur.

1942-ci ildən Sov.İKP(b) üzvü. 4-9-cu çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı (1951-1975), 11-ci çağırış SSRİ Ali Sovetinin deputatı (1984) olmuşdur.

Dirijor, bəstəkar Niyazi 1951, 1952-ci illərdə 2-ci dərəcəli Stalin mükafatı laureatı, 1959-cu ildə SSRİ xalq artisti, 1982-ci ildə Sosialist Əməyi Qəhrəmanı adını almışdır.

1984-cü il avqustun 2-də Bakıda vəfat etmişdir.





***Niyazi həyat yoldaşı Həcər xanımla. 1939-cu il. SMF inv. 504/3.***



***F.Əmirov "Sevil" operasının partiturası üzərində işləyərkən Niyazi ilə birlikdə. 25.01.1965-ci il. SMF inv. 504/18.***



*Soldan sağa: Q.Qarayev, S.Rüstəmov, Niyazi, Ü.Hacıbəyov, Əşrəf Həsənov. 1945-ci il. SMF inv. 504/16.*



*Niyazi, D.Şestokoviç, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, R.Hacıyev, M.Vaynşteyn, S.Hacıbəyovla birlikdə. 1944-cü il. SMF inv. 504/15.*



Премия Имени Дж. Неру
За Укрепление Индо-Советской Дружбы
Н. З. Ниязи
Настоящим Дипломом Награждается
за выдающийся вклад в дело укрепления
Индо-Советской Дружбы в 1973 году.

*T.Z.Niyaziyə Hindistan SSRİ dostluğunun möhkəmlənməsinə görkəmli töhfə verdiyinə görə C. Nehru adına mükafatın təqdim edilməsi haqqında Diplom. 1973-cü il. SMF inv. 555/50*





АЗӘРБАЈЧАН ССР БАШ СОВЕТИНИН ПРЕЗИДИУМУ

Азәрбајчан ССР
әмәкдар инчәсәнәт хадими

Азәрбајчан Совет Социалист Республикасынын XX-иллији мүнасибәтилә инчәсәнәт саһәсиндә көркәмли фәалијјәтинизә көрә Азәрбајчан ССР Баш Советинин Президиуму 1940 ил 27 апрел тарихли фәрманы илә сизә

АЗӘРБАЈЧАН ССР
ӘМӘКДАР ИНЧӘСӘНӘТ ХАДИМИ
ады вермишдир

№ 25 7 декабр 1940

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

Заслуженному деятелю искусств
Азербайджанской ССР

В ознаменование XX-летия Азербайджанской Советской Социалистической Республики за Вашу выдающуюся деятельность в области искусства Президиум Верховного Совета Азербайджанской ССР своим указом от 27 апреля 1940 г.

присвоил Вам звание

ЗАСЛУЖЕННОГО ДЕЯТЕЛЯ ИСКУССТВ
АЗЕРБАЙДЖАНСКОЙ ССР

*Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadənin Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülməsi haqqında Fəxri fərman. 7 dekabr 1940-cı il. SMF inv. 555/10 .*



АЗӘРБАЈЧАН ССР БАШ СОВЕТИНИН ПРЕЗИДИУМУ

Азәрбајчан ССР
әмәкдар инчәсәнәт хадими

Һачыбәјов

Инчәсәнәт саһәсиндә көркәмли фәалијјәтинизә көрә

Азәрбајчан ССР Баш Советинин Президиуму
1943 ил 17 июня тарихли фәрманы илә сизә

АЗӘРБАЈЧАН ССР
ӘМӘКДАР ИНЧӘСӘНӘТ ХАДИМИ
ады вермишдир

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

Заслуженному деятелю искусств
Азербайджанской ССР

Тов. Гаджибекову

За Вашу выдающуюся деятельность в области искусства

Президиум Верховного Совета Азербайджанской ССР
своим указом от 17 июня 1943 г.
присвоил Вам звание
ЗАСЛУЖЕННОГО ДЕЯТЕЛЯ ИСКУССТВ
АЗЕРБАЙДЖАНСКОЙ ССР

*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyovun incəsənət sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülməsi haqqında Fəxri fərman. Bakı, 27 fevral 1944-cü il. SMF inv. 555/16.*



АЗӘРБАЈҸАН ССР ХАЛГ АРТИСТИ

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

За Вашу выдающуюся деятельность в области театрального искусства

Президиум Верховного Совета Азербайджанской ССР своим Указом от 30 апреля 1955 г. присвоил Вам звание НАРОДНОГО АРТИСТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

*Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadənin teatr sənəti sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR Xalq artisti adının verilməsi haqqında Fəxri fərman. 24 iyun 1954-cü il. SMF inv. 555/25.*



НАРОДНОМУ АРТИСТУ СССР

СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР

УКАЗОМ от 1959 г. ПРИСВОИЛ ВАМ ЗВАНИЕ НАРОДНОГО АРТИСТА СССР

Председатель Президиума Верховного Совета СССР

Секретарь Президиума Верховного Совета СССР

*SSRİ Ali Soveti Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadəyə Sovet incəsənətinin inkişafında görkəmli xidmətlərinə və Moskva şəhərində keçirilən Azərbaycan SSR incəsənəti və ədəbiyyatı ongünlüyü münasibətilə SSRİ Xalq artisti adının verilməsi haqqında Fərman. 19 iyun 1959-cu il. SMF inv. 555/30.*



1. Fotoşəkil. Niyazi arvadı Həcər xanımı ilə birlikdə. 1939-cu il. SMF inv. 504/3.
2. Fotoşəkil. Niyazi xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətində qəbulda. 1981-1982-ci illər. SMF inv. 504/4.
3. Fotoşəkil. G.Rixter və Niyazi partituranı nəzərdən keçirərkən. 1957-ci il. SMF inv. 504/7.
4. Fotoşəkil. Oberin və Niyazi Filarmoniyanın foyesində. 1948-1949-cu il. SMF inv. 504/9.
5. Fotoşəkil. Niyazi, Ə.Abbasov və başqaları hərbi geyimdə əsgərlər arasında. Qroznı. 1943-cü il. SMF inv. 504/10.
6. Niyazinin Türkiyədə çəkdirdiyi fotoşəkil. 1965-ci il. SMF inv. 504/12.
7. Niyazi, Lütfiyar İmanov və Müslüm Maqomayev sərhədçilərin yanında. 1970-ci il. SMF inv. 504/13.
8. Fotoşəkil. Niyazi Bülbül ilə birlikdə. 1939-cu illər. Ölçü: 10,5x15 sm. SMF inv. 504/14.
9. Fotoşəkil. Niyazi, D.Şestokoviç, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, R.Hacıyev, M.Vaynşteyn, S.Hacıbəyov ilə birlikdə. 1944-cü il. SMF inv. 504/15.
10. Fotoşəkil. Soldan sağa: Q.Qarayev, S.Rüstəmov, Niyazi, Ü.Hacıbəyov, Əşrəf Həsənov. 1945-ci il. SMF inv. 504/16.
11. Fotoşəkil. Niyazi evində iş otağında bəstəkar A.Xaçaturyanla. 1963-cü il. SMF inv. 504/17.
12. Fotoşəkil. F.Əmirov Niyazi ilə birlikdə “Sevil” operasının partiturası üzərində işləyərkən. 25.01.1965-ci il. SMF inv. 504/18.
13. Fotoşəkil. Soldan sağa: Zülfüqar, Ceyhun, Üzeyir Hacıbəyov qardaşları. SMF inv. 504.23.
14. Fotoşəkil. Niyazi, R.Behbudov, F.Əmirov. F.Əmirovun “Sevil” operasının partiturası üzərində işləyərkən. 1959-cu il. SMF inv. 504/24.
15. Fotoşəkil. Niyazinin anadan olmasının 60 və yaradıcılıq fəaliyyətinin 40 illiyinə həsr olunmuş gecəyə aid Proqram. 1972-ci il. SMF inv. 504/27.
16. Niyazinin anadan olmasının 60 illiyi münasibətilə SSRİ Böyük teatrı orkestrinin kollektivi tərəfindən verilmiş Təbrik ünvanı. SMF inv. 504/40.
17. A.S.Puşkin Azərbaycan bəstəkarlarının əsərlərində. Şairin 100 illiyinə həsr olunmuş Nota. Üzərində xatirə yazısı vardır: “İlk işimi yoldaşım və sənət dostum Niyaziyə Qarikdən. 13.12.1937-ci il”. Bakı, 4 vərəq. SMF inv. 504/65.
18. Bakı Bədən Tərbiyəsi şurasının 3-cü ümumbakı ağırlıq qaldırma yarışlarında II yer tutmuş Niyazi Tağızadəyə verilmiş Diplom. 5 iyun 1929-cu il. SMF inv. 555/1.
19. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadənin Azərbaycan SSR əməkdar incəsənət xadimi adına layiq görülməsi haqqında Fəxri fərman. № 25. 7 dekabr 1940-cı il. SMF inv. 555/10.
20. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyovun incəsənət sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR əməkdar incəsənət xadimi adına layiq görülməsi haqqında Fəxri fərman. Bakı, 27 fevral 1944-cü il. SMF inv. 555/16.
21. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadənin teatr sənəti sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR xalq artisti adının verilməsi haqqında Fəxri fərman. № 39. 24 iyun 1954-cü il. SMF inv. 555/25.
22. SSRİ Ali Soveti Rəyasət Heyətinin Niyazi Zülfüqar oğlu Tağızadəyə Sovet incəsənətinin inkişafında görkəmli xidmətlərinə və Moskva şəhərində keçirilən Azərbaycan SSR incəsənəti və ədəbiyyatı ongünlüyü münasibətilə SSRİ Xalq artisti adının verilməsi haqqında Fərman. 19 iyun 1959-cu il. SMF inv. 555/30.
23. Ermənistanda SSR Ali Soveti Rəyasət Heyətinin N.Z.Tağızadəyə Ermənistan SSR Xalq artisti adının verilməsi haqqında Fərman. № 118. 18 iyun 1962-ci il. SMF inv. 555/36.
24. Azərbaycan LKGİ MK-nin Niyazi Zülfüqar oğlu Tağızadəyə, gənclərin estetik tərbiyəsində böyük və fəal işinə görə və anadan olmasının 60 illiyi münasibətilə Azərbaycan LKGİ ədəbiyyat, incəsənət və memarlıq sahəsində mükafatlandırılması və fəxri laureat adının verilməsi haqqında Diplom. 1975-ci il. SMF inv. 555/48.
25. T.Z.Niyaziyə Hindistan SSRİ dostluğunun möhkəmlənməsinə görkəmli töhfə verdiyinə görə C.Nehru adına mükafatının təqdim edilməsi haqqında Diplom. 1973-cü il. SMF inv. 555/50.
26. Sumqayıt Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 29 fevral 1980-ci il 59 saylı qərarı ilə Niyazi Tağızadə Hacıbəyova klassik və müasir incənətin, şəhər əhalisinin estetik tərbiyəsinin təbliğində böyük xidmətlərinə görə “Sumqayıt şəhərinin fəxri vətəndaşı” adının verilməsi haqqında Fəxri fərman. SMF inv. 555/55.
27. Niyazi Zülfüqar oğlu Tağızadə Hacıbəyova SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 avqust 1982-ci il fərmanı ilə Sovet musiqi sənətinin inkişafında görkəmli xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar “Lenin ordeni” və “Oraq və Çəkic” qızıl medalını təqdim etməklə, Sosialist Əməyi Qəhrəmanı adının verilməsi haqqında Fərman. Moskva, Kreml. 19 avqust 1982-ci il. SMF inv. 555/62.
28. Tbilisi şəhər Xalq Deputatları Sovetinin Niyazi Zülfüqar oğlu Tağızadə Hacıbəyova 29 oktyabr 1982-ci il qərarı ilə “Tbilisi şəhərinin fəxri vətəndaşı” adının verilməsi haqqında Fəxri Fərman. SMF inv. 555/63.

29. Qrammafon valı. Ümumittifaq "Melodiya" firması tərəfindən buraxılmışdır. Bəstəkar və dirijor Niyazinin əsərlərini Z.İmanov, Ş.Ələkbərova, Bülbül- Ümumittifaq Radiosunun Böyük simfonik orkestrinin və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrinin müşayətilə ifa edirlər. Ümumittifaq qrammafon yazısı studiyası. HXƏF inv. inv. 5094.
30. Qrammafon valı. Ümumittifaq "Melodiya" firması tərəfindən buraxılmışdır. Aqşin Əlizadənin əsərlərini Kamera orkestri (dirijor Niyazi) ifa edirlər. Aprelov qrammafon valları zavodu. HXƏF inv. 5093.
31. Qaçan Maral fiquru. Ağacdandır. Üzərində "Dövlət mükafatları laureatı SSRİ Xalq artisti Niyaziyə Kemerov şəhəri zəhmətkeşlərindən, May 1970-ci il" yazılmış orqşüşəyə bərkidilmişdir. HXƏF inv. 4932.
32. Lövhə. Mis üzərində döymə üsulu ilə hazırlanmış lövhə-"Çalğıçı". Yaşlı çalğıçı əlində kamança çalarkən təsvir olunmuşdur. HXƏF inv. 4927.
33. Yelkənli gəmi maketi. Əsası taxtadan, yelkənləri qızılı rəngli nazik dəmirdəndir. Düzbucaqlı formasında mərmər oturacaq üzərindədir. Anadan olmasının 60 illiyi münasibətilə Xəzərin sərhəd-dənizçilərindən Niyaziyə hədiyyədir. HXƏF inv. 4926.
34. Ağac üzərində intarsiya. Pardaxlanmış oturacaqdan və ona perpendikulyar formada qoyulmuş pannodan ibarətdir. Pannoda respublikanın gerbi və bayrağı olan üzən gəmi təsvir edilmişdir. Azərbaycan KPBX-dən Niyazinin anadan olmasının 70 illiyi münasibətilə hədiyyədir. HXƏF inv. 4925.
35. Metal lövhə. Düzbucaqlı şəkilli metal lövhədir. Üzərinə göy məxmər çəkilmiş nazik taxtaya bərkidilmişdir. Lövhədə stilləşdirilmiş 2 qadın fiquru təsvir edilmişdir. Ərəb və ingilis dillərində yazı vardır. HXƏF inv. 4924.
36. Suvenir. Uralın özündən rəngli təbii daşlarındandır. Qazma üsulu ilə Sverdlovun heykəli təsvir edilmişdir. Yaşıl rəngli oturacaq üzərində rus dilində "Azərbaycan Dövlət Simfonik orkestrinə Uralmaşdan. May 1970." yazılmışdır. HXƏF inv. inv. 4923.
37. Suvenir. Uralın özündən rəngli təbii daşlardandır. Bir üzündə qazma üsulu ilə Sibir mənzərəsi təsvir edilmişdir. Oturacaq hissəsində rus dilində "N.Takil metallurqlarından Azərbaycan Dövlət Simfonik orkestri kollektivinə 1970-ci il" yazılmışdır. HXƏF inv. 4922.
38. Sumqayıt kauçuk zavodunun məhsulları: kauçuk SES -30 ARKM-15 1957-ci il və SSRİ-də birinci butilkauçuk. Orqşüşə qutunun içərisindədir. HXƏF inv. 4921.
39. Büst. Sərhəd şalbanı yanında durmuş sərhədçi büstüdür. Gipsdən olub, qızılı rənglə rənglənmişdir. 4 ayaqlı taxta oturacaq üzərindədir. Oturacağın üstündə sağ tərəfdə üzərində rus dilində "SSRİ sərhədləri müqəddəs və toxunulmazdır" yazılmış, taxtadan sərhəd şalbanı düzəldilmişdir. HXƏF inv. 4920.
40. Qrammafon valları. Niyazinin "Çitra" baleti. Mərkəzi televiziya və ümumittifaq radiosu böyük simfonik orkestrinin ifasında. İçərisində Rabindranat Taqorun eyni adlı poeması haqqında məlumat vardır. Üzərində "Çitra" baletindən bir səhnə şəklidir. "Melodiya" firmasının vallarıdır. İçərisində iki val vardır. HXƏF inv. 4919/a.
41. Qrammafon valları. Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası. Xor və orkestr dirijor Niyazinin müşayiəti altında. Əsgər rolunda Rəşid Behbudov, Gülçöhrə- Fidan Qasımova, Leyla Bədirbəyli (mətn) Sultan bəy-Əli Axverdiyev və s. İçərisində 3 val vardır. "Melodiya" firmasının vallarıdır. HXƏF inv. 4919/b.
42. Qrammafon valları. Simfonik muğam. Mərkəzi televiziya və Ümumittifaq radiosu böyük simfonik orkestrinin ifasında. "Melodiya" firmasının valıdır. Valın I tərəfi: "Rast" simfonik muğamı, Valın II tərəfi: "Vətən haqqında musiqi" (S.Rüstəm), Konsert valsı, "Xumar oldum", "Qara gilə"(Azərb. xalq mahnıları), "Arzu" (İ.Səfərli), Qaytağı. L.İmanov (1-3), Ş.Ələkbərova (4), Bülbül (5). Dirijor Niyazi. HXƏF inv. 4919/d.
43. Qrammafon valları. Komplekt: 1)Rast simfonik muğamı. Mərkəzi televiziya və Ümumittifaq radiosu Böyük simfonik orkestrinin ifasında. 2) "Çitra" baleti. Cildin içəri tərəfində avtoqrafı vardır. HXƏF inv. 4919/e.
44. Qrammafon valları. Azərbaycan musiqisi-Ü.Hacıbəyov adına Azərbaycan simfonik orkestrinin ifasında. Dirijor Niyazidir. Valın I tərəfi: S.Hacıbəyov, Simfoniya inv. 1. Valın II tərəfi: "Koroğlu" operasının uverturası. "Karvan", "Vals", "Qaytağı". Üzərində H.Q.Əbdürrəhmanovun Bakı şəhərinin görüntüsü rəsmi vardır. HXƏF inv. 4919/q.
45. Qrammafon valları. Ü.Hacıbəyovun "Koroğlu" operası. İçərisində üç val vardır. Xor və orkestr dirijor Niyazinin müşayiəti altında. Üzərində Koroğlu rəsmi çəkilmiş, ingilis və rus dillərində yazılmışdır. HXƏF inv. 4919/ v.
46. Metallurq papağı. Açıq qəhvəyi rəngdədir. Üzərində ağ rənglə rus dilində "Sumqayıt şəhərinin fəxri metallurqu 21.01.82" yazılmışdır. HXƏF inv. 4918.
47. Niyaziyə məxsus Saat. Ağ metal zənciri vardır. Batareyası yoxdur. Yaponiyanın "Disko" firmasının istehsalıdır. HXƏF inv. 4916.
48. Niyaziyə məxsus Avtomat qələm. Tünd qəhvəyi rəngdə. Qapağı sarı metaldandır. Amerikanın "Parker-51" firmasının istehsalıdır. HXƏF inv. 4915.



49. Niyaziyə məxsus Eynək. Açıq rəngli plastmas halqaya salınmışdır. Ağ optik şüşələri vardır. HXƏF inv. 4914.
50. Alışqan. Sarı plastmasdandır. Qırmızı düyməciyi vardır. Fransada istehsal olunmuşdur. HXƏF inv. 4913.
51. Dirijor çubuğu. Bambukdandır. HXƏF inv. 4912.
52. Medal. "Tbilisi şəhərinin fəxri vətəndaşı". Bir üzündə şəhərin görünüşü, o biri üçündə "Ana-Gürcüstan" heykəli verilmişdir. Medalın xaric kənarında gürcü və rus dillərində "Niyazi" yazılmışdır. medalın fiqurlu metal zənciri vardır. Açar və medal taxta qutu içərisinə qoyulmuşdur. HXƏF inv. 4911/b.
53. Simvolik açar. Tbilisi şəhərinin simvolik açarıdır. Bürüncdəndir. Qulpunun dəliyi içərisində "Ana-Gürcüstan" heykəlinin fraqmenti verilmişdir. HXƏF inv. 4911/a.
54. Maket. Musiqi alətlərindən- piano, tar, kamança, saz, qarmon, nağara, zurna, gitaradan ibarətdir. Onlar arfa formasında taxta əsasa bərkidilmişdir. Ağdam şəhəri məktəblilərinin hədiyyəsidir. HXƏF inv. 4910.
55. Yazı dəsti. Yaşıl dəridəndir. kənarlarında qızılı rəngdə naxışlar vardır. 7 hissədən ibarətdir. 1) Qovluq, 2)kağız qoymaq üçün əşya, 3)qələm qoymaq üçün əşya, 4) blaknot, 5) külqabı, 6)kağız kəsmək üçün bıçaq, 7) press papye. HXƏF inv. 4909.
56. Vaza. Açılmış zanbaq şəklindədir. Kənarları dalğavaridir. Kənarı 2 yerdən sınmışdır. 60 illiyi münasibətilə sevimli müəllimi böyük Niyaziyə Lütfiyar İmanovun hədiyyəsidir. HXƏF inv. 4908.
57. Vaza. Ağ və göy rənglədən ibarətdir. Qırmızı rəngdə tutacaqları vardır. Vazanın hər iki tərəfində qızılı yerliyi olan medalyon içərisində kiçik ağ güllər verilmişdir. Vaza Yevlax şəhərində olarkən Niyaziyə hədiyyə edilmişdir. HXƏF inv. 4907.
58. Vaza. Sarı rəngli çex şüşəsindəndir. Üzərində təbiətin qoynunda tütək çalan oğlan və qız təsvir edilmişdir. Azərbaycan Dövlət rəqs ansamblından 70 illiyi münasibətilə maestro Niyaziyə hədiyyədir. HXƏF inv. 4906.
59. Vaza. Büllurdur. "Bohema" firmasının məhsuludur. Silindrik formada olub ağzının kənarları dişciklidir. Azərbaycan SSR DTK tərəfindən anadan olmasının 70 illiyi münasibətilə Niyaziyə hədiyyə verilmişdir. HXƏF inv. 4905.
60. Vaza. Ağ çinidəndir. Armud formasındadır. Üzərində aşağıdan yuxarıya doğru gedən, bir-birini əvəz edən sarımtıl yaşıl rəngli naxışları olan zolaqlar vardır. Türkiyənin Sumerbank firmasının məhsuludur. Vaza Türkiyə respublikasının 50 illiyi münasibətilə hazırlanmışdır. HXƏF inv. 4904.
61. Vaza. Ağ çex şüşəsindəndir. Üzərində əmək adamları, zavod və fabriklər təsvir edilmişdir. 1951-ci ilin "Praqa baharı" incəsənət bayramı zamanı Niyaziyə hədiyyə edilmişdir. HXƏF inv. 4903.
62. Vaza. Büllurdur. Xırda dişcikli kənarları vardır. Üzəri hamar zolaqlar və bitki ornamentlərilə bəzədilmişdir. Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən anadan olmasının 70 illiyi münasibətilə verilmiş hədiyyə. HXƏF inv. 4902.
63. Saxsıdan olub, qara rəngdədir. Səhəng (bardaq) formasındadır. Üzərində qəhvəyi rənglə şirələnmiş həndəsi ornamentlər vardır. Tbilisi şəhərinin əhalisinin hədiyyəsidir. HXƏF inv. 4901.
64. Vaza. Büllurdur. Silindrik formada olub, kənarları dalğavaridir. Anadan olmasının 70 illiyi münasibətilə Niyaziyə Müslüm Maqomayevin hədiyyəsidir. HXƏF inv. 4900.
65. Vaza. Büllurdur. Zanbaq formasındadır. SSRİ NS nəzdində DTK tərəfindən anadan olmasının 50 illiyi münasibətilə Niyaziyə hədiyyədir. HXƏF inv. 4899.
66. Vaza. Saxsıdan olub üzəri şirələnmişdir. Üzərində Niyazinin portreti vardır. HXƏF inv. 4898.
67. Püpitr. Not qoymaq üçün. Orqşüşədəndir. Üzərindəki skripka açarı, notlar, "70" rəqəmi və budaq Sumqayıt boru prokatı zavodunun məhsulundan düzəldilmişdir. Sumqayıt zəhmətkeşlərinin Niyaziyə hədiyyəsidir. HXƏF inv. 4897.
68. Büst. Niyazinin büstü. Gipsdəndir. (sürətidir) Tokay Məmmədov düzəltmişdir. HXƏF inv. 4896.
69. Dirijor geyimi – Frak, şalvar, kəmər, köynək və bantdan ibarətdir. Türkiyənin "Əhməd" firmasının istehsalıdır. HXƏF inv. 4895.
70. Tar. Pardaxlanmış ağacdandır. Tarın qol hissəsi sədəflə bərkidilmişdir. 5 nazik, iki qalın sarı simi vardır. Metal lövhəcik üzərində rus dilində "Əziz Niyaziyə Şuşalı yerlilərindən 70 illiyi münasibətilə" yazılmışdır. HXƏF inv. 4894.
71. Dəf. Daşkənd musiqi alətləri fabrikində hazırlanmışdır. Özbəkistanda Azərbaycan incəsənəti günləri münasibətilə Niyaziyə hədiyyədir. HXƏF inv. 4893.
72. Qrammafon valı. Bəstəkar və dirijor Niyazinin əsərlərindən ibarətdir. Bir üzündə Rast, simfonik muğam; o biri üzündə Vətən haqqında mahnı, konsert valsı, xumar oldum, Qara-gilə. Azərbaycan xalq mahnıları dirijor Niyazinin müşayiəti ilə. HXƏF inv. 4543.



# *Barat Şəkinskaya*

*1914-1999*

Barat Həbib qızı Şəkinskaya 1914-cü il iyunun 28-də Şuşada bəy ailəsində anadan olmuşdur. Anası Gövhər xanım Əbdürrəhim bəy Haqverdiyevin əmisi qızı olub. Atası Həbib xan, 1920-ci il aprelin 28-də bolşeviklər Bakını zəbt edərkən qaçaq düşüb. B.Şəkinskaya, hələ uşaq ikən 1920-ci ildə Şuşada göstərilən "Şəbih" tamaşasında Səkinə rolunda iştirak edib. O, ilk təhsilini Şuşada alıb. 1920-ci il avqustun 21-də anası uşaqları Barat, Səriyyə və Süleymanla birlikdə Şuşanı tərk edərək Ağdamın Göytəpə kəndinə, 1923-cü ildə isə Gəncəyə köçüblər. Həmin il sentyabrın 1-də Gəncədəki 2 saylı, birinci dərəcəli qız məktəbində dərsə başlayıb. Məktəbi bitirdikdən sonra 1927-ci ildə Gəncədə pedaqoji məktəbə qəbul olunub. Həm məktəbin, həm də şəhərin müxtəlif dram dərnəklərində həvəskar aktrisa kimi çıxış etməyə başlayıb. 1929-cu il sentyabrın 18-də Gəncə Həmkarlar ittifaqının "Fəhlə klubu"nda aktrisa ştatına götürülmüşdür. 1930-cu il iyunun 25-də Pedaqoji məktəbi bitirərək, Sərkər kənd məktəbinə müəllim göndərilir. 1933-cü il yanvarın 7-də Gəncə Türk İşçi Teatrı truppasına qəbul edilir. 1935-ci il fevralın 23-də Gəncə Dövlət Dram Teatrından işdən çıxıb tibb təhsili almaq məqsədi ilə Bakıya gəlir. 1935-ci il sentyabrın 1-də Akademik Milli Dram Teatrının aktyor truppasına aktrisa kimi fəaliyyətə başlayır.

Yaradıcılığının əsas dövrü Akademik Milli Dram Teatrı ilə bağlı olan Barat Şəkinskaya bu illərdə həm də Azərbaycanın ilk travisti — oğlan rolları oynayan aktrisası olub. 1937-ci il yanvarın 14-də milli teatr tariximizə "Azərbaycan səhnəsinin Cülyettası" kimi şərəfli əbədiyyət səhifəsi yazıb.

B.Şəkinskaya 1956-cı ildən etibarən dörd il "Azərbaycanfilm" kinostudiyasında aktrisa, Filarmoniyada aparıcı, yenicə açılan televiziyada diktor işləyir. O, 23 yaşında - 4 may 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 21 iyul 1949- cu ildə Xalq Artisti fəxri adlarına layiq görülüb.

Barat Şəkinskaya 14 yanvar 1999-cu ildə 84 yaşında dünyasını dəyişib. Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

1. Barat Şəkinskaya Vilyam Şekspirin "Romeo və Cülyetta" tamaşasında Cülyetta rolunda. 1937-ci il. SMF inv. 2070/37.
2. "Romeo və Cülyetta" tamaşasından səhnə. Romeo - Ülvi Rəcəb, Cülyetta - Barat Şəkinskaya, Keşiş - Ağasadıq Gəraybəyli. 1937-ci il. SMF inv. 2070(36)
3. Qrammofon valı. Azərbaycan Dövlət Akademik Dram Teatrının ustad sənətkarları. Ümumittifaq "Melodiya" şirkəti. I tərəfi: M.F.Axundovun "Lənkəran xanının vəziri", Sabit Rəhmanın "Toy", Mirzə İbrahimovun "Həyat" tamaşalarından parçalar. Barat Şəkinskaya, Atamoğlan Rzayev, Ağasadıq Gəraybəylinin və b. ifasında. II tərəfi: Vilyam Şekspirin "Romeo və Cülyetta", Cəfər Cabbarlının "Almaz", Səməd Vurğunun "Fərhad və Şirin" tamaşalarından parçalar. Leyla Bədirbəyli, Möhsün Sənani, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya və Sona Hacıyevanın ifasında. 1970-ci illər. HXƏF inv. 5090.





*Barat Şəkinskaya Vilyam Şekspirin "Romeo və Cülyetta" tamaşasında Cülyetta rolunda. 1937-ci il. SMF inv. 2070/37.*



# Rəşid Behbudov

1915-1989

Rəşid Məcid oğlu Behbudov orta məktəbi bitirdikdən sonra 1933-cü ildə dəmiryol texnikumuna daxil olur. Burada həvəskar tələbə orkestrini yaradaraq ona rəhbərlik edir. II Dünya müharibəsi illərində cəbhədə ordu ansamblının solisti kimi çıxış edir. 1934-1944-cü illərdə İrəvan Filarmoniyasının və Ermənistan Dövlət Caz Orkestrinin solisti olmuşdur. Bakı Kinostudiyası Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında "Arşın mal-Alan" filmindəki Əsgər rolu R.Behbudova böyük uğur gətirir. 1945-ci ildə ekranlara çıxan bu film SSRİ və bir çox xarici ölkələrin ekranlarında böyük uğur qazanmışdır.

O, 1944-1956-cı illərdə Azərbaycan Filarmoniyasının, 1953-1960-cı illərdə Azərbaycan Opera və Balet Teatrının solisti olub. 1957-ci ildə Azərbaycan Filarmoniyasında caz üslubunu və Azərbaycan xalq çalğı alətlərini özündə birləşdirən konsert ansamblı yaratmış, 1957-1959-cü illərdə onun bədii rəhbəri olmuşdur. 1966-cı ildə Azərbaycan Mahnı Teatrını (indi onun adını daşıyır) təşkil etmiş, ömrünün sonuna kimi bu teatrın bədii rəhbəri və solisti olmuşdur.

O, 1950-ci illərin əvvəllərindən başlayaraq dünyanın bir çox ölkələrinə - Bolqarıstan, Macarıstan, İtaliya, Hindistan və Çinə qastrol səfərinə çıxdı. O, həmçinin Suriya, Türkiyə, Misir, İordaniya, İran, İraq, Finlandiya, Polşa və Latın Amerikasında çıxış etmiş və xalqın böyük sevincini qazanmışdr.

Rəşid Behbudov 1989-cu il iyunun 9-da Moskvada Kreml xəstəxanasında vəfat edib. Bakıda Fəxri Xiyabanda dəfn edilib.





*Azərbaycan incəsənət xadimlərinin bir qrupu. Soldan: 1-ci sıra – Süleyman Ələsgərov, Nazim Əliverdibəyov, Midhət Əhmədov; 2-ci sıra – Tofiq Bakıxanov, Xəyyam Mirzəzadə, Elmira Nəzirova, Vasif Adıgözəlov; 3-cü sıra – İsmayıl Quliyev, Soltan Hacıbəyli, Hacı Xanməmmədov, Rəşid Behbudov, Arif Məlikov, Ramiz Mustafayev, Cövdət Hacıyev, Cahangir Cahangirov, Musa Mirzəyev, Rauf Hacıyev və başqaları. 1963. SMF, inv. 5286.*



*R.Behbudov, Niyazi, F.Əmirov. "Sevil" operasının partiturası üzərində işləyərkən. 1959-cu il. SMF inv. 504/24.*




*Açıqca "Rəşid Behbudov 100 il". 2015-ci il KTFMF inv. 782.*

1. Fotoşəkil. R.Behbudov, Niyazi, F.Əmirov. "Sevil" operasının partiturası üzərində işləyərkən. 1959-cu il. SMF inv. 504/24.
2. Fotoşəkil. SSRİ xalq artisti Rəşid Behbudov FNMF inv. 10571.
3. Açıqca "Rəşid Behbudov 100 il" 2015-vi il. KTFMF inv. 782.
4. Qrammafon valı (3 ədəd). Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası. Dirijor: Niyazi. Əsgər - Rəşid Behbudov, Gülçöhrə - Fidan Qasımova, (mətn - Leyla Bədirbəyli), Soltan bəy- Əli Axverdiyev (mətn- Səməndər Rzayev), Cahan xala – Şəfiqə Qasımova (mətn-Mirvari Novruzova) və b. 1975-ci il. HXƏF inv. 4919/b.
5. Proqram. Afişa. M. F. Axundov adma Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 1953-54-cü illər mövsümündə ilk dəfə tamaşaya qoyulmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Rəssamlar: Azərbaycan SSR Əməkdar incəsənət xadimi İzzət Seyidova, Ənvər Almaszadə. Baş rollarda: Sevil - Stalin mükafatı laureatı Vera Abişeva və Firuzə Muradova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov, Gülüş - Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə, Dilbər - Elmira Axundova. İştirak edən aktyorların fotoşəkilləri verilmişdir. 61 səhifə. SMF inv. 2369.
6. Proqram. 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə təqdim olunmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Tərtibat: Əyyub Fətəliyev, geyim eskizləri: Bədurə Əfqanlı. Baş rollarda: Sevil - Azərbaycan SSR Əməkdar artisti Firəngiz Əhmədova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov. Gülüş - Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə. HXƏF inv. 12.
7. Azərbaycan incəsənət xadimlərinin bir qrupu. Soldan: 1-ci sıra – Süleyman Ələsgərov, Nazim Əliverdibəyov, Midhət Əhmədov; 2-ci sıra – Tofiq Bakıxanov, Xəyyam Mirzəzadə, Elmira Nəzirova, Vasif Adıgözəlov; 3-cü sıra – İsmayıl Quliyev, Soltan Hacıbəyli, Hacı Xanməmmədov, Rəşid Behbudov, Arif Məlikov, Ramiz Mustafayev, Cövdət Hacıyev, Cahangir Cahangirov, Musa Mirzəyev, Rauf Hacıyev və başqaları. 1963. SMF, inv. 5286.
8. Kitab-albom. Azərbaycan estrada və opera müğənnisi aktyor, SSRİ Xalq artisti, Rəşid Behbudova həsr edilmişdir. Sonuncu səhifəsinə 1 ədəd DWD-RV yerləşdirilmişdir. Bakı: Təhsil, 2016. SMF 13523/1.
9. Şeir-kitabı-"Голос, покоривший мир». Müəllif: Vladimir Qupalsk, 2005-ci il. SMF 13523/2.
10. Konsert proqramı. Berlin, 15 sentyabr, 1981-ci il. SMF 13523/3.
11. Buklet. Rəşid Behbudova həsir edilmişdir. SMF 13523/4.
12. Qrammafon valı. Üzərində «Министерство Культуры СССР Мелодия – Рашид Бейбутов» sözləri yazılmışdır. HXƏF inv. 6307.
13. Hədiyyə dəsti. Rəşid Behbudovun "Nazəndə sevgilim yadıma düşdü" adlı Buklet və DWD – albom. HXƏF inv. 6308.





# *Mehdi Məmmədov*

*1918-1985*

Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il mayın 22-də Şuşada doğulsa da, ilk təhsilini Bakıda alıb. Yeddinci sinifdən Bakı Türk İşçi Teatrının tamaşalarında kütləvi səhnələrə çıxan M. Məmmədov 1935-ci ildə Bakı Teatr Məktəbini bitirib, elə həmin il Moskvaya ali rejissor təhsili almaq üçün getmişdir.

1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləmişdi. O, 1942-1945-ci illərdə Gəncə Dövlət Dram Teatrında, 1960-1963-cü illərdə Milli Dram Teatrında, 1956-1960-cı illərdə Opera və Balet Teatrında, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor vəzifələrində çalışmışdır.

M.Məmmədovun Milli Dram Teatrında ilk işi 1946-cı ildə Şekspirin "On ikinci gecə" komediyasının tamaşası olmuşdur. O, həm romantik, həm də realist səpkili tamaşalara quruluşlar verib. 1945-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs demiş, kafedra müdiri vəzifəsində işləmişdir. 1968-ci ildə "Azərbaycan dramaturgiyasının estetik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru M.Məmmədov "Azərbaycan dramaturgiyasının estetik problemləri", "Teatr düşüncələri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Hüseyn Ərəblinski", "Onun sənət ulduzu", "Qorki adına Moskva Akademik Bədaye Teatrı", "Aleksandr Tuqanov" (rus dilində), "Rejissor sənəti", "Sabit Rəhman" və digər kitabların müəllifidir.

M. Məmmədov 1971-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin sədri seçilmişdir. Görkəmli alimin yazdığı və dərslik kimi keçilən "Rejissor sənəti", "Həyat və sənət yollarında", "Mah teatr" kitabları elmi dəyərlərini bu gün də saxlamaqdadır.

Sənətdə qazandığı uğurlara görə M.Məmmədov 1949-ci il iyulun 21-də respublikanın Əməkdar incəsənət xadimi, 1958-ci il aprelin 26-da Xalq artisti və 1974-cü il avqustun 7-də SSRİ Xalq artisti fəxri adlara layiq görülmüşdü. M. Məmmədov Akademik teatrda hazırladığı Hüseyn Cavidin "İblis" faciəsinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı ilə təltif olunub. Mehdi Məmmədov 1985-ci il yanvar ayının 8-də vəfat edib.

1. Afişa. M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında Azərbaycan SSR Xalq artisti Ələsgər Ələkbərovun anadan olmasının 50 illiyi və səhnə fəaliyyətinin 35 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi. Bədii hissədə Ələsgər Ələkbərovun iştirakı ilə Səməd Vurğunun "Vaqif', İlyas Əfəndiyevin "Bahar suları", Vilyam Şekspirin "Otello" tamaşalarından parçalar. Baş rejissor - Mehdi Məmmədov . 24 noyabr 1960-cı il. HXƏF inv. 1554.
2. Qrammofon valı. Azərbaycan Dövlət Akademik Dram Teatrının ustad sənətkarları. Ümumittifaq "Melodiya" şirkəti. I tərəfi: Vilyam Şekspirin "Hamlet", Aleksandr Puşkinin "Boris Qodunov", Lev Tolstoyun "Canlı meyit", Hüseyn Cavidin "Xəyyam" tamaşalarından monoloqlar və Ömər Xəyyamın rübailəri. Mehdi Məmmədovun ifasında. II tərəfi: Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif' tamaşalarından parçalar. Hökümə Qurbanova, Məxluqə Sadıqova, Əli Zeynalov, Hamlet Xanızadə və Abbas Rzayevin ifasında. 1970-ci illər. HXƏF inv. 5091.
3. Proqram. Afişa. M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 1953-54-cü illər mövsümündə ilk dəfə tamaşaya qoyulmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Rəssamlar: Azərbaycan SSR Əməkdar incəsənət xadimi İzzət Seyidova, Ənvər Almas- zadə. Baş rollarda: Sevil - Stalin mükafatı laureatı Vera Abişeva və Firuzə Muradova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov, Gülüş - Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə, Dilbər - Elmira Axundova. İştirak edən aktyorların fotoşəkilləri verilmişdir. 61 səhifə. SMF inv. 2369.
4. Proqram. 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə təqdim olunmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Tərtibat: Əyyub Fətəliyev, geyim eskizləri: Bədurə Əfqanlı. Baş rollarda: Sevil - Azərbaycan SSR Əməkdar artisti Firəngiz Əhmədova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov. Gülüş -Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə. İştirak edən aktyorların fotoşəkilləri verilmişdir. 15 səhifə. HXƏF inv. 1258



Soltan Hacıbəyov

1919-1974

Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il mayın 22-də Şuşada doğulsa da, ilk təhsilini Bakıda alıb. Yeddinci sinifdən Bakı Türk İşçi Teatrının tamaşalarında kütləvi səhnələrə çıxan M. Məmmədov 1935-ci ildə Bakı Teatr Məktəbini bitirib, elə həmin il Moskvaya ali rejissor təhsili almaq üçün getmişdir.

1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləmişdi. O, 1942-1945-ci illərdə Gəncə Dövlət Dram Teatrında, 1960-1963-ci illərdə Milli Dram Teatrında, 1956-1960-ci illərdə Opera və Balet Teatrında, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor vəzifələrində çalışmışdır.

M.Məmmədovun Milli Dram Teatrında ilk işi 1946-cı ildə Şekspirin "On ikinci gecə" komediyasının tamaşası olmuşdur. O, həm romantik, həm də realist səpkili tamaşalara quruluşlar verib. 1945-cı ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs demiş, kafedra müdiri vəzifəsində işləmişdir. 1968-ci ildə "Azərbaycan dramaturgiyasının estetik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru M.Məmmədov "Azərbaycan dramaturgiyasının estetik problemləri", "Teatr düşüncələri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Hüseyn Ərəblinski", "Onun sənət ulduzu", "Qorki adına Moskva Akademik Bədaye Teatrı", "Aleksandr Tuqanov" (rus dilində), "Rejissor sənəti", "Sabit Rəhman" və digər kitabların müəllifidir.

M. Məmmədov 1971-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin sədri seçilmişdir. Görkəmli alimin yazdığı və dərslik kimi keçilən "Rejissor sənəti", "Həyat və sənət yollarında", "Mah teatr" kitabları elmi dəyərlərini bu gün də saxlamaqdadır.

Sənətdə qazandığı uğurlara görə M.Məmmədov 1949-ci il iyulun 21-də respublikanın Əməkdar incəsənət xadimi, 1958-ci il aprelin 26-da Xalq artisti və 1974-cü il avqustun 7-də SSRİ Xalq artisti fəxri adlara layiq görülmüşdü. M. Məmmədov Akademik teatrda hazırladığı Hüseyn Cavidin "İblis" faciəsinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı ilə təltif olunub. Mehdi Məmmədov 1985-ci il yanvar ayının 8-də vəfat edib.

1. Afişa. M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında Azərbaycan SSR Xalq artisti Ələsgər Ələkbərovun anadan olmasının 50 illiyi və səhnə fəaliyyətinin 35 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi. Bədii hissədə Ələsgər Ələkbərovun iştirakı ilə Səməd Vurğunun "Vaqif', İlyas Əfəndiyevin "Bahar suları", Vilyam Şekspirin "Otello" tamaşalarından parçalar. Baş rejissor - Mehdi Məmmədov . 24 noyabr 1960-cı il. HXƏF inv. 1554.
2. Qrammofon valı. Azərbaycan Dövlət Akademik Dram Teatrının ustad sənətkarları. Ümumittifaq "Melodiya" şirkəti. I tərəfi: Vilyam Şekspirin "Hamlet", Aleksandr Puşkinin "Boris Qodunov", Lev Tolstoyun "Canlı meyit", Hüseyn Cavidin "Xəyyam" tamaşalarından monoloqlar və Ömər Xəyyamın rübailəri. Mehdi Məmmədovun ifasında. II tərəfi: Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif' tamaşalarından parçalar. Hökümə Qurbanova, Məxluqə Sadıqova, Əli Zeynalov, Hamlet Xanızadə və Abbas Rzayevin ifasında. 1970-ci illər. HXƏF inv. 5091.
3. Proqram. Afişa. M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 1953-54-cü illər mövsümündə ilk dəfə tamaşaya qoyulmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Rəssamlar: Azərbaycan SSR Əməkdar incəsənət xadimi İzzət Seyidova, Ənvər Almas- zadə. Baş rollarda: Sevil - Stalin mükafatı laureatı Vera Abişeva və Firuzə Muradova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov, Gülüş - Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə, Dilbər - Elmira Axundova. İştirak edən aktyorların fotoşəkilləri verilmişdir. 61 səhifə. SMF inv. 2369.
4. Proqram. 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə təqdim olunmuş Fikrət Əmirovun "Sevil" operası. Libbretto müəllifi Tələt Əyyubov. Quruluşçu rejissor: Mehdi Məmmədov. Musuqi rəhbəri və dirijor: Niyazi. Tərtibat: Əyyub Fətəliyev, geyim eskizləri: Bədurə Əfqanlı. Baş rollarda: Sevil - Azərbaycan SSR Əməkdar artisti Firəngiz Əhmədova, Balaş - Azərbaycan SSR Xalq artisti Rəşid Behbudov. Gülüş -Azərbaycan SSR Əməkdar artisti Rəhilə Cabbarova, Atakişi - Azərbaycan SSR Xalq artisti Ağababa Bünyadzadə. İştirak edən aktyorların fotoşəkilləri verilmişdir. 15 səhifə. HXƏF inv. 1258





Süleyman Ələsgərov

1924-1999

Süleyman Əyyub oğlu Ələsgərov ilk təhsilini Şuşada almışdır. O, 1940-cı ildə Şuşa orta ixtisas musiqi məktəbinin tar sinfini bitirdikdən sonra Bakıya gəlmiş, əvvəlcə Azərbaycan Dövlət Konservatoriyasının nəzəriyyə şöbəsinə, sonra isə bəstəkarlıq şöbəsinə daxil olmuş, həmin siFNMFi fərqlənmə diplomu ilə qurtarmışdır.

S. Ələsgərovun tələbəlik illərində yaratdığı violençel və fortepiano ilə simfonik orkestr üçün ikili konsert diqqətəlayiqdir. Bu, Azərbaycan bəstəkarlarının həmin janrda yazdığı ilk əsərlərdən biridir. İlk dəfə 1947-ci ilin iyununda Azərbaycan Dövlət Filarmoniyasında çalınan ikili konserti dinləyicilər hərarətlə qarşılamışlar.

Bəstəkarın diplom işi müasirlərinin həyatına həsr etdiyi "Vətən" simfoniyası olmuşdur. 1948-ci ildə S.Ələsgərov Azərbaycan Dövlət Konservatoriyasını bitirib, Bakı orta ixtisas musiqi məktəbində dərs deməyə başlamışdır.

O, 1949-1951-ci illərdə həmin musiqi məktəbinin direktoru, 1951-1952-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs ansamblının bədii rəhbəri, 60-cı illərdə isə Musiqili Komediya Teatrının direktoru və baş dirijoru vəzifələrində işləmişdir.

1956-cı ildə S.Ələsgərov Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Azərbaycan xalq musiqisi kafedrasına müəllim kimi işləməyə dəvət edilmiş və 1971-ci ildən həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

S. Ələsgərovun yaradıcılıq bioqrafiyasında "Bahadır və Sona" operası (librettosu Ə. Bədəlbəyli və Ş. Qurbanovundur) mühüm mərhələ olmuşdur. Opera 1962-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur.

S. Ələsgərov bir neçə kantata və poema yaratmışdır. O, "Vətənə eşq olsun!", "Bahar təranələri", "Bir bayraq altında" kantatalarının müəllifidir. O, 1972-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ filialının rəhbəri kimi çalışmışdır.

O, 18 iyun 1974-cü ildə Azərbaycan SSR-in Xalq artisti fəxri adına layiq görülmüşdür. S.Ələsgərov Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə 21 fevral 1999-cu il "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Süleyman Ələsgərov 21 yanvar 2000-ci ildə Bakıda vəfat etmişdir.




***Süleyman Ələskərov "Eşq olsun sənətkara" (fortepiano ilə oxumaq üçün mahnı və romanslar). Cildin üzərində S.Ələskərovun fotoşəkil vardır. HXƏF inv. 5007.***

1. Afişa (fotosurətdir). Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Yusif Əkbərovun quruluşunda səhnəyə qoyulmuş Süleyman Ələsgərov və İsi Məlikzadənin "Hərənin öz ulduzu" tamaşası. 24 may 2002-ci il. SMF inv. 574/8.
2. Klavir. Süleyman Ələsgərovun "Bahadır və Sona" operası. Bakı, 1965-ci il. Üzərində müəllifdən Azərbaycan Tarixi Muzeyinə xatirə yazısı var. SMF inv. 2083/8.
3. Proqram. M.F.Axundov adına Azərbaycan Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Süleyman Ələsgərovun "Bahadır və Sona" pyesi. Dirijor və libretto müəllifi Azərbaycan SSR Xalq artisti Əfrasiyab Bədəlbəyli, şeirlər: Şixəli Qurbanov. Quruluşçu rejissor: Azərbaycan SSR Xalq artisti Şəmsi Bədəlbəyli. Rəssam: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Əyyub Fətəliyev. Rollarda: Bahadır - Azərbaycan SSR Əməkdar artistləri Rauf Atakişiyev və Lütfıyar İmanov. Sona - Azərbaycan SSR Xalq artisti Firəngiz Əhmədova və Azərbaycan SSR Əməkdar artisti Firuzə Muradova. 1966-cı il. SMF inv. 2083/9.
4. Kitab. Süleyman Ələskərov "Eşq olsun sənətkara" (fortepiano ilə oxumaq üçün mahnı və romanslar). Cildində S.Ələskərovun fotoşəkli vardır. 45 səhifədən ibarətdir. HXƏF inv. 5007.
5. Afişa. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində tamaşaya qoyulmuş Rauf İsmayılovun "Son məktub" pyesi. Quruluşçu rejissor: Azərbaycan SSR Əməkdar artisti Kərim Həsənov. Rəssam: Altay Səidov. Bəstəkar: Şəfiqə Axundova. Rollarda: Azərbaycan SSR Əməkdar artistləri Əliağa Ağayev, Yusif Dadaşov, Süleyman Ələsgərov, Süsən Məcidova, Məxfurə Yermakova və b. 1957-ci il. SMF inv. 1658.
6. Afişa. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində tamaşaya qoyulmuş Salam Qədirzadənin "Şirinbala bal yığır" tamaşası. Quruluşçu rejissor: Azərbaycan SSR əməkdar incəsənət xadimi Ulduz Əliyeva. Rəssam: Fuad Xəlilov. Rəqslər: A.Akopov. Rollarda: Ə.B.Ağayev, Zəmişan Fətəliyeva, Ziya Mirzəhəsənov, Azərbaycan SSR əməkdar artistləri M.A.Dadaşova, Süleyman Ələsgərov, Süsən Məcidova, Hüseynağa Sadıqov və b. 1965-ci il. SMF inv. 1672.
7. Afişa. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində tamaşaya qoyulmuş Qeybulla Rəsulovun "Əlvida, Hindistan" pyesi. Quruluşçu rejissor: Azərbaycan SSR əməkdar incəsənət xadimi Zəfər Nemətov. Rəssam: Fuad Xəlilov. Bəstəkar: Şəfiqə Axundova. Rəqslərin quruluşu: Azərbaycan SSR əməkdar artisti Rəfiqə Axundova. Rollarda : Azərbaycan SSR Əməkdar artistləri Əliməmməd Atayev, Yusif Vəliyev, Süleyman Ələsgərov, Hüseynağa Sadıqov və b. 2-3 mart, 1963-cü il. SMF inv. 1666.
8. Fotoşəkil. Üzeyir Hacıbəyli bəstəkarlar Əşrəf Abbasov və Süleyman Ələsgərovla. 1940-cı illər. FNMF inv. 7553





## *Adilə Namazova*

*1926-2020*

Ədilə Əvəz qızı Namazova 1926-cı ildə Ağdam rayonun Seyidli kəndində anadan olub. İlk təhsilini öz kəndində almışdır. 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Ağdam rayon mərkəzi xəstəxanasında əmək fəaliyyətinə başlamışdır.

Elmi fəaliyyətini davam etdirmək məqsədilə o, Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda pediatriya elmi üzrə aspirantura təhsilini alır.

Ədilə Namazova 1965-ci ildən Azərbaycan Tibb Universitetinin I uşaq xəstəlikləri kafedrasının müdiri vəzifəsində çalışıb. Həmin ildə tibb elmləri doktoru dərəcəsini, 1966-cı ildə isə professor elmi adını almışdır.

O, 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilən ilk azərbaycanlı qadın alim olub. Bununla yanaşı Ə. Namazova Rusiya Tibb Elmləri Akademiyasının və Rusiya Elmlər Akademiyasının üzvü olmuşdur. 1976-cı ildən Azərbaycan Pediatrlar Cəmiyyətinə sədrlik edən Ə.Namazova 1983-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Görkəmli akademikin fəaliyyəti dövlət tərəfindən daima yüksək qiymətləndirilərək 1982-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, Əməkdar elm xadimi fəxri adına, 1996-ci ildə "Şöhrət" və 2011-ci ildə "Şərəf" ordenlərinə, 2005-ci ildə "Akademik M.Topçubaşov mükafatına və medalı"na, 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomuna, AMEA-nın "Akademik Mirəsədulla Mirqasımov mükafatı"na, Rusiya Pediatrlar İttifaqının "Akademik G.Speranski medalı"na və digər mükafatlara layiq görülmüşdür.

1. Fotoşəkil. Akademik Adilə Namazova və SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, professor A.Tabolin pediatrların Moskvada keçirilən müşavirəsində. 24 noyabr 1983-cü il. SMF inv. 1505.
2. Fotoşəkil. Ə.Namazova ittifaq respublikalarının Tibbi Elmi Şuraları sədrinin müşavirəsində. Moskva, 17 aprel 1984-cü il. SMF inv. 1506.
3. Fotoşəkil. Ə.Namazova Bərdə doğum evində körpə uşağı müayinə edir. SMF inv. 1507.



*Akademik Adilə Namazova və SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, professor A.Tabolin pediatrların Moskvada keçirilən müşavirəsində. 24 noyabr 1983-cü il. SMF inv. 1505.*



*R.Behbudov, Niyazi, F.Əmirov. "Sevil" operasının partiturası üzərində işləyərkən. 1959-cu il. SMF inv. 504/24.*



*Ə.Namazova Bərdə doğum evində körpə uşağı müayinə edir. SMF inv. 1507.*





# *Xudu Məmmədov*

*1927-1988*

Xudu Surxay oğlu Məmmədov 1927-ci il dekabrın 14-də Ağdam rayonunun Mərzili kəndində anadan olub. İlk təhsilini öz kəndində almışdır. Məktəbi bitirdikdən sonra 1946-cı ildə Bakı Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olub. 1957-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fiziki və Qeyri-üzvi Kimya İnstitutunda struktur kimyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Kristalloqraf Xudu Məmmədov 1970-ci ildə elmlər doktoru, 1973-cü ildə professor elmi adını almış, 1976-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının üzvü olmuşdur.

1952-ci ildən X.Məmmədov Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun struktur-kimya laboratoriyasına rəhbərlik etmişdir.

X.Məmmədovun tədqiqatları əsasən sementin, borun, karbonun, fosfatların silikatlarının və bir sıra yarımkeçirici birləşmələrin kristal strukturlarının tədqiqinə həsr edilmişdir. O, III Beynəlxalq sement silikatlarının quruluşuna həsr olunmuş simpoziumda görkəmli fizik və kristalloqraf Con Bernalla tanış olmuş, 1966-cı ildə Londonda onun laboratoriyasında bir il tədqiqat aparmış və bir çox silikat birləşmələrinin quruluşunu öyrənmişdir.

Onun əldə etdiyi elmi nəticələrin təbliğində xidmətləri böyükdür. Azərbaycanda kristalloqrafiya və kristal kimyası məktəbinin banisidir. Alim bu sahə üzrə 340-dan çox elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. X. Məmmədovun rəhbərliyi ilə çoxsaylı fəlsəfə doktorları və elmlər doktorları yetişdirilib. O, orden və medallarla təltif edilib. Xudu Məmmədov 1988-ci ildə Bakıda vəfat edib.



ДИПЛОМ

АНДИДАТА НАУК

МГМ № 000429

Москва

Решением

Совета Института кристаллографии АН СССР

от (протокол №)

ПРИСУЖДЕНА УЧЕНАЯ СТЕПЕНЬ КАНДИДАТА ГЕОЛОГО-МИНЕРАЛОГИЧЕСКИХ НАУК

Председатель Совета

Ученый Секретарь Совета

*SSRİ Ali Təhsil Nazirliyinin Ali Attestasiya Komissiyasının MQM 000429 saylı diplomu. Sənəddə Xudu Məmmədova SSRİ EA Kristalloqrafiya İnstitutu Şurasının 5 oktyabr 1955-ci il tarixli qərarı ilə geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinin verildiyi bildirilir. SMF inv. 671/14.*



Министерство высшего и среднего специального образования СССР

Высшая Аттестационная Комиссия

*SSRİ Ali Təhsil və Orta İxtisas Təhsili Nazirliyinin Ali Attestasiya Komissiyasının 3 sentyabr 1971-ci il tarixli qərarı ilə geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsini alan Xudu Məmmədovun MQM 000772 saylı diplomu. SMF inv. 671/15.*





СССР

Министерство Высшего Образования

Высшая Аттестационная Комиссия

АТТЕСТАТ

СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА

МСН № 007085

Москва

Решением

Президиума Академии Наук

Азербайджанской ССР

от (протокол №)

УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА ПО СПЕЦИАЛЬНОСТИ

Президент Академии Наук

Главный Ученый Секретарь Президиума Академии Наук

*Azərbaycan SSR EA Rəyasət Heyətinin 30 yanvar 1957-ci il tarixli qərarı ilə Xudu Məmmədova kristallar kimyası ixtisası üzrə böyük elmi işçi adının verilməsi haqqında SSRİ Ali Təhsil Nazirliyinin Ali Attestasiya Komissiyasının MSN 007085 saylı attestatı. SMF inv. 671/17.*

1. Vəsiqə. Mülki Müdafiə Kurslarının keçirilməsi haqqındadır. 21-25.09. 1970-ci il. SMF inv. 671/1.
2. Kirov adına Azərbaycan Dövlət İnstitutunun Geoloji Coğrafiya fakültəsinin 4-cü kurs tələbəsi Məmmədov Xudu Surxay oğluna "Qaranlıq dərə kontakt zonasının minerologiyasına" mövzusunda diplom işi. Bakı, 1951-ci il. 32 səhifə. SMF inv. 671/2.
3. Xudu Məmmədovun geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsini almaq üçün yazdığı "Kalsium silikatları kristallarının kimyası" adlı Dissertasiyası. SSRİ EA, 1955-ci il. 240 səhifə. SMF inv. 671/3.
4. Xudu Məmmədovun "Kalsium silikatların kristallarının kimyası" mövzusunda məruzəsi. Bakı, 1969-cu il. 93 səhifə. SMF inv. 671/4.
5. Xudu Məmmədovun geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsini almaq üçün yazdığı "Kalsium silikatları kristallarının kimyası" dissertasiya işinin Azərbaycan EA akademik İ.M.Qubkin adına Geologiya institutunun dərc etdiyi avtoreferatı. Rus dilində 35 səhifə. SMF 671/5
6. ÜİHİMŞ-nin D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətində Xudu Məmmədova verilmiş 988 saylı üzvlük bileti. Cəmiyyətin İdarə Heyəti sədrinin imzası var. Rus dilindədir.SMF 671/6.
7. Azərbaycan EA Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda 1983-cü ilin mayında ÜİHİMŞ-nin Ümumittifaq İxtiraçılar və Səmərələşdiricilər Cəmiyyətinə daxil olan Xudu Məmmədova verilmiş üzvlük bileti. Azərbaycan ELmi-Texniki Cəmiyyəti Şurasının sədri imzalamış və 1983-cü il üçün üzvlük haqqının ödənilməsinə dair qeydin üstündən həmim Cəmiyyətin ştampı vurulmuşdur. Rus dilindədir. SMF 671/7.
8. Məmmədov Xudu Surxay oğluna məxsus Sürücülük vəsiqəsi. 25.04.1975-ci il. SMF inv. 671/8.
9. Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin Xudu Məmmədovun anadan olmasının 60 illiyi münasibətilə 31/3 saylı verdiyi qərar. Rus dilində 2 vərəq. Sənəddə Azərbaycan SSR EA-nın müxbir üzvü Xudu Məmmədova səmərəli elmi və elmi-təşkilat fəaliyyətinə görə təşəkkür bildirmək, Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun ELmi Şurasında yubileyi şərəfinə tədbir keçirmək, respulika mətbuatında("Azərbaycan kimya jurnalı" və "Elm" qəzeti) həyatı və fəaliyyəti haqqında məqalələr dərc etdirmək və əsərlərinin biblioqrafiyasını nəşr etdirmək qərara alınmışdır.SMF 671/9.
10. Azərbaycan SSR Elmlər Akademiyasının Qeyri-Üzvi və Fiziki Kimya İnstitutu əməkdaşlarınım Xudu Məmmədova anadan olmasının 60 illiyi münasibətilə göndərdiyi təbrik məktubu. Qırmızı qovluğunun üzərinə zərli "60" rəqəmi həkk edilmişdir. SMF inv. 671/10.
11. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Xudu Məmmədova çoxillik səmərəli elmi fəaliyyətinə, elmi kadrların hazırlanmasında xidmətlərinə görə və anadan olmasının 60 illiyi münasibətilə verilmiş fəxri fərman. SMF inv. 671/11.
12. 1946-cı ildə ADU-nun geologiya-coğrafiya fakültəsinə daxil olub 1951-ci ildə oranı fərqlənmə ilə bitirərək geoloq ixtisasını alan Xudu Məmmədova verilmiş 775343 №-li diplom. SMF inv. 671/12.
13. 1946-cı ildə ADU-nun geologiya-coğrafiya fakültəsinə daxil olub 1951-ci ildə oranı fərqlənmə ilə bitirərək geoloq ixtisasını alan Xudu Məmmədova verilmiş 775343 №-li diplomun əlavəsi. SMF inv. 671/13.
14. SSRİ Ali Təhsil Nazirliyinin Ali Attestasiya Komissiyasının MQM 000429 saylı diplomu. Sənəddə Xudu Məmmədova SSRİ EA Kristalloqrafiya İnstitutu Şurasının 5 oktyabr 1955-ci il tarixli qərarı ilə geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinin verildiyi bildirilir. SMF inv. 671/14.
15. Xudu Məmmədova, SSRİ Ali Təhsil və Orta İxtisas Təhsili Nazirliyinin Ali Attestasiya Komissiyasının 3 sentyabr 1971-ci il tarixli qərarı ilə geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsinin verilməsi haqqında MQM 000772 №-li diplomu. SMF inv. 671/15.
16. Azərbaycan Xalq Cəbhəsinin "Azərbaycan xalqının dirçəlişində əvəzsiz xidmət göstərmiş" Xudu Məmmədovu ölümündən sonra təltif etdiyi M.Ə.Rəsulzadə mükafatının vəsiqəsi. Üz qabığında aypara, səkkizguşəli ulduz, ön səhifəsində "AHC" hərfləri və Azərbaycan bayrağı təsvir edilmişdir. SMF inv. 671/16.
17. Azərbaycan SSR EA Rəyasət Heyətinin 30 yanvar 1957-ci il tarixli qərarı ilə Xudu Məmmədova kristallar kimyası ixtisası üzrə böyük elmi işçi adının verilməsi haqqında SSRİ Ali Təhsil Nazirliyinin Ali Attestasiya Komissiyasının MSN 007085 saylı attestatı. Attestat Moskvada verilmişdir. Rus dilindədir. SMF inv. 671/17.
18. Azərbaycan SSR EA-nın müxbir üzvü seçilən Xudu Məmmədovun vəsiqəsi. Azərbaycan və rus dillərindədir. SMF inv. 671/19.
19. Xudu Məmmədovun Azərbaycan SSR EA-nın müxbir üzvü seçilməsi haqqında 93 saylı şəhadətnamə. Azərbaycan və rus dillərindədir. Qırmızı qovluğunda Azərbaycan SSR EA Rəyasət Heyətinin binası təsvir edilmişdir. SMF inv. 671/20.
20. SSRİ Nazirlər Şurasının Dövlət İxtira və Kəşf Komitəsinin Xudu Məmmədova onun həmüəllifliyi ilə Azərbaycan SSR EA-nın Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda icad edilən "Seolitin alınması üsulu" ixtirasına görə verilmiş 584498 müəllif şəhadətnaməsi. İxtiranın təsviri blank kağızı üzərində əlavə olunur. Rus dilindədir. SMF inv. 671/26.
21. SSRİ Elmlər Akademiyasının xarici şöbəsində London Universitetində elmi iş aparmaq məqsədilə oraya ezam eilən geologiya-mineralogiya elmləri namizədi Xudu Məmmədova verilmiş 46 saylı arayış. Rus dilindədir. SMF inv. 671/29.
22. Ağdam rayonu Mərzili kənd Soveti İcraiyyə Komitəsinin Xudu Məmmədova onun həmin kənddə doğulduğu barədə verdiyi arayış. Blank kağızında əllə yazılmışdır. SMF inv. 671/28.
23. Fotoşəkil. Xudu Məmmədov Londonda küçədə sərgilənən rəsm əsərləri qarşısında. SMF inv. 671/35.
24. Fotoşəkil. Xudu Məmmədov. 1959-60-cı illərdə. SMF inv. 671 əlavə 1.
25. Fotoşəkil. Xudu Məmmədov. 1980-85-ci illərdə. SMF inv. 671 əlavə 2.
26. Açıqca. Xudu Məmmədova göndərilən təbrik məktubu. London. 1978-ci il. SMF inv. 671 əlavə 5.
27. Açıqca. Xudu Məmmədova göndərilən təbrik məktubu. tehran. 27.03.1984-cü il. SMF inv. 671 əlavə 6.
28. Yazı maşını. Boz rəngdədir. Almaniya istehsalıdır. üzərində "OLYMPİA","SPLENDİD 66","OLYMPİA WERKEAG WILHELMSHAVEN" yazısı qeyd edilib. Yazı maşını açıq qəhvəyi rəngdə çantada yerləşdirilib. Bağlanan hissəsi cüzi qırılmışdı. HXƏF inv. 5320.
29. Vaza. Üstü göy, ayağı və oturacağı şəffaf şüşədəndir. Vazanın kənarları boyunca rombvarı güləbənzər şəffaf naxışlar təsvir edilmişdir. HXƏF inv. 5319.
30. Lampa. Yuxarı və aşağı hissəsi sarı metaldan, orta hissəsi ağ fayansdandır. Qırmızı rəngdə elektrikə taxılan hissəsi var, işlək deyil. şüşəsi ağ rəngdə, armudvari formadadır. HXƏF inv. 5318.
31. Radio. Dördbucaqlı formasındadır. Üzərinə "Standart" sözü qeyd edilib. Üz tərəfi sarı, arxa tərəfi qaradır. HXƏF inv. 5317.
32. Çıraq altı. Parçadandır. Krem rəngli parça üzərində 6 ədəd romb formalı parça bir-birinə birləşdirilərək ulduz şəklini almışlar. Arxa hissəsi göy parçadandır. HXƏF inv. 5316.
33. Döşəkçə. Müxtəlif parça hissələrindən tikilib. HXƏF inv. 5315.
34. Qalstuk.Yerliyi açıq boz rəngdədir, üzərində çəhrayı, tünd qırmızı milləri vardır. arxa tərəfində etiket olan hissəsində "HEDVA" və "Praqa" yazılıb. HXƏF inv. 5314.
35. Şalvar. Tünd göy rənglidir. Boz zolaqlıdır. HXƏF inv. 5313.
36. Köynək. Çəhrayı rəngli, uzunqol. HXƏF inv. 5312.
37. Vallar (plastinkalar). Müxtəlif ölkələrə məxsus musiqi parçalarından ibarətdir. HXƏF inv. 5311.
38. Eynək. Ağ şüşəlidir. Çərçivə və taxılan hissəsi sarımtıl qəhvəyi rəngə çalır. Qutusu yoxdur. HXƏF inv. 5310.
39. Eynək. Şüşəsi ağdır. Çərçivəsi mərkəzi hissədən kənarlara doğru tündləşərək qəhvəyi rəngə çalır. Eynək qara qutudadır. Qutunun qapağının üst və iç hissəsinə "SANREMO" yazılıb. HXƏF inv. 5309.
40. Qol saatı. Metaldan hazırlanıb. saatın içəri hissəsində "SEMAG WATEROOF INCOBLOS" yazılıb. Qayışı şabalıdı rəngdədir. HXƏF inv. 5308.
41. Cib saatı. Kənarı qızılı rəngdə metaldandır. Orta ağ hissəsində "sekonda,23 jewels", arxa hissəsində isə "Ув. Худу муалим об-ва "Знание" 25.V.73 г." sözləri yazılıb. HXƏF inv. 5307.
42. Qol saatı. Metaldandır. Elektrondur, SSRİ-də hazırlanmışdır. Saatın arxa hissəsində cızma üsulu ilə "Xudu müəllimə 50 illiyi münasibətilə.QUFKİ, dekabr 1977-ci il" sözləri yazılıb. Saat işləmir. HXƏF inv. 5306.
43. Elektrik üz qırxan dəsti. "Neva 201" (təxminən 70-80-ci illər) Üzqırxan maşın, məftil və güzgülü qara qutudan ibarətdir. Qutunun içərisi göydür. HXƏF inv. 5305.
44. Stakanaltı, qaşıq və stakan. Azərbaycanın görkəmli alimi, AMEA-nın müxbir üzvü Xudu Məmmədova məxsus olub.Alt hissəsində "875 132" yazı var. Gümüş, şüşə, ölçüsü: stakanaltı: d – 8,0 sm, h – 7,5 sm, çəkisi – 115,0 q; qaşıq: uz. – 13,5 sm, çəkisi – 19,0 q; stakan: d – 7 sm, h – 9,5 sm. XF inv. 562,563,564.



# Qədir Rüstəmov

1935-2011

Qədir Çərkəz oğlu Rüstəmov 1935-ci il noyabrın 2-də Ağdam rayonunda anadan olmuşdur. 1989-cu ildə Azərbaycan SSR Əməkdar artisti, 1992-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adını almışdır.

Orta məktəbi bitirdikdən sonra Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə, sonra isə Üzeyir Hacıbəyli adına Ağdam Orta İxtisas Musiqi Məktəbinə daxil olub. Müəllimlərindən biri də Hacıbaba Hüseynov olmuşdur. O, bir sıra muğam əsərlərinin - “Rast”, “Çahargah”ın mahir ifaçısı kimi tanınırdı.

Qədir Rüstəmov 2011-ci il dekabrın 14-də İstanbuldakı klinikaların birində vəfat etmişdir.



ХАЛГ АРТИСТИ
ГӘДИР РУСТӘМОВА

Һөрмәтли Гәдир Рүстәмов!

*Təbrik ünvanı. Qədir Rüstəmovun 60 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən imzalanmışdır. 14 fevral 1997-ci il. Sənəd zoğalı rəngli qovluqdadır, qovluğun üzərində “60”, sünbül təsviri var. Ölçü: 23x33 sm. SMF inv. 1676.*





ВӘСИГӘ № 337
Гәдир Чәркәз оғлу Рүстәмов јолдаша
Азәрбајҹан Республикасы Президентинин
199 2 ил 30 декабр тарихли Фәрманы илә
„Азәрбајҹан Республикасынын халг артисти“
ФӘХРИ АДЫ верилмишдир.
Азәрбајҹан Республикасынын Президенти
Президент Азербайджанской Республики
30 декабр 1992 ил

УДОСТОВЕРЕНИЕ № 337
Тов. Рустамову Гадиру Черказ оглы
Указом Президента Азербайджанской Республики
от 30 декабря 1992 года
присвоено ПОЧЕТНОЕ ЗВАНИЕ
„Народного артиста Азербайджанской Республики“

*Azərbaycan Respublikasının “Xalq artisti” fəxri adı verilməsi haqqında 337 №-li Vəsiqə. 30 dekabr 1992-ci il tarixində. SMF inv. 1681.*



Бүтүн өлкәләрин пролетарлары, бирләшин!
ВӘСИГӘ № 28
Гәдир Чәркәз оғлу Рүстәмов јолдаша
Азәрбајҹан ССР Али Совети Рәјасәт Һеј'әтинин 1989 ил 21 март тарихли Фәрманы илә
„Азәрбајҹан ССР әмәкдар артисти“
ФӘХРИ АДЫ верилмишдир.
21 март 1989 ил

Пролетарии всех стран, соединяйтесь!
УДОСТОВЕРЕНИЕ № 28
Тов. Рустамов Кадыр Черкез оглы
Указом Президиума Верховного Совета Азербайджанской ССР
от 21 марта 1989 года
присвоено ПОЧЕТНОЕ ЗВАНИЕ
„Заслуженный артист Азербайджанской ССР“

*Qədir Rüstəmova “Azərbaycan SSR əməkdar artisti” fəxri adı verilməsi haqqında 28 №-li Vəsiqə. 21 mart 1989-cu il. SMF inv. 1677.*




ДИПЛОМ
МТ-I № 295894

ДИПЛОМ
МТ-I № 295894

*Qədir Rüstəmova Ağdam orta ixtisas Musiqi məktəbinin xalq müğənniliyi ixtisası üzrə tam kursu bitirməyi haqqında 295894 №-li Diplom. 28 iyun 1990-cı il. SMF inv. 1680.*

1. Qədir Rüstəmov, 1963-cü il. Kənarı qızılı haşiyəlidir. SMF inv. 1675.
2. Qədir Rüstəmovun 60 illiyi münasibətilə. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış təbrik ünvanı. 14 fevral 1997-ci il. Sənəd zoğalı rəngli qovluqdadır, qovluğun üzərində “60”, sünbül təsviri var. SMF inv. 1676.
3. Qədir Rüstəmova “Azərbaycan SSR əməkdar artisti” fəxri adı verilməsi haqqında 28 №-li Vəsiqə 21 mart 1989-cu il. SMF inv. 1677.
4. Azərbaycan Ovçular və Balıqçılar Cəmiyyəti tərəfindən Qədir Rüstəmova verilmiş 016548 №-li Ovçuluq bileti. 1971-ci il 18 avqustda. SMF inv. 1678.
5. Azərbaycan Mətbuat Şurası, “Əlillər dünyası” qəzetinin heyət üzvü olması haqqında verilmiş 036/2010 №-li Vəsiqə. 2010-cu il 12 avqust. SMF inv. 1679.
6. Ağdam orta ixtisas Musiqi məktəbinin xalq müğənniliyi ixtisası üzrə tam kursu bitirməyi haqqında Diplom inv. 295894. 28 iyun 1990-cı il. Göy rəngdədir. SMF inv. 1680.
7. Vəsiqə inv. 337. 30 dekabr 1992-ci il tarixində “Azərbaycan Respublikasının xalq artisti” fəxri adı verilmişdir. Sənəd qırmızı rəngdədir. SMF inv. 1681.
8. Fəxri fərman. 2007-ci il noyabr ayında İmam Xomeyni adına İmdad Komitəsinin Baş idarəsi tərəfindən Qədir Rüstəmova verilmişdir. Azərbaycan və fars dillərində. Qırmızı rəngdədir. SMF inv. 1682.
9. Qədir Rüstəmovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 14 fevral 1997-ci il. SMF inv. 1683.
10. Tənbəki kisəsi. Yerliyi qara, üstü çəhrayı güllü, sarı yarpaqlı parçadandır. İçində tütün var. ağzı iplə bağlanır. HXƏF inv. 5599.
11. Qaval. Membranı plastindəndir. Çevrəsi qalın taxtadandır, bayır tərəfdən gümüşü rəngdə ipək qaytan yapışdırılıb. 50 metal lövhəcik və halqası var. Qara rəngli sintetik parçadan olan futlyardadır. 1 qulpu var. HXƏF inv. 5598.
12. Ağac disk. Tut ağacından kəsilmiş disk sənətkar üçün çox əhəmiyyətli imiş. Dəf kimi istifadə etmiş əl çəkdiyi zaman ondan enerji alarmış. HXƏF inv. 5596.



13. Qəlyan. oduncaq hissəsi sarımtıl zolaqlı sümükdəndir, müştüyü-sarı kəhrəbadandır. Üzəri xırda oyma və dəlikli naxışlarla bəzədilib. futlyarı var, qara dəridəndir, içərisi açıq qəhvəyi parçadandır. Futlyarın alt hissəsində “Made in Turkey”, yazılıb, qızılı metaldan sancağı var. HXƏF inv. 5595.
14. Qəlyan. Oduncaq hissəsi zoğalı rəngli ağacdan, müştüyü qara plastmasdır, ortasında gümüşü metaldan bir yastı,bir enli halqası var. HXƏF inv. 5594.
15. Qəlyan. Oduncaq hissəsi qəhvəyi rəngli qoz ağacındandır. Üzəri kəsik damalı naxışlıdır. Müştüyü qara plastmasdandır. Üzərində “Lu-Dou NO: J-820” yazısı var. HXƏF inv. 5593.
16. Qəlyan. Oduncaq hissəsi qəhvəyi rəngli qoz ağacındandır. Üzərində “Big Ben, Barbados. 652. Made in England” yazısı var. HXƏF inv. 5592.
17. Altlıq. Qəlyan kolleksiyası üçündür. Ağacdandır. 5 qəlyan üçün çıxıntılı yerləri var. HXƏF inv. 5591.
18. Kepka. Qara rəngli, 75% yun parçadandır. Rusiya istehsalı. Günlüyü iki basma düymə ilə bərkidilib. İç tərəfdən qulaqlığı var. “Alekon”. HXƏF inv. 5590.
19. Təsbeh. Açıq qəhvəyi rəngli daşlardandır. 33 iri, 2 nazik dənəsi var. İki ucunu dalğavari “mollası” birləşdirir. Qəhvəyi və ağ ipək saplardan qotazı vardır. HXƏF inv. 5589.
20. Təsbeh. Qara, qəhvəyi, ağımtıl və boz rəngli dənəciklərdən (fiqurlu) ibarətdir. 33 yumru, 2 xırda yastı daşı var. İki ucunu birləşdirən fiqurlu “mollası” ağ-qara ipək saplardan qotazı var. HXƏF inv. 5588.
21. Təsbeh. Yerliyi qəhvəyidir, üzəri sarı naxışlarla doldurulub. 32 yumru, iki yastı dənəsi var. İki ucunu “molla” deyilən 2 detal birləşdirir. Hər iki “molla”nın üzərində 1 ədəd sarı qaş və naxışlar var. HXƏF inv. 5587.
22. Limon dənəsi. Mərhum sənətkar Qədir Rüstəmov son dəfə vətəni Ağdamdan çıxarkən həyətindəki ağacdan dərib, qurudub və xatirə saxlamışdır. HXƏF inv. 5586.
23. Təsbeh. Açıq narıncı rəngdə, 33 iri, 2 ensiz dənəsi var. Təsbehin iki ucunu birləşdirən uzun dənəsi – “molla” keçirilib. Mollanın ucunda qotazı əvəz edən 3 dənə muncuq asılıb. HXƏF inv. 5585.
24. Təsbeh. Sarı rəngdə. 17 iri dənəsi, 2 xırda ağ metaldan halqası var. Bir tərəfində alabəzək saçağı vardır. HXƏF inv. 5584.
25. Qəlyan. Oduncaq hissəsi qəhvəyi rəngli ağacdandır, müştüyü qaradır. Üzərində “Orlik. Made in England” yazısı var. HXƏF inv. 5583.
26. Cib Telefonu. Nokia markalı gümüşü və qara rəngdədir. Qara qovluğu var. Telefon işlək vəziyyətdədir. HXƏF inv. 5582.
27. Qol saatı. Qızılı rəngdədir. “Orient” firmasına məxsusdur. Kəməri və çərçivəsi metaldandır. Çəkisi 47 qr. HXƏF inv. 5581.
28. Qol saatı. Kəməri və çərçivəsi metaldandır, qızılı rəngdədir. “Romance” firmasının istehsalıdır. Arxasında yazılar var: “Romance.2522. Sappire crystal. Swiss quarts” və s. Saatın kəməri zəncirvari birləşmiş borulardan ibarətdir. Çəkisi 75 qr. HXƏF inv. 5580.
29. Qol saatı. Gümüşü çərçivəsi, qara rəngli qayışı var. Saatın altında “AB&CO” yazılmışdır. HXƏF inv. 5579.
30. Alışqan. Metaldan, gümüşü rəngdədir. Üzərində “WEST” sözü yazılıb. HXƏF inv. 5578.
31. Kibrit qutusu. Qara rəngli “CONRAD hotel-İstanbul”, Türkiyə istehsalıdır. İçində kibrit çöpləri var, bir ədədi Qədir Rüstəmovun son dəfə istifadə etdiyi kibrit çöpüdür ki xanımı tərəfindən qorunub. Bir çöpün ucu yanmış vəziyyətdədir HXƏF inv. 5577.
32. Alışqan. Göy rəngdədir. Zənciri və halqası var. Polşa istehsalıdır. Üzərində “times-PİONEER” sözləri yazılıb. HXƏF inv. 5576.
33. Oval formalı ağac qəlyan. Tutacaqlı qapağı da var. Xan Şuşinskinin verdiyi hədiyyədir. HXƏF inv. 5575.
34. Eynək və qutusu. Qara rəngli qutusu timsah dərisini xatırladır. Qutunun arxasında metal sancağı var. Bir basma düyməsi var. HXƏF inv. 5574.
35. Eynək. Şəffaf şüşəli, kənarı qəhvəyi çərçivəlidir. Qutunun içərisindədir. HXƏF inv. 5573.
36. Kəmər. Qara dəridəndir. Gümüşü toqqası var. Kəmərin iç tərəfində yazı var: “Standart. Made in Russia”, üzərində 14 dəliyi var. HXƏF inv. 5572.
37. Kostyumun şalvarı. Tünd göy şal parçadan. Ciblidir. Fərdi sifariş ilə tikilmişdir. HXƏF inv. 5571.
38. Kostyumun pencəyi. Tünd göy şal parçadan. 2 iri düyməsi, hər qolunda 4 kiçik düyməsi var. Arxadan yarığı, 3 cibi var. Fərdi sifariş ilə tikilmişdir. HXƏF 5570.
39. Qədir Rüstəmova məxsus üzük. Qaşı qara rəngli gematit daşlı, kənarı isə iyirmi ədəd serkon daşlıdır. Qaşın iki kənarında ağ qızıldan bucaq naxışı qoyulub. Orta hissəsi enlidir, getdikcə nazikləşir. Üzük Qarabağ xanəndəlik məktəbinin tanınmış ifaçısı, Azərbaycan Respublikasının Xalq artisti Qədir Çərkəz oğlu Rüstəmova məxsusdur. Qızıl, çəkisi – 8,0 q. XF inv. 320/12129.





*Fotoşəkil. SSRİ KP-nın XXVII qurultayında SSRİ-nin fəxri energetiki F.Məmmədov və ilk kosmonavt qadın, Sosialist Əməyi Qəhrəmanı Valentina Tereşkova. Moskva. Kreml. 1986-cı il. SMF inv. 6775.*

# *Füzuli Məmmədov*

*1935-2011*

Azərbaycan SSR-nin fəxri energetiki Füzuli Əvəz oğlu Məmmədov ilk təhsilini Mingəçevir şəhərində almışdır. Orta məktəbi bitirdikdən sonra 1971-ci ildə Mingəçevir Politexnik Texnikumuna daxil olmuş, texnikumu 1977-ci ildə bitirmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və gərgin səyi nəticəsində 1974-cü ildə Cənubi Qafqazın ən iri elektrik enerjisi istehsalı müəssisəsi olan Azərbaycan İES-in tikintisinə başlanmasının ilk günündən Füzuli Mənmmədov burada əmək fəalliyətinə başlamışdır. Gərgin əməyi sayəsində Füzuli Məmmədov 1977-ci ildə Azərbaycan DRES-da kompleks inşaat briqadası briqadiri təyin edilir. Onun bridadası zərbəçi komsomolçu gənclər briqadası kimi böyük şöhrət qazanır. 1981-ci il oktyabrın 20-də öndər H.Əliyevin 300 min kvt gücündə olan I enerji blokunun vaxtından bir il tez Zaqafqaziya enerji sisteminə qoşulması münasibətilə Mingəçevirə səfəri zamanı inşaatçılarla görüşündə Füzuli Məmmədov və onun briqadası da iştirak etmişdir. F.Ə.Məmmədovun gərgin əməyi yüksək qiymətləndirilmişdir. O, 1982-ci ildə Azarbaycan LKGİ XXXI qurultayının nümayəndəsi, 1983-cü ildə Mingəçevir şəhər partiya təşkilatının XIX konfransında partiya komitəsinin üzvü, 1985-ci ildə Mingəçevir şəhər XX partiya konfransında Azərbaycan KP XXXI qurultayına nümayəndəsi, 1986-cı ildə Sov. İKP XXVII qurultayının nümayəndə, 1987-ci il SSRİ Həmkarlar ittifaqının XVII qurultayının nümayəndəsi, 1987-ci ildə Mingəçevir şəhər sovetinin deputatı seçilmişdir. Füzuli Məmmədovun yüksək əməyi dövlət tərəfindən yüksək qiymətləndirilərək bir sıra orden və medallarla təltif edilmişdir.

Füzuli Məmmədov 2010-cu ildə Bakıda vəfat etmişdir.





*Fotoşəkil. SSRİ Həmkarlar ittifaqının XVII qurultayının Azərbaycandan olan nümayəndələri: Mirzə İbrahimov soldan- 1-ci, F.Məmmədov soldan 3-cü, akademik Həsən Əliyev - 4-cü, 5-ci neftçi, SƏQ - İsrafil Hüseynov, 6-cı Ramiz Mehdiyev və yazıçı İsmayıl Şıxlı. Moskva. Kreml. mart 1982-cı il. SMF inv. 6783.*



*Fotoşəkil. Mingəçevir DRES-in kompleks inşaat briqadasının briqadiri F.Məmmədov, 1981-ci il oktyabrın 20-də DRES-in I enerji blokunun vaxtından əvvəl Zaqafqaziya enerji sisteminə qoşulması münasibətilə Az.KP MK birinci katibi, Zaqafqaziyada ən böyük İstilik Elektrik Stansiyasının məhz Azərbaycanda-Mingəçevirdə açılmasının təşəbbüskarı Heydər Əliyevin qarşılanması zamanı. SMF inv. 6772.*


ДИПЛОМ

АБ № 024881

Мамедов

Товарищ Физули Авез оглы

в 1985 году поступил(а) в 1990 году

окончил(а) полный курс Бакинской высшей партийной школы

по специальности партийное и советское строительство

Решением Государственной экзаменационной комиссии от 08 XII 1990 г. ему(ей) присвоена квалификация специалиста в области партийного и советского строительства, преподавателя политолога социально-политических дисциплин в средних учебных заведениях

Председатель Государственной экзаменационной комиссии

М. П. Ректор

Секретарь

Город Баку 8 декабря 1990 г.

Регистрационный № 681

МТ Гознака. 1987.

*Diplom. Ali Partiya Məktəbinin diplomu (əlavəsi ilə birgə) АБ №024881.Qeyd №681 Verilib - 08.12.1990. SMF inv. 6756.*



1. Doğum haqqında şəhadətnamə. ИЕ 655346 №-li Verilib.03.04.1953. SMF inv. 6750.
2. Pasport. XIV-ЖГ 615328 №-li. Verilib 15.05.1980. SMF inv. 6751.
3. Hərbi bilet. НЗ № 2146435. Mingəçevir şəhər komissarlığı. SMF inv. 6752.
4. Əmək kitabçası. SMF inv. 6753.
5. Diplom. Mingəçevir Politexnik Texnikumunun diplomu. Ю № 019010, qeyd. № 128. Verilib-15.03.1977. SMF inv. 6754.
6. Qiymət kitabçası. Ali Partiya Məktəbinin qiymət kitabçası. №366. Daxil olub-05.VI. 1985. Verilib-10.X.1985. SMF inv. 6755.
7. Diplom. Ali Partiya Məktəbinin diplomu (əlavəsi ilə birgə) АБ №024881. Qeyd №681 Verilib- 08.12.1990. SMF inv. 6756.
8. Tibbi vəsiqə.1 saylı poliklinikanın (Bakıda) qeydiyyatından bütün ailənin keçməsinə izin verən xüsusi tibbi vəsiqə. №3670. SMF inv. 6757.
9. Vəsiqə. "Kommunist əməyinin zərbəçisi" vəsiqəsi №11850, 22.02.1974. SMF inv. 6758.
10. Komsomol bileti. №39137771. 30 oktyabr, 1976-cı il. SMF inv. 6759.
11. Partiya bileti. Sovet İttifaqı Kommunist Partiyası. Bilet № 25520022. 4 may 1990-cı il. SMF inv. 6760.
12. Vəsiqə. AzSSR KP XIX şəhər komitəsinin üzvlük vəsiqəsi №053,1983. SMF inv. 6761.
13. Vəsiqə. Azərbaycan SSR KP XX şəhər komitəsinin üzvlük vəsiqəsi №058. 1985. SMF inv. 6762.
14. Vəsiqə. Azərbaycan SSR KP XXXI qurultayının deputat vəsiqəsi. №091, 1986. SMF inv. 6763.
15. Vəsiqə. Mingəçevir şəhər xalq deputatı sovetinin verdiyi 73 №-li. vəsiqəsi. SMF inv. 6764.
16. Mandat. Azərbaycan Həmkarlar İttifaqının XVII qurultayına nümayəndə seçilməsi haqqında 455№-li mandatı. SMF inv. 6765.
17. Mandat. Azərbaycan SSRKP Mingəçevir şəhər komitəsindən XX qurultaya üzvlüyünün № 434 mandatı. SMF inv. 6766.
18. Vəsiqə. "Sosialist yarışmasının qalibi" nişanının vəsiqəsi. 12.01. 1977. SMF inv. 6767.
19. Vəsiqə. "Bacarıqlı ustad" nişanının qırmızı vəsiqəsi. 16. II. 1979. SMF inv. 6768.
20. Vəsiqə. Ali Partiya Məktəbinin 366 №-li qiymət kitabçası. Verilib -10.X.1985. SMF inv. 6769.
21. Vəsiqə. Arazətrafı ekspedisiya aparmaq üçün İran İ.R ərazisinə keçməsinə icazə verən 80 №-li vəsiqə, «İ» seriyası. Azərbaycan(latın əlifbası) və fars dilində. 23.01.1993- 31.12.1993-cü illər. SMF inv. 6770.
22. Vəsiqə. Arazətrafı ekspedisiya aparmaq üçün İran İ.R ərazisinə keçməsinə icazə verən 74 №-li vəsiqə, «И» seriyası .Rus və fars və dilində. 31.12.1991-ci ilə kimi qüvvədə idi. SMF inv. 6771.
23. Fotoşəkil. Mingəçevir DRES-in kompleks inşaat briqadasının briqadiri F.Məmmədov, 1981-ci il oktyabrın 20-də DRES-in I enerji blokunun vaxtından əvvəl Zaqafqaziya enerji sisteminə qoşulması münasibətilə Az.KP MK I katibi, Zaqafqaziyada ən böyük İstilik Elektrik Stansiyasının məhz Azərbaycanda-Mingəçevirdə açılmasının təşəbbüskarı Heydər Əliyevin qarşılanması zamanı. SMF inv. 6772.
24. Fotoşəkil. SSRİ KP-nın XXVII qurultayının Azərbaycandan olan nümayəndələri. III sırada 9-cu, deputat F. Məmmədov. Moskva. Kreml. 1986-cı il. Ölçüsü: 39x29 sm. SMF inv. 6773.
25. Fotoşəkil. SSRİ Həmkarlar ittifaqının XVII qurultayının Azərbaycandan olan nümayəndələri. F. Məmmədov IV sıra 5-ci nümayəndədir. Moskva. Kreml. 1982-cı il.
Ölçüsü: 40 x 30 sm. SMF inv. 6774.
26. Fotoşəkil. SSRİ KP-nın XXVII qurultayında SSRİ-nin fəxri energetiki F.Məmmədov və ilk kosmonavt qadın, Sosialist Əməyi Qəhrəmanı Valentina Tereşkova. Moskva. Kreml. 1986-cı il. Ölçüsü: 40x30 sm. SMF inv. 6775.
27. Fotoşəkil. SSRİ KP-nın XXVII qurultayında Azərbaycan nümayəndə heyətləri, Mingəçevir DRES-nin qurucusu, SSRİ-nin fəxri energetiki F.Məmmədov və inşaatçı Vahid Əsgərov. Moskva. Kreml. 1986-cı il. Ölçüsü: 40x30 sm. SMF inv. 6776.
28. Fotoşəkil. Azərbaycan KP-nın XXXI qurultayı. III sırada sağdan 1-ci F.Məmmədov Mingəçevirdən olan nümayəndə heyətləri ilə birgə; I sıra soldan inşaatçı Vahid Əsgərov, yol maşınları zavodunun direktoru Hüseyn Məmmədov, IV-Mingəçevir ş. Xalq Deputatları Sovetinin sədri Vəli Hüseynov, Sosialist əməyi qəhrəmanı Yaqub Rüstəmov, Mingəçevir DTK sədri Mais Məmmədov 1986. Ölçüsü: 37,5x29,5 sm. SMF inv. 6777.
29. Fotoşəkil. SSRİ Həmkarlarının XVII qurultayı. F. Məmmədov IV sırada sağdan 1-ci. I sırada Ramiz Mehdiyev, Mirzə İbrahimov. Moskva. 18.III.1982. Ölçüsü: 30x23,5 sm. SMF inv. 6778.
30. Fotoşəkil-Kollaj. Azərbaycan DRES-nin IV enerji blokunun işə salınması. Ölçüsü: 30x24 sm. SMF inv. 6779.
31. Fotoşəkil. Azərbaycan KP-nın XXXI qurultayında SSRİ-nin fəxri energetiki F.Məmmədov tribunada çıxışı zamanı. 1986. Ölçüsü: 29x23,5 sm. SMF inv. 6780.
32. Fotoşəkil. Azərbaycan KP-nın XXXI qurultayında Mingəçevirdən seçilən nümayəndə heyəti. 03.04.1982-ci il. Ölçüsü: 23,5x18,5 sm. SMF inv. 6781.
33. Fotoşəkil. Mingəçevir DRES-in I blokunun açılışı. 1981-ci il. DRES direktoru Müslüm İmanov, Mingəçevir SES-in məşhur qurucuları İslamzadə, F.Məmmədov. Ölçüsü: 24x18 sm. SMF inv. 6782.
34. Fotoşəkil. SSRİ Həmkarlar ittifaqının XVII qurultayının Azərbaycandan olan nümayəndələri: Mirzə İbrahimov soldan- 1-ci, F.Məmmədov soldan 3-cü, akademik Həsən Əliyev - 4-cü, 5-ci neftçi, SƏQ - İsrafil Hüseynov, 6-cı Ramiz Mehdiyev və yazıçı İsmayıl Şıxlı. Moskva. Kreml. mart 1982-cı il. Ölçüsü: 23x17,3 sm. SMF inv. 6783.
35. Fotoşəkil. SSRİ KP-nın XXVII qurultayında Sosialist Əməyi Qəhrəmanı, İmişli pambıq briqadiri Pənah Həsənov, Sosialist Əməyi Qəhrəmanı, yazıçı Mirzə İbrahimov və SSRİ-nin fəxri energetiki F.Məmmədov. Moskva. Kreml. 1986-cı il. Ölçüsü: 40x 31,2 sm. SMF inv. 6784.
36. Qəzet "Mingəçevir" (112.,2010-cu il, №42, (259). SMF inv. 6785.
37. Fəxri fərman. Mingəçevir şəhərinin tikintisində göstərdiyi yüksək əmək nəticələrinə görə Azərbaycan DRES-nin briqadiri Füzuli Əvəz oğlu Məmmədova 20.03.1980-ci il tarixində verilib. Ölçüsü: 16,5x26 sm. SMF inv. 6786.
38. Fəxri fərman. Azərbaycan DRES-nin kompleks briqadiri Füzuli Əvəz oğlu Məmmədova 15 illik planının vaxtından öncə təhvil verilməsi və sosialist yarışmasında yüksək nəticələrinə görə təltif edilib. 1980-ci il. Ölçüsü: 20,5x29 sm. SMF inv. 6787.
39. Fəxri Fərman. Mingəçevir şəhər soveti xalq deputatlarının icraiyyə komitəsinin çilingərlərin briqadiri Füzuli Əvəz oğlu Məmmədova aiddir. Ölçüsü: 14x20,6 sm. SMF inv. 6788.
40. Fəxri fərman. Gənc komsomolçuların briqadiri F.Məmmədova 1982-ci ilin sosialist yarışmasının 7 aylıq nəticəsinin qalibi olması münasibəti ilə təqdim olunub. Cildi qırmızı rəngdə. Ölçüsü: 14,5x22 sm. SMF inv. 6789.
41. Fəxri fərman. Füzuli Məmmədov-DRES tikintisində komsomolçu-gənclər briqadasının briqadiri kimi "Mingəçevir işıqları" qəzetinin işində fəal iştirak etdiyinə görə 05. May Sovet mətbuatı günü münasibəti ilə təltif edildiyi qeyd olunur. Tarix: 05.05.1986-cı il. Ölçüsü: 20,4x28 sm. SMF inv. 6790.



# *Bəhram Mirzəyev*

*1881-1974*

Bəhram Rüstəmbəy oğlu Mirzəyev 1881-ci il aprelin 16-da Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşa real məktəbdə almışdır. Daha sonra təhsilini Bakı real məktəbində davam etdirmişdir. 1909-cu ildə Bakı real məktəbini bitirmişdir. 1911-ci ildə Sankt-Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində Sankt-Peterburqun məşhur Fedora Qızlar Gimnaziyasında müəllim işləməklə əmək fəaliyyətinə başlamışdır. 1916-cı ildə ali məktəbi bitirdikdən sonra gimnaziyada qalaraq müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

1920-ci ildə Bakıya qayıdan Bəhram Mirzəyev Bakı Xalq Maarif İdarəsinin 2 saylı məktəbində fəaliyyətə başlayır. O, daha sonra Azərbaycan Dövlət Universitetində əmək fəaliyyətini davam etdirir. Bəhram Mirzəyev 1923-cü ildən Azərbaycan Ali Pedaqoji İnstitutunda fizika-riyaziyyat elmlərinin tədrisinin təşkili və təkmilləşdirilməsi ilə məşğul olmuşdur.

O, Azərbaycan Dövlət Universitetinin fizika kafedrasında tələbə laboratoriyaları təşkil etmiş, burada optikadan ilk dəfə Azərbaycan dilində mühazirələr oxumağa başlamışdır. Məhz bu mühazirələrin nəticəsidir ki, o, 1930-cu ildə nəşr olunan ana dilindən praktik məşğələlər üzrə Azərbaycan dilində dərslik hazırlamış və bu işinə görə ona dosent elmi adı verilmişdir. Elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutuna göndərilib. Burada o, çoxlaboratoriyalı fizika kafedrasını təşkil etmişdir. Eyni zamanda Azərbaycan Politexnik İnstitutu üçün molekulyar fizika dərslikləri yazmışdır.

1935-ci ildə Azərbaycan Dövlət Universitetinə qayıdan Bəhram Mirzəyev 1936-1938-ci illərdə burada yeni laboratoriyalar təşkil etmiş, fizika kabineti yaratmışdır. 1941-ci ildə isə eksperimental fizika kafedrasının müdiri vəzifəsinə yüksəlmişdir. 1969-cu ildə ona professor elmi adı verilmişdir. Əməkdar elm xadimi Bəhram Mirzəyev 1974-cü ildə Bakıda vəfat etmişdir.






***Tələbə bileti. Tələbə B.Mirzəyev 1911-12-ci illərin payız semestrinə qədər Sankt-Peterburq Universitetinə girişi üçün (surəti) verilmuşdir. 581 (əlavə 2).***



***Bəhram Mirzəyevin qardaşı Alış Rüstəm oğlu Mirzəyev. Universiteti bitirdikdən sonra Leninqradın mühasirəsi zamanı həlak olub. Şuşa SMF inv. 581 (əlavə 1).***



***Bəhram Mirzəyev. XX əsrin 60-cı illərdə. SMF inv. 581/4.***



*ADU-nun ümumi fizika kafedrasının iclası. Ön planda Bəhram Mirzəyev XX əsrin 60-cı illərdə. SMF inv. 581/8.*



*Bir qrup fizik ADU-nun ümumi fizika labaratoriyasında. Mərkəzdə Bəhram Mirzəyev. XX əsrin 60-cı illərdə. SMF inv. 581/7.*

1. Fotoşəkil. Bəhram Mirzəyev tələbəlik illərində. SMF inv. 581/1.
2. Fotoşəkil. Bəhram Mirzəyev Sankt-Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsini bitirdikdən sonra. SMF inv. 581/2.
3. Fotoşəkil. Bəhram Mirzəyev. 2 aprel 1929-cu ildə. SMF inv. 581/3.
4. Fotoşəkil. Bəhram Mirzəyev. XX əsrin 60-cı illərdə. SMF inv. 581/4.
5. Fotoşəkil. Bəhram Mirzəyev tələbələri ilə ADU-nun ümumi fizika kafedrasında. XX əsrin 50-ci illərdə. SMF inv. 581/5.
6. Fotoşəkil. Bəhram Mirzəyev tələbələri ilə ümumi fizika labaratoriyasında. XX əsrin 60-cı illərdə. SMF inv. 581/6.
7. Fotoşəkil. Bir qrup fizik ADU-nun ümumi fizika labaratoriyasında. Mərkəzdə Bəhram Mirzəyev. XX əsrin 60-cı illərdə. SMF inv. 581/7.
8. Fotoşəkil. ADU-nun ümumi fizika kafedrasının iclası. Ön planda Bəhram Mirzəyev XX əsrin 60-cı illərdə. SMF inv. 581/8.
9. Fotoşəkil. ADU-nun fizika fənnindən Dövlət imtahanının qəbulu. Kommisiyanın tərkibində olan üzvlər: professor M.R.Əfəndiyev, rektor Mehdi Əliyev, professor A.Hüseynov, B.Mirzəyev, M.Vəkilov. 1974-cü il. SMF inv. 581/9.
10. Fotoşəkil. Bəhram Mirzəyevin qardaşı Alış Rüstəm oğlu Mirzəyev. Universiteti bitirdikdən sonra Leninqradın mühasirəsi zamanı həlak olub. Şuşa SMF inv. 581 (əlavə 1)
11. Bilet. Tələbə B.Mirzəyev 1911-12-ci illərin payız semestrinə qədər Sankt-Peterburq Universitetinə girişi üçün (süræti) verilmuşdir. SMF inv. 581 (əlavə 2)



## MÜNDƏRİCAT

Xurşidbanu Natəvan (1832-1897)....7
Mir Möhsüm Nəvvab (1833-1918)....11
İbrahim Mehmandarov (1849-1934)....14
Kərim bəy Mehmandarov (1854-1929)....16
Nəcəf bəy Vəzirov (1854-1926)....19
Səfərəli bəy Vəlibəyov (1856-1902....21
Səməd bəy Mehmandarov (1856-1931)....23
Bəhram bəy Axundov (1861-1932)....24
Cabbar Qaryağdıoğlu (1861-1944)....28
Əbdüləli bəy Vəlibəyov....29
Firidun bəy Köçərli (1863-1920)....30
Əhməd bəy Ağaoğlu (1869-1939)....31
Əbdürrəhim bəy Haqverdiyev (1870-1933)....35
Rəsul bəy Tahirov (1871-?)....38
Süleyman Sani Axundov (1875–1939)....41
Cavad bəy Məlikyeqanov (1878 –1941)....43
Əli bəy Əlibəyov (1878-1964)....47
Xudadat bəy Məlik-Aslanov (1879-1935)....51
Qurban Pirimov (1880-1965)....54
Ələsgər bəy Bəylərbəyov (1882-1949)....58
Azad Əmirov (1883-1939)....61
Əhməd Ağdamski (1884-1954)....64
Üzeyir Hacıbəyli (1885-1948)....65
Rəşid bəy Mehmandarov (1885-1938)....77
Sara Vəzirova (1887-1961)....79
Cəmil Vəzirov (1888–1945)....81
Nəriman bəy Nərimanbəyov (1889–1937)....82
Seyid Şuşinski (1889-1965)....84
Ceyhun Hacıbəyli (1891-1962)....86
Əmir bəy Aslanov (1892-1942)....88
İsfəndiyar İbrahimbəyov (1892-?)....90
Qəmər İsgəndərova-Əmiraslanova (1893-1965)....96
Nüşabə Mehmandarova (1894-1965)....100
Bəhmən Mirzə Qacar (1894-1927)....106
Bülbül (1897-1961)....109
Sürəyyə Vəlibəyova (1897-1965)....113
Nigar Vəlibəyova (1897-?)....117
Mina Aslanova(1898-?)....120
Teymur Aslanov (1899-?)....123
Zülfüqar (Zülfi) Adıgözəlov (1898-1963)....124
Süleyman Rəhimov (1900-1983)....126
Xan Şuşinski (1901-1979)....127

Məhbubə xanım Mehmandarova-Mahmudbəyova (1902-1976)....130
Sürəyya Ağaoğlu (1903-1989)....133
Əli bəy Axundov (1906-1962)....136
Lətif Kərimov (1906-1991)....139
Əfrasiyab Bədəlbəyli (1907-1976)....142
Aliyə Rüstəmbəyova (1907-1942)....144
Süleyman Vəzirov (1910-1973)....146
Sürəyya Qacar (1910-1992)....152
Niyazi Tağızadə (Hacıbəyov) (1912–1984)....154
Barat Şəkinskaya (1914-1999)....162
Rəşid Behbudov (1915-1989)....164
Mehdi Məmmədov (1918-1985)....167
Soltan Hacıbəyov (1919-1974)....168
Süleyman Ələsgərov (1924-1999)....169
Adilə Namazova (1926-2020)....171
Xudu Məmmədov (1927–1988) ....173
Qədir Rüstəmov (1935-2011)....178
Füzuli Məmmədov (1935-2011)....182
Bəhram Mirzəyev(1881-1974)....186



## QƏBUL EDİLMİŞ İXTİSARLAR

EF - Etnoqrafiya fondu
FNMF - Foto-neqativ materialları fondu.
KMF – Köməkçi materialları fondu
KTFMF - Köməkçi tarixi fənn materialları fondu
HXƏF - Hədiyyələr və xatirə əşyaları fondu.
SMF – Sənədli mənbələr fondu.
SBF - Silah və Bayraqlar fondu.
XF – Xüsusi fond



Dizayner:

**Lalə Məmmədova**